# “Kooperasiya” elmi-praktiki jurnal

# Научно-практический журнал “Кооперация”

# Scientific-practical journal “Cooperation”

Jurnal 2005-ci ilin yanvar ayından çıxır.
№ 2 (69)-2023

**TƏSİSÇİ: AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ**

---

**Redaksiya heyəti:**

i.e.d., prof. Eldar QULİYEV **(baş redaktor)**
i.e.d., prof., Əməkdar elm xadimi, Bəyalı ATAŞOV **(baş redaktorun müavini)**
i.e.n., dos. Samirə MƏMMƏDOVA **(məsul redaktor)**
i.e.d., prof. AMEA-nın həqiqi üzvü Ziyad SƏMƏDZADƏ
i.e.d., prof. AMEA-nın müxbir üzvü Əli NURİYEV
i.e.d., prof. Eldar İBRAHİMOV
i.e.d., prof. Vüsal QASIMLI
i.e.d., prof. Zahid MƏMMƏDOV
i.e.d., prof. Rəsul BALAYEV
i.e.d., prof. Aygün QULİYEVA
i.e.d., prof. İslam İBRAHİMOV
i.e.d., prof. Şəfa ƏLİYEV
i.e.d., dos. Rəsmiyyə ABDULLAYEVA
i.e.d., dos. Möhübbət HÜSEYNOV
i.e.n., dos. Tahir ŞÜKÜROV

---

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 15 mart 2005-ci il tarixdə №1250 ilə qeydə alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 6 iyul 2012-ci il tarixli (protokol №10-R) qərarı ilə İqtisadiyyat elmləri üzrə “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı”na daxil edilmişdir.*

*Redaksiyanın ünvanı:*
AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 93.
tel: 562-25-43, 562-74-24, faks: (+99412) 5614134
e.mail: aku1964@mail.ru
info@aku.edu.az
web: www.aku.edu.az

Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.
Tirajı 300 ədəd

***Texniki redaktor: Əhməd ZİYƏDDİNOĞLU***
***Kompüter və dizayn: Hacı İSMAYILOV***

# MÜNDƏRİCAT

## I BÖLMƏ. TƏDQİQAT UNİVERSİTETLƏRİ HAQQINDA DÜŞÜNCƏLƏR

*Bəyalı Xanalı oğlu ATAŞOV, Zahid Fərrux oğlu MƏMMƏDOV*
Müasir universitetlərdə elmi fəaliyyət: ümumi problemlər və fərqli yanaşmalar............................ 5

## II BÖLMƏ. QLOBAL İQTİSADİYYAT, LOGİSTİKA, KLASTERLƏRİN GENİŞLƏNDİRİLMƏSİ VƏ İNNOVATİV İNKİŞAF

*Zəhra İsa qızı SƏMƏDOVA*
Qlobal iqtisadiyyat və logistik problemlər.........................................................................16

*Zibeydə Arif qızı ŞƏKƏRƏLİYEVA*
Müasir şəraitdə logistika sisteminin iqtisadiyyatın inkişafında rolunun artması...........................24

*Leyla Şükür qızı ATAKİŞİYEVA*
Turizm klasterinin inkişafı üzrə Azərbaycan hökumətinin marketinq fəaliyyətinin əsas istiqamətləri..........................................................................................................32

*İlahə Sultan qızı ƏLİBƏYLİ*
Azərbaycanda klasterləşmənin yaradacağı faydalar və mümkün iqtisadi çatışmazlıqlar..............39

*Fuad Məmməd oğlu BƏDİROV*
Emal sənayesinin inkişafı şəraitində innovasiya klasterlərinin yaradılması.................................47

*Yusif Ariz oğlu AĞAYEV*
İnnovativ inkişafın təmin edilməsində strateji baxış....................................................................54

## III BÖLMƏ. AQRAR-ƏRZAQ KOMPLEKSİNİN İNKİŞAF PROBLEMLƏRİ

*Fuad Zakir oğlu ABBASOV*
Aqrar-ərzaq məhsullarının və aqraq sahə müəssisələrinin rəqabətqabiliyyətlilik strategiyasının formalaşdırılmasında aqromarketinqin rolu.......................................................................62

*Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV*
İqtisadi rayonlarda aqrar sahənin inkişafının və reinteqrasiya problemlərinin nəzərı aspektləri....72

*Fərid Fikrət oğlu BABAYEV*
Azərbaycanda qida sənayesinin inkişafında mövcud olan problemlər və onların həlli yolları.....81

*Fuad Maarif oğlu İBRAHİMOV*
Aqrar-sənaye sahələrində investisiya-innovasiya siyasətinin prioritetləri..................................88

*Təhminə Paşa qızı BALACAYEVA*
Azərbaycanda emal sənayesinin inkişafının prioritet istiqamətləri..............................................97

## IV BÖLMƏ.
## İQTİSADİ RAYONLARIN İNKİŞAFI, MÜƏSSİSƏLƏRİN BİZNES STRATEGİYASI VƏ SƏNAYE KOMPLEKSLƏRİNİN İDARƏ EDİLMƏSİ

*Zümrüd Cümşüd qızı NƏSİBOVA*
Qlobal çağırışlar nəzərə alınmaqla iqtisadi rayonların inkişaf etdirilməsinin metodoloji xüsusiyyətləri........105

*Təbriz Sudeib oğlu ABBASOV*
Azərbaycanda postkonflikt dövründə iqtisadi təhlükəsizliyin təmin olunmasında iqtisadi artımın əhəmiyyəti........113

*Эльвин Рауль Тамерлан БУНЬЯДОВ, Лала Гамлет кызы ИСМАИЛОВА*
Основы реализации бизнес-стратегии на предприятиях........121

*Расим Ильхам оглы МАМЕДЗАДЕ, Фуад Агакерим оглы ГУЛИЕВ*
Типы стратегий, применяемых в бизнесе, и примеры из практики........129

*Башир Мугумаевич ЕЗНАЕВ, Севинч Сакит кызы ТАГИЗАДЕ*
Методы и анализ качества в управлении промышленным комплексом........138

*Рауль Эльханович ЯКУБОВ, Нармина Гамид кызы АББАСОВА*
Пути снижения отрицательных влияний на окружающую среду отраслей нефтегазовых предприятий........145

## V BÖLMƏ.
## MÜHASİBAT UÇOTU, AUDİT VƏ MALİYYƏ BAZARLARININ TƏHLİLİ MƏSƏLƏRİ

*Vüqar Muxtar oğlu MEHDİYEV*
Kommersiya müəssisələrində kapitalın rəqəmsal mühasibat uçotunun təşkili məsələləri........155

*Səadət Ramil qızı QULİYEVA*
Balans mənfəətinin təhlili........169

*Rəşad Arzuman oğlu MUSTAFAYEV*
Dövlətin fiskal siyasətinin effektivliyinin qiymətləndirilməsi........175

*Esmira HƏSƏNZADƏ*
İqtisadi təhlükəsizliyin təmin olunmasında büdcə və pul-kredit siyasətinin rolu........182

*Vüqar Pənah oğlu ƏHMƏDZADƏ, Süleyman Mehrəli oğlu QASIMOV*
Azərbaycanda gələcək dövrdə investisiya üçün perspektivli sahələr........190

*Cavid Ramiz oğlu MƏLİKLİ*
Azərbaycanda kənd təsərrüfatında daxili auditin rolunun qiymətləndirilməsi........196

*Günay Cahangir qızı ƏSƏDOVA*
İdarəetmə uçotunun təşkili problemləri və onların həlli yolları........204

*Türkan Hamlet qızı NƏBİYEVA*
Beynəlxalq maliyyə bazarlarının qloballaşması proseslərinin təhlili..........................................214

**VI BÖLMƏ.**
**İNSAN KAPİTALININ İDARƏ EDİLMƏSİ**

*Guo JİCHENG, Самира Керим кызы АКИМОВА*
Управление человеческим капиталом на промышленных предприятиях...........................222

*Nərmin Murad qızı HÜSEYNZADƏ*
Xidmət sektorunda insan resurslarının idarəetmə sisteminin nəzəri əsasları..............................230

# I BÖLMƏ.
# TƏDQİQAT UNİVERSİTETLƏRİ HAQQINDA DÜŞÜNCƏLƏR

**UOT: 378.001**

***Bəyalı Xanalı oğlu ATAŞOV***
***Azərbaycan Kooperasiya Universitetinin***
***elm və innovasiyalar üzrə prorektoru,***
***Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor.***
***bayali.atashov@mail.ru***

***Zahid Fərrux oğlu MƏMMƏDOV***
***Azərbaycan Dövlət İqtisad Universitetinin***
***elmi fəaliyyətin təşkili və idarəedilməsi***
***departamentinin direktoru,***
***Əməkdar müəllim, iqtisad elmləri doktoru, professor.***
***prof.zahid.mamed@mail.ru***

## MÜASİR UNİVERSİTETLƏRDƏ ELMİ FƏALİYYƏT: ÜMUMİ PROBLEMLƏR VƏ FƏRQLİ YANAŞMALAR

*Sadəlövh insanın uşağa verdiyi sual: ananı və ya atanı daha çox sevirsən? Mehriban və müqəddəs dəyərlərə malik ailələrdə sevgi bölünməz olduğu kimi, təhsil və elmin vəhdəti də sarsılmazdır.*

***Xülasə***

**Tədqiqatın məqsədi** sürətli dəyişikliklər və özəlliklə elmi biliklərin kommersialaşması şəraitində universitetlərin elmi fəaliyyət sahələrinə aid problemləri və fərqli yanaşmaları öyrənmək, araşdırmaq və bu proseslərdə ali təhsil müəssisəsinin elmi fəaliyyətində yeni idarəçilik modelinin xüsusi yerini tapmaqdan ibarətdir.

**Tədqiqatın metodologiyası.** Tədqiqat işində müşahidə, təhlil, sintez, müqayisə və məntiqi ümumiləşdirmə kimi iqtisadi üsullardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti.** Müasir universitetlərdə elmi fəaliyyətin səmərəliliyini təmin etmək üçün yanaşmaların və prioritetlərin müəyyənləşdirilməsinə, yeni fəaliyyət strategiyalarının işlənməsinə, bu istiqamətdə yeni layihə və proqramların işlənib hazırlanmasına töhvə verə bilər.

**Tədqiqatın nəticələri.** Ali məktəblərdə elmi fəaliyyət sistemində yeni yanaşmalar və idarəçilik modelinin tətbiqi ilə bağlı tövsiyələr verilmiş və təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** Müasir universitetlərdə elmi fəaliyyətin idarə edilməsi sistemində mövcud problemlər müzakirə olunur və onların həlli yolları ilə bağlı təkliflər irəli sürülür. Azərbaycan Respublikasının Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda ölkəmizdə yaxın gələcəkdə tədqiqat universitetlərinin yaradılması aktual vəzifə kimi yer almışdır. İrəli sürülən təklif və tövsiyələr bu vəzifə kontekstində işıqlandırılmışdır.

***Açar sözlər: universitetlər, tədqiqat universiteti, elmi tədqiqatlar, elmi məktəblər, mövcud problemlər.***

***Giriş***

Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu cəmiyyətin inkişafının əsas göstəricisi deyil, başlıcası, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, indiki mərhələdə universitetlərin elmi fəaliyyətinin ən zəruri vəzifələrindən biridir.

Qlobal dünya iqtisadiyyatının tərkib hissəsi nüfüzlü universitetlər beynəlxalq elmi - bilik xidmətləri bazarında ən mütərəqqi aparıcı istehsalçı oyunçular kimi çıxış edir. Bu kontekstdə dünya ölkələrinin hökumət nümayəndələri yaxşı başa düşürlər ki, onların qabacıl universitetlərinin bəşəriyyətin dünyanın elmi inkişafı prosesində avanqard sırada olması vacibdir.

Universitetlərdə bilik istehsal olunur və burada istehsal edilən biliklər ictimaiyyətin hüquqi, sosial-iqtisadi qərarlarına ciddi təsir göstərir. Məhz buna görə də, nüfüzlü universitetlərin sosial elm üzrə nümayəndələrini “düşüncə fabrikaları (think thanks) və ya “düşüncə polisi” olaraq adlandırırlar. Ali təhsil müəssisələrinin qarşısında duran vəzifələrdən biri də innovativ layihələrin həyata keçirilməsi üçün şərait və mühitin yaradılmasıdır. Bizneslə elmi ixtiraların kəsişməsi nöqtəsi kimi ən münbit və uyğun yer məhz universitetlər olmalıdır.

Müasir dövrdə istənilən ölkənin iqtisadi inkişafı, onun vətəndaşlarının firavan yaşayışı ilk növbədə elm və təhsilin inkişafı ilə bağlıdır. Bu nöqteyi nəzərdən ali təhsil sistemində fəaliyyət göstərən professor-müəllim heyəti, universitet rəhbərliyi, təhsil alanlar və təhsil verənlər qarşısında birmənalı şəkildə yeni çağırışlar dayanır.

Hal-hazırda ABŞ-da və bir sıra digər inkişaf etmiş ölkələrdə əksər aparıcı sənaye sahələrinin formalaşmasının 80%-ə qədəri universitetlərdə icad edilən kəşflər və yeniliklərlə bağlıdır.

Adətən, universitetlərdə ən yaxşı tədqiqatçılar çalışır və onlar beynəlxalq mühitdə baş verən hadisələrə və meyillərə, çağırışlara uyğun hərəkət edir və bunları nəzərə alırlar. Onlar yorulmadan dünya səviyyəli aktual problemlərin həllinə can atır və başqa elmi təşkilatlarla fəal şəkildə əməkdaşlıq edirlər. Bu qeyd olunanlar üç əsas həlledici funksiyada özünü göstərir:

1) yüksək ixtisaslı kadrların hazırlanması;
2) elmi tədqiqatların aparılması;
3) cəmiyyətin rifahının yaxşılaşdırması [1, s. 112].

Elmi tədqiqatlara gəlincə universitetlər ən qabaqcıl ideyalarla məşğul olur və müasir dövrün ən yaxşı kəşflərinə səy göstərir. Bununla da cəmiyyətin çağırışlarına adekvat cavab olaraq, mühüm vəzifələri yerinə yetirməklə bəşəriyyətin rifahını yaxşılaşdırırlar. Ona görə də universitetlər, ilk növbədə, öz elmi-tədqiqatları ilə seçilməlidir.

Xülasədə qeyd edildiyi kimi, Azərbaycan Respublikasının Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda ölkəmizdə yaxın gələcəkdə tədqiqat universitetlərinin yaradılması aktual bir vəzifə kimi qarşıya qoyulmuşdur [2]. “Tədqiqat universiteti – elmi fəaliyyətlə tədris prosesinin real inteqrasiyası əsasında elm və təhsil fəaliyyətini eyni dərəcədə səmərəli həyata keçirən, qabaqcıl elmi tədqiqatlar aparan, keyfiyyətli elm, tədris mühitini təmin edən, yüksək elmi-pedaqoji kadr potensialına malik olan ali təhsil müəssisəsi və ya elm-təhsil mərkəzləridir” [3]. Tədqiqat universitetləri insanlıq naminə qlobal problemlərin kompleks həlli istiqamətində töhfələr verir və bütün dünyada davamlı inkişafa, bəşəriyyətin inkişafına təkan verirlər.

Bu Strategiyaya və tədqiqat universitetlərinin fəaliyyətinə dair həm ölkəmizdəki, həm də beynəlxalq təcrübədən irəli gələn bəzi mülahizələrimizi hörmətli oxucularımızın diqqətinə çatdırırıq.

**Universitetlərin elmi fəaliyyətində umumi problemlər və aktual suallar**

Ali təhsil sistemində indiyədək akademik tədqiqatların nəticələri, fərdi elmi məhsuldarlıq, onların ölçülməsi və stimullaşdırılması haqqında dərin müzakirələr davam edir. Universitetlərdə elmi fəaliyyət mövzusu ən çox müzakirə edilən predmetlər sırasında yer alır və bu təqdimatda qoyulan suallara cavab axtarılır:

1. Bu gün ictimaiyyətin və iqtisadiyyatın ehtiyaclarına universitetlərin elmi-tədqiqatları cavab verirmi?

2. Fundamental milli universitetlərə (“milli Qarvardlar”) sahib olmadan, güclü milli iqtisadiyyat qurmaq mümkündürmü?

3. Universitet üçün həm tədqiqat, həm də tədris çöx əhəmiyyətlidir. Lakin nəzərə almaq lazımdır ki, bütün nüfüzlü tədqiqatçılar güclü pedaqoq ola bilmədiyi kimi bütün güclü pedaqoqlar da məhsuldar tədqiqatçı deyillərdir. Bu iki göstərici arasındaki balansı universitet tarazlaya bilirmi?

4. Nəşrlərin sayı çoxaldıqca, elmi tutumlu əsərlərin sayı azalmağa başladı.”Elmi nəşr inflyasiyası”nın səviyyəsinin elmi ictimaiyyətin akademik fəaliyyətinə mənfi təsiri nə qədərdir?

5. Dünyanın bir çox universitetlərinin nüfuzu olmayan lokal jurnalları mövcüddür. Belə ki, hətta tədqiqat universitetləri bir çox elmi sahə üzrə jurnallar nəşr edir,lakin onların impakt faktor göstəricisi çox aşağıdır. Bu baxımdan, jurnalların və onların redaksiyasına daxil olan məqalələrin sayının artması ekspert rəyi sistemində müəyyən gərginlik yaradırmı?

6. Araşdırmanın dərc edildiyi jurnalın, yoxsa tədqiqatçının təqdim etdiyi məqalənin elmi səviyyəsini qiymətləndirilmək gərəkdirmi? Və hansı meyarlarla?

7. Akademik etik qaydalarının tətbiqi üçün elmi ictimaiyyətə hansı vasitələr daha məğbuldur?

8. Elmin öyrənilməsində və elmi fəaliyyətin idarə edilməsi sistemində elmşünaslığın səmərəli istifadə imkanları və təsirləri haqqında izahlı anlayışın formalaşdırılması da tələb olunur. Elmşünaslıq elmi bir intizam, yoxsa elmi istiqamətdir?

**Müasir universitetlərin elmi fəaliyyət missiyası**

Müasir universitetin missiyası – sürətli dəyişikliklər şəraitində necə yaradıb – yaşamaq sualına cavab tapmaq, praqmatik yanaşmaları müəyyənləşdirmək, bazar iqtisadiyyatı şəraitində insan həyatının bütün sahələrinə aid problemləri öyrənmək, cəmiyyətin sosial təbəqələrinin sürətli diferensiasiyasını izləmək, araşdırmaq və bu proseslərdə ali təhsil müəssisəsinin xüsusi yerini tapmaqdan ibarətdir [4, s.5].

Avropa ölkələrində elmin ana mərkəzi universitetlər hesab edilir. Universitetlərə professor-müəllim heyətinin işə qəbulunda birinci göstərici kimi elmi fəaliyyət önə çəkilir. Bu halda müəllimlik fəaliyyəti arzu olunandır, lakin məcburi deyil. İlk növbədə alimin elmi çalışmalarının nəticələri diqqətə alınır. Ona görə ki, elm adamı universitetə qrant gətirir, məqalələri çap edilir, beynəlxalq və yerli mükafatlar qazandırır, öz fəaliyyətinə yeni-yeni tələbələr cəlb edir və nəticədə universitetlərin reytinqinə müsbət təsir göstərir.

Elmi tədqiqat fəaliyyəti olmayan müəllim, universitetin akademik məsləyindən kənarda qalır. Beləı ki, nəşr yoxdursa, deməli tədqiqatda yoxdur.

Modern universitetlər həm tədqiqat, həm də tədris prosesini həyata keçirən araşdırma müəssisələridir. Universitetlər öyrənmək arzusunda olanlara elmi bilikləri çatdıran və elmi araşdırmaları fasiləsiz davam etdirən, ümumbəşəri dəyər yaradan və aşılayan elmi mərkəzlərdir.

Cəmiyyətdə artıq birmənalı olaraq qəbul edilir ki, praktika ilə əlaqəsi olmayan elm, elm və praktika ilə əlaqəsi olmayan təhsil, təhsil və elmlə əlaqəsi olmayan biznes mümkün deyil.

Müasir universitetlərdə elmi fəaliyyət üç məqsəd naminə inkişaf edir:

1. Araşdırma yolu ilə bilik istehsal olunur. Universitet insan biliyinin gücü çərçivəsində olan hər şeylə maraqlanır və tədqiq edir;

2. Araşdırma tədris prosesində istifadə edilir və gələcək nəsilləri biliklərlə salihlandırır;

3. Cəmiyyətin və, xüsusulə də, əmək bazarının ehtiyacına uyğun səviyəli kadr və ya mütəxisslər hazırlayır.

Sovet dönəmində ali təhsil sisteminin qarşısında duran əsas məqsəd kimi dövlət strukturlarında və əmək bazarında tələb olunan kadr ehtiyacını qarşılamaq qəbul edilirdi. Qərb universitetlərində isə yuxarıda sadalanan məqsədlərlə bərabər prioritet olaraq universitetlərin elmi fəaliyyəti ön plana çəkilirdi. Bu mənada, uzun müddət postsovet universitetləri Qərb universitetlərindən elmi fəaliyyət sahəsində xeyli geridə qalmışdır.

Müasir universitet elmtutumlu texnologiyalar və innovasiyalar yaradır, sənaye ilə sıx əməkdaşlıq edir, biliklərə əsaslanan məhsul istehsalçısına çevrilir, əmək bazarı üçün yeni iş yerləri təklif edir, texnoparklar, startaplar vasitəsilə real bazarda biznes subyekti qismində iştirak edir.

Son onilliklərdə cəmiyyətdə və iqtisadiyyatda baş verən dəyişikliklər (xüsusən də postindustrial dövrdən informasiya dövrünə keçid) ali təhsil sisteminin funksiya və rolunun transformasiyasına öz töhfəsini vermişdir. Bu innovativ yeniliklər tədricən, getdikcə daha çox tətbiq olunmağa başlanıldı ki, akademik sektorun artan rolu təkcə əmək bazarını insan resursları ilə təmin etməkdə deyil, həm də sənaye sektoru ilə birgə tədqiqatlar, konsaltinq və patentləşdirmə yolu ilə bilik və texnologiyaların ötürülməsində özünü büruzə verdi.

İndi universitet sistemində tədqiqatın əhəmiyyətinə daha çox önəm verən yeni tendensiya universitetləri tədqiqat nəticələrinə görə bonuslar tətbiq etməyə məcbur edir. Bir çox universitetlərdə yeni əmək haqqı sistemi tətbiq edilir, bu da o deməkdir ki, müəllimin əmək haqqının bir hissəsi müxtəlif meyarlara və ölçülə bilən nailiyyətlərə (məsələn, tədqiqatın nəticələrinə) uyğun olaraq müəyyən edilir.

**Ali məktəblərdə professor – müəllim heyətinin elmi tədqiqat işinin təşkili**

Ali məktəb müəlliminin elmi fəaliyyəti tədris, elm və təcrübənin vəhdətini, elmin özünün idraki və dəyişmə funksiyasının reallaşmasını təmin edir. Bundan başqa, elmi iş müəllimin alim kimi şəxsi nüfuzunu artırır, tələbələrin müstəqil elmi araşdırma imkanlarını genişləndirir, tələbələrin ali təhsil müəssisəsində tədrisdən məmnunluq dərəcəsini artırır.

Ali təhsil müəssisəsinin professor-müəllim heyəti müasir dövrdə zəruri və aktual olan, mahiyyət etibarilə onun xidməti vəzifəsinə aid yeddi əsas funksiyasını qeyd etmək olar. Beləliklə, professor-müəllim heyəti aşağıdakılar qismində çıxış edir:

- biliklərin ötürülməsi və peşə səriştələrinin formalaşdırılması prosesinin subyekti və təşkilatçısı;
- elmi axtarışın, elmi-metodiki nəticələrə nail olmanın subyekti və tələbələrin elmi-tədiqat işlərinin təşkilatçısı;
- sosial-şəxsiyyət kompetensiyalarının, vətəndaş tərbiyəsinin, məzunların işlə təmin edilməyə və gələcək karyeraya hazırlığı prosesinin subyekti;
- elmi-istehsalat prosesinin, tələbələrin təcrübə yönümlü layihə fəaliyyətinin təşkili subyekti;
- universitetin bütün fəaliyyətinin beynəlmiləlləşdirilməsi subyekti;
- vahid nəticənin əldə olunmasına yönəlmiş vahid kollektivin sistemli, məqsədyönlü fəaliyyətinin subyekti;
- innovativ və ümumi yaradıcılıq prosesinin subyekti [5].

Lakin mötəbər tədris modelinə keçidlə əlaqədar olaraq ali təhsil müəssisəsi müəlliminin fəaliyyəti təkcə pedaqoji deyil, həm də elmi-pedaqoji fəaliyyətə çevrilir. Ali təhsil sistemi isə elm tutumlu prosesə keçid alır və tədqiqat fəaliyyətinə təkcə müəllimin hüququ kimi deyil, həm də onun peşə borcu kimi baxılır.

Müasir müəllim tədqiqat fəaliyyətinin subyekti kimi, aktual tədqiqatın aparılması imkanını üzə çıxarmağı, dəqiq və reallaşdırıla bilən tədqiqat vəzifələrini qoymağı, tədqiqatı səmərəli surətdə planlaşdırmağı, maraqlı hipotezaları irəli sürməyi, tədqiqat işini keyfiyyətlə aparmağı və nəticələri operativ surətdə qiymətləndirməyi və təhlil etməyi bacarmalıdır.

Müəllim fəaliyyətinin səmərəlilik göstəricilərinə təsir edən amillər aşağıdakılardır:

- elmi nəşrlərin sayı;
- beynəlxalq məlumat bazalarında sitat gətirilməsi;
- monoqrafiya, tədris vəsaitlərinin nəşri ;
- qazanılmış qrantların sayı;
- nüfüzlü elmi tədbirlərdə iştirakı;
- patentlərin kommersialaşması [6].

Unutmayaq ki, əsl müəllim olmaq şərəfli, müqəddəs, eyni zamanda mürəkkəb və çətin peşədir. Hər kəs səbr, dözüm tələb edən, xoş məqama can atan bu peşənin öhdəsindən layiqincə gələ bilməz. Mübaliğəsiz demək olar ki, bütün istedadlı ziyalılarımız kimi təmiz əqidəli, bacarıqlı, kamil müəllimlərimiz də cəmiyyətimizin intellektual potensialını təşkil edir, onu zaman – zaman püxtələşdirir və milli elitamızın formalaşdırılmasında həlledici rol oynayır.

**Elmi məktəblər - təşkil edilən və idarə olunan elmi strukturlardır.**

Elmi məktəblər tədqiqat proqramı, vahid düşüncə tərzi ilə birləşdirilən və bir qayda olaraq, görkəmli alimlərin rəhbərlik etdiyi elmi strukturlardır. Elmi məktəb idrak prosesini və biliyin ötürülməsi prosesini birləşdirir. Elmi məktəblərdə ünsiyyətin və qarşılıqlı əlaqənin təşkili formaları elmi seminarlar, kollokviumlardır. Elmi məktəbi tələbələrsiz təsəvvür etmək mümkün deyil. Müəllim məharəti, tədqiqat sənətini dərk etməyə kömək edir, o elmə “bələdçi”dir. Elmi məktəbin mühüm göstəricisi onun yetirmələri olan elmi dərəcə almış tələbələridir.

Eyni zamanda, elmi məktəb elm aləmində formalaşmış ideyalara uyğun olaraq, aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:

- elmi ictimaiyyətdə hörmət qazanmalıdır;
- yüksək səviyyəli tədqiqatları və onların orijinallığı ilə fərqlənməlidir;
- elmi nüfuzunun artırılmasına daim diqqət yetirməlidir;
- elmi ənənələrin etibarlı davamçısı olmalıdır;
- nəsillərin davamlılığına töhvə verməlidir.

Elmi məktəbin uğurlu fəaliyyət göstərməsinin ilkin şərti vicdanlı və öz peşəsinin vurğunu olan alimlərin yetişdirilməsidir [7].

**Akademik fəaliyyətin qiymətləndirilməsi sistemləri**

Nüfuzlu Universitetlərdə “müəllimlərin qiymətləndirmə sitemi” tətbiq edilir və bu sistemin 3 əsas funksiyası mövcuddur:

1. İnformasiya funksiyası – tədris kurslarının keyfiyyətini xarakterizə edir, tədris prossesi, tədris kursları və tələbələrin ixtisaslaşması mövzusunda dolğun məlumat hazırlanır və bu isə öz növbəsində rektorata optimal qərarların hazırlanmasında yardımçı olur. Əgər rektorun (elmi şuranın) fikrincə, proqram və ya kafedra universitet üçün kifayət qədər əhəmiyyətli deyilsə və investisiya qoyuluşunu doğrultmursa, onun fəaliyyətinin dayandırılması barədə qərar qəbul edilə bilər. Bu halda bağlanma qərarı pedaqoji kollektivin kəskin etirazına səbəb olmaz.
2. Motivasiya funksiyası – tələbələr tərəfindən müəllimlərin qiymətləndirilməsi haqqında açıq informasiya məlumatı müəllimlərin öz üzərində daha da məsuliyyətlə çalışmalarını və dərsə çox hazırlıqlı gəlmələrini məcbur edir;
3. Stimullaşdırıcı funksiya isə ali məktəbin rəhbərliyi ilə müəllimlər arasında bağlanacaq müqavilə şərtlərinə təsir göstərir.

Avropa Birliyinin əksər ölkələri ali təhsil müəssisələrinin fəaliyyətinin səmərəliliyinin nəzərə alınması əsasında qurulan tədiqatların və layihələrin maliyyələşdirilməsi, yəni fəaliyyətin səmərəliliyi əsasında maliyyələşdirmə sistemlərinə (Research Performance Based Funding, SƏM) keçir. Bu sistemlər ETTLİ-nə (elmi-tədqiqat və təcrübi-layihə işləri) büdcə vəsaitlərinin xərclənməsinin səmərələliyinə nəzarət elementlərinin hələ maliyyənin elmi təşkilatlar arasında bölüşdürülməsi mərhələsində tətbiq edilməsini nəzərdə tutur, ən yaxşı səmərəlilik göstəriciləri olan qurumlar mütənasib olaraq daha çox dövlət subsidiyası alır.

Təşkilatların elmi səmərəliliyinin ən çox istifadə olunan göstəriciləri arasında aşağıdakıları qeyd etmək olar:

- əməkdaşlara verilən elmi dərəcələrin sayı;
- bibliometrik göstəricilər;
- elmi təşkilat tərəfindən biznes-partnyorlardan cəlb edilən ETİ-nə büdcədənkənar vəsaitlərin məbləği;
- elmi təşkilatın müsabiqə əsasında aldığı layihə maliyyələşdirməsi;
- qeydiyyata alınmış patentlərin sayı və patentlərin kommersiyalaşması;
- universitetlərin beynəlxalq tədqiqat layihələrində iştirakı.

**Universitetlərin yeni missiyası: kommersiyalaşma trendi**

Elmin təşkilati formalarının transformasiyasını özündə əks etdirən “akademik kapitalizm” anlayışı 1990-cı illərdə elmin sosiologiyası və iqtisadiyyatı sahəsində tədqiqatlara daxil edilmişdir.

Kommersiya sektoruna diqqətin yönəldilməsi universitetlərə nəinki əsas funksiyalarını (tədris

və tədqiqat) genişləndirməyə, həm də öz inkişafı üçün yeni imkanlar açmağa təkan verdi. Üçüncü missiyanın (kommersiyalaşmanın) həyata keçirilməsini və onun inkişafını elan edən universitetlər sahibkarlıq (ingiliscə "entrepreneurial"), daha sonra isə yeni flaqman (İngiliscə "new flagship") adlandırılmağa başladı. Bununla belə, universitetlərin daha çox sahibkarlıq fəaliyyətinə və kommersiyalaşmasına doğru meyillənməsi, habelə onların patent formasındakı inkişaflarını nəzərə alaraq, bu universitetlərin cəmiyyətə xidmət göstərməsi humanist ideyasının (qeyri-məhsuldarlığın) müzakirəsini gücləndirdi.

ABŞ-da universitetlərin sahibkarlıq fəaliyyətini "akademik kapitalizm" adlandırıblar ki, onun əsas məqsədi elmi tədqiqatların və patentlərin mənfəət üçün əmtəəyə çevrilməsidir [8, s.30].

Universitetin üçüncü missiyası çoxölçülü konsepsiyadır və hazırda onun vahid razılaşdırılmış tərifi yoxdur, çünki bu, bir çox amillərdən asılıdır:

1) universitetin xüsusiyyətlərindən;
2) universitetin özü üçün müəyyən etdiyi prioritetlərdən;
3) kontekstdən, yəni məsələyə hansı bucaqdan yanaşılmasından;
4) universitetin yerləşdiyi ölkədən.

Amma Azərbaycan universitetlərinin üçüncü missiyası başlanğıc mərhələsindədir və tədricən özünəməxsus xüsusiyyətlərini əldə edir.

Milli Məclisinin Elm və Təhsil Komitəsinin hazırladığı və 2023-cü ilin yaz sessiyasında müzakirəyə çıxarılmış Ali Təhsil haqqında Azərbaycan Respublikası Qanun layihəsinin "Ali təhsil müəssisələrində elmi-tədqiqat və innovasiyalar" adlı VII-ci fəslində düzgün olaraq göstərilir (bənd 40.4): "İnnovasiya fəaliyyətinin həyata keçirilməsi və innovasiyaların inkişafına və elmi, bədii tədqiqatların nəticələrinin kommersiyalaşdırılmasına infrastruktur dəstəyinin təmin edilməsi məqsədilə ali təhsil müəssisələrinin tərkibində innovasiya mərkəzləri, texnologiyaların transferi mərkəzləri, biznes və texnoloji inkubatorlar, elmi-texnoloji parklar və digər struktur bölmələr yaradıla bilər. Magistratura və doktorantura təhsil proqramlarının müvafiq hissəsi bu struktur bölmələrdə həyata keçirilə bilər" [9, s.36]. Mütəxəssislərin və təhsil ekspertlərinin iştirakı ilə hazırlanan və yaxın vaxtlarda qəbul edilib icrası bütün səviyyələrdə təmin ediləcək bu Qanun ali təhsil sistemindəki boşluqların çoxunu aradan qaldıracaq, onun beynəlxalq reytingini artıracaq, ölkəmizin qabaqcıl təhsil müəssisələrinin tədqiqat universitetləri statusu qazanmalarına real hüquqi baza və münbit şərait yaradacaqdır.

**Elmi nəticələrin qiymətləndirilməsinə yanaşmaların təkamülü**

Onilliklər ərzində akademik tədqiqatların nəticələri, fərdi elmi məhsuldarlıq, onların ölçülməsi və stimullaşdırılması haqqında müzakirələr davam edir. Əgər elmi nəticənin qiymətləndirilməsinə yanaşmaların təkamülünü xronoloji şəkildə təsvir etməyə çalışsaq, onda bizim nöqteyi-nəzərimizdən o, üç mərhələyə bölünəcək.

1. İlkin mərhələ (XX əsrin ortalarına qədər). Elmi nəşrlər hesabına tədqiqatçılar bir- birinin elmi fəaliyyətinin təqib etmə imkanı əldə etdilər.

2. İkinci mərhələ (1950-1990-cı illər). Kütləvi ali təhsilin inkişafı və elmi jurnalların sayının artması ilə sadə biblioqrafik göstəricilərin kəmiyyət təhlilinə əsaslanan bibliometrik üsullar meydana çıxdı.

3. Üçüncü mərhələ (2000-ci illərdən indiyədək). İnformasiya texnologiyalarının inkişafı və onlara marağın artması elmi nəticənin və elmşünaslığın qiymətləndirilməsi imkanlarını genişləndirmişdir. Beləliklə, sitat indeksləri meydana çıxdı - sitat gətirilən və istinad edilən nəşrləri ehtiva edən indekslər və ya verilənlər bazası (məsələn, e-kitabxana platformasında Web of Science, Scopus, RSCI istinad verilənlər bazaları); keyfiyyət qiymətləndirmələri ilə əlavə edilmiş(alim, təşkilat və ya jurnal) sitatın kəmiyyət göstəricisi (məsələn, beynəlxalq məlumat bazalarında indeksləşdirilmiş birinci və ikinci kvartillərin elmi nəşrlərindəki məqalələrin sayı, özünə istinadsız H-indeksi); nəşr reytinqləri və bibliometrik faktların sosioloji şərhi, böyük verilənlərlə işləməyə əsaslanan metodlar və s. inkişaf etdilər. Aydındır ki, elmin yüksək keyfiyyətli və səmərəli idarə olunması çoxlu sayda şərtlərə əməl olunmasını nəzərdə tutur, bilik və peşəkarlıq tələb edir.

Milli elmi sistem kimi mürəkkəb bir obyektin idarə edilməsi elmin mahiyyətini və xüsusiyyətlərini dərindən dərk etməyi, onun daimi araşdırılması və monitorinqi, elmin inkişafının tarixi təcrübəsi və onun müasir sosial kontekstlə əlaqəsi, aydın prinsipləri və məqsədləri olan hərtərəfli düşünülmüş elmi siyasət, elmi inkişafı stimullaşdıran normativ hüquqi baza, peşəkar mütəxəssislər tərəfindən qurulan və komplektləşdirilmiş elmi idarəetmə orqanları sistemi, müasir alətlərin və idarəetmə mexanizmlərinin geniş arsenalından istifadə etmək zərurətini meydana çıxarır.

İqtisadi-təşkilati elmlərə aid olan idarəetmə elminin predmetini ictimai istehsal və birgə fəaliyyət prosesində insanlar arasında yaranan mürəkkəb qarşılıqlı münasibətlərin qanunauyğunluqlarının öyrənilməsi və istiqamətləndirilməsi təşkil edir. Respublikamızda idarəetmə məsələlərinə, o cümlədən elmin özünün idarə edilməsinə aid elm hələlik real idarəetmə təcrübəsilə ayaqlaşmır, ondan geri qalır. Yeri gəlmişkən, ümumiyyətlə elmlə istehsalat arasındakı daim mövcud olan uyğunsuzluğu nəzərdə tutan dünya şöhrətli akademikimiz, hamımızın dərin hörmət bəslədiyimiz mərhum Azad Mirzəcanzadə belə bir sərrast ifadə işlətmişdir: “At qabaqda qaçır, bilik isə heç cür ona çata bilmir” [10, s.13, 17].

Arzu olunur ki, elmin idarəedilməsi istiqamətdə çox iş görən Milli Elmlər Akademiyası, Elm və Təhsil Nazirliyi ilə yanaşı, universitetlər səviyyəsində də bu prosesə istedadlı gənc alimlər daha geniş cəlb edilsinlər, xüsusi biliklərlə yanaşı yaşlı nəsil tərəfindən onlara idarəetmə elminin üsul və vasitələri də ətraflı aşılansın. Çünki buğünün gənc alimləri sabahın elm və istehsalat təşkilatçıları, həmin sahələrin nüfuzlu liderləri olacaqlar.

Müasir dövrdə elmi fəaliyyətin qiymətləndirilməsi və idarə edilməsi proseslərini həyata keçirən inzibatçılar, əsasən nəşr sayı və elmi jurnallarda istinad edilmələrindən istifadə edirlər. Bizim fikrimzicə, elmi işçilərin və kollektivlərin fəaliyyətinin qiymətləndirilməsi çox ciddi ekspertizaların nəticəsi əsasında aparılmalı və elmi nəticələrin ictimai müzakirəsindən sonra həyata keçirilməlidir.

Cell, Nature və Science kimi aparıcı elmi jurnallarda dərc olunmaq hər bir alimin başlıca məqsədidir və bu jurnallarda dərcolunma yeni qrantlar, vəzifələr vəd edir, habelə redaksiya heyətlərinə üzvlüyə yol açır. Bu nüfuzlu jurnallarda dərc olunmaqla elmi karyeranın uğurları təmin edilir. Bundan əlavə, alimlər başa düşürlər ki, bu qəbildən olan jurnallarda bir dəfə məqalə dərc etdirməklə gələcəkdə dünyanın aparıcı jurnallarında nəşr olunmaq şansı əldə edirlər.

Lakin, elmi jurnallarda dərc olunanlar və istinadların sayına görə hesablanan elmmetrik göstəricilər yalnız məlumat – yardımçı rolunu oynaya bilər. Məsələn, 1995-ci ildə fiziologiya və tibb üzrə Nobel mükafatı almış Ed Lyus çox az məqalə dərc etdirmiş və aşağı H–indeksə malik olmuşdur.

Beləliklə, elmşünaslıq elmi məhsuldarlığın qiymətləndirilməsinin 4 komponentini ayırır:

1) əhəmiyyəti/təsiri («impact» – sitatların sayı);
2) keyfiyyət (peer-review ilə);
3) əhəmiyyəti (kifayət qədər vaxt keçməyincə aydın olmaya bilər);
4) kəmiyyət (dərc olunan məqalələrin sayı təsirinə görə yüksək korrelyasiyaya meyllidir).

**Tələbələrin elmi-tədqiqat fəaliyyəti**

Elmi-tədqiqat işi tədris prosesinin ən çətin komponentlərindən biri olaraq, tələbələrin motivasiya sferasını, tədqiqat prosesi üçün zəruri olan elmi biliklərin metod və formalarını özündə cəmləşdirən və elmi rəhbəri-müəllimin iştirakı ilə həyata keçirilən kompleks tədris fəaliyyətinin tərkib hissəsidir.

Tədqiqat təkcə xüsusi istedadlı və bacarıqlı tələbələrin davamlı şəkildə işə cəlb edilməsinə imkan verməməli, həm də hər bir tələbənin yaradıcılıq prosesində bu və ya digər şəkildə iştirakına kömək etməlidir.

Təhsilin bütün pillələrində tələbələrə elmi biliyin mənimsənilməsi, təcrübələrin planlaşdırılması və təşkili, təcrübə nəticəsində əldə edilən məlumatların emalı və ümumiləşdirilməsi, patent tədqiqatlarının aparılması, elmi-texniki işlərin tətbiqi kimi məsələlərin açıqlanması və aşılanması zəruridir.

Tələbələrin elmi işdə iştirakına motivasiya bütün problemləri həll etməyə imkan verir:

- elmi-tədqiqat bacarıqlarına yiyələnən tələbələrin daha yaxşı hazırlanmasına kömək edir;
- tələbə yaradıcı fəaliyyət sahəsini mənimsəyir;
- səriştəli mütəxəssislər hazırlamaqda maraqlı olan sosial mühitdə tələbə daha yüksək status qazanır;

Elmi tədqiqat yolu ilə tələbələr bir neçə "həyat bacarığı" əldə edir: mentorluq, komandada işləmək təcrübəsi, metodologiyanı dərindən başa düşmək, mütərəqqi öyrənmə bacarıqları, vaxtın idarə edilməsinin təşkili üzrə təcrübə, özünə inamın artması, ünsiyyət bacarıqlarının əldə edilməsi.

Bütün bu yanaşmalar tələbələrin elmi təfəkkürünün inkişafına, onlarda yeni ideyaların yaranmasına təkan verir.

Elm adamlarının yetişdirilməsində elmi rəhbərlər mühüm rol oynayır. Təəssüf ki, onların bir qismi bu prosesə formal, laqeyd yanaşır, elmi məlumat tapmaqda öz bilik və bacarıqlarını tələbələrə zəif ötürür.

**Ali təhsil sisteminin elmi fəaliyyətində mövcüd problemlərin müzakirəsi**

Sosial-humanitar elmlər sahəsində elmi- tədqiqat işlərinin keyfiyyət göstəricələrinin artımı məsələsi universitetlər qarşısında mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Lakin nəticə etibarilə əsaslı büdcə mexanizmlərinin tətbiqində olan fərqli yanaşmalar bu prosesi hələlik düzgün qurmağa imkan vermir.

Azərbaycan Universitetlərinin elmi fəaliyyətində aşağıdakı problemlərin mövcudlüğu davam edir:

1. Elmi-tədqiqatların nəticələri tədris prosesinə zəif inteqrasiya olunur.
2. Universitetlərdə elmi – pedaqoji kadr potensialı və hazırlığı müasir tələblərə yetərincə cavab vermir.
3. Universitetlərdə müəllimlik missiyası üstünlük təşkil edir. Ali təhsil müəssisələrində vəzifələrin strukturu dəyişməz olaraq qalır, yəni fəlsəfə doktoru dərəcəsi qazanmayan müəllimlər pensiya yaşınadək baş müəllim kimi işləyə bilir və əmək pensiyasına bu rütbədə çıxır.
4. Akademik bazarın fəaliyyət göstərməməsi rəqabət təzyiqinin olmamasına şərait yaradır.
5. Beynəlxalq elmi bazalardan qeydiyyatdan keçmiş dünya elmi jurnallarının təxminən yarısı Amerika nəşrləridir. İkinci yerdə Böyük Britaniya (711 min nəşr), üçüncü yerdə Yaponiya (686 min nəşr), dördüncü yerdə Almaniya (632 min nəşr) qərarlaşıb. Yuxarıda göstərilən rəqəmlərdən göründüyü kimi, bu iyerarxiyada Amerika və İngilis nəşrləri birinci yerdədirlər və lazım olduğu kimi, ilk növbədə öz alimlərinin nəşrlərini yerləşdirirlər. Anglo-Sakson dünyasından kənarda işləyən alim, yalnız mükəmməl ingilis dilində məqalə yazsa və ya mükəmməl tərcüməçiyə (kifayət qədər yüksək məbləğə) sifariş verərsə, Amerika və ya ingilis nəşrində dərc olunacağını gözləyə bilər.

İngilis dilinin üstünlüyü müəyyən şəraitdə milli alimlərin yüksək h-indeksinə malik olmasını çətinləşdirən başqa bir maneəyə çevrilir.

6. Tədqiqat və inkişafa xərclərin ÜDM-də payı Böyük Britaniyada 1,7%, Hollandiyada 2,0%, Finlandiyada 2,8%, Aİ üzrə orta göstərici isə 2,1% təşkil edir. Bundan əlavə, bu ölkələrin aparıcı universitetləri üç ən nüfuzlu dünya universitetləri reytinqində yer almışlar: QS World University Ratings, Times Higher Education World University Rankings, Academic Ranking of World Universities. Qeyd etmək lazımdır ki, Qərbi Avropanın əksər ölkələrində elmi-tədqiqat və ilk növbədə fundamental tədqiqatlar tarixən universitetlərdə cəmləşdiyi halda, Azərbaycanda uzun müddət bu sahədə Milli Elmlər Akademiyasının institutları fəaliyyət göstərir.
7. Geniş miqyaslı problemlərən biri də, elmi məqalələrə istinad məsələsidir, keyfiyyət göstəriciləri yerinə, kəmiyyət göstəricilərinə üstünlük verilir. Akademik ictimaiyyətin əksər nümayəndələri artıq bu fikirdədirlər ki, dünyada elmi nəşrlərin keyfiyyəti əvəzinə, onların miqdarına daha çox üstünlük verilməkdədir. Belə ki, dərsdemə yükləri daim artır, tələbələrin sayı çoxalır, əksər müəllimlər üçün isə elmi tədqiqatlar ön plana çıxır və tədris ikinci dərəcəli işə çevrilir. Məlumdur ki, tələb təklifi formalaşdırır, buna görə də çoxlu sayda oxunmayan və kütləvi nəşrlər üçün nəzərdə

tutulan jurnalların sayı artmaqdadır, bu jurnalların əsas vəzifəsi dərcedilmə fəallığını təmin etməkdir. Bununla yanaşı, daim dərc olunma tələbi akademik cəmiyyətin fərdiləşdirilməsinə aparır: ali təhsil müəssisələri akademik kommissiyalara və gənc əməkdaşlara, kömək tələb olunan sahələrə az vaxt sərf edirlər. Belə ki, onlar üçün əsas prioritet daha çox dərc olunmaq və xarici qrantlar əldə etməkdir, bu halda karyera artımı mümkün olur. Buna görə də gənc alimlər özlərinin akademik karyerasının başlanğıcında belə bir fikri özləri üçün qəbul edirlər ki, onların əsas məqsəd və vəzifəsi elmi həqiqəti axtarmaq, elmin dərinliklərinə baş vurmaq deyil, daha çox dərc olunmaqdır. Bu isə onların peşə intizamına, bir alim kimi keyfiyyət standartlarına və tədqiqatçı davranışlarına mənfi təsir göstərə bilir.

**Nəticə və təkliflər**

1. Universitetlərin elmi fəaliyyətində zaman – zaman audit keçirilməsi və auditin nəticəsi olaraq elmi-tədqiqat fəaliyyəti olmayan kafedraların fəaliyyətinə yenidən baxılması zərurəti meydana çıxır.
2. Humanitar fənnlərin tədrisində ciddi dəyişikliklərə gedilməsi məqsədəuyğundur. Tələbələrə uzun və monoton mühazirə kursları yerinə, onları professorların tədqiqat fəaliyyətinə cəlb etmək və gələcəkdə onlarda elmi tədqiqata stimul yaratmaq olar. Bundan başqa, keçərsiz və abstrakt nəzəri biliklərlə tələbələri yormaq yerinə, onlara həyatda keçərli nəzəri-praktiki bilikləri öyrətmək və anlatmaq gərəkdir, çünki lazımsız və istifadə edilməyən bilikləri izah etmək həm vaxt itkisi, həm də yorucu bir prosesdir. Ümumiyyətlə, ictimai elmlər məlum üçbucağa söykənir, «nəzəriyyə, ideologiya və texnologiya» prinsiplərinə əsaslandıqda cəmiyyətdə daha faydalı və keçərli olur.
3. Tədris planları və tədris proqramları daim inkişafda olan elmin tələblərinə uyğun olaraq tərtib edilməlidir.
4. Beynalxalq nüfüzlü jurnallarda tələb edilən IMRAD modelini (İntroduction – giriş, methods – metod, Results – nəticələr və discussion - müzakirə) universitetlərin elmi nəşrlərində tədricən tətbiqi vacibdir.
5. Azərbaycan elminin fəaliyyətini gücləndirmək və alimlərimizi beynəlxalq elm ictimaiyyətinə tanıtdırmaq məqsədilə ixtisaslaşdırılmış Elmi İstinad İnstitutunun təsis olunmasını məqsədəuyğun hesab edirik.
6. Fəlsəfə doktoru hazırlığı pilləsində "elmmetrikanın əsasları" fənninin tədirsinə başlanması arzuolunandır, çünki elmi araşdırma texnika və texnologiyasını bilmədən dissertasiya yazmaq mümkün deyil.
7. "Elmi tədqiqatın əsasları" fənninin magistratura səviyyəsində tədris olunması məsələsinə də yaxın illərdə baxmaq olar.
8. Elmi kommunikasiya prosesində arzu olunmayan məqamlar diqqət çəkir. Əksəriyyətinin elmi dəyəri az olan və ya heç olmayan konfransların təşkili və məqalələrin kütləvi şəkildə yazılması, akademik etikadan asılı olmayaraq nəyin bahasına olursa olsun nəşr etmək, böyük transmilli nəşriyyatların hərisliyi və onlarla əlbir olan "naşirlər" şəbəkəsinin böyüməsi — bütün bunlar hazırkı elmi fəaliyyətin inkişafında çaşqınlığa səbəb olur.

Yekunda qeyd etmək olatr ki, 2030-ci ildə Azərbaycanı beynəlxalq aləmdə iqtisadi və siyasi cəhətdən inkişaf etmiş, rəqabətqabiliyyətli ölkə kimi görmək əsas hədəfimizdir. Göstərilən məqsədə çatmaq üçün digər prioritet vəzifələrin həlli ilə yanaşı güclü elmi- tədqiqat fəaliyyəti hesabına yüksək bilik bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrimizin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlılığı təmin olunmalıdır. Bu isə Azərbaycanda yeni bilik və texnologiyaların mənimsənilməsini, istifadəsini və yayılmasını təmin edən milli elmi-innovasiya universitetlərinin formalaşmasını tələb edir.

**ƏDƏBİYYAT**


1. Мамедов З.Ф. Современный университет: новые вызовы и сложные задачи // Экономика и Управление: проблемы, решения. Том IV, 2019, с. 110-117.

2. Azərbaycan Respublikasının Prezidenti 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”. www.prezident.az
3. Elm haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəh., 14 iyun 2016 – cı il. (birinci fəsil, maddə 1.0.37)
4. Zahid Fərrux oğlu Məmmədov, Bəyalı Xanalı oğlu Ataşov. Müasir universitetlərdə elmi-pedaqoji fəaliyyət: yeni çağırışlar və prioritet vəzifələr // “Kooperasiya” elmi-praktiki jurnal №1(64)-2022, s. 5-19
5. Как повысить эффективность управления исследованиями и инновациями в университетах // Университетское управление: практика и анализ. - 2018; 22(5); с. 5–8
6. Ниязова М. В. 2021. Индивидуальная научная продуктивность// Университетское управление: практика и анализ. 2021/ 25(2); с. 114–122
7. Красикова Татьяна Юрьевна. Научная школа как точка роста научного знания // Университетское управление: практика и анализ. -Том 22, №1, 2018
8. Дремова О. В. Третья миссия университетов в России // Университетское управление: практика и анализ. - 2022, 26(2); с. 27–37
9. Ali təhsil haqqında Azərbaycan Respublikasının Qanun layihəsi. Milli Məclisin müvafiq komitəsində 2023 – cü il mart ayında müzakirəyə çıxarılmış variantı, səh.36.
10. Bəyalı Xanalı oğlu Ataşov. İdarəetmə elmi və rəhbər əməyi. Elmi – təcrübi tezislər toplusu. Bakı, “Elm” nəşriyyatı, 2011, 180 s.

***Байали Ханалы оглы АТАШОВ***
***Проректор по науке и инновациям***
***Азербайджанского Университета Кооперации.***
***Заслуженный деятель науки,***
***доктор экономических наук, профессор***
***bayali.atashov@mail.ru***

***Захид Фаррух МАМЕДОВ***
***Директор департамента «Организация и управление научной деятельностью».***
***Азербайджанского Государственного Экономического Университета.***
***Заслуженный педагог, доктор экономических наук, профессор***

## Научная деятельность в современных университетах: общие проблемы и разные подходы

***Резюме***

**Цель исследования** - изучить и исследовать проблемы и разные подходы, относящиеся к сферам научной деятельности университетов в сфере стремительных изменений, особенно в условиях коммерциализации научных знаний, и найти в этих процессах особое место новой модели управления научной деятельностью в ВУЗах.

**Методология исследования.** В исследовательской работе использовались такие экономические методы, как наблюдение, анализ, синтез сравнение и логическое обобщение.

**Прикладное значение исследования.** Для обеспечения эффективности научной деятельности в современных университетах необходимо способствовать определению подходов и приоритетов, разработке новых стратегий деятельности.

**Результаты исследования**. Даны рекомендации и предложения по внедрению новых подходов и моделей управления в системе научной деятельности ВУЗов.

**Оригинальность и научная новизна исследования.** Обсуждаются актуальные проблемы в системе управления научной деятельностью в современных университетах и выд-

вигаются предложения по их решению. В «Стратегии социально-экономического развития Азербайджанской Республики на 2022-2026 годы», утвержденной Указом Президента Азербайджанской Республики от 22 июля 2022 года, создание исследовательских университетов в нашей стране в ближайшие годы является актуальной задачей. Выдвинутые предложения и рекомендации освещены в контексте этой задачи.

***Ключевые слова: университеты, исследовательский университет, научные исследования, научные школы, существующие проблемы.***

***Beyali Khanali ogly ATASHOV***
***Azerbaijan University of Cooperation***
***vice-rector for science and innovation.***
***Honored Scientist doctor of economics, professor***
***bayali.atashov@mail.ru***

***Zahid Farrukh MAMEDOV***
***Azerbaijan State Economic University***
***director of the department "organization and management of scientific activity"***
***Honored teacher, doctor of economic sciences, professor***

## *Scientific activity in modern universities: common problems and different approaches*

***Summary***

The purpose of the study is to study and investigate problems and different approaches related to the spheres of scientific activity of universities in the conditions of rapid changes, especially in the conditions of commercialization of scientific knowledge, and to find a special place in these processes for a new model of management in the scientific activity of the university.

**Research methodology.** Such economic methods as observation, analysis, synthesis, comparison and logical generalization.

**Practical meaning of research.** To ensure the effectiveness of scientific activity in modern universities, it is necessary to contribute to the determination of approaches and priorities, the development of new activity strategies.

**Results of research.** These are recommendations and proposals for the implementation of new approaches and management models in the system of scientific activity of universities.

**Originality and scientific novelty of research.** Actual problems in the management system of scientific activity in modern universities are discussed and proposals for their solution are put forward. It is known that in the "Strategy of social and economic development of the Republic of Azerbaijan for 2022-2026", approved by the Decree of the President of the Republic of Azerbaijan on July 22, 2022, the creation of research universities in our country in the coming years is an urgent task.

***Key words: university, research university, scientific studies, scientific schools, existing problems.***

# II BÖLMƏ.
# QLOBAL İQTİSADİYYAT, LOGİSTİKA, KLASTERLƏRİN GENİŞLƏNDİRİLMƏSİ VƏ İNNOVATİV İNKİŞAF

**UOT 330**

*Zəhra İsa qızı SƏMƏDOVA*
*i.f.d., dos., Bakı Dövlət Universiteti*
*zahra.samad@gmail.com*

## QLOBAL İQTİSADİYYAT VƏ LOGİSTİK PROBLEMLƏR

*Xülasə*

**Tədqiqatın məqsədi** logistikanın funksiyalarını nəzərdən keçirməklə onun beynəlxalq iqtisadi əlaqələrdəki rolunu təhlil etmək və bu sayədə hal-hazırda var olan, gələcəkdə də yarana biləcək sosial, iqtisadi, siyasi, ətraf mühit və s. məsələlərlə bağlı problemlərin həlli istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir.

**İşin metodologiyası** logistikanın yaranma səbəblərinin, funksiyalarının müqayisəli təhlilindən ibarətdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat mətni logistikanın dünya iqtisadiyyatındakı rolunu araşdırmaqla daha yaxından təhlil etməkdir.

**Tədqiqatın nəticələri-**logistikanın dünya iqtisadiyyatında oynadığı rol araşdırılmış və yarana biləcək problemlərin həllində atılacaq addımlar müəyyən edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** ondan ibarətdir ki, logistikanın mövcud funksiyaları ilə yanaşı gələcəkdə, xüsusilə də post-humanizm dövründə həyata keçirə biləcəyi addımlar təklif edilmişdir.

***Açar sözlər: logistika, qlobal iqtisadiyyat, ticarət, istehsal, sənayeləşmə***

### *Giriş*

Qlobal logistika, malların istehsal edildiyi yerdən istehlak edildiyi yerə qədər tədarük zənciri vasitəsilə axınının idarə edilməsi prosesidir. Qlobal logistikaya yüklərin yük maşını, qatar, gəmi və ya təyyarə ilə daşınması, həmçinin paylama mərkəzlərində və digər logistik daşınmaz əmlak obyektlərində malların hazırlanması, qablaşdırılması və saxlanması daxildir.

Qlobal logistika bir çox biznes tərəfdaşları arasında sıx və mürəkkəb əməkdaşlıq tələb edir. Göndərmə şirkətləri, hava yolları, dəmir yolları və yükdaşıma şirkətləri yük daşıyırlar. Qlobal çatdırılma xidmətləri malların hərəkətini idarə edir. Logistik daşınmaz əmlak şirkətləri daşınma, daşınma və saxlama üçün kritik mərkəzlər olan obyektlərə sahibdir və onları idarə edir, bir sıra xidmət təminatçıları isə qlobal logistika sisteminin işləməsini təmin edən proqram təminatı, təhlükəsizlik, əmək və biznes kəşfiyyatını təmin edir.

Qlobal logistikada artım üç əsas tendensiya ilə şərtlənir: artan istehlak, artan e-ticarət və malların daha sürətli və daha səmərəli daşınması üçün təchizat zəncirinin davam edən yenidən konfiqurasiyası. Bu tendensiyaların bütün dünyada davam edən gücü qlobal logistikanın dünya iqtisadiyyatında bundan sonra da mühüm rol oynayacağının göstəricisidir [10].

Xarici ədəbiyyatda logistika anlayışı ən çox əsas idarəetmə funksiyası kimi planlaşdırma ilə əlaqələndirilir. Məsələn, Amerika alimləri logistikanı planlaşdırma strukturu hesab edirlər. Onlar logistikanı ilk növbədə xərclərə qənaət mexanizmi kimi müəyyən etmişdilər [6]. Logistika İdarəetmə Şurası, məsələn, logistikanı “müştəri tələblərini ödəmək üçün malların, xidmətlərin və əlaqəli məlumatların mənşədən son istehlakçıya qədər rasional və səmərəli hərəkətinin planlaşdırılması,

həyata keçirilməsi və nəzarət edilməsi prosesi" kimi müəyyən etmişdir. Məsələn, ingilis alimləri logistikanın əsas fəaliyyət istiqamətlərini göstərdilər ki, bu da bazarın tədqiqi və proqnozlaşdırılmasını, istehsalın planlaşdırılmasını, xammal, material və avadanlıqların alınmasını, inventar nəzarətini və bir sıra malların paylanması əməliyyatlarını, eləcə də onların tədqiqini əhatə edir. Bir sıra xarici alimlər hesab edirlər ki, logistika xammalın alınma nöqtəsindən son istehlak nöqtəsinə qədər material və əlaqəli informasiya axınlarının keçməsini təmin edən bütün növ fəaliyyətlərin planlaşdırılması, təşkili və nəzarətidir. Logistika müəssisə daxilində və xaricində məhsul və məlumat axınını optimallaşdırmağa imkan verir [4].

Logistika ümumi xərcləri minimuma endirmək üçün materialların, ehtiyat hissələrin və hazır məhsulların, o cümlədən zəruri məlumat axınının hərtərəfli planlaşdırılması və idarə edilməsidir. Logistika müəyyən bir yerdə və müəyyən bir zamanda mallara tələb və təklifin hərəkətinə və əlaqələndirilməsinə kömək edən bütün fəaliyyətlərin əlaqələndirilməsidir.

**Research methodology** - the role of the logistics system in the development of the economy of the republic in modern conditions, its comparative analysis, methods of grouping, generalization and analysis were used in the research work.

**The significance of the application of the study** is the implementation of reforms related to the development of the logistics system in the republic, the development of its individual areas, the management of the logistics system, its information support, improvement, the impact on the country's economy, and issues of future development are being studied.

**The results of the study** are the role of the logistics system in the development of the country's economy in modern times, the development of its individual areas, including the traditional areas of Electronic Logistics, the Green Logistics system, the expansion of integration links, and transport services. , storage facilities, infrastructure, etc. will expand the fields.

**The originality and scientific novelty of the research** is the increase in the efficiency of the development of the directions of the logistics system, the expansion of services, the expansion of foreign economic relations, the increase in employment, the increase in the country's foreign exchange reserves, playing an exceptional role in the development of the country's economy.

***Key words: logistics, supply chain, transport system, warehousing, Green logistics, infrastructure.***

**UOT: 65.01/ 379.85**

***Leyla Şükür qızı ATAKİŞİYEVA***
***Bakı Avrasiya Universiteti, müəllim***
***E-mail: leyla.atakishiyeva.sh@gmail.com***

# TURİZM KLASTERİNİN İNKİŞAFI ÜZRƏ AZƏRBAYCAN HÖKUMƏTİNİN MARKETİNQ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi** - Azərbaycanın turizm müəssisələrinin inkişafı kontekstində həm şirkətlər, həm də dövlət səviyyəsində marketinq imkanlarından istifadənin rasional istiqamətlərinin müəyyənləşdirilməsidir.

**Tədqiqatın metodologiyasını** turizmin inkişafı üzrə Azərbaycan Respublikasının qanunları, turizmdə marketinq texnologiyalarından istifadə üzrə yerli və xarici təcrübələr, milli turizm müəssisələrinin daxili və beynəlxalq bazarlarda rəqabətə davamlılığı üzrə tədqiqatlar təşkil edir.

**Tədqiqatın əhəmiyyəti**. Qeyd etmək lazımdır ki, həm mikro, həm də makrosəviyyədə güclü turizm marketinqi fəaliyyəti müasir Azərbaycan iqtisadiyyatı üçün zəruri olaraq Azərbaycanın turizm şirkətlərinin və dövlətin turizm marketinqi üzrə fəaliyyətinin rasional istiqamətlərinin müəyyənləşdirilməsi və tədqiqini aktuallaşdırır.

**Tədqiqatın elmi yeniliyi** Azərbaycanda milli turizm klasterinin inkişaf etdirilməsi məqsədilə yerli turizm şirkətləri və Azərbaycan hökuməti üçün turizm marketinqi fəaliyyəti üzrə əməli tədbirlər kompleksinin işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqatdan əldə olunan nəticələr** nəzəri xarakter daşımaqla turizm iqtisadiyyatı elminə müəyyən töhfə verə bilər.

Turizm marketinqi fəaliyyətinin əsas istiqamətləri araşdırılarkən müasir tələblərin nəzərə alınması və bununla bağlı fikirlərin irəli sürülməsi **tədqiqatın orijinallığını** təşkil edir.

***Açar sözlər: turizm klasteri, turizmdə marketinq, marketinq tədbirləri kompleksi, dövlətin turizm marketinqi siyasəti, destination market system, ÜTT.***

***Giriş***

Müasir şəraitdə Azərbaycanın qeyri-neft sektorunun klasterlər əsasında inkişafı ən effektiv yol kimi diqqəti cəlb edir. Buna görə də elmi ədəbiyyatda geniş istifadə olunan "turizm industriyası" anlayışı əvəzinə "turizm klasteri" anlayışından istifadə daha uğurlu səslənir.

Aydındır ki, ölkədə turizm klasterinin inkişafı turizmlə bağlı milli şirkətlərin və dövlətin fəaliyyətindən asılıdır. Azərbaycanın biznes strukturları və hökumət orqanları üçün bu sahədə müəyyən təkliflər kompleksi hazırlanıb. Ona görə də turizm şirkətlərinin təkliflər komleksinə uyğun strategiya əsasında fəaliyyəti, o cümlədən marketinq tədbirləri həyata keçirməsi məqsədəuyğun hesab olunur.

**Dövlətin turizm marketinqi fəaliyyətinin əsas istiqamətləri**

Turizm şirkətlərinin marketinqinin dövlət orqanlarının bütün səviyyələri ilə əməkdaşlıqda həyata keçirilməsi dünyada yayılmış ümumi praktikadır. Buna görə də turizmin inkişafı və turizm marketinqi ümummilli marketinqi təşkil edir. Dövlətin turizmdə marketinq fəaliyyətinin məqsədi yalnız regional turizmin bazara yeridilməsindən ibarət deyil, dövlət həmçinin mədəni, ekoloji və digər istiqamətlərdə də fokuslanmalıdır, çünki dövlətin istehsal etdiyi turizm məhsullarının və bunun nəticəsi olan marketinq fəaliyyətinin benefisiar qrupları geniş istehlakçı kateqoriyasına hədəflənmişdir. Bütün səviyyələrdə hökumətin turizm marketinqi davranışında adətən aşağıdakı strategiyalar reallaşdırılır.

1. *Bazara yeridilmə* (promotion). Dövlət turizm marketinqi turizm istiqamətləri və turizm məhsullarında fokuslaşır. Hər hansı regionun idarəetmə konsepsiyasında hökumət effektiv resursların regiona ötürülməsi, onun imicinin təbliğ edilməsi və turizm istiqaməti kimi regionun cəlbedicili-

yinin artırılmasında öz təsirli mexanizmlərindən istifadə etməlidir. Eyni zamanda da marketinqin elmi əsaslarla həyata keçirilməsi və effektivliyinin təmin edilməsi üçün bazarın tədqiqi, idarəetmə və müəssisələrə xidmət göstərilməsi sahəsində də dövlətin fəaliyyəti tələb olunur [3, 461].

Müəssisələrin böyük əksəriyyəti, xüsusən kiçik və orta mehmanxanalar, səyahət agentlikləri, attraksionlar və s. rəqabətə davam gətirmək üçün və müflis olmamaq üçün çox vaxt öz biznes strategiyalarını qısamüddətli perspektivə hədəfləyirlər. Davranış proqnozları və konkret operativ davranış da qısamüddətli olur. Belə qısamüddətli strategiya çoxlu sayda ümumi vəziyyətləri, strateji dəyərləri, marketinq dəyərlərini nəzərə almır. Belə hal davam edərsə, regionun ictimai imicində qeyri-müəyyənlik yaranır ki, bu da onun cəlbediciliyini azalda və sosial-iqtisadi səmərələri pisləşdirə bilər. Bu, bir daha dövlətin permanent olaraq turizm marketinqində iştirakını aktuallaşdırır.

Turizm marketinqində dövlətlə müəssisələr arasında dəqiq əmək bölgüsü olmalıdır. Dövlət müəssisələrinin yaxşı imic nümayiş etdirmələri üçün platforma yaratmalıdır. Məsələn, Honkonqda dövlət şəhərin cəlbedici elementlərini qabardan və güclü imic təsiri göstərən "həyat şəhəri" şüarını irəli sürmüşdür. 2003-cü ilin dekabrında Fransa Dövlət Turizm Sektoru 20 milli turizm şirkətlərinin iştirakı ilə Çinin Sıçuan əyalətinin paytaxtı olan Chengdunun adı ilə bu əyalətdə olan gözəl yerləri, mehmanxanaları, aviaşirkətləri, dəmir yolunu, çayları, meşələri, yolları, mağazaları, uşaq meydançalarını və s.-ni tərənnüm edən Chengdu tədbirini təşkil etmişdir. Bu tədbirə videoçarxlar və hər cür digər informasiya vasitələri cəlb olunmuşdu və bu öz bəhrəsini verdi – bu istiqamətdə turistlərin sayı əhəmiyyətli dərəcədə artdı [2, 249].

2. *Turizm imicinin mövqeyi*. Dövlət marketinqinin əsas məqsədi potensial turistlərin gözündə təyinat yerinin əyaniliyi və imicinin artırılmasıdır. Buna görə də nəzərdə tutulan marketinqdən yüksək nəticələr əldə etmək üçün region üzrə marketinq strategiyasını hazırlamaqdan öncə təyinat yeri haqqında dəqiq təsəvvür əldə olunmalıdır. Bundan sonra informasiya-təbliğat reklamlarının köməyi ilə regionun turizm şəhərlərinin konkret imici formalaşdırılmalıdır.

Nəzərə alsaq ki, turistlərin çoxunun olmadığı yer haqqında təsəvvürləri məhduddur, məlum olur ki, imic məsələsi çox vacib missiyanı həyata keçirir. Onu da nəzərə almaq lazımdır ki, az tanınmış turizm məhsulunu turistlərə məharətlə tanıtdırmaq lazımdır. Məsələn, Sinqapurun müsbət imicinin olmadığı 1960-cı illərdə "Garden State" Singapore "infinite surprises Singapore" proqramı ilə ölkənin müstəqil imicini formalaşdırmağa başladı. 1970-ci illərdə ABŞ hökuməti "I Love New York" imic kampaniyasını işə saldı. Sonralar eyni qayda ilə milli hökumətlər tərəfindən "Venesiya su şəhəridir", "Münhen pivə şəhəridir", "Paris dünyanın incəsənət paytaxtıdır", "Vena hamının musiqisidir", "Bağdad min bir gecə şəhəridir" kimi təqdim olunan layihələr şəhərlərin imicini formalaşdırmaqla turizmin uğurla bazara yeridilməsi nümunələri oldu [2, 234].

Marketinq məsələlərində turistin təkrar gəlişi də nəzərə alınmalıdır. Belə müşahidələr əsasında hesablanmış "səyahət tezliyi" turistin bir daha gələcəyi ehtimalı kimi istifadə olunur. Bu məsələdə turistin yenidən gəlmə səbəblərinin öyrənilməsi çox vacibdir. Bu, çox vaxt turistin təəssüratlarının gözləntidən yaxşı olması ilə əlaqədardır. Bundan başqa onun şəhəri daha yaxşı tanıması da əhəmiyyətlidir. Nəzərə alınmalı olan çox mühüm amil isə turistin gəldiyi yer haqqında özü üçün kəşf etdiyi yeni imic ola bilər.

Nəhayət, turizm istiqamətində mövcud olan iqtisadi, mədəni və sosial fəaliyyətlər də təqdim olunan məhsulun tərkib hissələri kimi çıxış edir. Bu amillərin də müsbət təsəvvür yaratmasında dövlət orqanlarının üzərinə məsul vəzifə düşür. Bu məqsədlə bu orqanlar tərəfindən turistlərin cəlb olunmasında rəqabət qabiliyyətini təmin edən və bazarda əlverişli mövqe formalaşdıran marketinq tədbirləri həyata keçirilməlidir. Turizm istiqamətinin imici regionun sosial, siyasi və iqtisadi vəziyyətindən, təbii mühitdən, insan resurslarından, infrastrukturun vəziyyətindən və digər amillərdən asılıdır ki, onların təkmilləşdirilməsi və bazara yeridilməsi də dövlət orqanlarının vəzifəsidir. Turizm istiqamətlərinin hərtərəfli inkişafı, ən yaxşı turizm imicinin yaradılması və onun potensial turistlərin diqqətinə çatdırılması dövlət idarələrinin əsas öhdəliyidir [4].

3. *Turizm istiqaməti üzrə marketinq təşkilatları*. Ümumiyyətlə, turizm istiqamətli marketinq təşkilatı qeyri-hökumət təşkilatıdır. Marketinq səylərinin əsas mahiyyəti kütləvilik və turizm

məhsulunun bazara yeridilməsidir, əsas məqsəd isə potensial istehlakçıların şüurunda istiqamətin cəlbedici obrazının yaradılmasıdır. Bu marketinq məsələsində də dövlət aparıcı rol oynamalıdır. Qeyd olunduğu kimi, bu məsələdə dövlət-biznes əməkdaşlığı və öhdəliklərin dəqiq bölünməsi mühüm şərtdir. Dövlət mədəni, ekoloji, infrastruktur, əlverişli biznes mühiti və s. kimi makrosəviyyələrə cavabdeh olduğu halda biznes strukturlarının üzərinə düşən əsas vəzifələr əlçatan qiymətlər və rəqabətqabiliyyətli xidmət təklif etməkdən, sahədaxili biznes mühitinin yaxşılaşdırılmasından (məsələn, vicdansız rəqabətdən imtina) ibarətdir.

Daha bir amili – kvazidövlət məhsullarının marketinqini də unutmaq olmaz. İqtisadi nəzəriyyədən məlum olduğu kimi, kvazidövlət məhsulları dedikdə həm dövlət, həm də özəl sektorun istehsal etdiyi əmtəə və xidmətlər nəzərdə tutulur. Bu məsələyə Azərbaycanda və turizm kontekstində yanaşanda ilk növbədə özəl və ictimai istirahət yerləri – parklar, daxili turizm aspektində səhiyyə xidmətləri yada düşür. Bundan başqa özəl mülkiyyətdə olmayan meşələr, çimərliklər və digər turizm məhsulları, yerli idarəetmə orqanlarının mülkiyyətində olan torpaqlar və müəssisələr də bu kateqoriyaya aiddir.

Sərhədyanı turizm regionlarının xüsusi statusu nəzərə alınaraq, burada da dövlətin aparıcı rolu və dövlət marketinqinin əhəmiyyəti danılmazdır. Belə istiqamətlərdə qeyri-hökumət turizm təşkilatları ilə dövlət orqanlarının, yerli icra hakimiyyətinin əməkdaşlığına daha çox ehtiyac duyulur.

Turizm istiqamətləri marketinqində beynəlxalq təşkilatlardan da istifadə çox effektivdir. Bu halda dövlət müəyyən mənada arxa plana keçsə də, onun rolu daha da artır, çünki dövlətin ictimaiyyət ilə əlaqə mexanizmləri daha kütləvi və daha effektivdir.

4. *Turizm marketinqində informasiya texnologiyalarından istifadə*. Səyahətçilərin təyinat yeri haqqında təəssüratlarında xidmət resurslarının rolu çox yüksəkdir. Bu baxımdan informasiya xidmətləri turistlər üçün xüsusi əhəmiyyətə malikdir - informasiya axtarışının rahatlığı, çevik əks əlaqə və effektiv məlumat məsləhəti onun yaddaşında uzun müddət həkk olunur.

Digər tərəfdən məlumat mərkəzinin xidmətinin yüksək keyfiyyəti və effektiv fəaliyyəti onu turizm istiqaməti ilə səyahətçi arasında mühüm ünsiyyət kanalına çevirə bilər. Bu, öz növbəsində, turizmin imicinin populyarlaşmasında böyük rol oynaya bilər. Bu onunla izah olunur ki, turizm təcrübəsi zəif olan ölkələrdə regionlardakı görməli yerlər haqqında məlumat mərkəzləşdirilmiş deyil. Buna görə də hökumət genişmiqyaslı informasiya mərkəzləri yaratmalı, ölkə üzrə turizm əhəmiyyətli bütün obyektlər haqqında məlumatları bu mərkəzdə inteqrə etməli və uyğun internet səhifəsində yerləşdirməlidir. Belə bir sistemin yaradılması zamanı turistin ondan istifadəsini asanlaşdırmaq üçün bu məlumat sisteminin turizm üzrə verilənlər bazasının geniş istifadə olunan beynəlxalq standartlarına uyğunlaşdırılması tövsiyə olunur.

Öz növbəsində turizm agentlikləri bu məlumat bazasından istifadə etməklə regionlararası səyahət turları yarada bilər və ən maraqlısı da budur ki, belə turlar beynəlxalq xarakterli də ola bilər, başqa sözlə, qonşu ölkələrin görməli yerlərini də əhatə edə bilər. Bu məsələdə yenə də dövlət səhnəyə gəlir, çünki uyğun dövlətlərarası razılaşmalar belə ölkələrarası turların uğurunun mühüm şərtidir. Nəzərə alsaq ki, qonşu ölkələrə gələn turistlərə həmin ölkənin agentlikləri tərəfindən Azərbaycana miniturlar təklif oluna bilər, bu formatın hər iki ölkə üçün nə dərəcədə əhəmiyyətli olması aydın olur. Bu məsələdə dövlətlərin töhfəsi çox böyük ola bilər (məsələn, gömrük, pasport nəzarəti və digər prosedurların sadələşdirilməsi haqqında dövlətlərarası müqavilələr bağlana bilər).

Bütün göstərilən səbəblərə görə “İstiqamət marketinq sistemi” (destination market system – DMS) müxtəlif səviyyələrdə turizm şöbələrinin diqqətini get-gedə daha çox cəlb edir. Hələ keçən əsrin sonlarında Ümumdünya Turizm Təşkilatı turizm sahəsində təyinat yerlərinin marketinqi sistemini işə salmışdır. Bu sistem vasitəsilə internet kanalları ilə məlumatların yayılması turizm industriyasında elektron ticarətin inkişafına böyük təkan verdi [5, 28].

Təyinat marketinq sistemi turizm agentlikləri, turizm kütləvi informasiya vasitələrini (KİV), turizm industriyası müəssisələrini və istehlakçılarını birləşdirir. Onun əsas fərqli cəhəti turizm istiqamətlərinin ümumi imicinin formalaşdırılması və populyarlaşdırılması, müəssisələrə (xüsusən, kiçik və orta müəssisələrə) internet-ticarət meydançasının təqdim edilməsidir. Bundan başqa DMS

bütün səviyyələrdə turizm müəssisələrinin, turizm agentliklərinin və KİV-lərin regional mühit əsasında turizm industriyasının şəbəkə sistemini yaradır. Beləliklə, DMS saytının əsas xüsusiyyətləri aşağıdakılardır [2, 316]:

- Turizm istiqaməti haqqında dəqiq, dolğun və vaxtlı-vaxtında məlumatın təqdim olunması;
- Turizm istiqamətinin ümumi imicinin işlənib hazırlanması və saytın istifadəçilərinə təqdim olunması;
- Genişzolaqlı (broadband) multimedia texnologiyalardan (turizm videosu, 3-D və s.) istifadə edən yüksək texnologiyalar;
- Turizmin vektor xəritəsi;
- Güclü informasiya axtarışı alətləri;
- Səyahət marşrutunun fərdi dizaynı;
- Fəal elektron jurnal (son ay ərzində baş vermiş bütün turizm aksiyaları haqqında məlumat);
- Real zaman rejimində media kanallarının təqdim olunması;
- Turizm bürolarının məlumatlarına çıxış;
- Bir neçə dildən istifadə imkanı.

Faktiki olaraq DMS turizm istiqamətləri bağlı şirkətlərin klasteridir və turizm istiqamətləri elementlərinin bu sistem vasitəsilə inteqrasiyası sahənin rəqabət üstünlüyünün təmin olunmasında çox əhəmiyyətlidir - regional turizmin inteqrasiyası nöqteyi-nəzərincə DMS-nin təqdim etdiyi virtual bazarların birləşdirilməsi, ümumi imicin kütləviləşməsi, resursların birgə istifadəsi və s. rəqabət üstünlüyünün təmin olunmasına xidmət edir. [2, 212-213]

Beynəlxalq təcrübə göstərir ki, DMS yalnız Milli Turizm Bürosunun və bütün səviyyələrdə turizm departamentlərinin dəstəyi və maliyyələşdirilməsi ilə yaradıla bilər [2, 213-214].

**Milli turizm klasterinin inkişafının təmin olunmasında dövlətin rolu**

Qeyd etdiyimiz kimi milli turizm klasterinin inkişafının təmin olunmasında dövlətin rolu əvəzedilməzdir. Dövlətin turizm siyasəti onun sosial-iqtisadi siyasətinin tərkib hissəsidir və onun turizm klasterinin və turizm bazarı subyektlərinin (turoperator, turizm agentlikləri, mehmanxanalar, nəqliyyat, iaşə obyektləri və s.) inkişafına yönəlmişdir. [6, 37]

Dövlətin turizm siyasəti onun aşağıdakı istiqamətlərdə fəaliyyətlərini ehtiva edir.

1. Milli turizmin inkişaf konsepsiyasının işlənib hazırlanması.
2. Həm ölkə, həm də müxtəlif regionlar səviyyəsində turizmin inkişafı üzrə məqsədli proqramların tərtib olunması.
3. Qoyulmuş məqsədlərə nail olmaq üçün konkret tədbirlər kompleksinin işlənib hazırlanması.
4. Turizm fəaliyyətinin dövlət tənzimlənməsi.

Turizm siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

- Səyahətçilərin hüquqlarının qorunması;
- Milli turizm məhsulu istehsalçılarının maraqlarının qorunması;
- Daxili və gəlmə turizmin dəstəklənməsi.

Bu fəaliyyətlər aşağıdakıları ehtiva edir:

- Turizm infrastrukturunun təkmilləşdirilməsinə yönəlmiş birbaşa investisiyalar;
- Daxili və gəlmə turizmin dəstəklənməsi;
- Peşəkar kadrların hazırlanmasının maliyyələşdirilməsi;
- Elmi tədqiqatların aparılması;
- Milli turizm məhsulunun dünya bazarlarına yeridilməsi;
- Vergi və gömrük güzəştlərinin tətbiqi.

*Dövlətin turizm siyasəti* strategiya və taktikaya əsaslanır. Dövlətin turizm strategiyası qoyulmuş məqsədlərə nail olmaq üçün ümumi istiqamət və istifadə olunan vasitələri ehtiva edir və turizmin uzun müddət və böyük maliyyə resursları tələb edən ümumi inkişaf konsepsiyasının və məqsədli proqramların işlənib hazırlanmasını nəzərdə tutur.

*Dövlətin turizm taktikası* dedikdə dövlətin ayrı-ayrı orqanlarının qoyulmuş məqsədə nail olmaq üçün həyata keçirilməsi zəruri olan konkret tədbirlər kompleksi nəzərdə tutulur. Bu cür tədbirlərə turizm, xüsusən də beynəlxalq turizm fəaliyyəti, vergi siyasəti, qiymət əmələgəlmə siyasəti, viza rejimi siyasəti, sərhəd-gömrük siyasəti və s.-ni aid etmək olar. [1, 79]

*Dövlətin turizm konsepsiyasının* 2 geniş məqsədi var:

1. Yerli və xarici turistlərin tələbatlarına cavab verən müasir, yüksək rentabelli və rəqabət qabiliyyətli turizm klasterinin yaradılması;
2. Sosial-iqtisadi inkişafa töhfə - iş yerlərinin çoxaldılması, dövlət büdcəsinin gəlirlərinin artırılması, ölkəyə xarici valyuta daxilolmalarının artırılması, mədəni və təbii irsin saxlanılması və rasional istifadə olunması.

## *Nəticə*

Apardığımız araşdırmalar aşağıdakı nəticələri çıxarmağa imkan verir.

1. Turizm industriyası dünya iqtisadiyyatına önəmli töhfə verən fəaliyyət sferasıdır. Yalnız onu qeyd etmək kifayətdir ki, əvvəla, son onilliklərdə xidmət sektoru maddi nemətlər istehsalını üstələyir, belə ki, demək olar ki, bütün ölkələrdə bu sektor ÜDM-in yarıdan çoxunu, inkişaf etmiş ölkələrdə isə 70%-dən çoxunu verir. İkincisi, xidmət sektorunda lider nəqliyyat xidmətləridir ki, bu da turizm klasterinin mühüm tərkib hissəsidir. Üçüncüsü, dünya əhalisi sürətlə artır, ən mühümü isə budur ki, dünya üzrə adambaşına gəlir də sürətlə artır. Bu isə insanlara boş vaxtlarını evdən, bir çox hallarda isə vətəndən kənarda istirahətə həsr etməyə imkan verir və əgər 20-30 il əvvəl belə dəbdəbəli həyat yalnız inkişaf etmiş ölkələrin əhalisi üçün əlçatan idisə, hazırda Çin, Hindistan, İndoneziya, Malayziya və Türkiyə kimi sürətli iqtisadi artıma malik olan (emerging countries) ölkələrin vətəndaşları da beynəlxalq turizmin çoxsaylı subyektlərinə çevrilmişlər.
2. Turizm dinamik olaraq inkişaf edən, iri turoperatorlara yüksək mənfəət gətirən perspektivli biznes sahəsidir. Odur ki, bu sahədə dövriyyə, klasterə investisiyalar və buradakı məşğulların sayının payı ildən-ilə artır.
3. Hazırda Azərbaycan iqtisadiyyatı əhəmiyyətli dərəcədə neft-qaz sektorundan asılıdır – ÜDM-in və dövlət büdcə gəlirlərinin yarıdan çoxu, ixracın 90%-dən böyük hissəsi bu sektorun payına düşür. Bu sektora aid edilməyən, lakin hazırda bilavasitə bu sektordan asılı olan sahələri (məsələn, neft kəmərlərinin daxil edildiyi nəqliyyat sektoru) də nəzərə alsaq, əslində iqtisadiyyatımızın karbohidrogen sektorundan daha çox asılı olduğu məlum olur. Bu, milli iqtisadiyyatımızın riskə məruz olması – dünya neft qiymətlərindən asılı olmasına dəlalət edir.
4. Beləliklə, Azərbaycan iqtisadiyyatının davamlı artımının təmin olunması üçün sahəvi diversifikasiyaya nail olmaq zəruridir. Bunu dərk edən Azərbaycan hökuməti 2016-cı ildə əsas məqsədi milli iqtisadiyyatın davamlı inkişafını təmin etmək olan Strateji Yol Xəritəsi hazırladı. Sənəddə iqtisadiyyatın sektoral şaxələndirilməsi məqsədilə seçilən prioritet sahələr arasında turizmin inkişafına xüsusi yer verilmiş və 2025-ci il üçün turizm industriyasının rəqabət qabiliyyətli inkişafını təmin edən 4 uzunmüddətli məqsəd müəyyənləşdirilmişdir. [7].

- Böyük miqdarda xarici turistlər cəlb etməklə Bakı şəhərinin turizm potensialının tam reallaşdırılması.
- Ölkədə turizm sektorunun inkişaf etdirilməsi üçün əlverişli mühitin yaradılması.
- Daxili turistlər üçün regional turizmin inkişaf etdirilməsi.
- Turistlərin məmnunluq səviyyəsinin yüksəldilməsi məqsədilə turizm keyfiyyətinin milli sisteminin yaradılması.

5. Azərbaycanda turizmin inkişafında aşağıdakı problemlər müəyyənləşdirilmişdir.

- Bazar münasibətləri şəraitində turizm industriyasında fəaliyyət təcrübəsinin azlığı.
- Turizm xidməti qiymətlərinin yüksək olması.
- Turizm infrastrukturunun aşağı səviyyəsi.
- İnhisarçılıq meyillərinin yüksək olması.

- Turizm müəssisələrinin əsasən Bakıda təmərküzləşməsi və regionlarda onların sayının az olması.
- Xüsusən regionlarda xarici dilləri sərbəst bilən şəxslərin az olması.
- Həm özəl, həm də ictimai səviyyədə turizm marketinq fəaliyyətinin zəifliyi – ölkənin beynəlxalq səviyyədə təqdimatının məqbul səviyyədə olmaması.
- Azərbaycan turizm şirkətlərinin elektron marketinq və on-line satışdan istifadə səviyyəsinin aşağı olması.
- Statistik informasiya bazasının qeyri-təkmil olması.
- Daxili təhdidlərdən biri milli turizm şirkətlərinin turistlər qarşısında üzərlərinə götürdükləri öhdəliklərə əməl etməməsi.

6. *Dövlətin turizm siyasəti* strategiya və taktikaya əsaslanır. Dövlətin turizm strategiyası qoyulmuş məqsədlərə nail olmaq üçün ümumi istiqamət və istifadə olunan vasitələri ehtiva edir və turizmin uzun müddət və böyük maliyyə resursları tələb edən ümumi inkişaf konsepsiyasının və məqsədli proqramların işlənib hazırlanmasını nəzərdə tutur.

Beləliklə, dövlətin turizm siyasəti zaman və məkan baxımından hazırlanıb həyata keçirilməlidir. Zaman baxımı dedikdə qısa və uzunmüddətli turizm siyasətləri nəzərdə tutulur.

Qısamüddətli turizm siyasəti turizm bazarının operativ idarə olunmasına yönəlmişdir.

Uzunmüddətli turizm siyasəti isə ilk növbədə turizm klasterinin inkişafına istiqamətlənmişdir və bir qayda olaraq, irimiqyaslı məsələlərin həll olunmasını, daha uzun zaman müddətini və nisbətən böyük kapital qoyuluşunu tələb edir və bu səbəbdən də turizm sahəsində və onun təsərrüfat mexanizmində struktur dəyişikliklərini ehtiva edə bilər.

Nəticədə dövlətin turizm siyasəti milli turizm klasterinin fəaliyyət effektivliyinin artırılmasına və milli iqtisadiyyatın bu sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edir.

## ƏDƏBİYYAT


1. Quian S. Research on behaviors of government's tourism marketing // UTMS Journal of Economics, 2010, Vol. 1, No. 1, pp. 99-106
2. Seongseop, S.&Kima, B. Marketing implications arising from a compare study of international pleasure tourist motivations and other travel-related characteristicsvisitors to Korea, Tourism Management, 26(3): pp.347-357.2004
3. Huang Y-L. Lin C-T. Mining tourist imagery to construct destination image position model // Expert Systems with Applications, Volume 36, Issue 2, Part 1, March 2009, Pages 2513-2524
4. Sigala M. Evaluating the performance of destination marketing systems (DMS): stakeholder perspective / https://www.emeraldinsight.com/doi/abs/10.1108/MIP-08-2013-0131
5. Kerr W.R. Tourism Public Policy, and the Strategic Management of Failure. - Routledge, 2003-78 p.
6. Дурович А. Организация туризма. - СПб., Питер, 2012. - 320 с.
7. В Азербайджане будут введены механизмы для контроля туристических услуг. / http://www.massa.az/news/az/5435/v-azerbajdjane-budut-vvedeny-mehanizmy-dlya-kontrolya-turisticheskih-uslug


***Лейла Шукур кызы Атакишиева***
***Бакинский Евразийский Университет, преподаватель***
***E-mail: leyla.atakishiyeva.sh@gmail.com***

## Основные направления маркетинговой деятельности правительства Азербайджана по развитию туристического кластера

***Резюме***

**Цель исследования** - определить рациональные направления использования маркетинговых возможностей на уровне как компаний, так и государства в контексте развития туристических предприятий Азербайджана.

**Методологию исследования** составили законы Азербайджанской Республики о развитии туризма, местный и зарубежный опыт использования маркетинговых технологий в туризме, исследование конкурентоспособности национальных туристических предприятий на внутреннем и международном рынках.

**Важность исследования.** Следует отметить, что сильная туристическая маркетинговая деятельность как на микро-, так и на макроуровне делает необходимым для современной экономики Азербайджана определение и изучение рациональных направлений туристско-маркетинговой деятельности азербайджанских туристических компаний и государства.

**Научная новизна** исследования заключается в разработке комплекса практических мероприятий по туристско-маркетинговой деятельности для местных туристических компаний и правительства Азербайджана с целью развития национального туристического кластера в Азербайджане.

**Результаты, полученные в ходе исследования**, могут внести определенный вклад в науку об экономике туризма, поскольку носят теоретический характер.

**Оригинальность исследования** заключается в учете современных требований и представлении сопутствующих идей при рассмотрении основных направлений туристско-маркетинговой деятельности.

***Ключевые слова: туристический кластер, маркетинг в туризме, комплекс маркетинговых мероприятий, государственная маркетинговая политика в сфере туризма, система рынка дестинации, ВТО.***

***Leyla Shukur Atakishiyeva***
***Baku Eurasian University, teacher***
***E-mail: leyla.atakishiyeva.sh@gmail.com***

**The main directions of the marketing activity of the government of Azerbaijan on the development of the tourism cluster**

***Summary***

**The purpose** of the study is to determine the rational directions of using marketing opportunities at the level of both companies and the state in the context of the development of tourism enterprises of Azerbaijan.

**The methodology** of the research is made up of the laws of the Republic of Azerbaijan on the development of tourism, local and foreign experiences on the use of marketing technologies in tourism, research on the competitiveness of national tourism enterprises in domestic and international markets.

**Importance of research.** It should be noted that the strong tourism marketing activity at both the micro and macro level makes it necessary for the modern economy of Azerbaijan to determine and study the rational directions of tourism marketing activities of Azerbaijan's tourism companies and the state.

**The scientific novelty of the research** is the development of a set of practical measures for tourism marketing activities for local tourism companies and the government of Azerbaijan in order to develop the national tourism cluster in Azerbaijan.

**The results obtained from the research** can make a certain contribution to the science of tourism economics by being theoretical in nature.

**The originality** of the research is the consideration of modern requirements and the presentation of related ideas while examining the main directions of tourism marketing activity.

***Key words: tourism cluster, marketing in tourism, complex of marketing measures, state tourism marketing policy, destination market system, WTO.***

**UOT: 33**

***İlahə Sultan qızı ƏLİBƏYLİ***
***Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı***
***Mail adres: elibeylii@mail.ru***

# AZƏRBAYCANDA KLASTERLƏŞMƏNİN YARADACAĞI FAYDALAR VƏ MÜMKÜN İQTİSADİ ÇATIŞMAZLIQLAR

*Xülasə*

**Tədqiqatın məqsədi -** Rəqabət üstünlüyünün əldə olunması,ixrac potensialının artırılması, firmaların öz imkanlarını genişləndirməsi, bölgədə sosial-iqtisadi dəyişikliklərin əldə olunması üçün ən optimal yol klasterlərin yaradılmasıdır. Son dövrlərdə ölkə başçısının klasterləşmə fəaliyyətinə olan marağı bu anlayışın tədqiq edilməsinin zərurətini ortaya çıxarır. Məqalədə ölkəmiz üçün klasterləşmənin yaradacağı faydalar və mümkün iqtisadi çatışmazlıqlar təhlil edilmişdir.

**Tədqiqatın metodologiyası -** araşdırılan mövzuya kompleks və sistemli yanaşma, ümumiləşdirmə və qiymətləndirmə ilə bağlı metodlardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Klasterlərin yaradılması zamanı yaranacaq müsbət və mənfi amillərlə bağlı nəzəri-konseptual və praktiki yanaşmaların formalaşdırılmasıdır. Əldə edilmiş nəticələrdən bu istiqamətdə problemlərin tədqiqi zamanı istifadə edilə bilər.

**Tədqiqatın nəticələri -** Klasterlərin ölkə iqtisadiyyatına göstərəcəyi faydalı və zərərli təsirlər nəzəri əsaslarla ümumiləşdirilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** Məqalədə klasterlər yaradıldıqdan sonra ortaya çıxacaq müsbət və mənfi amillər müəyyənləşdirilmişdir.

***Açar sözlər: klaster, rəqabətqabiliyyətlilik, davamlı iqtisadi inkişaf, biznes mühiti, klasterləşmənin faydaları, klasterləşmənin mənfi tərəfləri.***

## *Giriş*

Klaster anlayışından ilk dəfə M.Porterin “Beynəlxalq Rəqabət Üstünlüyü “ kitabında istifadə edilmişdir. Bir-biri ilə əlaqəli sənaye, təşkilat və qurumların regional klasterləri innovasiyalar, sahibkarlıq və firmalar arasında rəqabət üstünlüyünün yüksəldilməsi üçün münbit zəmin rolunu oynadığını göstərir [3, s.185].

“Klaster” – müştərək fəaliyyət göstərən və eyni zamanda rəqabət aparan, coğrafi əlamətlərinə görə qarşılıqlı əlaqədə olan şirkətlərin, ixtisaslaşdırılmış xidmət sahəsinin, tədarükçülərinin, eləcə də, bir-birinə yaxın sahələrin və onların fəaliyyətləri ilə bağlı olan təşkilatların təmərküzləşməsi olaraq adlandırılmışdır [3, s.185].

Azərbaycan iqtisadiyyatında klasterlərin yaradacağı müsbət və mənfi tərəflər bu məqalədə araşdırılmışdır; birinci başlıqda Azərbaycanda klasterləşmənin hazırkı vəziyyəti, ikinci başlıqda klasterləşmənin yaradacağı faydalar, üçüncü başlıqda klasterləşmə nəticəsində yaranacaq mümkün iqtisadi çatışmazlıqlar araşdırılmışdır. Son dövrlərdə Azərbaycanda klasterlərin yaradılmasına diqqətin artması bu mövzunun araşdırılmasının nə qədər zəruri olduğunu ortaya çıxarır.

## 1. Azərbaycan Respublikasında Klasterləşmə

Klasteri yaratmaqda məqsəd – klasterin iştirakçıları arasında yeni texnologiyaya asan əl çatmaq, risklərin asan bölüşdürülməsi, xarici bazara birgə çıxış, Elmi-Tədqiqat və Layihə-Konstruktor təşkilatlarının gücünü cəmləşdirmək, elmi biliklərdən və əsas vəsaitlərdən kollektiv istifadə etməklə qarşılıqlı fəaliyyəti möhkəmləndirməkdən ibarətdir.

Son dövrlərin Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyin yüksəldilməsi və regional iqtisadi yüksəlişin təmin olunması kimi iki əsas problemlə üz-üzədir. Beynəlxalq təcrübələr problemlərin həllində klasterlərin yaradılmasının önəmli rola malik olduğunu göstərir [5, s. 30]. Bu baxımdan da, hazırkı mərhələdə dövlət bu sahənin yaradılması və inkişafı üçün bir sıra qanun və layihələr hazırlamaqdadır.

Respublikamız öz müstəqilliyini qazandıqdan sonrakı illər ərzində özəl və dövlət sektorunda fəaliyyət göstərən firmaların sayında davamlı artım müşahidə edilir. 2021-ci ildə fəaliyyət göstərən müxtəlif mülkiyyət formalarına malik sahibkarlıq subyktlərinin sayı 316370 olmuşdursa, 2021-ci ildə bu rəqəm 11% artaraq 355906-ya çatmışdır. Sahibkarlıq fəaliyyətlərinin genişlənməsi, bu fəaliyyətlə məşğul olan firma sayının artması tamamlayıcı və əvəzedici firmaların əməkdaşlıq edərək klaster yaratmasına imkan verən amillərdəndir. Aşağıdakı cədvəldə regionlar üzrə yeni yaradılmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı əks etdirilmişdir.

*Cədvəl 1.*

***Regionlar üzrə yaradılmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı***

| **İqtisadi rayonlar** | **Yeni yaranmış Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı** |
|---|---|
| Bakı | 37515 |
| Naxçıvan | 2419 |
| Abşeron-Xızı iqtisadi rayonu | 6773 |
| Dağlıq-Şirvan iqtisadi rayonu | 2211 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 7193 |
| Qarabağ iqtisadi rayonu | 6568 |
| Qazax-Tovuz iqtisadi rayonu | 9068 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 6151 |
| Lənkəran-Astara iqtisadi rayonu | 13949 |
| Mərkəzi-Aran iqtisadi rayonu | 8050 |
| Mil-Muğan iqtisadi rayonu | 4356 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 8985 |
| Şərqi-Zəngəzur iqtisadi rayonu | 523 |
| Şirvan-Salyan iqtisadi rayonu | 4958 |

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, https://stat.gov.az/source/entrepreneurship/*

Klasterlərin tədbiqi - elm, istehsalat, logistika arasında əlaqələr möhkəmləndirilərək yeni texnologiyanın tədbiqinə əsaslanan yüksək rəqabətqabiliyyətliliyə malik, innovativ sənaye və istehsalat sahələrinin yaranmasına, sahibkarlıq fəaliyyətlərinin genişlənməsinə, bütövlükdə ölkənin neft və qeyri-neft sektoru sahələrinin inkişafına xidmət edəcəkdir. Bu baxımdan da, prezidentimiz İlham Əliyev klasterlərin yaradılması və inkişaf etdirilməsi ilə bağlı bir sıra qanun layihələrinə imza atmışdır. “Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” , “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, 2016-cı ilin dekabrında təsdiqlənən “Milli iqtisadiyyatın inkişafına dair Strateji Yol xəritəsi”ndə klasterlərin yaradılmasının əhəmiyyəti vurğulanmışdır [4].

Azərbaycan öz suverenliyini bərqərar etdikdən sonra klaster modelinə bənzər strukturlar yaradılmış və bu gün də fəaliyyət göstərir. Onlara: Sumqayıt texnologiyalar Parkı, Sumqayıt kimya sənayesi Parkı, Mingəçevir yüksək texnologiyalar Parkı, Pirallahı, Balaxanı, Qaradağ və Mingəçevir sənaye parkları; Aqroparklar – “Gilan” və “Azərsun” holdinqlər; Azərsu“, “Azərenerji”, “Azəriqaz”, “Azərxalça”,“Azəralüminium”, “Azneftkimyamaş” Açıq Səhmdar Cəmiyyətlərini, “Azərbaycan Hava Yolları”, “Azərbaycan dəmiryolu” Qapalı Səhmdar Cəmiyyətləri, “Mətanət - A”, “Akkord” STİK, “FAB” və başqalarını aid etmək olar [6, s. 105-107].

Yuxarıda adları sadalanan quruluşların bəzilərinin tərkibində elmi-tədqiqat təşkilatları, nəqliyyat, bank bölmələri, sığorta və logistika xidmətləri fəaliyyət göstərir. Lakin, sadalanan qurumların heç birində məhsulun ilkin istehsalından son istehlakçıya çatana qədərki mərhələni əhatə edən dəyər zənciri mövcud deyildir. Bu müəssisələri klasterlərə məxsus olan bütün əlamətləri özündə daşıya bilmədiyi üçün klaster adlandırmaq düzgün deyildir. Bu məsələyə ölkə prezidenti cənab İlham Əliyev öz münasibətini bildirərkən demişdir – “Bu da dünyada uğur gətirən bir təcrübədir.

İnkişaf etmiş ölkələrdə bu vardır. Bütün məhsulun tsikli bir yerdə cəmləşməlidir – xüsusilə bu layihənin icrası nəticəsində poladtökmə, metallurgiya kombinatının, alüminium sənayesinin inkişafı sahəsində biz bütün bu zənciri – istehsal, emal kiçik və orta sahibkarlığın inkişafını təmin etməliyik ki, Azərbaycanda son məhsul buraxılsın. Hesab edirəm ki, bu istiqamətdə əlavə tədbirlər də görülməlidir".

Ölkəmizdə klasterlərin yaradılmasında münbit zəminin formalaşdırılması məqsədilə sənaye parkları, texnoparklar, aqroparklar yaradılmışdır. Belə quruluşların yaradılmasındakı əsas məqsəd:

- Qeyri-neft sektor sahələrinin davamlı inkişafını təmin edə bimək;
- Xarici investorların diqqətini müvafiq sektorlara yönəldə bilmək;
- Ölkədə idxalın ixracdan çox olduğunu nəzərə alaraq bu bərbərsizliyin aradan qaldırılmasına nail ola bilmək. Yerli əhalinin ehtiyaclarını yerli istehsalat əsasında təmin edə bilmək və xarici bazarlara çıxarılan məhsul çeşidlərinin kəmiyyət və keyfiyyətini artırmaq;
- Müvafiq istehsal sahələrində yüksək texnalogiyadan istifadə etməklə sektoral inkişafın təmin edilməsi;
- Əhali məşğulluğunu təmin etmək.

Hazırda ölkəmizdə Sumqayıt Kimya sənaye Parkı, Balaxanı Sənaye Parkı,Mingəçevir Sənaye Parkı,Qaradağ Sənaye Parkı, Pirallahı Sənaye Parkı olmaqla beş ədəd sənaye parkları fəaliyyət göstərir. Yaxın gələcəkdə bu sənaye parklarının sayının daha da artırılacağı arzuediləndir.

Sənaye parklarına əlavə olaraq "Sumqayıt Texnologiya Parkı " MMC, "Yüksək Texnologiyalar Parkı" MMC, "AMEA-nın Yüksək Texnologiyalar Parkı" mövcuddur. Bu texnoparkların yaradılmasında məqsəd araşdırma mərkəzləri ilə sahibkarlıq subyektləri arasındakı əlaqələri gücləndirərək yüksək texnologiyaya əsaslanan məhsul və xidmətlərin istehsalına müvafiq infrastruktur və xidmətlər ilə təsir edən quruluşların formalaşdırılmasıdır.

Kənd təsərrüfatı sahələrinin inkişafı məqsədilə yaradılmış aqroparklar məhsulların istehsalı, daşınması, saxlanılması və satışının təşkil edilməsində böyük rol oynayır. Gələcək zamanda ölkənin 30 rayonunda 51 aqroparkın yaradılması nəzərdə tutulub. Şəmkir, Xaçmaz, Ağdaş, Qax, Ağcabədi, Yevlax və Xızı rayonları xüsusi ilə fərqlənirlər.

**2. Klasterləşmənin Ölkəmiz üçün Yaradacağı Faydalar**

Dayanıqlı iqtisadı inkişafın təmin edilməsi ölkə iqtisadiyyatının əsas prioritetlərindən biridir. Bunun üçün daim iqtisadi islahatlar, tədbirlər həyata keçirilir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında milli iqtisadiyyatın modernləşdirilməsi və davamlı inkişaf problemləri araşdırılmış və davamlı iqtisadi inkişafın təmin edilməsində əsas amillərdən biri də, regionlararası iqtisadi bərabərsizliyin aradan qaldırılmasıdır. Ümumilikdə, respublikamız iqtisadi inkişaf baxımından kəskin fərqlənən iki hissədən ibarətdir. İqtisadi potensialın 70-80%-ini Bakı və Abşeron yarımadası, 20-30%-ini digər regionlar qarşılayır. Ümumi məhsul buraxılışında Bakı və digər rayonların payını aşağıdakı şəkildə təsvir edə bilərik:




***Şəkil 1. Bakı və digər regionların ümumi məhsul buraxılışındakı payı.***

Regionlar arasındakı iqtisadi fərqlərin aradan qaldırılmasında klasterlərin əvəzsiz rolu olacağını söyləmək mümkündür. Hər bir regionun coğrafi quruluşuna, əhalinin təhsil səviyyəsi, adət-ənələrinə, təcrübələrinə, regionun təbii şəraitinə uyğun klasterlərin qurulması nəticəsində regionların inkişafına şərait yaradılması mümkündür. Məsələn, pambıqçılığın inkişaf etdiyi regionlarda bu sahə üzrə klasterlərin yaranması həmin regionun daha da inkişafına şərait yaradacaqdır. Beləliklə də, hər bir regiona xas klasterlərin yaradılması regionlar arasındakı fərqlərin aradan qaldırılmasına, regionların ölkə tələbatının qarşılanması və xarici bazara məhsul çıxarılmasındakı payının yüksəlməsinə səbəb olacaqdır.

Klaster kiçik və orta sahibkarlıq subyektlərinə güclü regional təsir əldə etmək imkanı verir. Klasterlər müəyyən rəqabət gücünə malik olan istehsal sahələrində yaradılaraq həmin sahənin regional və ölkə səviyyəsində böyüməsi, qlobal bazardakı firmalarla rəqabət edə biləcək səviyyəyə çatdırılmasına təkan verir. Rəqabət üstünlüyünə malik olan iqtisadi sahələrin ölkə səviyyəsində ixtisaslaşması və həmin sahələrin dünya bazarına yenilik gətirə biləcək səviyyəyə çatdırılmasında klasterlərin əvəzsiz rolu vardır. Sözsüz ki, uğurlu klasterin tərkib hissəsi olan istənilən kiçik və orta sahibkarlar rəqiblərlə müqayisədə regional təsir gücünə malik ola bilir.

Ölkəmizdə firmalarası əməkdaşlığın zəif olması və haqsız rəqabətə üstünlük verən sahibkarlıq düşüncəsinin olmasını klasterlərin yaradılmasının qarşısını alan amillərdən biri kimi göstərmək olar. Klasterin üzvü olan və eyni, yaxud yaxın coğrafi regionda yerləşən firmalar davamlı olaraq ortaq fəaliyyət içərisində olurlar. Təkrarlanan və uğurla başa çatmış ortaqlıq fəaliyyətlərinin mövcudluğu firmalararası güvən yaranmasına şərait yaradır. Firmalaarası inam və dostluq münasibətlərinin olması sözsüz ki, görülən işin keyfiyyətinə də öz təsirini göstərəcəkdir. Eyni zamanda, lazımi biliklərin ötürülməsi, əhəmiyyətli ixtisaslı kadr çatışmazlığının digər şirkət hesabına doldurulması və s. bu kimi üstünlüklər qazanmaq mümkün olacaqdır.

“Azərbaycan Respublikasının milli iqtisadiyyat prespektivi üzrə Strateji Yol Xəritəsi”ndə investisiya axınını cəlb etmk üçün biznes mühitinin təmin edilməsi əsas məqsədlərdən biri kimi göstərilmişdir. 2025-ci ilədək qarşıya qoyulmuş məqsədlərdən biri də, xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərməsinə şərait yaradacaq biznes mühitinin formalaşmasıdır. Güclü klasterlər xarici investorların cəlb edə bilmə potensialına malik olurlar. Təbii ki, xarici investorların investisiyaları klasterlərin bölgədə lider quruluş olmasına vəsilə ola bilər ki, KOS-ların inkişafı və qlobal bazarlara məhsul təklif edə bilməsi baxımından böyük faydası olacaqdır. Beləliklə, xarici investorların cəlb edilməsində klasterlərin böyük faydası olacaqdır.

Respublikamızda fəaliyyət göstərən bəzi KOS subyektlərinin dövlət dəstəyindən yararlanması üçün müxtəlif bürokrarik əngəllər mövcud ola bilir. Dövlət dəstəyindən məhrum olan firmalar öz fəaliyyətlərini dayandırmaq məcburiyyətində qalır. 2021-ci ilə dair statistik məlumatlar nəzərdən keçirildikdə 12011 mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ləğv edildiyini görə bilərik. Müsbət hal isə ondan ibarətdir ki, 2020-ci illə müqayisədə bu rəqəm 55% azalmışdır. Fəaliyyətlərini davam etdirə bilmək üçün dövlət dəstəyinə ehtiyac duyan firmaların belə dəstəklə təminat məsələlərində klasterlərin böyük faydası vardır. Klasterin tərkib hissəsi olmaqla KOS-lar elmi-tədqiqat mərkəzlərinin və dövlət tərəfindən maliyyələşən universitetlərin elmi araşdırmalarının nəticələrindən, dövlət tərəfindən göstərilən subsidiyalardan və müxtəlif digər məqsədli dövlət quruluşlarının xidmətlərindən ödənişsiz və asanlıqla yararlana bilərlər.

Klaster firmaların məhsuldarlığının artırılması məsələlərində böyük paya sahibdir. Belə ki, yaxşı inkişaf etmiş klaster firmaların bazar, texnologiya, rəqib firmalar və s. bu kimi məlumatları əldə etməsinə imkan yaradır. Lazımi biliklərə sahib olan firmalar öz mənfi tərəflərini daha asanlıqla aradan qaldıraraq məhsuldarlığını artıra bilir. Digər tərəfdən, klaster daxilindəki rəqabət firmaları daha yaxşı fəaliyyət göstərməyə məcbur edəcək və beləliklə də, verimliliyin artırılmasına zəmin yaranmış olacaqdır [1, s. 45-46].

Klasterlər yalnızca firmaların məhsuldarlığını deyil, eyn zamanda innovasiya qabiliyyətinin artmasına da şərait yaradır. Klaster daxilində fəaliyyət göstərən firmalar elm və texnologiyadakı yeniliklərdən daha tez xəbərdar olur və həmin yeniliklərin öz məhsul və xidmətlərini digər firma-

lardan daha sürətli şəkildə tədbiq edə bilir. Təbii ki, yenilikləri bazara ilk tədbiq edən firma rəqabət gücünü əldə etməyə nail olur.

İnnovasiyanın tədbiq edilməsi üçün lazım olan maddi vəsaitin təmin edilməsi baxımından da, klasterlərin önəmi böyükdür. İnnovasiya fəaliyyətinin maliyyələşdirilməsi ilə klaster daxilindəki firmalar rəqib firmalar qarşısında əhəmiyyətli güc qazanmış olarlar. Bu prosesdə yerli təchizatçıların iştirak etməsi ilə istehlakçıların ehtiyaclarının daha tez ödənilməsi təmin edilər [1, s. 45-46]. Əməkdaşlığa əsaslanan tədqiqat və daha sıx rəqabət vasitəsilə daha sürətli innovasiya təmin edilər [9, s. 364].

Ölkəmizdə firmalararası əməkdaşlıq zəif inkişaf etmişdir. Əvəzləyici və tamamlayıcı məhsul istehsal edən firmaların eyni klasterin tərkib hissəsi olması ilə bu əməkdaşlıq güclənə, möhkəmlənə bilər və bunun nəticəsində innovasiya əlçatanlığının təmin edilməsi mümkün ola bilər. “Gələcəyimiz - innovasiyalar, texnologiyalar, yaxşı idaretmə,şəffaflıq və sahibkarlara dövlət dəstəyindədir” fikirlərini öz çıxışlarından birində səsləndirən cənab prezidentimiz İ. Əliyevin görmək istədiyi daha uğurlu Azərbaycan iqtisadiyyatının qurulmasında klasterlərin rolunun böyük olacağını söyləmək mümkündür.

Qloballaşan dünyada bazarın genişləndirilməsini işbirliyi yaradaraq əldə etmək mümkündür. Firmalararası işbirliyi qurulması, əlaqələrin möhkəmlənməsi və bu işbirliyinin davamlılığının təmin edilməsi böyük əhəmiyyətə malikdir. Respublikamızda bazarın genişlənməsi, firmalar və eləcə də, sektorlar arasındakı iqtisadi münasibətlərin güclənməsində yaradılacaq klasterlərin rolunun böyük olacağını xarici təcrübələrə əsaslanaraq söyləmək mümkündür.

**3. Klasterləşmə Nəticəsində Yaranan Mümkün Çatışmazlıqlar**

Klasterlərin yaradılması nəticəsində ölkəmiz üçün yaranacaq müsbət tərəflər nəzərdən keçirilmişdir. Lakin, klaster konsepsiyasından istifadə zamanı bir sıra çatışmazlıqların, mənfi tərəflərin ortaya çıxacağını xarici ölkə təcrübələrindən görmək mümkündür.

Ölkənin iqtisadi böyüməsindən dəfələrlə yüksək iqtisadi artışın müşahidə edildiyi klasterlərin iqtisadi tarazlığın müəyyən qədər pozulmasına yol açdığı danılmazdır. Bu vəziyyət əmlak bahalanması, əməkhaqqının normal artım tempindən yüksək həddə qədər artırılması və firma xərclərinin artmasına gətirib çıxarır. Eyni zamanda, belə yüksək artım müşahidə edilən klasterin tərkib hissəsi ola bilmək digər KOS-lar üçün çox çətin bir hal alır [8, s.5].

Klasterlərarası ortaq işbirlikləri bəzən kartellərin yaranmasına şərait yarada bilər. Klaster sağlam rəqabət mühitində digər klasterin rəqabətqabiliyyətliliyinin azalmasına təkan verə biləcək strateji həmlələr edir. Klasterlərin uğurlu şəkildə fəaliyyət göstərdiyi inkişaf etmiş ölkələrin təcrübəsi bizə göstərir ki, klasterlər bir-birləri ilə rəqabət zamanı iki yoldan istifadə edirlər. Klasterlərin seçdiyi ilk yol yüksək texnologiya, yüksək innovasiya qabiliyyəti, işçilər üçün yüksək standartlara cavab verə biləcək çalışma şəraiti və s. yaradaraq rəqabət etməsidir. Digər qrupa daxil olan klasterlər isə ucuz işçi qüvvəsi, ucuz xammal, aşağı qiymət və s. taktika ilə hərəkət edərlər. Digər tərəfdən, klasterlər qiymət, miqdar, bazar payı, müştəri və ya bölgələrin paylaşması və s. kimi ortaq qərarlar verərək kartellərə çevrilə bilərlər.

Səmərəli strateji qərarların alınmaması və ya yaxşı planlaşdırılmamış yol xəritəsinin olması klaster daxilində fəaliyyət göstərən bütün quruluşlara öz mənfi təsirini göstərəcəkdir. Eyni zamanda, stratejik işbirliyi ilə bağlı müəyyən anlaşılmazlıq və gələcəklə bağlı həqiqəti tam əks etdirməyən gözləntilərin olması da klasterin fəaliyyətinə mənfi təsir göstərə bilər. Qatı qərarların qəbul edilməsi firmaların fəaliyyətinin məhdudlaşdırılmasına və bu quruluşlar arasındakı əməkdaşlıq əlaqələrinin məhdudlaşdırılması və zədələnməsinə səbəb ola bilər. Bənzər şəkildə klasterdə işbirliyi qurumları (dərnəklər, ticari birliklər) və ya araşdırma toplumları (universitetlər, araşdırma mərkəzləri) kimi faktorların əksikliyi, yalnış planlama və istənən hədəflərə nail ola bilməmə kimi sıxıntıları ortaya çıxarır [7, s. 78].

Klasterlərin respublikamızda tətbiq edilməsi zamanı tərəfdaşlarla bağlı ortaya çıxa biləcək çatışmazlıqları aşağıdakı şəkildə sıralamaq mümkündür:

- Tərəfdaşlıq üçün hüquqi və iqtisadi imkanların əksikliyi;

- Tərəfdaşlar haqqında məlumat əksikliyi;
- Tərəfdaşların sistem xaricində saxlanılması;
- Rəsmi olmayan əməkdaşlıq əlaqələrinin olması.

***Nəticə***

Azərbaycan kimi müstəqilliyini yeni qazanmış gənc bir ölkənin qarşısında duran əsas problemlərdən biri də regionlararası inkişaf bərabərsizliyinin mövcud olmasıdır. Bu qeyri-bərabərliyin aradan qaldırılması məsələləri Azərbaycan iqtisadi siyasətinin üstünlük verdiyi məsələlərdən olmalıdır. Bu baxımdan da, hər bir bölgənin rəqabət üstünlüyü, istehsal dinamikləri nəzərə alınaraq həmin bölgəyə uyğun KOS-ların bir araya gələrək klaster yaratması üçün zəmin yaradılmalıdır. Xüsusilə, geridə qalmış regionlarda işçi qüvvəsinin, təhsil səviyyəsinin aşağı olduğu nəzərə alınaraq həmin regionun istehsal potensialına uyğun olaraq işçi qüvvəsinin maarifləndirilməsinə, peşə hazırlığına ehtiyac vardır.

Bu çalışmada, Azərbaycanda klasterlərin hazırkı vəziyyəti ilə bağlı məlumatlar, klasterlərin yaradılması ilə əldə ediləcək faydalar və yarana biləcək mənfi hallar əks etdirilmişdir. Tədqiqat zamanı klasterlə bağlı xarici və yerli ədəbiyyatlardakı tədqiqatlar nəzərdən keçirilmişdir.

Çalışmada, klasterlərin inkişafının Azərbaycan iqtisadiyyatına göstərəcəyi müsbət təsirlər ilə bağlı fikirləri aşağıdakı kimi sadalamaq mümkündür:

- Regionlararası iqtisadi bərabərsizliyin azaldılması;
- Ölkəyə xarici investisiya axınlarını cəlb etmək;
- Dövlətlə sahibkarlar arasındakı münasibətlərin inkişaf etdirilməsi, biznes mühitində baş verən və sahibkarların fəaliyyətinə göstərilən süni müdaxilələrin aradan qaldırılması, sahibkarlara dövlət dəstəyinin təşviqi;
- Firmalararası əməkdaşlığın artması yolu ilə yeniliklərin daha sürətlə tədbiq edilməsi və nəticədə istehsalat potensialının artırılması;
- İqtisadi məhsuldarlığın artması;
- İnnovasiyaya əlçatanlığın təmin edilməsi;
- İstehsalatın artırılması ilə idxalatdan asılılığın azaldılması;
- Klasterləşmə nəticəsində yaranacaq milli brendlərin sayının və ixrac potensialının artması;
- Yeni iş qollarının və yeni təşəbbüslərin artması ilə rəqabətin və məşğulluğun daha da artması;
- İnnovasiyaların davamlı şəkildə tətbiqi məhsuldarlığın artımına gətirib çıxarar;
- Klasterlər bu bölgədə mövcud olan bütün şirkətlərin məhsuldarlığını artırar;
- Rəqabət gücü hesabına əldə edilən üstünlük hesabına şirkətlər regional səviyyədən ümummilli səviyyəyə, ümummilli səviyyədən beynəlxalq səviyyəyə yüksələr. Sektorun bu şəkildə böyüməsi, inkişafının davamlılığı istehsal olunan məhsulların və şirkətlərin iqtisadi cəhətdən ömrünü uzadar.

Klastelərin yaradılmasının ölkə iqtisadiyyatına müsbət təsirləri ilə yanaşı mənfi təsirləri də mümkün ola bilir. Regionda klasterlər yaradılarkən bu təsirlər də diqqət mərkəzində saxlanılmalıdır. Azərbaycanda klasterlərin yaranması ilə ortaya çıxan mümkün iqtisadi çatışmazlıqları aşağıdakı kimi sadalamaq mümkünüdür:

- Eyni klaster daxilində fəaliyyət göstərən firmaların digər firmalar haqqında məlumat əksikliyinin olması nəticəsində güvənsizlik yaranır və firmalararası əməkdaşlığın zəifləməsinə gətirib çıxarar;
Qlobal iqtisadiyyatda baş verən mühüm dəyişikliklər fonunda hər bir ölkədə və iqtisadiyyatın hər bir sektorunda innovativ iqtisadiyyata keçid qaçılmaz olub. Bu sahədə xarici ölkələrin, xüsusən də son dövrlərdə iqtisadi inkişafa malik ölkələrin təcrübəsi göstərir ki, uğurlu iqtisadi və sosial inkişafa nail olmağın yeganə yolu varsa, o da innovasiyaya üstünlük vermək və iqtisadi sektorların innovasiya imkanlarından istifadə etməsini təmin etməkdir [9].

Digər tərəfdən, ölkəmizin iqtisadiyyatının bütün sahələrində innovasiyalara ehtiyac, hər şeydən əvvəl əsas kapitalın fiziki köhnəlməsinin yüksək səviyyədə olması innovativ proseslərin və onların nəticələrinin vaxt itirmədən istehsalata tətbiqini mümkünsüz edir. Əsas fondların köhnəlməsi, məhsulların keyfiyyətinin aşağı olması, baha olması yerli sənayenin rəqabət qabiliyyətini təmin etmir, əksinə, o, həm daxili bazarda, həm də mümkün xarici bazarlarda öz mövqelərini tədricən itirir.

Gələcəkdə Dünya Birliyinə daxil olması gözlənilsə də, milli keyfiyyətdə dünya standartlarına cavab verən hazır məhsul istehsal etmək imkanı yoxdursa, birliyə qoşulmaq mənasız olacaq.

Digər məsələ ondan ibarətdir ki, ölkəmizin dünyada yerini möhkəmləndirmək, rolunu artırmaq milli iqtisadiyyatın inkişaf səviyyəsindən, dünya tendensiyaları ilə tanışlığından asılıdır.

Son illər bir tərəfdən Azərbaycanda aparılan uğurlu iqtisadi islahatlar, digər tərəfdən isə əvvəlki illərdə yaradılmış maliyyə-iqtisadi potensial, digər tərəfdən də iqtisadi böhrana tab gətirmək qabiliyyəti sayəsində ölkə iqtisadiyyatının sabitliyi qorunub saxlanılıb. Məhz bunun nəticəsidir ki, respublikamızın iqtisadi inkişafı, biznes mühitinin liberallaşdırılması və əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər müxtəlif beynəlxalq təşkilatlar və biznes qurumları tərəfindən müsbət qiymət alır [5].

Bildiyiniz kimi, iqtisadiyyatın davamlı inkişafı davamlı artan və qismən üst-üstə düşən innovasiya dövrləri ilə müəyyən edilir. Bütün iqtisadiyyatın davamlı innovativ inkişafına nail olmaq üçün onunla davamlı və sistemli şəkildə məşğul olmaq lazımdır. Ölkənin bütün sahələrində, istehsal və xidmət sahələrində sistem iqtisadiyyatı kimi innovativ iqtisadiyyat yaratmaq lazımdır. Lakin hazırda müxtəlif istehsal və xidmət obyektlərində pərakəndə ticarətdə ən pisi komponent-komponent, hər hansı texnoloji prosesin qismən və ya bir hissəsi, bir neçə avadanlıq parkı və s. Hazırda innovativ yeniliklər müşahidə olunur. Nəzərə alın ki, xammalın emal gücü və avadanlığın sürəti artırılıb, lakin belə sürətlə onu xammalla təmin etmək mümkün deyil. Bu halda yeniliklərin tətbiqi səmərəsiz olacaq [6].

İnnovativ iqtisadiyyat bir sistem kimi iqtisadiyyatın bütün sahələrində ideal şəkildə təşkil edilməlidir. Elmin, mütəxəssislərin inkişafına şərait yaratmaq, kəşflər prosesini sürətləndirmək demək deyil. Kəşflər plana görə deyil, yaradıcılığın nəticəsi kimi dəyərləndirilir. Elmin, istehsalın və digər sahələrin inkişafına resursların rasional bölgüsü əsasında nail olmaq olar. İstənilən ölkədə elmə, elmi, təcrübəli mütəxəssislərə, onların əməyinə qiymət verilmirsə, onların əməyi üçün şərait yaradılmırsa, təbii proses kimi “beyin axını” başqa ölkələrə, imkan və şərait yaradan ölkələrə göndərilir. Hazırda ölkəmizdə bu istiqamətdə şərait hələ də qənaətbəxş deyil. Gənc, istedadlı, fəal alim və alimlərin axını davam edir [6].

Ölkəmizdə innovasiya proseslərinin ləng getməsinin əsas problemlərindən biri də hər ikisinə marağın olmamasıdır və dövlət onları bir araya gətirmək üçün şərait yaradır.

- qanunvericilik bazasının olmaması;
- vahid innovasiya infrastrukturunun olmaması;
- iqtisadiyyatın dərin inhisarlaşdırılması;
- kiçik biznes üçün inzibati və vergi maneələrinin olması;
- innovativ proseslərə investisiya qoyuluşunun aydın mexanizminin olmaması;
- zəif istehsal gücü;
- təhsil sistemindəki çatışmazlıqlar;
- əqli mülkiyyətin keyfiyyətinin aşağı olması, yüksək qiymət və mühafizə xərcləri, nəticədə innovasiya və tədqiqat fəaliyyətinin çox az olması, patent və lisenziya bazarının olmaması;
- innovativ xidmətin olmaması;
- elm sahəsində çalışan işçilərin əməkhaqqının çox aşağı olması;

1994-cü il iyulun 1-də qəbul edilmiş “Müəssisələr haqqında” Azərbaycan Respublikasının Qanunu ölkədə yaradılmış və qanunla müəyyən edilmiş fəaliyyəti həyata keçirən şirkətlərin sahibkarlıq fəaliyyətini seçmək azadlığına və hüquqi bərabərliyinə təminat verir [4].

Qeyd etdiyimiz kimi, müvafiq qanunlar yaradılıb, hüquqi baza formalaşdırılıb. Lakin bir çox ölkələrdə qəbul edilmiş “İnnovasiyalar haqqında” Azərbaycan Respublikasının Qanunu və ondan irəli gələn vəzifələr hələ də qəbul edilməmişdir. Bu da öz növbəsində müəssisələrin innovativ inkişafına mane olur. İnnovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan və innovasiya sahəsində hüquqi tənzimləmənin yaradılması üçün vacib olan əsas qanun qəbul edilmədən innovativ inkişaf mümkün deyil [4].

*Nəticə*

İnnovativ fəaliyyətin sürətləndirilməsi və keyfiyyətinin yüksəldilməsi üçün ölkənin iqtisadi sektorunun müəssisələri davamlı innovativ inkişafa ciddi hazırlaşmalıdırlar. Təhlil göstərdi ki, ölkədə aktiv innovasiya strukturu, strategiyası və təşkilati-iqtisadi metodologiyası hələ də innovasiya iqtisadiyyatının əsas prinsiplərinə cavab vermir və davamlı innovasiya inkişafının milli sisteminin yaradılması problemlərini həll etmək iqtidarında deyil.

**ƏDƏBİYYAT**

1. “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu, 14 iyun 2016-cı il.
2. “İnnovasiya fəaliyyəti haqqında” Qanun layihəsi hazırlanmışdır. https://azertag.az/xeber
3. “Müəssisələr haqqında” Azərbaycan Respublikasının Qanunu, 1 iyul 1994-cü il
4. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 1995
5. “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında”. Azərbaycan Respublikası Prezidentinin Fərmanı
6. M.Atakişiyev, Q.Süleymanov. «İnnovasiya menecmenti», Bakı-2004.
7. T.Ə.Quliyev. «Menecmentin (idarəetmənin) əsasları», Bakı-2001 -2005
8. Z.Səmədzadə, «Çin Qlobal Dünya İqtisadiyyatında», Bakı-2009
9. İnnovasiya nədir http://cbc.az/az/az/i_story/nnovasyandr
10. “Bakı Tikiş Evi” ASC-nin 2012-2015 –ci iilər üzrə statistik məlumatları
11. А.А.Мажажихов və Э.Р.Мисхожев-Динамические нормативные модели диагностики экономической устойчивости промышленного предприятия. Научно-аналитический журнал «Вестник Санкт Петербургского Университета ГПС МЧС России», 2012

***Юсиф Ариз оглы Агаев***
***докторант, АУК***
***yusif-aghayev@mail.ru***

**Стратегический взгляд на обеспечение инновационного развития**

***Резюме***

**Целью исследования** является необходимость достижения инновационного развития в сферах производства и услуг, чтобы добиться развития экономики страны, стать конкурентоспособным государством.

**Методология работы**. Комплекс концептуальных положений и научно-методических рекомендаций в области инновационного развития и устойчивости промышленных предприятий составляет теоретическую основу и методологическую базу нашего исследования.

**Прикладная значимость исследования** заключается в том, что исследование механизма управления устойчивостью промышленных предприятий на основе применения инноваций в условиях недостатка информации о внешней среде и неопределенности.

**Результаты исследования** являются научно-методической основой для решения практических вопросов управления инновационной деятельностью.

**Оригинальность и научная новизна исследования** заключается в выявлении факторов, обеспечивающих устойчивость инновационного развития и деятельности предприятий в условиях внешней неопределенности.

***Ключевые слова: разработка, производство, стратегия, инновации, конкуренция.***

*Yusif Ariz Aghayev*
*Ph.D-student, ACU*
*yusif-aghayev@mail.ru*

## A strategic view in providing innovative development

***Summary***

**The purpose of the study** is the need to achieve innovative development in the fields of production and services in order to achieve the development of the country's economy, to become a competitive state.

**The methodology of the work**. A complex of conceptual provisions and scientific methodological recommendations in the field of innovative development and sustainability of industrial enterprises forms the theoretical basis and methodological base of our research.

**The applied importance of the research** is that the investigation of the mechanism of managing the stability of industrial enterprises based on the application of innovation in the conditions of lack of information about the external environment and uncertainty.

**The results of the research** are the scientific-methodological basis for solving the practical issues of innovation activity management.

**The originality and scientific innovation of the research** lies in the identification of factors that ensure the stability of the innovative development and activity of enterprises in the conditions of environmental uncertainty.

***Keywords: development, production, strategy, innovation, competition.***

# III BÖLMƏ.
# AQRAR-ƏRZAQ KOMPLEKSİNİN İNKİŞAF PROBLEMLƏRİ

UOT 338.32

*Fuad Zakir oğlu ABBASOV*
*i.f.d., baş müəllim, Gəncə Dövlət Universiteti*
*Email: Fuadabbasov5555@gmail.com*

## AQRAR-ƏRZAQ MƏHSULLARININ VƏ AQRAQ SAHƏ MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTLİLİK STRATEGİYASININ FORMALAŞDIRILMASINDA AQROMARKETİNQİN ROLU

*Xülasə*

**Tədqiqatın məqsədi** aqrar sahə müəssisələrinin və məhsullarının rəqabət qabiliyyətinin formalaşdırılması və yüksəldilməsi məqsədilə səmərəli marketinq strategiyasının və tədqiqatlarının planlaşdırılması və reallaşdırılmasının əsas prinsiplərini müəyyən etmək, bu istiqamətdə elmi-nəzəri əsaslandırılmış və təkmilləşdirilmiş təkliflər verməkdən ibarətdir.

**Tədqiqatın metodoloji bazasını** aqromarketinq sahəsində mövcud olan tədqiqatlar, strategiyalar, elmi-nəzəri yanaşmalar və s. təşkil edir.

**Tədqiqat metodları.** Tədqiqat zamanı təhlil, analitik ümumiləşdirmə, sistemli yanaşma, induksiya və deduksiya metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti.** Tədqiqatın nəticələri aqrar sahə müəssisələrinin aqrar bazarda daha uğurlu fəaliyyət göstərmələri, rəqabət qabiliyyətli olmaları, istehsalına yüksək tələb olan məhsulların həcmi və çeşidinin, keyfiyyət göstəricilərinin, istehsalın xarakterinin müəyyən edilməsi, perspektivdə ixtisaslaşma və fəaliyyət istiqamətlərinə dair proqnozların verilməsi, istehsalın bazarın tələb-təklif prinsiplərinə müvafiqləşdirilməsi məqsədilə marketinq konsepsiyalarının tərtibi və təkmilləşdirilməsində istifadə edilə bilər.

**Tədqiqatın nəticələri.** Tədqiqat nəticəsində aqrar sahə müəssisələrinin rəqabət qabiliyyətinin formalaşdırılması, nisbi və mütləq üstünlüklərdən səmərəli istifadə etməklə bazarda daha dayanıqlı və uzunmüddətli fəaliyyət göstərmək üçün vacib olan təkmil aqromarketinq konsepsiyasının formalaşdırılmasının prinsipləri əsaslandırılmışdır.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat nəticəsində aqrar sahə müəssisələrinin və aqrar-ərzaq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə aqromarketinq strategiyasının işlənməsi prinsipləri və əsas istiqamətləri müəyyən edilmişdir.

***Açar sözlər: aqrar sahə müəssisələri, rəqabət qabiliyyəti, aqromarketinq, marketinq strategiyası.***

### *Giriş*

Son zamanlar aqrar-ərzaq məhsulları istehsalı sahəsində əsas vəzifələrdən biri, müəssisələrin fəaliyyət şərtlərinin müsbət mənada dəyişdirilməsi və yaxın perspektivdə istehsalın səviyyəsini yüksəltməyə və sahənin rəqabət dayanıqlılığının, aqrar-ərzaq məhsulları istehsal edən subyektlərin rəqabət üstünlüklərinin təmin edilməsinə nail olmaqdan ibarətdir. Bu məsələdə uğur əldə etmənin strateji məqsədi rəqabət üstünlüklərinin yaradılması, möhkəmləndirilməsi və onun uzun müddət saxlanılmasıdır.

Əsas məsələlərdən biri də aqrar sahədə fəaliyyətin və istehsal edilən məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsindən ibarətdir. İstehsal məhsullarının keyfiyyətinin təmin edilməsi, müa-

sir standartlara uyğunlaşdırılması rəqabət dayanıqlılığının formalaşmasında əsas amillərdən biridir və bu amil həm də mühüm strateji məqsəd olan milli təhlükəsizliyin təmininin əsas komponentlərindən birinin-ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli amil hesab edilir. Ona görə rəqabət qabiliyyətinin yüksəldilməsi sahəsində tədbirlərin həyata keçirilməsi aqrar sahədə yeni yanaşma, yenilikçilik, islahat, dəyişiklik, tənzimləmə və təkmilləşdirmə proseslərində prioritet istiqamətlərdən biri olmalıdır.

**Rəqabət qabiliyyətinin formalaşmasının mahiyyəti**

Ümumiyyətlə son illərdə baş verən qlobal dəyişiklilklər, rəqabətqabiliyyətlilik, rəqabət dayanıqlılığı, rəqabət potensialı anlayışlarını tədqiqatların əsas müzakirə obyektlərindən birinə çevirmişdir [10, s. 55-57; 6, s.103; 17, s. 1142]. Nəzərə alaq ki, rəqabət qabiliyyətini müəyyən edən və yüksəldilməsinə zəmin yaradan istehsal amilləri həm də dövlətin mütləq üstünlüklərini müəyyən edən amillərdir. Deməli, rəqabət qabiliyyətinin yüksəldilməsində mütləq üstünlüklərin səmərəli istifadəsi mühüm rol oynayır.

Rəqabətqabiliyyətlilik dedikdə, mövcud konyunktur daxilində fəaliyyət sahəsi bazarında uğur əldə etməyə zəmin yaradan dəyər və keyfiyyət xüsusiyyətlərindən istifadə edərək rəqiblərlə münasibətdə inhisarçı mövqeyə nail olmaq başa düşülür. Rəqabət qabiliyyəti sahəvi bazarda dayanıqlı vəziyyəti və kifayət qədər qazanc əldə etmək imkanı verən məhsullara məcmu istehlak tələbatının ödənilməsini ifadə edir [12, s. 750].

Son illər həm də rəqabət qabiliyyəti anlayışına sinonim olan amillərlə təmin etmə ifadəsi işlədilir. Bu ifadə mahiyyətcə ölkənin istehsal amilləri daha böyük potensiala malik olan və intensiv istifadə edilən məhsul və xidmətlərin ixracına daha çox önəm verilməsini əks etdirir. Ümumiyyətlə isə, ölkələrin, sahənin, fəaliyyət subyektinin rəqabət qabiliyyəti konkret fəaliyyət və istehsal sahələrində nailiyyət və uğursuzluqların əsas indiqatoru kimi çıxış edir və subyektlərin dünya təsərrüfat sistemindəki reytinqini müəyyən edir [1, s. 19]. Təbii ətraf mühitdə, cəmiyyətdə əsas qanunauyğunluqlardan biri olan təbii seçmənin hərəkətverici qüvvəsi, mövcudluq dövrünün və qabiliyyətinin artırılması üsullarından biri məhz rəqabətdir.

Geniş mənada rəqabət (latınca “concurrere”-birlikdə qaçmaq, rəqabət aparmaq) müxtəlif bioloji varlıqların mövcudluq uğrunda mübarizə qabiliyyətinin təzahürü kimi də başa düşülür. Təbii seçim və mübarizə prosesində, müvafiq şərtlər çərçivəsində rəqabət şəraitinin və təsərrüfat subyektlərinin müxtəlifliyi davranışları dəyişdirərək, bazarın konyunkturuna uyğun müxtəlif yeni davranış strategiyaları formalaşdırır [18, s. 35].

İnhisarçı mövqe uğrunda mübarizə o zaman təbii və dinamik proses kimi baş verir ki, liberal iqtisadi münasibətlər sistemi mövcud olsun. Məhz liberal iqtisadi prinsiplərin dominant olduğu mühitdə nəticələri məlum olmayan çoxlu variantlar yaranır, iştirakçılar mövqe mübarizəsi və rəqabət zamanı müxtəlif səviyyəli rəqabət potensialı əldə edir. Deməli, mühit subyektlərin fəaliyyətinə və davranışına bilavasitə təsir edir və rəqabətli təkamülün təsiri altında fəaliyyət göstərmələri labüdləşir [16, s. 168].

Aqrar sahədə davamlı sosial-iqtisadi inkişafa, intensiv istehsal mərhələsinə keçid zamanı strateji hədəflərə nail olmaqda rəqabət mühitinin yaradılmasının zəruri şərt olması, bir çox inkişaf etmiş ölkələrin təcrübəsindən məlumdur [5, s. 101].

Aqrar sahənin strukturuna və aqrar müəssisələrin qarşılıqlı əlaqələrinə təsir edən bir çox xüsusiyyətləri var. Həmin xüsusiyyətlərin təsiri özünü daha çox istehsal subyektlərinin fəaliyyətində təzahür etdirir. Bu isə o anlama gəlir ki, rəqabətli mühitdə uğurlu fəaliyyət gəstərmək və rəqiblərlə mübarizə aparmağın çox çətin olmasına baxmayaraq, bu şərt aqrar sahə müəssisələri üçün əsas hərəkətverici qüvvədir. Eyni zamanda aqrar sahə müəssisələrinin öz fəaliyyət yerlərini seçmək imkanlarının məhdudluğu, bəzən isə seçim imkanının istisnası, onların rəqabət aparmaq imkanlarını digər sahə müəssisələri ilə müqayisədə daha çox məhdudlaşdırır. Bu, aqrar sahə müəssisələri üçün müəyyən problemlər yaratsa da, bir çox hallarda onların inhisarçı mövqe qazanmaq imkanını genişləndirir [20, s. 55-56].

Ölkənin milli rəqabət qabiliyyətinin formalaşdırılması, inkişaf etdirilməsi və nəzarət edilməsi çətin olan təsadüfi, xaotik hadisələr kompleksindən asılıdır. Ölkənin rəqabət qabiliyyəti əsasən dövlətin iqtisadi siyasətinin xarakteri, prosesə yanaşma prinsipləri ilə də bağlıdır. Bu amillər rəqabət qabiliyyətinin formalaşmasında və güclənməsində dövlətin gücündən, o cümlədən inzibati, iqtisadi, demoqrafik və s. gücündən istifadəni şərtləndirir.

Rəqabət qabiliyyətinin formalaşmasında və dayanıqlılığının təmin edilməsində dövlətin təsir imkanları olduqca genişdir. Mövcud geniş imkanlardan istifadə istiqamətləri və yolları müxtəlif olsa da, onları aşağıdakı kimi fərqləndirmək mümkündür:

1. Milli iqtisadi sistemin müxtəlif fəaliyyət sahələrində yeni, daha perspektivli müəssisələrin yaradılması, inkişafı, ixtisaslaşdırılması, fəaliyyətin şaxələndirilməsi, böyük müəssisələrin bölünməsi və yarananların inkişaf etdirilməsi təşəbbüslərini dəstəkləmək və stimullaşdırmaq;

2. Ölkəyə ən son innovativ texnologiyaların transferinə nail olmaq, istehsal və xidmət sahələrində texnoloji təminat, yenilikçi bilik, süni zəka, innovativ dərrakə, innovativ düşüncə sahəsində ciddi tədbirlər görmək, bu istiqamətdə fəaliyyəti prioritetlşdirmək və əsaslı nailiyyətlər əldə etmək üçün qloballaşan dünyada və iqtisadi sistemdə güclənən rəqabəti nəzərə almaq;

3. İqtisadi fəaliyyət sahələrinin bütün personalının, spesifik fəaliyyətlə məşğul olan işçilərin tədris-tədqiqat mərkəzlərinin informasiya bazalarına, innovativ texnologiya yaradan və tətbiq edən mərkəzlərə çıxışını təmin etmək;

4. Xidmət və istehsal sahələrində çalışan mütəxəssislərin qabaqcıl tədris və elm mərkəzlərinin təşkil etdiyi ixtisasartırma, yenidən hazırlanma, təcrübə mübadiləsi proqramlarında iştiraklarını təmin etmək və əldə edilən təcrübə əsasında milli kadr hazırlığı proqramlarını yaratmaq;

5. Sadalanan tədbirlərin reallaşdırılması məqsədilə xüsusi fondlar, maliyyə mənbələri yaratmaq və güzəştli kreditlər, subsidiyalar, yardımlar vermək və müəssisələrin bu maliyyə strukturlarına əlçatanlığına əlverişli şərait yaratmaq.

Qeyd edilən tədbirlərin həyata keçirilməsində dövlətin inzibati və iqtisadi imkanlarından istifadə əhəmiyyətli hesab edilir və bütün sahələrdə olduğu kimi, aqrar sahədə də rəqabət qabiliyyətinin daha da yüksəldilməsinə yönəldilməlidir.

Milli səviyyədə və fəaliyyət sahələrində rəqabət qabiliyyətinin yüksəldilməsi, istehlakçıya münasibətdə inhisarı, inhisarçılığı aradan qaldırmağa xidmət edən bir prosesdir və bu proses zamanı inhisarçılıq və rəqabətin qarşılıqlı əlaqəsi meydana gəlir, əməkdaşlıq formaları yaranır və inkişaf edir. Bəzən isə qarşılıqlı münasibətlərdə qarşıdurma, münaqişə hallarına rast gəlinir [14, s. 219].

Adətən rəqabət və inhisarçılığın münasibətləri və qarşılıqlı təsirləri daha geniş və çoxtərəflidir. Eyni zamanda, müəyyən şərtlər daxilində rəqabət inhisarçılığa səbəb olursa, digər hallarda diaqonal əks nəticələr yarada bilər. İnhisarçılıq və rəqabətin qarşılıqlı münasibətlərinin və təsirlərinin tənzimlənməsində, fəsadlarının aradan qaldırılmasında, münaqişəli vəziyyətin qarşısının alınmasında dövlət mühüm rol oynayır [13, s. 104-105].

Rəqabət qabiliyyətinin artırılması sahəsində dövlət siyasətinin və dəstəyinin düzgün təşkil edilməməsi aqrar sahənin və ərzaq məhsullarının rəqabətqabiliyyətliliyinə mənfi təsir edir və onların yerli, regional və qlobal səviyyələrdə rəqabət qabiliyyətlilik səviyyəsini aşağı salır. Ona görə aqrar sahədə rəqabətqabiliyyətinin təmin edilməsi və yüksəldilməsi tədbirləri xüsusi diqqət mərkəzində olmalıdır.

Bildiyimiz kimi, rəqabət qabiliyyətinin yüksəldilməsində bir sıra amillər ciddi təsirə malikdirlər. Bu baxımdan istehsal və xidmət infrastrukturunun inkişafına nail olunması mühüm əhəmiyyətə malikdir, çünki, aqrar sahədə istehsal infrastrukturunun daim təkmilləşdirilməsi və inkişafı aqrar-ərzaq istehsalçılarının rəqabət üstünlüklərini artırır, lokal və regional inhisarçılığın yaranmasının qarşısını alır.

Aqrar sahə müəssisələri üçün rəqib anlayışı daha mücərrəddir, onun diqqətini cəmləşdirdiyi və əsas motiv kimi xidmət etdiyi müəyyən rəqib dairəsi yoxdur. Gəliri artırmaq və ya saxlamaq, bazarda ciddi üstünlük əldə etmək istəyi, rəqabətdə geridə qalmaq qorxusu daha azdır və bunlar rəqabətin olmaması kimi görünə bilər. Bu vəziyyətdən istifadə edən bəzi müəssisələr müəyyən

məhsulların satışını inhisara alır və öz mövqeyini daha da gücləndirərək, digərlərini bazarda sıxışdırmağa nail olur [19, s.7-8].

Rəqabət üstünlüyü və ya rəqabətqabiliyyətliliyi üçün istənilən sahədə rəqabət qabiliyyəti anlayışı diqqət mərkəzində olmalı, onun müxtəlif səviyyələrdə təmin olunması üçün lazımi addımlar atılmalıdır. Bu halda məhsulun rəqabət qabiliyyətinin təmin olunmasına şərait yaranır.

Məhsulun, o cümlədən aqrar-ərzaq məhsulunun rəqabət qabiliyyəti dedikdə, satış və istehlak zamanı istehlakçı üçün uyğunluq göstəricisi, istehlak modellərinə müvafiqlik, yəni alıcıların, istehlakçıların tələblərinə uyğun parametrlərin olması, məhsulların istehlakçıların müqayisəli xüsusiyyətlərinə, məhsulun maya dəyərinin onun istehlak dəyərinə adekvatlığı başa düşülür [15, s. 372]. Məhsulun rəqabət qabiliyyəti nə qədər yüksək olarsa, bu həm aqrar sahənin, həm də aqrar-ərzaq məhsullarının rəqabət dayanıqlılığını bir o qədər yüksəldər [11, s. 22-23].

Məhsulların bədii estetik tərtibatı, xarici görünüşü, istifadə rahatlığı, keyfiyyət tələblərinə, bəzi hallarda milli adət-ənənələrə və normalara uyğunluğu və s. də onların rəqabət qabiliyyətinin formalaşmasında çox böyük rol oynayır. Məhsul həm də qiymət baxımından rəqabətə davamlı, real olmalı, şişirdilmiş olmamalıdır. Təcrübə göstərir ki, yeni innovasiyalı texnologiyalar əsasında istehsal edilmiş məhsullar daha yüksək rəqabət qabiliyyətinə malik olurlar ki, bu da onların rəqabətlilik göstəricisini daha dayanıqlı edir. Bu göstərici məhsul və xdmətin istehlakçının tələbatının tam və dolğun ödəyən keyfiyyət göstəricilərinin və istehsal xərclərinin məcmusu kimi səciyyələndirilir. Məhsulun rəqabətqabiliyyətliliyi həm də bir çox komponentlərin məcmu xüsusiyyətlərini təzahür etdirən inteqral göstəricidir.

Aqrar-ərzaq məhsullarının rəqabət qabiliyyətinin formalaşmasında həm aqrar-ərzaq bazarının rəqabət dayanıqlılığının yüksəldilməsi, həm də rəqabət qabiliyyətli məhsul istehsal etmək iqtidarında olan peşəkar əmək ehtiyatlarının rolu nəzərə alınmalıdır [3, s. 53]. Bu aspektdən yanaşaraq demək olar ki, rəqabətqabiliyyətinin və üstünlüyünün artırılması konsepsiyasına sosial-iqtisadi tədbirlərin məcmusu kimi baxılmalıdır [2, s. 28-30], yəni məsələnin sosial və iqtisadi problemləri kompleks həll edilməli, görülən tədbirlər hər iki istiqaməti əhatə etməlidir.

**Aqromarketinqin rəqabət qabiliyyətinin formalaşmasında rolu.** Aqrar sahədə istehsalın və ərzaq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsinin prinsipial məsələlərindən biri bu sahə məhsullarına tələbin səviyyəsinin müəyyən edilməsidir. Müasir bazar münasibətləri və mexanizmləri sistemində istehsalın xarakteri, ixtisaslaşma səviyyəsi və istiqaməti, bazara təklif edilən məhsulların çeşidi və həcmi tələb-təklifə əsaslanmalıdır. Tələb olunan məhsulun çeşidi və həcmi isə bilavasitə marketinq tədqiqatlarının nəticəsində müəyyən edilə bilər. Aparılan sistemli aqromarketinq tədqiqatları tələbin hansı ərzaq məhsuluna olmasını müəyyən edir və izafi xərclərin aradan qaldırılmasına imkan verir, istehsalda real əməliyyatları planlaşdırmağa, personalı motivləşdirməyə, nəzarətin düzgün təşkilinə zəmin yaradır və s.

Müasir şəraitdə aqrar sahə müəssisələri tərəfindən aqromarketinq fəaliyyətinin düzgün planlaşdırılması, təşkili və idarə edilməsi onların rəqabət qabiliyyətlərini artıran, dayanaqlılığını təmin edən ən mühüm amillərdən biridir. Təsadüfi deyil ki, inkişaf etmiş ölkələrin aqrar sahə müəssisələri məhz bu prinsipi rəhbər tutaraq, aqromarketinqdən geniş istifadə edirlər və istehsal etdikləri məhsulların rəqabət qabiliyyətini yüksəldirlər və beləliklə də həmin məhsulların daxili və beynəlxalq bazarlarda satışını uğurla təşkil edirlər.

Aqromarketinqdən səmərəli istifadə, müəssisələrə maliyyə ehtiyatlarından daha səmərəli istifadə edərək daha çox gəlir əldə etməyə, məhsul istehsalına, məhsulun bazarda hərəkət etdirilməsinə, maliyyə məsrəflərini azaltmağa, əldə edilən gəlirləri təkrar istehsala yönəltməyə və əsas iqtisadi göstəricilərdə irəliləyişə nail olmağa imkan verir.

Aqrar sahədə fəaliyyət göstərən subyektlərin marketinq fəaliyyətini aqromarketinq, yaxud sadəcə marketinq kimi nəzərdən keçirmək olar. Aqromarketinqə aqrar-ərzaq məhsulları istehsalçıları və istehlakçılarının qarşılıqlı münasibətlərinin səmərəli təşkili və daha faydalı nəticələrə fokuslanan bazar fəaliyyəti kimi də baxmaq olar. Bu fəaliyyət həm də aqrar-ərzaq məhsullarının tədarükü, istehsalı, bölgüsü, mübadiləsi və istehlakı prosesinin idarə olunması funksiyasını icra edir. Aq-

romarketinqin formalaşması və inkişafının aqrar istehsalın aşağıdakı xüsusiyyətlərindən asılı olmasını qeyd etmək olar:

- Proqnozların verilməsi problemləri: təbii-iqlim şəraitinin qeyri-müəyyənliyi nəticəsində kənd təsərrüftı müəssisələrində istehsal olunan məhsulun keyfiyyəti və həcminin idarə olunmasının mürəkkəbliyi, təklifin tarazlaşdırılması üzrə proqnozların verilməsində çətinliklər yaradır;
- Təbii-iqlim şərtləri: əlverişsiz təbii-iqlim mühitində istehsal olunan məhsulun kəmiyyət və keyfiyyət göstəricilərinin mənfi istiqamətdə dəyişməsi müəssisənin də rəqabət qabiliyyətinın zəifləməsinə səbəb olur və əksinə, əlverişli iqlim şərtləri daxilində əldə edilən məhsulun kəmiyyəti və keyfiyyəti və paralel olaraq rəqabət qabiliyyəti də yüksəlmiş olur;
- Bazarda yaranan risklər: anoloji xüsusiyyətli məhsulların bir çox müəssisədə istehsal olunması və bazara təklifi, həmin məhsul istehsal edən təsərrüfatların bazardakı payını azaldır ki, bu da müəyyən bazar riskinin yaranma ehtimalını artırır. Bu risklər adətən bazarın təşkilati-iqtisadi strukturunda və fəaliyyət mexanizmində baş verən dəyişikliklərlə, aqrar-ərzaq məhsullarının az müddətdə saxlanıla bilməsi ilə, təbii amillərin xarakteri və ehtiyatların məhdud olması ilə, məhsul istehsalında ixtisaslaşmanın lazımi səviyyədə olmaması ilə, iqtisadi sistemdə baş verən inkişaf və dəyişikliklərlə bağlı olur [3, s. 7-13].

Müxtəlif yanaşmalara görə aqromarketinq əmtəə və xidmətlərə olan tələbin, idarəetmənin, insanların, sahənin və ideyaların aqrar biznesdə mübadilə vasitəsi ilə proqnozlaşdırılması və idarə edilməsidir [9, s. 12]; əmtəələrin təklifi və mübadiləsi hesabına ayrı-ayrı şəxslərin və istehlakçı qrupların ehtiyac və tələbatının təmin edilməsinə yönəldilmiş idarəetmə prosesidir [8, s.78].

Nəzərə almaq lazımdır ki, aqromarketinq bir proses kimi aqrar bazarda həyata keçirilən fəaliyyətlə məhdudlaşmır. Bu fəaliyyət həm də məhsulun satışdan sonrakı mərhələlərdə, o cümlədən istehlakçıya çatdırılma ilə bağlı xidmətləri, istifadə olunmuş məhsulların və onların tullantılarının son emalını nəzərdə tutur. Ona görə aqrar sahə müəssisələri aqromarketinq fəaliyyətinin təşkili və həyata keçirilməsi zamanı sadalanan amillərlə yanaşı, keyfiyyətin təmin olunmasına və rəqabət qabiliyyətinin yüksəldilməsinə birbaşa və dolayı təsir edən amillər kompleksini nəzərə almalıdırlar.

Marketinqə istehsalın təşkili və satışın kompleksi kimi də baxılır. Marketinq bazarda tələb-təklif nisbətinə görə istehlakçıların davamlı olaraq dəyişən arzu, istək, zövq və tələbatlarının, istehlak modellərinin kompleks ödənilməsini, fəaliyyət subyektlərinin dayanıqlı inkişafını təmin etməyi, rəqabət qabiliyyətlərini yüksəltməyi əsas məqsəd hesab edir. Eyni zamanda marketinq müəssisələr üçün qarşılıqlı əlaqəli və bağlı olan fəaliyyətin strateji məqsədi, fəlsəfəsi, missiyası, idarəetmə üsulu və qabiliyyəti, korporativ mədəniyyəti, işgüzar münasibətlər etikası və s. elementlərin kompleksini əks etdirir.

Müəssisələrin fəaliyyətinin təşkili məsələsində proqnozlaşdırma mühüm əməliyyatlardan biridir. Aqrar sahə müəssisələrinin həyata keçirdiyi marketinq fəaliyyətində həm də qısa, orta və uzun müddətli proqnozların işlənib hazırlanması mümkü olur. Marketinq həm də planlaşdırmanın bir aləti kimi bazarın seqmentləşməsi və bazar haqqında məlumatların toplanması, məhsulların təkmilləşdirilməsi, reklamı, markalanması, qablaşdırılması, qiymətqoyma, çatdırılması və s. proseslərə əhəmiyyətli təsir edir. Yəni marketinq bazarda müəssisənin uğurlu fəaliyyət göstərə bilməsi üçün yuxarıda qeyd edilənlərin düzgün planlaşdırılmasına və həyata keçirilməsinə imkan verir [71, s. 7-8].

Marketinq müəssisənin, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin mənfəət əldə etmək, strateji və taktiki məqsədlərə çatmaq üçün istehlakçı auditoriyasının tələbatlarını, meyillərini, istək və arzularını öyrənən və əsas tələbatlarının təmin edilməsinə çalışan fəaliyyət kompleksidir və proses kimi, istehlakçı tələbatlarının dinamikasını, məhsulun alınmasını motivləşdirən amilləri və istehlakçı davranışlarını öyrənir, məhsulların istehlakçı zövq və istəklərinə müvafiq istehsal edilməsi, qablaşdırılması, satışın təşkili zamanı xidmətlərin təşkili, qiymətin əmələ gəlməsi və qiymətin qoyulması, məhsulun həyat dövrünün uzadılması məqsədilə lazımi tədbirlərin görülməsi kimi məsələləri əhatə edir [4, s. 23].

Qeyd etdiyimiz yanaşmaları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, ümumiyyətlə aqromarketinq dedikdə aqrar sahə məhsullarının mübadiləsi və bölgüsünün konkret idarəetmə formaları, funksiyaları və metodları başa düşülür. Aqromarketinq həmçinin aqrar sahədə həyata keçirilən fəaliyyət növlərinin biri kimi də təvsif edilə bilər və aqrar sahənin fəaliyyət subyektləri arasında mübadiləni təşkil və tənzim etmək yolu ilə istehlakçıların ehtiyaclarının təmin edilməsini əsas məqsəd hesab edir.

Aqromarketinqin müasir konsepsiyası aqrar sahə müəssisələri tərəfindən istehsal edilən məhsulların realizə edilməsi prosesi ilə sıx əlaqədar olan tələbat, tələb, əmtəələr, iş, xidmətlər, dəyər, xərc, təminat, mübadilə, sövdələşmələr, rəqiblər arasında baş verən münasibətlər, bazar və onun subyektləri və s. komponentlərin tərkib hissəsinin tədqiq olunmasını nəzərdə tutur.

Sözsüz ki, aqrar sahədə fəaliyyət göstərən hər bir müəssisənin fəaliyyətinin özünəməxsus xüsusiyyəti olduğundan yuxarıda qeyd olunan aqromarketinq elementləri əhəmiyyətlilik dərəcələri baxımından müəssisələrə görə fərqli ola bilər. Bu fərqlilik təsərrüfat mühitinin xarakterində olan, müəssisələrin rəqabət mübarizəsində uğur qazanmaları və yüksək maliyyə nəticələri əldə edə bilmələri üçün məhsullarının davamlı istehsalı ilə bağlı xərclərinin strukturunda etdikləri dəyişikliklər və s. ola bilər.

Marketinqin idarə edilməsində reklamdan istifadə əhəmiyyətli yer tutur. Reklam dedikdə kütləvi informasiya vasitələri və ya başqa növ vasitələrlə həyata keçirilən, insanları könüllü olaraq hər hansı bir məhsula və ya müəssisənin marağına tərəf fikirləri cəlb edən pullu müraciət formasıdır. Reklam məhsulun satışa çıxarılması üçün vacib komponentlərdən biridir. Cazibədar, təkrarlanmayan, məxsusi, təsirli, inandırıcı, heyrətləndirici reklam məhsulun satışının artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsində mühüm rol oynayan amillərdən biridir.

Aqrar sahə müəssisələrinin aqromarketinq fəaliyyətində məhsulun keyfiyyətinin təmin edilməsinə xidmət edən işlər xüsusi yer tutur. Çünki, istehlakçı bazarda məhsul seçərkən onun keyfiyyətinə fikir verir. Eyni zamanda istehlakçıların keyfiyyət anlayışına baxışları birmənalı deyil və çox dəyişkəndir. Belə ki, onlar məhsulu alarkən keyfiyyətlə yanaşı onun qiymətini, reklamını, faydalılığını, ona olan ehtiyaclarını və s. nəzərə alırlar.

Aqrar sahədə keyfiyyət həm də aqrar istehsalın səmərəliliyinin yüksəldilməsinin təkanverici qüvvəsi kimi çıxış edir. Çünki ölkə səviyyəsində əhalinin və emal sənayelərinin aqrar sahə məhsullarına olan tələbatlarının ödənilməsi məhsulun keyfiyyətinin yüksəldilməsi və ya yeni, daha təkmil növünün istehsalı, həcminin artırılması, aqromarketinq tədqiqatlarının aparılması və elmi-texniki tərəqqinin inkişafı hesabına baş verir. Nəticədə aqrar sahə müəssisələrinin fəaliyyətinin səmərəliliyi, rəqabət qabiliyyəti yüksəlir, ölkənin iqtisadi inkişaf səviyyəsi artır.

Aqrar sahə müəssisələri istehsal olunan məhsulun keyfiyyətinin artırılması hesabına daha yüksək gəlir əldə etmək, bazarda paylarını artırmaq imkanlarını genişləndirirlər və bu gəlir hesabına istehsalda texniki-texnoloji yeniləmə apararaq, keyfiyyətcə yeni çeşid məhsullar istehsal etməyə nail olurlar. Yeni çeşid, keyfiyyətli məhsulların istehsalı və bazara təklif edilməsi sahənin rəqabət qabiliyyətini artırmağa zəmin yaradır ki, bu da məhz aqromarketinq tədqiqatları sayəsində əldə edilir. Belə ki, yeni çeşid aqrar-ərzaq məhsullarının xüsusiyyətlərinin və keyfiyyət standartlarının müəyyən edilməsi aqromarketinq tədqiqatlarının nəticələrinə əsaslanır. Eyni zamanda tələbatların, məhsulların çeşidlərinin, həcminin və digər göstəricilərinin aqromarketinq tədqiqatlarına əsasən dəqiq müəyyən edilməsi, emal müəssisələrinə fəaliyyət istiqamətlərinin dəqiqləşdirilməsinə, tədarük, istehsal, paylama, satış və s. əməliyyatlara xərcləri azaltmağa, keyfiyyəti təmin etməyə, gəlirləri çoxaltmağa, rəqabət qabiliyyətini artırmağa və s. müsbət dəyişikliklərə nail olmağa imkan verir.

Tədqiqatlar göstərir ki, bazar iqtisadiyyatı şəraitində aqrar sahə müəssisələrinin rəqabət qabiliyyətinə və istehsal etdikləri məhsulların keyfiyyətinin yüksəldilməsinə təsir edən cəhətlərdən biri də, keyfiyyətin idarə edilməsi sisteminin formalaşması və davamlı olaraq təkmilləşdirilməsidir. Çünki, keyfiyyətin idarə edilməsi iqtisadi inkişafın əsas göstəricilərindən biri kimi çıxış edərək həm ölkənin ərzaq təminatının yaxşılaşdırılmasına, həm də ölkə əhalisinin ərzaq məhsullarına olan

tələbatının daxili imkanlar hesabına ödənilməsinə imkan yaradır.

İqtisadi münasibətlərin liberallaşdırılması şəraitində müəssisələrin normal və dayanıqlı fəaliyyətinin təşkilində aqromarketinqin rolu getdikcə artmaqdadır. Ona görə aqrar sahədə dayanıqlı inkişafı təmin etmək və rəqabət qabilyyətini artırmaq məqsədilə müəssisələrdə bilavasitə aqromarketinqlə məşğul olan müvafiq strukturun yaradılması vacibdir. İstənilən subyektin aqrar-ərzaq bazarında uzun müddət qalması, biznesdə müvəffəqiyyət qazanması, rəqabət mühitində uğurlu fəaliyyət göstərməsi, strateji məqsədlərə çatması, rəqabətqabiliyyətli olması bilavasitə davamlı və sistemli aqromarketinq fəaliyyəti həyata keçirməklə mümkün ola bilər.

**Rəqabət strategiyasının işlənməsi prinsipləri.** Rəqabət bazar münasibətləri şəraitində iqtisadi artımın, məhsulun keyfiyyətinin yaxşılaşdırılmasının, elmi-texniki tərəqqinin sürətlənməsinin, istehsal xərclərinin və qiymətlərin aşağı düşməsinin stimullaşdırıcı amillərindəndir. Sahibkarlığın səmərəli inkişafının zəruri şərtlərindən biri məhz əlverişli rəqabət mühitinin yaradılması və rəqabət üstünlüklərinin müəyyən edilməsidir. Rəqabət üstünlükləri rəqabət mübarizəsinin aparılması zamanı zəruri şərtlərdəndir. Elmi-nəzəri və konseptual əsasda tərtib edilən və real bazar münasibətlərinə cavab verən fəaliyyət zamanı tələb və təklifin dəqiqləşdirilməsi, yenilikçi təşəbbüslərin dəstəklənməsi, sosial-iqtisadi mühitdə baş verən dəyişikliklərin nəzərə alınması və s. rəqabətin artırılması strategiyalarının işlənməsində vacib şərtlərdəndir.

Rəqabət strategiyasının hazırlanması zamanı müəssisələrin güclü və zəif tərəfləri, sahənin özünün və milli iqtisadiyyatın həmin sahədə və bütövlükdə ölkədə rəqabəti müəyyənləşdirən strukturları haqqında mümkün qədər tam təsəvvürə malik olmaq lazımdır. Rəqabət strategiyası baxımından formalaşmış mühitin müəssisələrin rəqabət üstünlüyünün yaranmasına hansı şəkildə təsir göstərə biləcəyini dəqiq bilmək vacibdir.

Rəqabət strategiyasının işlənməsi prosesində müəssisənin fəaliyyətinə təsir edən xarici və daxili amillər nəzərə alınmalıdır. Bu zaman xarici amillərə istehlakçıların arzu, istək, zövq və dəyərlər kompleksi, aqrar bazarın konyunkturu, əmtəə dövriyyəsi, məhsul udmaq qabiliyyəti, istehlak modellərinin dəyişmə istiqamətləri, müəssisələrin rəqabət gücü və bazardakı real mövqeləri, bazarda tələb-təklifin nisbəti və s. amillər aid edilir.

Daxili amillərə müəssisənin personalının yaratdığı psixoloji mühit, korporativ mədəniyyət, istehsal sahəsində fəaliyyətin xarakteri, məhsuldarlığın təmin olunması tədbirləri, müəssisənin təşkilati-idarəetmə strukturunun səmərəli modeli, bölmələr və şöbələr arasında mövcud mühit və münasibətlər sistemi və s. aiddir.

Bazarda rəqabət üstünlüyünün əldə edilməsi, ölkədə formalaşmış iqtisadi münasibətlərdən, müəssisə və ölkədə ehtiyatların ədalətli və səmərəli istifadə səviyyəsindən də asılı olur.

Rəqabət strategiyasının formalaşdırılması bir neçə qarşılıqlı əlaqəli mərhələni əhatə edir. Bu mərhələləri sxematik olaraq aşağıdakı kimi təsvir etmək olar (şəkil 1).

Qeyd edilənləri təhlil edərək belə qənaətə gəlmək olar ki, aqrar sahə müəssisələrnin davamlı inkişafı və rəqabətqabiliyyətli olması, normal rəqabət mühiti şərtləri daxilində mümkün olur və normal şəkildə formalaşdırılmış rəqabət strategiyası olmayan müəssisələr real mühitdə rəqabət aparma imkanlarını qismən reallaşdıra bilir və rəqiblərlə müqayisədə rəqabət qabiliyyəti aşağı olur, davamlı iqtisadi inkişaf edə bilmir. Ona görə aqrar müəssisənin səmərəli fəaliyyət, inkişaf, rəqabətqabiliyyətlilik, uzunömürlülük və s. dayanıqlı keyfiyyətlərinin formalaşması üçün müəyyən təhlillərin aparılması, proqnozların verilməsi və çoxaspektli rəqabət strategiyasının formalaşdırılması zərurətdir.

Müəssisələrin marketinq strategiyasının formalaşdırılması, rəqabət qabiliyyətinin gücləndirilməsi prosesdə mühüm vəzifələrdən biri, strateji fəaliyyət istiqamətləri ilə bağlı proqnozların işlənməsidir.

Proqnoz, aqrar sahənin inkişaf imkanlarını qabaqcadan sezmək və ona nail olmaq üçün elmi cəhətdən əsaslandırılmış taktiki davranışların hazırlanmasını, bu və ya digər şərtlər altında nələrin baş verə biləcəyi haqda düzgün və obyektiv təsəvvürlərin formalaşdırılmasını, sosial-iqtisadi proseslərin təhlilini, mövcud vəziyyətin qiymətləndirilməsini, problemlərin aşkar edilməsini, pers-

pektiv meyillərin müəyyənləşdirilməsini və qiymətləndirilməsini, müəssisənin strateji inkişaf planlarına alternativlərin aşkar edilməsini, optimal seçim edə bilmək üçün iqtisadi informasiyanın toplanmasını, idarəetmə və nəzarət metodlarının seçilməsini və s. məsələləri nəzərdə tutur.




**Şəkil 1. Rəqabət strategiyasının formalaşması mərhələləri**

Rəqabət qabiliyyəti strategiyasının formalaşdırılması kompleksində aqromarketinqin elementlərindən olan proqnozlaşdırma, aqrar sahə müəssisələrinə potensial imkanları hesabına istehsal edə və bazarda sata biləcəkləri məhsulların çeşidini və həcmini müəyyən etməyə və buna uyğun istehsal proqramı işləyib hazırlamağa, bu isə maliyyə fəaliyyətinin, investisiyaların cəlbi siyasətinin, irəlidəki dövrdə əlavə istehsal gücünə olan tələbatın, əlavə xammal ehtiyatlarının və torpaq sahələrinin təmin olunacağını, hansı texnoloji yeniliklərdən istifadə ediləcəyini, risklərin müəyyən edilməsi və qarşısının alınması, aradan qaldırılması tədbirləri və s. məsələlərin planlaşdırılmasını həyata keçirməyə əsas verir.

***Nəticə***

Bütün qeyd edilən və irəli sürülən müddəalar göstərir ki, aqrar sahə müəssisələrinin və aqrar-ərzaq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsində, müəssisələrin fəaliyyətinin səmərəliliyinin artırılmasında, məhsulların keyfiyyətinin yüksəldilməsində və satışının artırılmasında, aqrar bazarlarda seqmentləşmədən daha çox pay əldə edilməsində və s. məsələlərdə aqromarketinq mühüm əhəmiyyətə malikdir. Ona görə də aqrar sahə müəssisələrində marketinq strategiyasının hazırlanması və bu strategiyaya əsaslanan perspektiv fəaliyyətin proqnozlaşdırılması prioritet məsələlərdən biri olmalıdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Allahverdiyev, H.B., Qafarov K.S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı - 2002. – 447 s.
2. Əliyeva, A.H. Ərzaq bazarının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri. Az.ETKTİ və Tİ. Elmi əsərlər. Bakı-2008. №4, – s. 183-188.
3. Əmrahov V., Qasımova A., Həsənov A.. Aqromarketinq. Dərs vəsaiti.-Bakı: Mütərcim, 2014. -112 s.
4. Məmmədov A. Marketinqin əsasları. Dərs vəsaiti.-Bakı 2007, -276 s.

5. Nağıyev, Ə.T. Sosial-iqtisadi inkişafın metodoloji aspektləri. Bakı, 2002. – 270 s.
6. Quliyev, E.A. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Monoqrafiya. Kooperasiya nəşriyyatı. Bakı, 2020. – 464 s.
7. Завьялов П.С.,Маркетинг в схемах, рисунках, таблицах: Учебное пособие.- М.: ИНФРА-М, 2002. - 496 с.
8. Котлер Ф., Основы маркетинга. – Москва. 1991.-698 с..
9. Предеин Д.Б., Агромаркетинг. –М. : Изд-во ММИ, 2002. - 24 с.
10. Фатхутдинов, Р.А. Конкурентоспособность организации в условиях кризиса: экономика, маркетинг, менеджмент. М., СЕГА, 2002. – 356 с.
11. Фрумкин, Б.Е. Страны Центрально-восточной Европы-регионализация продовольственной безопасности // Аграрная Россия – 2003. № 5, – с. 22-29.
12. Хлопенко, О.В. Разработка конкурентных стратегий розничных предприятий на рынке продовольствия // Вестник Донского государственного технического университета. 2011, – с. 749-757.
13. Чайникова, Л.Н. Конкурентоспособность предприятия: учеб. пособие / Л.Н. Чайникова, В.Н. Чайников. – Тамбов : Изд-во Тамб. гос. техн. ун-та, 2007. – 192 с.
14. Chaim Fershtman, Uriel Spiegel. Monopoly versus competition: The learning by doing case. European Economic Review. Volume 23, Issue 2, 1983, Pages 217-222. https://doi.org/10.1016/0014-2921(83)90025-9).
15. Franco, Malerba, Richard Nelson and et all. Demand, innovation, and the dynamics of market structure: The role of experimental users and diverse preferences". Journal of Evolutionary Economics, Springer, 2007. vol. 17(4), – p. 371-399.
16. Jacobides, M.G., Winter S.G., Kassberger S.M. The Dynamics of Wealth, Profit and Sustainable Advantage, LEM Papers Series 2010/22, Laboratory of Economics and Management (LEM), Sant'Anna School of Advanced Studies, Pisa, Italy. – p. 168-169.
17. Midler, E.A., Zhuk E.S. Competitive growth problems of domestic enterprises. Vestnik of Don State Technical University . 11 (8-2): 2011, – p. 1441-1449.
18. Nelson, R.R. Some Features of Research by Economists on Technological Change Foreshadowed by The Rate and Direction of Inventive Activity. University of Chicago Press. 2012, – p. 35-36.
19. Sheldon İan M. The competitiveness of agricultural product and input markets: A review and synthesis of recent research. Journal of Agricultural & Applied conomics 49(1):1-44. 2016. DOI:10.1017/aae. 2016.29.
20. Sykuta Michael. The Fallacy of 'Competition' in Agriculture. The Ethics and Economics of Agrifood Competition. Springer Publishing.2012. DOI:10.1007/978-94-007-6274-9_4. p. 55-73.

***Фуад Закир оглы Аббасов***
***Д.ф. по.э., старший преподаватель,***
***Гянджинский Государственный Университет***
***fuadabbasov5555@gmail.com***

**Роль агромаркетинга в формировании стратегии конкурентоспособности сельскохозяйственной продукции и сельскохозяйственных предприятий**

***Резюме***

**Целью исследования** является определение основных принципов планирования и реализации эффективной маркетинговой стратегии и исследований в целях формирования и повышения конкурентоспособности аграрных предприятий и продукции, а также предоставление научно-теоретических и усовершенствованных предложений в этом направлении.

**Методологическую основу исследования** составляют существующие исследования, стратегии, научно-теоретические подходы и т.д. в области агромаркетинга.

В ходе исследования применялись методы анализ, аналитическое обобщение, системный подход, индукции и дедукции.

**Практическая значимость исследования** заключается в том, что результаты исследования могут быть использованы при разработке и совершенствовании маркетинговых концепций предприятий аграрного сектора с целью их более успешного функционирования на аграрном рынке, повышения конкурентоспособности, определения объемов и ассортимента продукции, качественных показателей, характера производства, прогнозирования перспектив специализации и направлений деятельности, приведения производства в соответствие с принципами рыночного спроса и предложения.

**Результаты исследования.** В результате исследования обоснованы принципы формирования концепции усовершеннего агромаркетинга, что важно для более стабильной и долгосрочной деятельности на рынке за счет эффективного использования относительных и абсолютных преимуществ.

**Научная новизна исследования.** В результате исследования определены принципы и основные направления разработки агромаркетинговой стратегии с целью повышения конкурентоспособности предприятий аграрного сектора и агропродовольственной продукции.

***Ключевые слова: сельскохозяйственные предприятия, конкурентоспособность, агромаркетинг, маркетинговая стратегия.***

***Fuad Zakir Abbasov***
***PhD., Senior Lecturer, Ganja State University***
***fuadabbasov5555@gmail.com***

## The role of agromarketing in forming the competitiveness strategy of agricultural products and agricultural enterprises

***Summary***

**The aim of the study** is to determine the main principles of planning and implementation of effective marketing strategy and research in order to form and increase the competitiveness of agricultural enterprises and products, and to provide scientifically-theoretical and improved proposals in this direction.

**The methodological basis of the research** is based on existing studies, strategies, scientific-theoretical approaches, etc. in the field of agromarketing. contane.

Analysis, analytical generalization, systematic approach, induction and deduction methods were used during the research.

**Applied significance of the study.** The results of the research can be used in the design and improvement of marketing concepts for the more successful functioning of agricultural enterprises in the agricultural market, their competitiveness, determining the volume and range of products, quality indicators, the nature of production, making forecasts on specialization and activity directions in the future, adapting production to market supply and demand principles.

**Results of the study.** As a result of the research, the principles of the formation of the advanced agromarketing concept, which is important for more stable and long-term activity in the market by effectively using the relative and absolute advantages, have been substantiated.

**Scientific novelty of the research.** As a result of the research, the principles and main directions of the development of the agromarketing strategy were determined in order to increase the competitiveness of agricultural field enterprises and agro-food products.

***Key words: agricultural enterprises, competitiveness, agromarketing, marketing strategy.***

UOT: 332:338.012; JEL: R11; R12; R58

*Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV*
*Azərbaycan Kooperasiya Universitetinin dosenti,*
*iqtisad üzrə fəlsəfə doktoru.*
*E-mail: emeherremov79@mail.ru*

# İQTİSADİ RAYONLARDA AQRAR SAHƏNİN İNKİŞAFININ VƏ REİNTEQRASİYA PROBLEMLƏRİNİN NƏZƏRİ ASPEKTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** iqtisadi rayonlarda aqrar sahənin inkişafının və reinteqrasiya problemlərinin nəzəri aspektlərinin tədqiqindən ibarətdir. Ölkənin iqtisadi rayonlarının inkişafının intensivləşdirilməsi sayəsində aqrar sahənin möbcud resurslarından səmərəli istifadə edilməsi, bu sahənin resurslarının təsərrüfat, maliyyə və ixrac potensialının artırılması dövriyyəsinə cəlb edilməsinin vacibliyi elmi dəlillərlə və arqumentlərlə əsaslandırılmışdır.

**Tədqiqatın metodologiyası** kimi ilk növbədə analiz, sintez, müqayisə, ümumiləşdirmə kimi metodlar götürülmüşdür. Bunlarla yanaşı baxılan problemlərə uyğun şəkildə müxtəlif tədqiqatçıların elmi əsərləri də diqqət mərkəzində saxlanılmışdır.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** baxımından qeyd edə bilərik ki, məqalədə əldə olunan elmi-praktiki yeniliklər ölkədə iqtisadi rayonlaşma proseslərinin təkmilləşdirilməsində, aqrar sahənin inkişafında, anoloji rayonların rolunun artırılmasında və reinteqrasiya problemlərinin həllində istifadə olunma potensialına malikdir.

**Tədqiqatın nəticələri baxımından** isə iqtisadi rayonlarda aqrar sahənin inkişafının, reinteqrasiya problemlərinin həlli istiqamətində hazırlanan tədbirlər kompleksində və məqsədli proqramlarda bu məqalədə əldə olunan elmi nəticələrdən istifadə olunması imkanları diqqət çəkir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** nöqteyi-nəzərindən bunu qeyd edə bilərik ki, məqalədə verilən materiallar əsas etibarilə orijinallığı ilə fərqlənir. Əsas elmi yenilik isə müasir şəraitdə iqtisadi rayonlaşmanın yeni modelinin formalaşdırdığı bir dövrdə aqrar sahənin inkişafının, reinteqrasiya problemlərinin həlli istiqamətində yeni baxışların ortaya qoyulması və bu sahədə təkmilləşdirici problemlərin görülməsinin vacibliyinin əsaslandırılmasıdır. İşğaldan azad olunmuş ərazilərdə nəzərə alınmaqla aqrar sahənin inkişafının sürətləndirilməsində iqtisadi rayonların rolunun artırılması və bununla da reinteqrasiya problemlərinin, yəni ölkənin regionları arasında inteqrativ əlaqələrin genişləndirilməsi istiqamətində təkliflər və fəaliyyət mexanizmləri hazırlanmışdır.

***Açar sözlər: iqtisadi rayonlar, aqrar sahə, aqrar sahənin inkişafı, reinteqrasiya problemləri, aqrar sahənin inkişaf perspektivləri, reinteqrasiya problemlərinin həlli yolları.***

## *Giriş*

İqtisadi rayonlarda aqrar sahənin inkişaf etdirilməsi və reinteqrasiyası problemlərinin öyrənilməsi müasir dövrdə aktual problemlərdəndir. Bu problemlərin öyrənilməsi üçün, ilk öncə, rayonlaşdırma anlayışının özünün mahiyyətini açıqlamaq lazımdır. Azərbaycanın və onun regionlarının iqtisadi inkişafının müasir mərhələsində aktual problemlərdən biri ərazilərin qeyri-bərabər inkişafıdır. Müxtəlif regionlarda inkişafa nail olmaqla bağlı müxtəlif fikirlər vardır. Bəziləri, digər regionlarla müqayisədə inkişaf səviyyəsi aşağı olan regionların dəstəklənməsini, bəziləri isə iqtisadi potensialını uğurla reallaşdıran və sosial-iqtisadi göstəricilərin ən yüksək nəticələrinə nail olan regionlara əlavə maliyyə ayrılmasını və yeni qabaqcıl sənayeləri burada yerləşdirməyi məqsədəuyğun hesab edirlər. Lakin bütün regionların eyni vaxtda inkişafının reallaşdırılması üçün çoxşaxəli siyasət daha yüksək prioritetliyə malikdir. Bu və ya digər şəkildə ölkənin iqtisadi artımının və əhalinin rifahının yüksəldilməsi amillərinin formalaşdığı ərazilərin sərhədlərini müəyyənləşdirmək, habelə bu sahədə ən səlahiyyətli idarəetmə qərarlarının qəbulu böyük önəm daşıyır. Bu istiqamətdə rayonlaşdırma proseslərindən istifadə edilir.

Ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin edən önəmli şərtlərdən biri iqtisadi rayonlaşdırmadır. Elmi iqtisadi ədəbiyyatda rayonlaşdırma dedikdə, ölkə ərazisinin xüsusiyyətlərinə görə bir-biri ilə əlaqəli olan inzibati və iqtisadi rayonlara bölünməsi sistemi kimi başa düşülür. Tarixi təcrübə rayonlaşdırmanın obyektiv və daimi proses olduğunu göstərir. Dünyanın müxtəlif ölkələrinin ərazisinin hərtərəfli təhlili aparıldıqda məlum olur ki, bu ərazilərdə formalaşan rayonlar bir sıra mərhələlərdən keçir, onlar bölünür və ya birləşdirilir [1, s.7]. Rayonlaşdırma - ərazinin zonalara bölünməsi, o cümlədən torpaqdan istifadəyə nəzarət etmək üçün zonaların müəyyənləşdirilməsi, layihələndirilməsi və yaradılması prosesidir. İqtisadi rayonlaşdırma bütün sistemdə ən yüksək əmək məhsuldarlığını təmin edən perspektivləri nəzərə almaqla iqtisadi inkişafın təbii və sosial-iqtisadi amillərinin ərazi birləşmələrinin iqtisadi cəhətdən ən sərfəli sistemidir.

**Hazırkı dövrdə iqtisadi rayonlarda aqrar sahənin inkişafının və reinteqrasiya problemlərinin həllinə yanaşmaların təhlili**

Tarixi təcrübədən iqtisadi rayonlaşdırma sxemi hazırlanarkən regionların təbii-iqlim şəraiti, təbii sərvətlərin mövcudluğu və istifadəsi, təsərrüfatların ixtisaslaşması, əhalinin məskunlaşması, keçmişdə formalaşmış adət-ənənələri və həyat tərzi, müvafiq nəqliyyat sisteminin formalaşdırılması kimi amillər əsas götürülür. Ölkə ərazisinin səmərəli rayonlaşdırılması üçün əsas meyarlar, ilk öncə, istehsalın təmərküzləşməsi, resursların mövcudluğu, coğrafi əmək bölgüsü və iqtisadi inkişaf üçün formalaşmış potensialın səviyyəsidir. Ölkə ərazisinin rayonlara bölünməsinə elmi-texniki proses və davamlı tələbatın mövcudluğu da təsir göstərir. Rayonlaşdırma mühüm problemlərin həlli məqsədilə reallaşdırılır və bu çərçivədə ölkə iqtisadiyyatının ərazi sistemi ayrı-ayrı hissələrə - rayonlara bölünür.

Qeyd edək ki, bir qrup meyarlara əsasən ərazinin rayonlara bölünməsi (zonalaşdırılması) reallaşdırıla bilər: inzibati-ərazi bölgüsü (şəhər, rayon, qəsəbə, kənd yaşayış məntəqələri) və ümumi iqtisadi rayonlaşdırma üzrə. Sosial-iqtisadi rayonlaşdırma çoxmərhələli sistem ilə xarakterizə olunur. Rayonlaşdırmada ilk addım komponentlərin seçiminin əsaslandırılması və prioritetlərin bölüşdürülməsidir. Rayonlaşdırma yaradıcı proses olduğundan, komponentlərin seçimi müəyyən dərəcədə subyektivdir, ekspert və analitik təcrübə əsasında aparılır. Məlumdur ki, Azərbaycanın kənd təsərrüfatı əhəmiyyətli otlaq və əkinə yararlı torpaq sahələrinə malikdir ki, bu da heyvandarlığın və əkinçiliyin inkişafı üçün əlverişlidir və bütün il boyu istifadə oluna bilər. Bunlar Azərbaycanın kənd təsərrüfatının inkişafı baxımından münbit təbii sərvətlərə, torpaq sahələrinə, iqlim qurşaqlarına malik olduğunu göstərir [2, s.24]. Bu potensialların səmərəli istifadəsi iqtisadi rayonların düzgün bölgüsündən xeyli dərəcədə asılıdır. Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü ilə bağlı Prezident tərəfindən sərəncam imzalanmışdır ki, bu bölgüyə 14 iqtisadi rayon daxil edilmişdir (əvvəlki bölgü 12 iqtisadi rayonu əhatə edirdi) [3].

İqtisadi rayonlar regional iqtisadiyyatın əsas subyektləri kimi çıxış edir. Regional iqtisadiyyat bir sıra elementlərdən ibarətdir ki, həmin elementləri şəkil 1-də vermişik.

Hesab edirik ki, regional iqtisadiyyatın bütün elementləri qarşılıqlı əlaqədə olmaqla bərabər bir-birini tamamlayır.

Qeyd edək ki, kənd təsərrüfatına yararlı olan torpaq sahələrinin çoxu regionlarda olduğuna görə, iqtisadi rayonların inkişafında əsas rolu aqrar sahə oynayır. İqtisadi rayonların inkişaf strategiyası formalaşdırılarkən, iqtisadi fəaliyyətin prioritet növlərinin, o cümlədən aqrar sahənin gücləndirilməsinə yönəlmiş tədbirlər hazırlanarkən ümumi problemlərlə yanaşı, həmin iqtisadi rayonların xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Məlumdur ki, aqrar sahə Azərbaycanın ən böyük sənaye sahəsidir və həmin sahənin inkişafı dövlət tərəfindən hazırlanan aqrar siyasətdən asılıdır. Aqrar siyasətin ən mühüm elementi cəmiyyətin aqrar strukturunun formalaşmasıdır. Aqrar sahənin strukturunun formalaşması, hər hansı struktur siyasət kimi tənzimləyici, bölüşdürücü, nəzarət və strateji funksiyaları yerinə yetirir. Tənzimləmə funksiyası aqrar iqtisadiyyatın sahə strukturunun əsas parametrlərinə dövlətin təsiri ilə həyata keçirilir. Bölgü funksiyası maliyyə resurslarının müxtəlif kateqoriyalardan olan təsərrüfat subyektləri üzrə bölüşdürülməsinə, nəzarət funksiyası isə aqrar iqtisadiyyatın sektoral strukturunun əsas parametrlərinə nəzarət etməyə əsaslanır. Strateji

funksiya maliyyə resurslarından istifadə etməklə aqrar sahənin inkişaf strategiyasının hazırlanması və reallaşdırılmasını, bu sahədə biznesin rasional proporsiyalarının birləşməsini müəyyənləşdirməyi nəzərdə tutur.




***Şəkil 1. Regional iqtisadiyyatın elementləri***

*Mənbə: müəllif tərəfindən tərtib edilib.*

Aqrar sahəni əhatə edən əsas struktur elementi aqrar sənaye kompleksidir (ASK). ASK, fəaliyyətin yüksək dərəcəsi və bütün subyektlərin əlaqələrinin mürəkkəbliyi ilə xarakterizə olunur. ASK, kənd təsərrüfatının inkişafı, onun istehsalına xidmət göstərən və həmin sahə məhsullarının istehlakçıya çatdırılması ilə bağlı olan sənaye sahələrinin məcmusudur.

Aqrar sahəni əhatə edən ASK-nın strukturu bir-birindən asılı olan bir neçə elementdən ibarət sistemdir və həmin sistemin elementləri şəkil 2-də göstərilmişdir.




***Şəkil 2. ASK-nın strukturu***

*Mənbə: müəllif tərəfindən tərtib edilib*

Kənd təsərrüfatı istehsalı ASK-nın dəyər sistemində strateji əhəmiyyətli sahədir. Ümumiləşdirmə aparsaq, kənd təsərrüfatının xüsusiyyətlərinə bunları aid etmək olar:

***Birincisi,*** bu, iqtisadiyyatın kənd təsərrüfatı sektorunun spesifikliyidir. Bu sənaye təbii şəraitdən asılı olduğuna görə bazar mexanizminin elementlərini iqtisadiyyatın digər sahələrində olduğu kimi tamlıqla həyata keçirmək çətindir. Kənd təsərrüfatı dəyişən iqtisadi və texnoloji şəraitə aşağı uyğunlaşma qabiliyyəti ilə xarakterizə olunur. Odur ki, kənd təsərrüfatı istehsalının dövlət tərəfindən tənzimlənməsinə, xüsusən də dövlət dəstəyinə ehtiyac var.

***İkincisi,*** kənd təsərrüfatına dəstəyə ehtiyac bu sahə məhsullarının istehsalı ilə bağlı müxtəlif risklərin olması ilə əlaqədardır. İqtisadiyyatın digər sahələrindən fərqli olan aqrar sahənin alt sektorlarından sayılan kənd təsərrüfatı sahəsi bir çox risklərə məruz qalır. Məhz kənd təsərrüfatı sahəsi bu baxımdan potensial investorlar üçün qeyri-sabit və cəlbedici olmayan sənayedir. Dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən göründüyü kimi, risklərin dərəcəsinin azaldılması probleminin həllində dövlət kənd təsərrüfatı istehsalçılarına kömək göstərməlidir.

***Üçüncüsü,*** kənd təsərrüfatının dövlət tənzimlənməsi zərurətinin səbəbləri arasında kənd təsərrüfatı və sənaye məhsullarının qiymətlərindəki fərq qeyd olunmalıdır.

Yuxarıda sadalanan səbəbləri nəzərə alaraq, bazar iqtisadiyyatı olan ölkələrdə kənd təsərrüfatının dövlət tənzimlənməsinin uzun tarixə malik sistemlərindən istifadə olunur. Dövlət tənzimlənməsi mərkəzi hakimiyyət orqanları tərəfindən reallaşdırılır və qanunvericilik, icra və nəzarət xarakterli xüsusi tədbirlər sistemini əhatə edir. ASK-nın dövlət tənzimlənməsinin vəzifələrinə daxildir: 1) dövlətin ərzaq təhlükəsizliyinin təmini; 2) əhalinin ərzaq təminatı; 3) aqrar-sənaye istehsalının həcminin və keyfiyyətinin artırılması; 4) iqtisadiyyatın aqrar sektoru ilə digər sektorlar arasında iqtisadi paritetin təmin edilməsi; 5) aqrar-sənaye kompleksi sahəsində yerli istehsalçıların müdafiəsi; 6) kənd işçilərinin gəlir səviyyəsinin iqtisadiyyatın digər sahələrində çalışan işçilərin gəlir səviyyəsinə yaxınlaşdırılması.

Ölkənin ASK ilə bağlı iqtisadi siyasəti mövcud vəziyyətə adekvat olmalı və rəqabət qabiliyyətinin artırılması baxımından strateji önəm daşıyan problemlərin həllinə yönəldilməlidir. Yerli kənd təsərrüfatı müəssisələrinin davamlı fəaliyyəti və rəqabət qabiliyyətinin təmin edilməsi innovativ proseslərin aktivləşdirilməsi ilə qırılmaz şəkildə bağlıdır. İnnovasiyalar texnologiyalarda, təşkilatlanma yollarında, bazar mövqelərinin möhkəmləndirilməsində rəqabət üstünlükləri yaratmağa qadirdir. Lakin kənd təsərrüfatı istehsalının aşağı rentabelliyi mühüm problem olaraq qalır, bunun nəticəsində həmin sahə istehsalçılarının əsas hissəsi elmi və texnoloji nailiyyətlərdən istifadə edə və istehsalın texniki modernləşdirilməsini həyata keçirə bilmir [4, s. 65].

Fikrimizcə, iqtisadi rayonlarda aqrar sahənin inkişafına müxtəlif amillər mənfi təsir edə bilər. İqtisadi rayonlarda aqrar sahənin inkişafının ləngiməsi prosesini şərtləndirən əsas mənfi amillərə bunları aid etmək olar: 1) bitkiçiliyin və əkinçiliyin zona sistemlərinin deformasiyası nəticəsində torpaqların aqrotexniki və iqtisadi münbitliyinin bərpası prosesinin çətinləşməsi; 2) mineral gübrələrin və herbisidlərin geniş tətbiqi şəraitində torpağın münbitliyinin itirilməsinə səbəb olan üzvi gübrələrin həcminin yetərli olmaması; 3) innovativ inkişaf yoluna, texnoloji innovasiyaların tətbiqinə və kənd təsərrüfatı istehsalının modernləşdirilməsinə yönəlmiş ASK-nın struktur yenidən qurulmasının müasir bazar şərtlərinə uyğunsuzluğu; 4) kənd təsərrüfatı texnika parkının yenilənməsini, ASK-da texnoloji və texniki yeniliklərin əsasını təşkil edən heyvandarlıq təsərrüfatları üçün müasir avadanlıqların alınmasını əhatə edən əsas istehsal fondlarının aktiv hissəsinin gec yenilənməsi; 5) aqrar sahənin inkişafına maneələr yaradan bank kredit faizlərinin yüksək səviyyəsi; 6) maddi-texniki və maliyyə resursları bazarlarının inkişaf etməmiş infrastrukturunun olması; 6) kadr çatışmazlığı və s. [5, s.117].

Müasir dövrdə aqrar sahədə bir sıra təşkilati mexanizmlərdən istifadə edən müəssisə və təşkilatların sayı demək olar günü-gündən artır. Odur ki, müəssisə və təşkilatların fəaliyyəti haqqında səhmdarlara, işçilərə, dövlətə və cəmiyyətə düzgün və etibarlı maliyyə məlumatlarının verilməsi zərurəti daha da artır ki, maliyyə hesabatlılığı bu baxımdan önəm daşıyır. Aqrar sahə məhsullarının istehsalı ilə məşğul olan sahibkarlıq strukturlarında maliyyə hesabatlılığı müəssisənin təsərrüfat fəaliyyəti haqqında səhmdarları, müəssisəyə kredit verən maliyyə təşkilatlarını, investorları və ya tərəfdaş müəssisələri, işçiləri, dövlət orqanlarını və digər maraqlı şəxsləri məlumatlandırır. Maliy-

yə hesabatlılığı əsasında aqrar sahə müəssisələri fəaliyyətlərinin səmərəliliyini və davamlılığını təmin etmək, məhsuldarlığı daim yüksəltmək məqsədilə əsas fəaliyyət istiqamətlərini və nəticələrini dəqiq müəyyən etməlidirlər [6, s.121]. Hesabatlılığın və şəffaflığın təmin edilməsi, sağlam və münbit rəqabət mühitinin yaradılması və təkmil qanunvericiliyin qəbulu özəl sahibkarlığın inkişafında əsas amillərdəndir. Yəni, sağlam və münbit rəqabət mühiti istənilən özəl sektor subyektinin fəaliyyəti üçün onların hüquqlarını pozmadan şərait yaradılarsa, bazar iqtisadiyyatının istənilən elementini inkişaf etdirmək olar. Bütün bunlar iqtisadi rayonların resurslarından səmərəli istifadə hesabına onların inkişafının sabitliyini təmin edəcəkdir [7, s. 59]. Aqrar sahəyə dövlət dəstəyinin şəffaflığının və səmərəliliyinin artırılması, dövlət siyasətinin bütün sahələrdə reallaşdırılmasına innovativ dəstək verilməsi, kənd təsərrüfatı təyinatlı torpaqların və digər təbii sərvətlərin idarə edilməsinin və səmərəli istifadəsinin təmin edilməsi, məsləhət və informasiya xidmətlərinin səmərəliliyinin artırılması və s. böyük önəm daşıyır. Aqrar sahə üzrə vahid informasiya bazasının yaradılması da həmin sahənin inkişaf etdirilməsi və idarə olunması baxımından çox mühüm amildir [8, s. 80].

ASK-nın informasiyalaşdırılması əmək şəraitinin köklü surətdə yaxşılaşdırılması məqsədilə kənd təsərrüfatının və emal sənayesinin təşkilati, iqtisadi, elmi və ictimai fəaliyyəti üçün ən son elektronika, hesablama texnikası və proqram təminatının yaradılması və tətbiqi prosesi kimi müəyyənləşdirilə bilər. Bu, kənd əhalisinin həyat keyfiyyətinin yüksəldilməsi, bütün növ kənd təsərrüfatı istehsalının səmərəliliyinin artırılması, qlobal tendensiyalara uyğun çoxşaxəli transformasiya proseslərinin genişlənməsi ilə nəticələnə bilər.

**Yeni şəraitdə iqtisadi rayonlarda aqrar sahənin inkişafının və reinteqrasiyasının sürətləndirilməsi prioritetləri**

Qeyd edək ki, idarəetmənin müasir iqtisadi şərtləri ASK-nın idarəetmə orqanlarına, onların iş üsullarına ciddi tələblər qoyur, onların tərkibində iqtisadiyyatın inkişafına yönəlmiş yeni təşkilati strukturların formalaşdırılması ehtiyacını müəyyən edir və bütövlükdə həmin kompleksin fəaliyyətini tam təmin edir. Bunun nəticəsində ölkənin ərzaq təminatı, bazarın kənd təsərrüfatı xammalı və məhsulları ilə doyması, kənd yerlərinin davamlı inkişafı, aqrar sahə istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılması və yüksək ödəmə qabiliyyətliliyinin təminatı məqsədilə kənd təsərrüfatı istehsalının artım tempinin əhəmiyyətli dərəcədə intensivləşdirilməsi gözlənilir.

Hazırda aqrar sahə müəssisələrinin istehsal etdiyi məhsulların bir hissəsi dünya bazarına çıxarılır. Ayrı-ayrı iqtisadi rayonların aqrar sahə müəssisələrinin əldə etdiyi uğurlar iqtisadiyyatın bu sektorunun məşğulluğun artmasına və regionların inkişafına verdiyi töhfəni sübut edir. Aqrar sahənin inkişafı məqsədilə reallaşdırılan investisiyaların stimullaşdırılması siyasətinə dövlət dəstəyi işğaldan azad edilmiş ərazilərdə konkret olaraq özünü göstərir [9, s.157]. Kənd təsərrüfatına investisiyaların cəlb edilməsi məsələlərini həll edərkən bu proseslər hüquq normaları ilə tənzimlənir. Kənd təsərrüfatına investisiyaların hüquqi tənzimlənməsinin ən aktual məsələləri potensial investorlar üçün əlverişli və şəffaf şəraitin yaradılması məqsədilə mövcud normativ-hüquqi aktlara əlavə və dəyişikliklərin edilməsidir. Bu, ilk öncə, kənd təsərrüfatı texnikasının lizinq mexanizminin daha da təkmilləşdirilməsinə, kənd təsərrüfatı sənayesinin rəqəmsallaşdırılması zərurətinin qanunvericiliklə möhkəmləndirilməsinə aiddir. Dövlətin prioritet vəzifələri iqtisadi rayonlarda aqrar sahə məhsullarının emalı müəssisələrinə əsas və dövriyyə vəsaitlərinin yenilənməsi üçün güzəştli kreditlərin verilməsi yolu ilə əlverişli kredit şəraitinin yaradılması, ayrılmış büdcə vəsaitlərinin daha səmərəli istifadəsinin stimullaşdırılmasıdır. Belə vasitələrin tətbiqi nəticəsində rəqabətədavamlı kənd təsərrüfatı bitkilərinin əkin sahəsini artırmaq, torpağın münbitliyini qorumaq, əkin dövriyyəsini yaxşılaşdırmaq üçün real imkan yaranır.

Məlumdur ki, Azərbaycan müstəqillik qazandıqdan sonra bir çox ölkələrlə siyasi və iqtisadi əlaqələr qurmuş, dünya iqtisadiyyatına sürətli inteqrasiya yolunu seçmişdir. İqtisadi inteqrasiya əlaqələri müxtəlif sahələr üzrə qurulmuşdur ki, həmin sahələrdən biri də məhz aqrar sahədir. Hazırda aqrar sahədə iqtisadi inteqrasiyanın xüsusiyyəti onun reinteqrasiya xarakterli olmasıdır ki, bu da itirilmiş iqtisadi əlaqələrin bərpası deməkdir. Reinteqrasiya prosesləri diversifikasiya ilə

bağlıdır. Reinteqrasiya və diversifikasiya bir-birindən asılı və bir-birini tamamlayan proseslər kimi çıxış edir, onlar dialektik vəhdətdə reallaşdırılmalıdır. Lakin, sürətləndirilmiş və çoxnövlü diversifikasiyaya təkan verdiyi üçün reinteqrasiyaya xüsusi diqqət yetirilməlidir. Aqrar sahədə reinteqrasiyanın məqsədi qarşılıqlı faydalı və bərabərhüquqlu tərəfdaşlıq yolu ilə reinteqrasiya olunmuş fəaliyyətin kumulyativ effektini təmin etməkdir. Diversifikasiya və reinteqrasiyanın ilkin mərhələsində belə birləşmə prosesin bütün iştirakçılarının istehsalının rentabelliyini artırmağa, aqrar sahəyə investisiya cəlb etməyə, ASK-nın istehsal potensialını bərpa etməyə kömək edir. Şaquli inteqrasiya edilmiş strukturların yaradılması antiböhran tədbirləri vasitəsi kimi xüsusi önəm daşıyır ki, bu da istənilən anda sərbəst resurslardan istifadəni rasionallaşdırmağa, iqtisadi artımı təmin edən texnoloji və kooperativ əlaqələri formalaşdırmağa imkan verir. Bundan əlavə, şaquli inteqrasiya edilmiş strukturların yaradılması tərəfdaşların istehsal güclərinin az yüklənməsi problemini həll etməyə və bununla da istehsal xərclərini azaltmağa imkan verir. Kənd təsərrüfatı subyektlərinin vəsaitlərinin məqsədyönlü istifadəsi və bank kreditlərinin cəlb edilməsi kənd təsərrüfatı texnikalarının tarla işlərinə vaxtında və keyfiyyətli hazırlanmasına, kənd təsərrüfatı istehsalının zəruri mineral gübrə, yanacaq-sürtkü materialları ilə təmin olunmasına, kənd təsərrüfatının maşın parkının modernləşdirilməsinə imkan yaradır. İqtisadi rayonlarda aqrar sektorun modernləşdirilməsi xüsusiyyətlərinə aiddir: 1. Modernləşdirmə nəticəsində aqrar sənaye sahələri kapitalın məhsuldarlığını artırır; 2. Modernləşmə ixtisaslı işçi qüvvəsinə daha yüksək tələbat yaradır; 3. Modernləşdirilmiş aqrar sahə istehsalının rəqabət qabiliyyətini artırır; 4. Modernləşmə aqrar sektorda yeni təşkilati və idarəetmə mexanizminin yaradılmasına kömək edir; 5. Modernləşmə zəncirvari şəkildə aqrar sektora xidmət edəcək iqtisadi sahələrin inkişafını təmin edir; 6. Modernləşmə aqrar sektorun ixrac potensialını genişləndirir; 7. Aqrar sektorun modernləşdirilməsi iqtisadi rayonların inkişafını sürətləndirir; 8. Modernləşdirmə aqrar sektora xarici investisiyaların axınına zəmin yaradır; 9. Modernləşmə kənd təsərrüfatı sektorunda işçi qüvvəsinə tələbi azaldır və urbanizasiyaya şərait yaradır və s. [10, s. 52].

Qeyd edək ki, iqtisadi rayonların inkişaf strategiyası aqrar sahənin inkişafı üçün əsasdır. Bu, öz növbəsində həmin sahənin inkişafı konsepsiyasının hazırlanmasını tələb edir. Hesab edirik ki, iqtisadi rayonların inkişaf strategiyası əsasında aqrar sahənin və onların struktur elementlərinin inkişafı konsepsiyasının hazırlanması aşağıdakı mərhələləri əhatə etməlidir: sistem disbalansının və onları yaradan amillərin müəyyən edilməsi; sahə və ərazi disproporsiyalarının yaranması və təkrar istehsalının səbəbləri haqqında məlumatlı olmaq; ərazi-sahə birləşmələrinin yerli problemləri arasında qarşılıqlı əlaqə sisteminin müəyyən edilməsi; ümumi və xüsusi xarakter daşıyan fundamental problemlərin müəyyən edilməsi; müəyyən edilmiş problemlərin aradan qaldırılması məqsədi ilə müxtəlif səviyyəli orqanların təsərrüfat subyektlərinin fəaliyyətinə mümkün müdaxiləsinin istiqamətlərinin və sərhədlərinin müəyyən edilməsi və s.

Məlumdur ki,aqrar sahə mürəkkəb bir sistemdir, bu halda onun tərkib elementləri iqtisadi, sosial və ekoloji proseslərin sıx qarışmasıdır. Onlar eyni resurslardan istifadəni nəzərdə tutur. İqtisadi komponent şəxsi maraqları, sosial və ekoloji komponentlər isə ictimai maraqları ifadə edir. Fikrimizcə, aqrar sahənin davamlı inkişaf sisteminin formalaşmasına və reinteqrasiyasına mane olan sosial və ekoloji amillərlə bağlı bir sıra sistemli problemlər mövcuddur: 1) kənd yerlərində işsizliyin yüksək səviyyəsi; 2) kənd təsərrüfatında digər iqtisadi fəaliyyət sahələri ilə müqayisədə əmək haqqının aşağı olması; 3) su və külək eroziyası da daxil olmaqla torpağın deqradasiyası proseslərinin artması; 4) torpaqlardan səmərəli istifadənin dövlət tənzimlənməsinin və torpağın münbitliyinin artırılmasının stimullaşdırılmasının səmərəli sisteminin lazımi səviyyədə olmaması; 5) aqrar sahənin maddi-texniki bazasının yenilənməsinə investisiya cəlbediciliyinin aşağı olması və s.

### *Nəticə*

Fikrimizcə, Azərbaycanda müasir şəraitdə aqrar sahədə və onun əsas alt sahəsi olan kənd təsərrüfatında yuxarıda göstərilən zəifliklərin təsiri nəticəsində yaranan problemləri minimuma endirmək üçün bütün imkanlar mövcuddur. Bu imkanlar aqrar sahənin dövlət tənzimlənməsinin aşağı-

dakı əsas parametrlərini genişləndirməklə və kənd təsərrüfatının davamlı inkişafı sisteminin formalaşdırılması yolu ilə reallaşdırıla bilər:

– fərdi sahibkarların gəlirləri üzrə vergi dərəcəsinin və kənd yerlərində iş yerlərinin sayının artımını təmin edən təşkilatların gəlir vergisinin azaldılması;

– kənd yerlərində iş yerləri yaradan və fəaliyyətlərini qeydiyyatdan keçirən bütün fiziki və hüquqi şəxslərə kredit dəstəyinin verilməsi;

– ekoloji amillərdən və insan resurslarının genişləndirilmiş təkrar istehsalının təmin edilməsi şərtlərindən asılı olaraq aqrar sahəyə dövlət dəstəyi tədbirlərinin şaxələndirilməsi;

– insan kapitalının qorunub saxlanılması və artırılması, kənd yerlərində həyat keyfiyyətinin yaxşılaşdırılması;

– torpaq ehtiyatlarının keyfiyyəti və onların ekoloji vəziyyəti haqqında açıq məlumatları özündə əks etdirən vahid informasiya bazasının formalaşdırılması;

– torpaqlardan rasional istifadəni, o cümlədən üzvi texnologiyalardan istifadəni stimullaşdırmaq üçün tədbirlərin işlənib hazırlanması;

– konkret ərazilərin təbii-iqlim xüsusiyyətlərini nəzərə almaqla müasir əkinçilik texnikası və üsullarının məlumat əlçatanlığının təmin edilməsi;

– torpaqların münbitliyinin təkrar istehsalına dövlət tərəfindən lazımi nəzarətin təmin edilməsi, habelə onların deqradasiyasının qarşısının alınması;

– torpağın münbitliyinin yol verilən azalmasına və aqrolandşaftların ekoloji vəziyyətinin pisləşməsinə görə məsuliyyətin genişləndirilməsi;

– tranzaksiya xərclərini azaltmaq və kiçik istehsalçıları əlaqələndirmək üçün rəqəmsal texnologiyalardan istifadənin artırılması.

Hesab edirik ki, bu prioritetlərin reallaşdırılması “dövlət-özəl” əməkdaşlığı sayəsində səylərin cəmlənməsini, səmərəli fəaliyyət mexanizmlərinin işlənməsini və motivasiyaedici tədbirlərin görülməsini şərtləndirir və s.

## ƏDƏBİYYAT


1. Səmədzadə, Z.Ə. İşğaldan azad olunmuş ərazilərin bərpası proqramı və iqtisadi rayonlaşma məsələləri. “Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər” mövzusunda Respublika elmi konfransın materialları. Sumqayıt. 22-23 aprel 2021, №2, s.4-11.
2. Əliyev, Ş.T. Azərbaycanda kənd təsərrüfatının və aqrar sənaye kompleksinin inkişafının strateji aspektləri. İpək Yolu, №2, 2018, s.23-32.
3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. – Bakı şəhəri, 7 iyul 2021-ci il.
4. Кошарская, Н.М. Государственная поддержка финансового обеспечения предприятий АПК / Н.М. Кошарская // Балтийский гуманитарный журнал. – 2014. – № 2(7). – С. 65-67.
5. Жахов, Н.В. Проблема системного развития аграрного сектора экономики региона / Н. В. Жахов, Н.В.Сироткина // Дельта науки. – 2018. – № 1. – С. 115-119.
6. Mazanov, A.B. Aqrar istehsal sahələrində maliyyə uçotu və auditin təşkilinin nəzəri aspektləri. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2022 (iyul-avqust), s.120-128.
7. Məhərrəmov, E.M. İqtisadi rayonlarda aqrar sahənin inkişafının metodoloji aspektləri. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2022 (may-iyun). 57-64.
8. Babayeva, V.M. Aqrar sahənin innovasiyalı inkişafının prioritet istiqamətləri. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34), s.77-81.
9. Дилаваров, Ф. Перспективы развития сектора агробизнеса в Азербайджане в контексте открытия Зангезурского Коридора. Geostrategiya jurnalı, 2022, № 06 (72) s. 157-161.
10. Гамбарова, Р.М. Модернизация аграрного сектора и развитие сельского хозяйства в Азербайджане. Вестник науки и образования № 4(40) 2018. Том 1, с.49-53.

***Эльдениз Мазахир оглы Магеррамов***
***Доктор философии по экономике,***
***доцент Азербайджанского Университета Кооперации,***
***E-mail: emeherremov79@mail.ru***

## Теоретические аспекты развития аграрной сферы и проблем реинтеграции экономических районов

***Резюме***

**Цель исследования** – является рассмотрение теоретических аспектов развития аграрной сферы и проблем реинтеграции экономических районов в нынешних условиях. С этой целью раскрыты современные проблемы развития аграрной сферы, характерные для экономических районов. Обоснована важность совершенствования действующих механизмов и повышения хозяйственного, финансового и экспортного потенциала за счёт эффективного использования ресурсов экономических районов и, тем самым, для ускорения их развития.

**Методология исследования** – состоит из научных методов - анализа, синтеза, сравнения, статистики и обобщения. Наряду с этим, учтены научные подходы ряда учёных по проблемам развития и реинтеграции аграрной сферы экономических районов.

**Практическое значение исследования** – объясняется наличием возможности использования полученных научно-практических материалов в формировании новых работоспособных механизмов по интенсификации развития и реинтеграции аграрной сферы в экономических районах страны.

**Результаты исследования** – заключаются во внесении группы предложений и подготовке рекомендаций по ускорению решения проблем развития и реинтеграции аграрной сферы в экономических районах.

**Оригинальность и научная новизна исследования** – отражена в материалах, которые отличаются оригинальностью за счёт материалов, полученных на основе проводимых исследований за последние годы. Основная научная новизна - формирование более объективных научно-практических взглядов по проблемам развития и реинтеграции аграрной сферы в экономических районах. Обосновано более глубокое совершенствование действующих механизмов и инструментария, подготовлен ряд практичных предложений по интенсификации развития и реинтеграции аграрной сферы в экономических районах страны.

***Ключевые слова: экономические районы, аграрная сфера, развитие аграрной сферы, проблемы реинтеграции, перспективы развития аграрной сферы, пути решений проблем реинтеграции.***

***Eldaniz Mazahir Maharramov***
***PhD in economics, Associate professor of***
***Azerbaijan University of Cooperation,***
***E-mail: emeherremov79@mail.ru***

## Theoretical aspects of the development of the agrarian sphere and the problems of reintegration of economic regions

***Summary***

**The purpose of the research** is to consider the theoretical aspects of the development of the agricultural sphere and the problems of reintegration of economic regions in the current conditions. For this purpose the modern problems of the development of the agricultural sphere, characteristic of economic regions, are revealed. The importance of improving existing mechanisms and

increasing economic, financial and export potential through the effective use of the resources of economic regions and, thereby, to accelerate their development is justified.

**Research methodology** - consists of scientific methods - analysis, synthesis, comparison, statistics and generalization. Along with this, the scientific approaches of a number of scientists on the development and reintegration of the agrarian sphere of economic regions are taken into account.

**The practical significance of the research** is explained by the possibility of using the obtained scientific and practical materials in the formation of new efficient mechanisms for intensifying the development and reintegration of the agricultural sphere in the economic regions of the country.

**The results of the research** are the introduction of a group of proposals and the preparation of recommendations for accelerating the solution of problems of development and reintegration of the agricultural sector in economic areas.

**The originality and scientific novelty of the research** - reflected in materials that differ in originality due to materials obtained on the basis of research in recent years. The main scientific novelty is the formation of more objective scientific and practical views on the problems of the development and reintegration of the agrarian sphere in economic areas. A deeper improvement of existing mechanisms and tools has been justified, a number of practical proposals to intensify the development and reintegration of the agricultural sector in the economic regions of the country are given in the end of the article.

***Key words: economic regions, agrarian sphere, development of agrarian sphere, problems of reintegration, prospects for development of agrarian sphere, ways to solve problems of reintegration.***

UOT 338.43

*Fərid Fikrət oğlu BABAYEV*
*i.f.d., dosent, BDU*
*farid.babayev.bsu@gmail.com*

# AZƏRBAYCANDA QİDA SƏNAYESİNİN İNKİŞAFINDA MÖVCUD OLAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

*Xülasə*

**Tədqiqatın məqsədi.** Tədqiqatın əsas məqsədi hal-hazırda Azərbaycan Respublikasının qida sənayesi müəssisələrinin inkişaf vəziyyətinin qiymətləndirilməsi və əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin edilmə səviyyəsinin araşdırılmasından ibarətdir.

**İşin metodologiyasını** qida sənayesi və onun tərkibinə daxil olan yarımsahələr, predmetini isə qida sənayesinin inkişafında mövcud olan problemlərin aradan qaldırılması və onun dayanıqlı inkişafının təmin olunması yolları təşkil edir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** ondan ibarətdir ki, qida sənayesi müəssisələrinin məhsul istehsalının genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi "İnformasiya texnologiyası iqtisadiyyatının" ən qiymətli resursu olan "İnsan kapitalının" sağlamlığımızın, bilavasitə həyatımızın keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

**Tədqiqatın nəticələri.** Azərbaycanda qida sənayesində mövcud vəziyyətin yoxlanılması ilə çatışmayan hissələrin tapılıb aradan qaldırılmasıdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** qida sənayesi müəssisələrinin inkişaf strategiyasının öyrənilməsi, qida sənayesi müəssisələrinin inkişaf xüsusiyyətlərinin aşkar edilməsindən ibarətdir.

***Açar sözlər: qida sənayesi, insan kapitalı, ərzaq, istehsal, istehlak.***

## *Giriş*

Qida sənayesi sənayenin ən böyük və əsas sahələrindən biri olub, əhalini ərzaqla təmin edən tarlaları və yarımsahələri əhatə edir. Qida sənayesinə xammalın ilkin emalından əhalinin və digər sənaye sahələrinin istehlakını təmin edən və təkrar emalını təmin edən müəssisələr daxildir. Müxtəlif kənd təsərrüfatı məhsullarının ilkin və təkrar emalını həyata keçirməklə yanaşı, bu sahənin müəssisələrini digər sənaye sahələrindən fərqləndirən cəhət onların hər yerdə yerləşməsidir. Kənd təsərrüfatı qida sənayesinin xammal bazası rolunu oynamaqla yanaşı, iqtisadiyyatın sosial-iqtisadi inkişafına təkan verən əsas sahələrdən biridir. Ona görə də kənd təsərrüfatı məhsullarının çeşidi geniş olduğundan qida sənayesi və onun tərkibinə daxil olan emal sənayesinin tərkibi də mürəkkəbdir. Qida sənayesinin bir sıra diversifikasiyaları mövcuddur, biz bunu aşağıdakı kimi göstərə bilərik:

- qida məhsullarının istehsalı (qida sənayesi);
- içki istehsalı;
- tütün məmulatlarının istehsalı.

Azərbaycan Respublikasının qida sənayesi müəssisələrinin ərzaq məhsullarının istehsalı müvafiq illər üzrə aşağıdakı kimi olmuşdur. Azərbaycanın qida sənayesi müəssisələrini istifadə olunan xammal baxımından bir neçə qrupa bölmək olar. Bu qruplara zavod xammalı emalı müəssisələri - çörəkbişirmə, qənnadı məmulatları, makaron, konserv, şərabçılıq, yağ, tütün, pivə və alkoqolsuz içkilər və efir yağları sənayesi; heyvandarlıq xammalının - piy, ət və süd sənayesi məhsullarının emalı; təbii xammal çıxaran və emal edən balıq və mineral su sənayesi müəssisələri daxildir. Qida sənayesi ümumi məhsulda bitkiçilik məhsullarının 85%-ni təşkil edir. Bitki emalı məhsullarının təqribən ¾ hissəsi meyvə-tərəvəz, konserv və şərab sənayesi müəssisələrinin payına düşür, istehsal olunan məhsulun 90%-i, meyvə-tərəvəz konservlərinin 40%-dən çoxu ixrac olunur. İxrac potensialında böyük paya malik olan tütün istehsalı müəssisələri bütünlüklə yerli xammal əsasında işləyir. Bu sənaye müəssisələrində tütün yarpaqları fermentləşdirilərək, müxtəlif növ siqaret və

siqaretlər hazırlanaraq satışa çıxarılır. Eyni zamanda, hər il ölkədən təxminən 35-40 min ton emal olunmuş tütün yarpağı göndərilir.

Respublikamızda çay, yağ, süd, ət emalı sənayesi müəssisələri həm yerli xammala, həm də xaricdən gətirilən xammala əsaslanır. Məsələn, orta hesabla idxal olunan süd və süd məhsulları həcminin 20,9%-i Rusiya (1 tona - 34 dollar), 75,4%-i Ukraynanın (1 tona - 62 dollar) payına düşür. Böyük həcmdə xammal və idxal resurslarından asılı olmayaraq qida sənayesi müəssisələrinin imkanlarından tam istifadə olunmur ki, bu da istehsalda dayanıqlılığın artmasına, istehsalın ahəngdarlığı prinsipinin pozulmasına, istehsal müddətinin başa çatmasına səbəb olur. Respublikanın digər sənaye sahələrində olduğu kimi, qida sənayesi müəssisələrində də istehsalatda yaranan tullantılardan tam istifadə olunmur. Hesablamalar göstərir ki, məsələn, konserv sənayesində 40-45 min ton, ilkin şərab emalı müəssisələrində 150-200 min ton, süd sənayesində 150-200 min ton istifadə olunur. Onların müəssisələrində 85-90 min ton təkrar emal edilə bilən tullantılardan istifadə olunmur. Müasir dünya sənayesi ilə üzləşən və sənayeləşmə meyillərinin genişləndiyi ölkələrdə istehsal tullantısız texnologiyanın tətbiqinə əsaslanır [1].

Qida məhsulları istehsalı, qida sənayesi qida sənayesinin əsas tərkib hissəsini təşkil edir və qida sənayesi müəssisələrinin inkişafını şərtləndirən faktları aşağıdakı kimi qeyd edə bilərik:

1. Kənd təsərrüfatı: bitkiçilik və heyvandarlığın inkişafı, qida sənayesinin əsasını təşkil edən və ilkin emala əsaslanan xammal bazasının mövcud tələbatının ödənilməsi istiqamətində həyata keçirilən tədbirlərin qiymətləndirilməsi;

2. Ərzaq məhsullarının emalı: təzə məhsulların bazara hazırlanması və hazırlanmış qida məhsullarının istehsalı;

3. Marketinq: ümumi məhsulların (məsələn, çörək, süd;) və yeni məhsulların reklamı, marketinq kampaniyaları, qablaşdırma, ictimaiyyətlə əlaqələr və s. işlərin həyata keçirilməsi;

4. Topdan və pərakəndə satışın təşkili məqsədilə nəqliyyat və beynəlxalq logistika xidmətlərinin genişləndirilməsi və inkişafı üzrə tədbirlər. Hazırda bir çox ümumbəşəri problemlərin həlli üçün beynəlxalq iqtisadi münasibətlərin və beynəlxalq əmək bölgüsünə əsaslanan ticarət əlaqələrinin inkişafı böyük əhəmiyyət kəsb edir. Lakin ərzaq məhsullarına külli miqdarda kapital xərcləyib onları xarici ölkələrdən daşımaqdansa, onların yerli istehsalını təşkil etmək daha sərfəlidir.

5. Ən son texnoloji yeniliklərin istehsalata tətbiqi nəticəsində ölkənin artan tələbatını ödəmək ilə yanaşı, beynəlxalq aləmdə ixracyönümlü siyasət aparmaqla, iqtisadi inkişafda müəyyən paya malik olmaqla, iqtisadi inkişafı stimullaşdırmaq [2].

Qida sənayesi müəssisələrinin inkişaf strategiyası onun (müəssisənin) əsas məqsədləri kompleksini və bu məqsədlərə nail olmaq üçün tədbirlərin əsaslandırılmasını əks etdirir. Müasir qloballaşma meyillərinin genişləndiyi dünyada müəssisənin əsas məqsədi ölkənin milli ərzaq fondunu formalaşdırmaq və ərzaq təhlükəsizliyini təmin etməkdir. Qlobal miqyasda ərzaq təhlükəsizliyi beynəlxalq qidadır. Buna ticarətin səmərəli təşkili və dünya ərzaq bazarında nisbətən sabit qiymətlərin formalaşması şəraitində nail olmaq mümkündür. Belə olan halda hər bir ölkə özünə lazım olan ərzaq məhsullarını xüsusi çətinlik çəkmədən idxal edə bilər. Milli ərzaq təhlükəsizliyinin təmin edilməsi, ilk növbədə, ölkə əhalisini lazımi miqdarda və çeşiddə ərzaq məhsulları ilə təmin etməkdən, bununla da onların fəallığını, inkişafını və sağlam həyatını təmin etməkdən ibarətdir. Milli ərzaq fondunun davamlılığının qiymətləndirilməsi və onun inkişafının kondisionerləşdirilməsi qida sənayesi sahəsində emal yönümlü strukturun geniş xüsusi çəkisindən asılıdır. Beləliklə, sənayenin inkişafı istiqamətində uzun illər iqtisadi əlaqələrin öyrənilməsi təcrübəsi göstərir ki, milli iqtisadiyyatın inkişaf istiqamətlərinin müəyyən edilməsində, əmək və digər resurslardan səmərəli istifadə olunmasında emal sənayesinin müstəsna əhəmiyyəti vardır.Qida sənayesi müəssisələrində emal yönümlü struktur əsasında bazarda idxalyönümlü məhsulların azaldılması, bazarda daxili tələbata cavab verən çoxlu və geniş çeşiddə yerli məhsulların əldə edilməsi, istehsala çəkilən xərclərin azaldılması, məhsulların, eləcə də qiymətlərin aşağı salınması əhalinin həyat səviyyəsinin yüksəldilməsi, bununla da dövlətin sosial-iqtisadi inkişafının əsas istiqaməti hesab edilən ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Ərzaq təhlükəsizliyinin təmin edilməsinin ən sə-

mərəli yollarından biri iqtisadiyyatın şaxələndirilməsinə əsaslanır. Qloballaşma meyillərinin gücləndiyi müasir dünyada ölkənin iqtisadi inkişaf səviyyəsinin qiymətləndirilməsi ərzaq məhsulları istehsalının artırılması imkanlarının genişləndirilməsinə və aclığın (ərzaq məhsulları ilə təmin edilməsinin mümkünsüzlüyünün) geniş miqyasda aradan qaldırılmasına əsaslanır. Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (IFAD), Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF), Ümumdünya Ərzaq Proqramı (WFP) və Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən hazırlanmış "Dünyada qida" və Kənd Təsərrüfatı Təşkilatının (FAO) təhlükəsizlik və qidalanma vəziyyəti ilə bağlı 2017-ci il hesabatına əsasən, iki il əvvəl dünyada ərzaq çatışmazlığından əziyyət çəkən insanların sayı 777 milyon idisə, keçən il bu rəqəm 815 milyona yüksəlib və istehsal olunan ərzaq məhsullarının təxminən 30%-i tullanır [2].

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra iqtisadiyyatın digər sahələrində olduğu kimi qida sənayesində də durğunluq dövrü müşahidə edilmişdir. Bunun aradan qaldırılması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bir sıra islahatlar həyata keçirilib, mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində qanunvericilik aktları və sərəncamlar imzalanıb. Bunlardan ən geniş yayılanı “Taxıl haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi olub (İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı,14 iyun 2016-cı il). Əhalinin əsas qidası olan taxıl istehsalının genişləndirilməsi məqsədilə kifayət qədər suvarma suyunun olmaması, mineral və üzvi gübrələrdən səmərəli istifadə edilməməsi, xəstəlik və zərərvericilərə qarşı vaxtında və keyfiyyətli mübarizə aparılmaması, yüksək keyfiyyətli taxıl məhsullarından istifadə edilməməsi səpin üçün toxum, səpin işlərinin vaxtında aparılmaması məhsuldarlığa təsir edən əsas amillərdir [3].

Beynəlxalq dünya təcrübəsi göstərir ki, sənayeləşmə meyillərinin genişlənməsi və inkişaf mərhələləri ölkələrin gəlir səviyyəsinə uyğun olaraq dəyişir. Beləliklə, ölkənin inkişaf templəri artdıqca, onun iqtisadiyyatında qida sənayesi ilə müqayisədə aşağı texnologiyalı istehsal və əmək tutumlu sənayelər - yüngül, orta texnologiyalı istehsal sahələri üstünlük təşkil etməyə başlayır. Sənayeləşmənin ən yüksək pilləsi və dünya İEE iqtisadiyyatında müşahidə olunan texnoloji innovasiyalar, avtomatlaşdırma və mexanikləşdirmə əsasında “əl əməyinin” minimuma endirildiyi sənayelər üstünlük təşkil edir. Bu baxımdan Azərbaycanda sənayeləşmə meyilləri resurs potensialının daha çox əmək tutumlu sahələrə - qida sənayesinin bu istiqamətdə inkişafına yönəlməsinə şərait yaratmış və o, iqtisadiyyatımızın ixtisaslaşmış sənaye sahələrindən birinə çevrilmişdir. Onun əsasında meyvə-tərəvəz konservləri, çörəkbişirmə, çay istehsalı ilə yanaşı, ölkə hüdudlarından kənarda da böyük tələbat olan və geniş ixrac potensialına malik şərab, tütün və mineral suların istehsalı və ixracı dayanır. Şərabçılıq müəssisələri ümumi sayına görə qida sənayesi müəssisələrinin ən böyük sahələrindən biridir. Bu müəssisələrin yerləşdirilməsi prinsipləri əsasən üzüm əkilən rayonlarda, son məhsulun emalı müəssisələri isə iri şəhərlərdə (Bakı, Gəncə, Naxçıvan, Şəmkir və s) yerləşir. Azərbaycanın şərab zavodlarında 60-dan çox şərab, o cümlədən 17 növ turş şərab (“Bayan”, “Əlşərab”, “Mədrəsə”, “Şəmxor”), 20 növ tünd desert şərabı (“Ağstafa”, “Mil”, “Göytəpə”, “Qarabağ”, “Şahbuz”, “Azərbaycan”) və konyaklar istehsal edirdilər [7].

1991-ci ilə qədər respublikamızın statistik göstəricilərinə görə ixrac potensialına malik məhsullarımız əsasən Rusiya Federasiyasının və digər postsovet ölkələrinin bazarlarına çıxarılırdı. Lakin müstəqilliyin ilk illərində bu satış bazarlarının itirilməsi iqtisadiyyatımızın tənəzzülünə və durğunluğuna gətirib çıxardı. Son illər ölkədə yerli və xarici şirkətlərlə birgə fəaliyyət göstərən çoxsaylı qida sənayesi müəssisələri yaradılıb. Bu baxımdan dünya bazarında məhsullarına tələbat olan və geniş ixrac potensialına malik “Azərsun Holdinq”, “Şampan şərabları”, “Caspian” dünya bazarında tələbatdır. Balıq”, “Avropa-Tütün-Bakı”, “Qəbələ fındıq emalı”, “Dəvəçi broyler”, “Az-Qranata” və s. müəssisələri göstərmək olar. Hesablamalar göstərir ki, bir sıra bitkilər (tütün, şəkər, çuğundur və s.) böyük ixrac potensialına malikdir, ona görə də 1 hektardan əldə edilən gəlir digər bitkilərlə müqayisədə bu bitkilər üçün daha yüksəkdir [4].

Dövlət Statistika Komitəsinin məlumatına görə, il ərzində ixrac olunmuş məhsulların ümumi

həcmində qida sənayesi məhsulları, tütün məmulatları -13,2; bitki yağı -2,9; çay - 3,14; meyvə və tərəvəz konservləri - 3,4; alkoqollu içkilər 3,9 milyon ABŞ dolları təşkil edir.

Azərbaycanda ərzaq məhsullarının idxalında mühüm yerlərdən birini bitki yağları tutur. Bununla belə, ölkəmizdə neft bitkilərinin və qida emalı sənayesi müəssisələrinin becərilməsi üçün potensial coğrafi mühit olmasına baxmayaraq, bu məhsulun idxalına ildə təxminən 13 milyon dollar vəsait xərclənir [10].

İqtisadiyyatın müxtəlif sahələri istehsal etdikləri məhsulların texniki göstəricilərinə və müxtəlif alıcı qruplarının tələblərinə cavab verdiyinə görə onların inkişaf strategiyaları, qaydaları və üsulları bir-birindən fərqlənir. Araşdırmalar göstərir ki, hər bir sahədə inkişaf parametrləri müxtəlif səviyyələri əhatə edir. Məlumdur ki, hər bir müəssisə, istehsalçının inkişaf strategiyasının məqsədi tələbata uyğun keyfiyyətli məhsul istehsal etməkdir. Bu amilə diqqət yetirilməməsi və bu amil üzrə inkişafın prioritetinin müəyyən edilməməsi müəssisənin mövqeyini zəiflədə bilər. İnkişaf strategiyasının düzgün müəyyən edilməsi hazırkı mərhələdə böyük əhəmiyyət kəsb edir. İnkişaf strategiyasının düzgün seçilməsi nəticədə sonuncudur, məhsulun istehsal həcminin artmasına, artıma səbəb olur [8].

İnkişaf strategiyaları müəssisənin inkişafının müxtəlif mərhələlərində istehsala müxtəlif dərəcədə nüfuz edir. Bazara yeni daxil olmuş müəssisə inkişaf strategiyası kimi ilk növbədə istehsal miqyasının (həcminin) azaldılması strategiyasına əməl etməlidir. Məlumdur ki, bazara yenicə qədəm qoyan müəssisə digər rəqiblərlə qarşılaşır və bu zaman o, öz rəqiblərindən fərqlənmək üçün istehsal həcmini artırmaq və məhsulun qiymətini aşağı salmaq siyasətini həyata keçirir. Lakin bazarda yetkin müəssisələr reklam xərclərini artırmaq və qiymətləri aşağı salmaqla bu alıcıların tələblərini cəlb edir. Məhz buna görə də yeni müəssisə bazarda öz alıcılarını tapmaq üçün məhsul artıqlığı yaratmır. İstehsalın həcminin azaldılması strategiyasına əməl etməlidir. İnkişaf tendensiyasının əsas mərhələsi elmi-texniki innovasiyaların istehsalata tətbiqi mərhələsidir ki, bu da iqtisadiyyatın digər sahələrində olduğu kimi, qida müəssisələrində də bir sıra problemlərlə üzləşir. Bu, ilk növbədə, alınan avadanlıqlara külli miqdarda maliyyə vəsaitinin xərclənməsi ilə nəticələnir. İstehsal olunan məhsulun daxili bazarda qiymətinin yüksək olması bu növ məhsulun istehsalında istifadə olunan avadanlıqların “ikinci əl” olduğunu nəzərə alsaq, ölkə əhalisinin tələblərinə, məhsulun keyfiyyət normalarına cavab verməyə bilər. Özəl investisiyaların əksəriyyəti xarici investorların hesabına ödənilir ki, bu da maliyyə itkilərini minimuma endirməyə imkan verir. İstənilən təsərrüfat müəssisəsi üçün inkişaf strategiyası müəyyən edilərkən sahə üzrə mövcud müəssisələrin inkişaf yolu təcrübələrinin monitorinqi mühüm rol oynayır. Dünya təcrübəsində iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin inkişaf yolu İEO-lar tərəfindən prioritet yol kimi qiymətləndirilir. Müəssisənin inkişaf strategiyası hazırlanarkən istehlakçının alıcılıq qabiliyyəti bazarın hərəkətverici qüvvəsidir. Müəssisənin məhsul çeşidi genişləndirilməlidir. Bu proses uzunmüddətli və kifayət qədər istehsal xərcləri və maliyyə resursları tələb etməsinə baxmayaraq, uzunmüddətli perspektivdə sərfəlidir [5].

Düzgün inkişaf strategiyasının seçilməsi həmişə inkişafa aparan yol deyil, çünki hər bir müəssisə daxili bazarda digər müəssisələrin və dövlətin yaratdığı maneələrlə üzləşir. Bunlara daxildir:

1. Bazara daxil olmaq üçün maneələr. Yeni müəssisə bir sıra problemlərlə bazara daxil olduqda, topdan və pərakəndə satıcılar yeni məhsul haqqında alıcılarda mənfi rəy formalaşdırırlar. Müəyyən bir dövrdə müəssisənin gəliri az olsa belə, o, yalnız istehsal xərclərini ödəyə bilir.

2. Tənzimləyici orqanların davranışları. Yeni müəssisə bazara daxil olduqda, istehsal etdiyi məhsulun lisenziya və icazə sistemi ilə üzləşə bilər.

3. Tarif və qeyri-tarif məhdudiyyətləri. Qida sahəsində mövcud olan qida sənayesi məhsullarının istehsalı üçün bazara daxil olmağa çalışan istənilən xarici müəssisə müəyyən tarif məhdudiyyətləri ilə üzləşir ki, bu da iqtisadiyyatın qorunmasına xidmət edir [7].

**Qida sənayesi müəssisələrinin inkişaf şərtləri və amilləri**

Qlobal bazarların və bütövlükdə ayrı-ayrı ölkələrin iqtisadiyyatının yaxınlaşması iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin, xüsusilə də ən kiçik mikroiqtisadi subyektin inkişafını şərtləndirən

amillərin öyrənilməsini tələb edir. Müasir dünya təcrübəsi göstərir ki, qloballaşma meyillərinin genişlənməsi ölkələr arasında mövcud əlaqələrin genişlənməsi ilə yanaşı, öz resurslarından istifadə etməklə dünya bazarı üçün maddi məhsulların istehsalına şərait yaradır ki, bu da bu ölkənin daxili iqtisadi inkişafına təkan verir. Ölkə daxilində ərzaq təhlükəsizliyini təmin edən ərzaq proqramlarının uğurla həyata keçirilməsi kənd təsərrüfatı məhsullarını emal edən qida sənayesi sahələrinin daha sürətli inkişafını tələb edir. Daxili və xarici mühit amilləri onun inkişafına birbaşa və dolayı təsir göstərir.

Qida sənayesi müəssisələrinin inkişafını şərtləndirən amillər qrupuna aşağıdakıları aid edə bilərik:

- qida sənayesinin inkişafına bilavasitə şərait yaradan iqlim və topoqrafiya faktoru;
- geniş və müxtəlif xammal bazasının mövcudluğu amili;
- ənənəvi sənaye müəssisələrinin və infrastrukturun mövcudluğu faktoru;
- qida sənayesi ilə bağlı sənaye infrastrukturunun (kənd təsərrüfatı, enerji, mühəndislik) mövcudluğu.

Müasir dünyada kəskin rəqabəti nəzərə alsaq, istehsalın həcmi və ya keyfiyyətli məhsul istehsalının həcmi həmişə müsbət nəticələrə və inkişafa səbəb olmaya bilər. Bunun üçün xarici bazar mühiti hərtərəfli öyrənilməlidir. Ərzaq məhsulları bazara çıxarılmazdan əvvəl ilk növbədə aşağıdakı tədqiqatlar aparılmalıdır:

1. Potensial əmtəə məhsuluna bazar tələbinin öyrənilməsi və onun iqtisadi səmərəliliyinin müəyyən edilməsi.
2. Bazar öyrənilərsə, tələb görməyən müəssisənin istehsal nomenklaturasının azaldılması, digər rəqabətqabiliyyətli məhsul çeşidinin istehsal həcminin artırılması - bazarda baş verən “dalğayabənzər” dəyişikliklərə çevik təhlillə cavab verilməsi.
3. Alıcıların tələbləri nəzərə alınmaqla istehsal olunan məhsulun istehlakçılara uyğunlaşdırılması.

Marketinq tədqiqatlarının aparılması müəssisənin inkişafını təmin edən mühüm şərtlərdən biridir. Çünki bazarın öyrənilməməsi son nəticədə artıq istehsala gətirib çıxarır və mənfəətlə deyil, uğursuzluq və iflasla nəticələnə bilər [5].

Marketinq tədqiqatına aşağıdakılar daxildir:

1. Daxili bazarların, yəni müəssisə səviyyəsində yerli səviyyədə xarici mühitin təhlili; ölkə səviyyəsində beynəlxalq bazarların təhlili;
2. Bazarın və inkişafın əsas hərəkətverici qüvvəsi olan istehlakçıların, alıcıların ehtiyaclarının hərtərəfli öyrənilməsi;
3. Uzunmüddətli və qısamüddətli dövrdə məhsul istehsalının təşkilinin planlaşdırılması;
4. Məhsulun satış strategiyasının işlənib hazırlanması, onun satışının həyata keçirilməsi və real satış kanallarının tapılması;
5. İstehsal olunan məhsulun qiymət strategiyasının düzgün işlənməsi və s. Azərbaycanda qida sənayesinin inkişafına bu sahədə mövcud olan resursların çoxluğu və tarixi infrastruktur kimi amillər təsir edir [6].

Müəssisənin inkişafına təsir edən bu amilləri 3 böyük qrupda ümumiləşdirə bilərik:

1) Təbii ehtiyatların mövcudluğu faktoru;
2) İnsan faktoru;
3) İnstitusional amil.

Təbii ehtiyatların mövcudluğuna əsaslanan bir sıra qida sənayesi müəssisələri mövcuddur ki, onları bazar iqtisadiyyatı şəraitində öyrənmək və həll etmək mümkündür. Taxıl məhsullarının strateji əhəmiyyəti və əhalinin ərzaq rasionunda böyük payı olması səbəbindən ərzaq təhlükəsizliyinin təmin edilməsində onların istehsalına həmişə böyük yer verilmişdir. Beləliklə, Azərbaycanın taxılçılıqda 7 min ildən artıq təcrübəsi var. Taxılçılıq respublikanın ən böyük və ənənəvi sahələrindən biridir. Azərbaycanda taxıl bitkilərindən buğda, arpa və düyü, qarğıdalı, darı və s. əkilib becərilir. Azərbaycanın düz relyefi, iqlimi və əlverişli suvarma şəbəkəsinin olması bu bitkilərin

becərilməsinə təkan verir. Hökumətin həyata keçirdiyi tənzimləmə siyasəti nəticəsində iqtisadi sabitliyə nail olunub. Lakin taxıl məhsullarının tədarükünün bir hissəsi idxala əsaslanır və bu asılılığın azaldılması dövlətin iqtisadi inkişaf strategiyasında prioritet istiqamətlərdən biri olmalıdır [11].

Elmi-texniki tərəqqinin innovativ inkişafının istehsalata tətbiqi məhsulun maya dəyərinin əsasını təşkil edən material və əmək tutumunun azaldılmasına xidmət edir. Qloballaşan dünyada bütün bu inkişaf meyillərindən kənarda qalmaq ölkənin sosial-iqtisadi inkişafının geriləməsi ilə nəticələnə bilər. Bu inkişaf meyillərindən geri qalmamaq dövlətin əsas prioritetlərindən biridir. İnkişaf konsepsiyaları istiqamətində qəbul edilən dövlət proqramları və normativ-hüquqi aktlar öz müsbət təsirini göstərir [9].

### *Nəticə*

Azərbaycan Respublikasında davamlı iqtisadi inkişafın təmin edilməsi və eyni zamanda ölkə vətəndaşlarının sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması prinsipial (perspektiv) aspekt kimi qəbul edilmişdir. Bu müddəa bilavasitə iqtisadiyyatın və sənayenin birgə inkişafına əsaslanır. Sənaye iqtisadiyyatın ən böyük sektoru olmaqla yanaşı, istehsal və istehlak sektorlarını birləşdirir. Sənayenin inkişafı istiqamətində həyata keçirilən iqtisadi inkişaf tədbirləri əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinə və Azərbaycanın digər ölkələrdən ərzaq (ərzaq) asılılığının azaldılmasına əsaslanır. İqtisadiyyatın inkişafı onun ən geniş sahələrindən biridir. Sənaye qida sənayesi və kənd təsərrüfatının (ASK) qarşılıqlı əlaqələndirilmiş inkişafına əsaslanır. Mövzunun müasir dövr üçün aktual olduğunu nəzərə alaraq, məqalədə qida sənayesi müəssisələrinin mövcud vəziyyəti, müasir dövrün qabaqcıl tələblərinə uyğun olaraq qida sənayesi müəssisələrinin elektronlaşdırılması və avtomatlaşdırılması, qloballaşmadan bəhs edilir. Azərbaycanda qida sənayesinin inkişaf problemlərinin müqayisəli təhlili və tədqiqi məsələləri öz əksini tapmışdır.

### ƏDƏBİYYAT

1. “Müəssisələr haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 1 iyul 1994-cü il.
2. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 19 sentyabr 1995-ci il.
3. “Qida məhsulları haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 18 noyabr 1999-cu il, № 759-IQ.
4. “Taxıl haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 16 iyun 2000-ci il.
5. “Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", Bakı şəhəri, 11 fevral 2004-cü il № 24.
6. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı, 2008-ci il 25 avqust.
7. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” Bakı şəhəri, 15 sentyabr 2008-ci il № 3043.
8. “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, Bakı şəhəri, 14 aprel 2009-cu il. № 80.
9. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, Bakı şəhəri, 29 dekabr 2012 .
10. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, Bakı şəhəri 27 fevral 2014-cü il, № 118 .
11. Hüseynov T.Ə. Sənayenin iqtisadiyyatı. Bakı, 2000.

***Фарид Фикрет оглы Бабаев***
***Кандидат наук, доцент, БГУ***
***farid.babayev.bsu@gmail.com***

## Проблемы развития пищевой промышленности Азербайджана и их решение

***Резюме***

**Цель исследования** Основной целью исследования является оценка состояния развития предприятий пищевой промышленности Азербайджанской Республики и обеспечение населения качественными продуктами питания.

**Методология работы** состоит из пищевой промышленности и ее подотраслей. Предпосылкой исследования является устранение существующих проблем в развитии пищевой промышленности и обеспечение ее устойчивого развития.

**Прикладная значимость исследования** заключается в том, что расширение производства предприятий пищевой промышленности и повышение их качества напрямую служит повышению качества нашей жизни, здоровья «Человеческого капитала», ценнейшего ресурса «Экономики информационных технологий».

**Результаты исследования** заключаются в поиске и устранении недостающих деталей путем проверки текущей ситуации в пищевой промышленности Азербайджана.

**Оригинальность и научная новизна исследования** заключается в том, что это изучение стратегии развития предприятий пищевой промышленности и выявление особенностей развития предприятий пищевой промышленности.

***Ключевые слова: пищевая промышленность, человеческий капитал, продукты питания, производство, потребление***.

***Farid Fikrat Babayev***
***PhD, associate professor, BSU***
***farid.babayev.bsu@gmail.com***

## Problems in the development of the food industry in Azerbaijan and their solutions

***Summary***

**The purpose of the study**. The main purpose of the study is to assess the state of development of the food industry enterprises of the Republic of Azerbaijan and to provide the population with quality food products.

**The methodology of the work** consists of the food industry and its sub-fields. The premise of the research is to eliminate the existing problems in the development of the food industry and ensure its sustainable development.

**The applied importance of the research** is that expanding the production of food industry enterprises and improving their quality directly serves to improve the quality of our life, the health of "Human capital", the most valuable resource of the "Information technology economy".

**The results of the research** are finding and eliminating the missing parts by checking the current situation in the food industry in Azerbaijan.

**The originality and scientific innovation of the research** is that it is the study of the development strategy of the food industry enterprises and the discovery of the development characteristics of the food industry enterprises.

***Keywords: food industry, human capital, food sector, food, production, consumption***

**UOT 336.45**

***Fuad Maarif oğlu İBRAHİMOV***
***i.f.d., “Sosial-iqtisadi və Ekoloji Tədqiqatlar Mərkəzi”***
***İctimai Birliyinin iqtisadi məsələlər üzrə***
***eksperti e-mail: fuadibrahim@mail.ru***

# AQRAR - SƏNAYE SAHƏLƏRİNDƏ İNVESTİSİYA - İNNOVASİYA SİYASƏTİNİN PRİORİTETLƏRİ

***Xülasə***

İnnovasiyalı fəaliyyət adekvat investisiya siyasətinin həyata keçirilməsini tələb edir. Qeyri-neft, o cümlədən aqrar-sənaye sahələrində investisiya-innovasiya siyasətinin prioritetlərinin birgəliyinin təmin edilməsi məsələsi gündəlikdə durur.

**Tədqiqatın məqsədi** – aqrar - sənaye sahələrində investisiya - innovasiya siyasətinin prioritetlərinin birgəliyinin və fəaliyyətin şaxələndirilməsindən əldə edilən effektin reallaşdırılması istiqamətlərinin əsaslandırılmasıdır.

**Tədqiqatın metodologiyası** – tədqiqat prosesində müqayisəli təhlil, elmi abstraksiya, sintez və məntiqi ümumiləşdirmə üsullarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - əldə olunmuş nəticələr aqrar-sənaye sahələrində innovasiya-investisiya siyasətinin reallaşdırılması və fəaliyyətin şaxələndirilməsinin səmərəliliyinin qiymətləndirilməsi prosesində istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – investisiya - innovasiya siyasətinin aqrar - sənaye sahələrində prioritetlərin vahid müstəvidə əsaslandırılması və reallaşdırılması, habelə fəaliyyətlərin şaxələndirilməsinin səmərəli istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – investisiya-innovasiya siyasəti və onların birgəliyi anlayışı dəqiqləşdirilmiş, aqrar-sənaye sahələrində innovasiyalı fəaliyyətin investisiyalaşdırılmasının prioritetləri əsaslandırılmış, həmin fəaliyyətlərin əlaqəli və əlaqəsiz şaxələndirilməsinin səmərəliliyi aşkar edilmişdir.

***Açar sözlər: investisiya-innovasiya siyasəti, prioritet, aqrar-sənaye sahələri, strategiya, şaxələndirilmə, birgəlik, səmərəlilik.***

## *Giriş*

İnnovasiyaların yaranması, yayılması və tətbiqi iqtisadi fəaliyyətin bütün istiqamətlərində rəqabət qabiliyyətinin və məcmu səmərəliliyin yüksəldilməsi üçün mühit yaradan amil hesab edilir. Aqrar-sənaye sahələrində innovasiyalı inkişafın investisiyalaşdırılması məsələlərinə son dövrlər diqqət xüsusilə artmışdır. Bununla belə, məhz aqrar - sənaye sahələrində investisiya - innovasiya siyasətinin prioritetlərinin birgəliyi və onun reallaşdırılmasının iqtisadi mühiti kifayət qədər tədqiq edilməmişdir. Haqqında danışılan sahələrdə iqtisadi fəaliyyətin səmərəliliyi baxımından şaxələndirmədən gözlənilən effekt barədə də anoloji fikirlər söyləmək olar. Bu və digər səbəblərdən aqrar sənaye sahələrində investisiya - innovasiya siyasətinin prioritetlərinin birgəliyinin və fəaliyyətin şaxələndirilməsindən əldə edilən effektin reallaşdırılması gündəlikdə durur.

## İnvestisiya - innovasiya siyasətinin prioritetləri və onların birgəliyi

Milli iqtisadyyatın aparıcı sahələri kimi aqrar-sənaye sahələrinin dinamik və dayanıqlı inkişafı, hazırda innovasiya amili ilə bilavasitə bağlıdır. Həmin sahələrdə innovasiyalı inkişafın səmərəliliyi, nəticə etibarı ilə aşağıdakı istiqamətlərdə özünü göstərməlidir [1]:

- ərzaq və qida təhlükəsizliyinin təminatı səviyyəsinin və alternativ (və bərpa olunan) enerji mənbələrindən istifadə səviyyəsinin yüksəldilməsi;
- qlobal iqlim dəyişikliklərinə qarşı mübarizənin gücləndirilməsi və təsərrüfatçılığın həmin dəyişikliklərə uyğunlaşdırılması;
- resurslardan istifadə səmərəliliyinin yüksəldilməsi və biomüxtəlifliyin bərpası istiqamətində

nəticələrin əldə olunması.

İnnovasiya siyasətinin reallaşdırılmasında mühüm mərhələ olan layihələrin hazırlanması və icrası zamanı, haqqında danışılan siyasətin prioritetləri diqqət mərkəzində olmalıdır. Həmin layihələrə yönəldilən investisiyaların maliyyələşdirilməsi kompleks xarakterli və məntiqi ardıcıllığı gözləməklə həyata keçirilən idarəetmə prosedurlarının reallaşdırılmasını nəzərdə tutur. İnnovasiya layihələrinə vəsait qoyuluşlarının maliyyələşdirilməsinə, ümumilikdə investisiya - innovasiya siyasəti prioritetlərinin reallaşdırılması prosesində qərar qəbulu zamanı potensial mənbələrin əsas xarakteristikalarının müəyyən edilməsi, onlarıdan istifadə səmərəliliyinin təmin edilməsi məsələləri ön plana çıxır. Bu baxımdan, aşağıdakı mənbədə təqdim olunan mövqe ilə razılaşmaq mümkündür: aqrar-sənaye sahələrində innovasiya layihələrinin maliyyələşdirilməsi barədə qərar qəbulu zamanı, ilk növbədə innovasiyalı inkişafa vəsait qoyuluşlarından səmərəli istifadə, risk menecmentinin, resurs və hüquqi təminat səviyyəsinin kəskinləşən rəqabət tələblərinə cavab verməsi məsələləri gündəlikdə olur [2, s.138-143].

İnnovasiya siyasətinin həyata keçirilməsində, bu məqsədlə ayrılan vəsaitlərin mənbələrinin təmsilçilərinin ümumi iqtisadi – institusional sistemdə yeri və rolu kifayət qədər mühüm əhəmiyyətli məqamdır. Onların innovasiyaların investisiyalaşdırılmasında nə dərəcədə maraqlı olması qeyd edilən sistemdə tutduqları yerdən və statusdan asılı olur. Məhz sonuncular vəsait qoyuluşunu həyata keçirən subyektlərin innovasiyalı inkişafı stimullaşdırmaq üçün dövlətin həyata keçirdiyi tədbirlərdən yararlanmaq imkanlarını müəyyən edir.

Digər sahələrdə olduğu kimi, aqrar-sənaye sahələrində də iqtisadi subyektlərin investisya fəaliyyəti dövlətin və müəssisənin investisiya siyasətinin prioritetləri nəzərə alınmaqla həyata keçirilməlidir. Eyni zamanda, nəzərə alınmalıdır ki, dövlətin investisiya siyasəti, onun reallaşdırılması alətləri aqrar-sənaye sahələrində fəaliyyət göstərən müəssisələrin investisiya fəaliyyəti üçün iqtisadi-institusional mühitin formalaşmasında mühüm rola malikdir. Aşağıdakı mənbədə göstərildiyi kimi “kapital qoyuluşunda, gömrük və vergi siyasətində güzəştlər, ucuz kreditlər və digər həvəsləndirici tədbirlər, maddi-texniki baza, valyuta məzənnəsinin sərbəst şəkildə dəyişməsi investisiyanın hərəkətinə təsir göstərən amillərdəndir” [3, s. 355].

Aqrar-sənaye sahələrində investisiya siyasətinin prioritetlərinə münasibətdə aşağıdakı istiqamətlər xüsusi qeyd edilməlidir. İlk növbədə onu qeyd edək ki, bu sahələrin inkişafının prioritetliyi, qeyri-neft sektorunun üstün inkişafının rəsmi surətdə bəyan edilməsi ilə təsbit edilmişdir. Bəyan edilmiş üstün inkişaf kontekstində bərpa olunan resurslardan və alternativ sayılan enerji mənbələrindən istifadəsinin, bu məqsədlə rəqəmsal mühitin formalaşdırdığı üstünlüklərin reallaşdırılması sayəsində qeyri-xammal əsaslı ixracyönlü istehsalın qeyri-xammal istiqamətinin prioritetliyi nəzərdə tutulur.

Aqrar – sənaye sahələrində investisiya - innovasiya siyasətinin digər prioritetləri qismində, həmçinin aşağıdakılar qeyd olunmalıdır:

- iqtisadi fəaliyyət və marketinq tədqiqatlarının şaxələndirilməsi;
- texnoloji inkişafın və innovasiya infrastrukturunun formalaşdırılmasının sürətləndirilməsi və elmtutumluluq səviyyəsinin yüksəldilməsi məqsədi ilə daxili özəl kapitalın və xarici investorların təşviq edilməsi;
- insan kapitalının inkişafının stimullaşdırılması;
- innovasiyalı modernləşdirilmənin müxtəlif variantlarının müqayisəli qiymətləndirilməsi bazasında əlverişli olanın reallaşdırılması və s.

İnnovasiyalı inkişaf və innovasiyalı modernləşdirmə variantları üçün innovativ amillərin rolunun həlledici dərəcədə artması səciyyəvidir. Aşağıdakı mənbələrdə göstərildiyi kimi “Aqrar-ərzaq sektorunda innovasiyalı inkişaf variantlarında sektorun bütün subyektləri innovasiyalı fəaliyyətlə məşğul olur, həmin fəaliyyət seleksiya-genetik, istehsal-texnoloji, təşkilati-idarəetmə və iqtisadi-ekoloji innovasiyalarını sistemli surətdə əhatə etməlidir” [4].

Aqrar-sənaye sahələrində investisiya siyasəti innovasiyalı inkişaf strategiyasına əsaslanmaqla bir sıra strateji hədəflərə doğru hərəkət üçün əlverişli şərait yaradır. Başqa sözlə, “innovasiya

strategiyası - çoxsaylı innovasiyaların meydana çıxması ilə iqtisadiyyatın ümumi innovativ səviyyəsinin yüksəlməsi, innovativ özünütəşkil prosesinin başlanması, bu və ya digər sahənin investor üçün cəlbedici olması, innovativ investisiyaların gəlirliliyinin artması, biznesin inkişafı ilə xarakterizə olunur. Belə ki, investisiya fəallığı, iqtisadiyyatın mütərəqqiliyi və səmərəliliyi artır, nəhayət, əhalinin həyat keyfiyyəti yaxşılaşır. Nəticədə həm özəl biznes, həm də bütövlükdə cəmiyyət faydalanır” [5, s. 248].

Dövlətin innovasiyalı inkişaf üzrə investisiya siyasətinin həyata keçirilməsi, aqrar-sənaye sahələrinin inkişaf prioritetləri nəzərə alınmaqla həyata keçirilir. Aqrar-sənaye sahələrində innovasiya fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi istiqamətlərinə, ilk növbədə investisiya və innnovasiya infrastrukturunun inkişafı, innovasiyaların mənimsənilməsində (yaradılması və istifadəsində) dövlət büdcəsi vəsaitlərinin cəlb olunması üçün optimal yanaşmaların tətbiqi, texnoloji və digər innovasiyaların transferinin təşviqi aid edilməlidir [6].

İnnovasiyalı inkişaf strategiyasına üstünlük verilməsi sahə ilə yanaşı digər idarəetmə səviyyələrində və əlbəttə, ilk növbədə müəssisə səviyyəsində investisiya siyasətinin prioritetlərində və onların həyata keçirilməsi mərhələlərində öz əksini tapır.

Müəssisənin investisiya siyasətinin formalaşdırılması mürəkkəb və bu səbəbdən çoxmərhələli prosesdir. Bu baxımdan, ilk növbədə müəssisənin iqtisadi və maliyyə baxımından inkişafı strategiyasının istiqamətləri müəyyən edilməli, o cümlədən maliyyə dayanıqlığı baxımından mühit yaradan amillər aşkar edilməlidir [7, s. 87-92]. Müəssisədə investisiya fəaliyyətinin həyata keçirilməsi və qiymətləndirilməsi meyarlarının, habelə ilkin yanaşmada prioritetlərin seçimi əsaslandırılmalıdır. Bu məqsədlə:

- həmin prioritetlərin reallaşdırılmasının səmərəliliyini təmin edəcək mexanizmlərin seçimi əsaslandırılmalı, bu zaman bazarın müvafiq seqmenti daxil olmaqla xarici mühitin təsirləri nəzərə alınmaqla investisiya strategiyasında təshihlərin ehtimal olunan ssenarilərinə münasibət konkretləşdirilməli;
- investisiyaların səmərəliliyini şərtləndirən amillər səciyyələndirilməli, investisiyaların likvidliyi və risklərin idarə edilməsi sistemi formalaşdırılmalı;
- investisiya resurslarının zəruri həcmi müəyyən edilməlidir. Həmin göstəricidən çıxış edərək investisiya portfeli, investisiya proqramlarının icrası prosesləri idarə edilməlidir.

Aşağıdakı mənbədə müəssisənin investisiya siyasətinin mərhələlərinin təsnifatı və ardıcıllığı baxımından təqdim olunan yanaşma da, zənnimizcə diqqətə layiqdir. “Müəssisənin investisiya siyasətinin mərhələlərinə aşağıdakılar daxildir: investisiya siyasətinin məqsəd və vəzifələrinin təyini (məqsədlər ölçülə bilən, əldə edilə bilən, konkret və uyuşan olmalıdır); investisiya siyasətinin seçiminə təsir edən bazar şəraitinin və kənar mühit amillərinin tədqiqi və qeydiyyatı; investisiya qoyuluşunun əsas istiqamətləri üzrə müəssisənin investisiya siyasətinin formalaşdırılması; müəssisənin investisiya proqramının tərtib edilməsi; müəssisənin investisiya proqramının icrasına nəzarətin həyata keçirilməsi” [8, s. 233].

Müəssisə səviyyəsində investisiya siyasətinin əsas məqsədi innovasiyalı və dayanıqlı inkişafın təmin edilməsidir. Strateji idarəetmənin tələblərinə uyğun olaraq qeyd olunan məqsədin və onun şərtləndirmiş olduğu vəzifələrin reallaşdırılması prosesinin kəmiyyət meyarları üzrə qiymətləndirilməsi zəruridir. Bu məqsədlə adekvat göstəricilər sisteminin seçilməsi, onların müvafiq verilənlər bazası ilə dinamik qarşılıqlı əlaqəsinin təmin edilməsi bazarın müvafiq seqmentində vəziyyətdən çıxış etməklə, investisiya proqramının tərtibində mühüm rol oynayır.

Elmi tədqiqatlar [9] və təcrübə göstərir ki, müəssisənin investisiya siyasətinin uğuru onun innovasiya, vergi, amortizasiya, kadr siyasəti ilə hərtərəfli razılaşdırılması sayəsində əldə edilə bilər. Müəssisələrin innovasiyalı inkişafına yönəlik investisiya siyasətinin həyata keçirilməsində zəruri vasitə və alətlərin seçiminin əsaslandırılmasına həsr olunmuş tədqiqatlar qismində, zənnimizcə, aşağıdakı mənbə diqqəti xüsusilə cəlb edir (cədvəl).

**Cədvəl**

**İnvestisiya fəaliyyətinin idarə edilməsində müəssisənin funksional istiqamətləri üzrə tövsiyə olunan vasitə və alətlər**

| Müəssisənin investisiya siyasətinin funksioal istiqamətləri | Vəzifələrin məzmunu |
|---|---|
| Elmi-texniki siyasət | ETTKİ üçün nəzərdə tutulmayan (gözlənilməz) xərclərin müəyyən edilməsi prosedurunun əsaslandırılması, işin vaxtı və dəyərinə nəzarət metodunun seçilməsi |
| Amortizasiya siyasəti | Amortizasiya metodlarının seçimi, amortizasiya olunan əmlakın faydalı istifadə müddətinin müəyyən edilməsi, onun dəyərinin yenidən qiymətləndirilməsi üsulları |
| Uçot siyasəti | Beynəlxalq mühasibat standartlarının tətbiqi; auditlərin təşkili; xammal və materialların istehsalata silinməsi üsullarının seçilməsi, bitməmiş istehsalın qiymətləndirilməsi, təmir və sığorta fondlarının formalaşdırılması variantları və s. |
| Vergi siyasəti | Vergi güzəştlərinin istifadəsi, büdcənin səmərəliliyinin qiymətləndirilməsi və investisiya alətlərinin vergi sistemi elementləri ilə mühafizəsi |
| Kadr siyasəti | İnvestisiya layihələri təşəbbüsündə, onların hazırlanması və həyata keçirilməsində hüquqların, vəzifələrin, şərtlərin, təşviq və cəzaların müəyyən edilməsi |
| Maliyyə siyasəti | Mülkiyyətçilər (iştirakçılar, təsisçilər), investorlar və kreditorlar üçün maliyyə-təsərrüfat vəziyyətinin şəffaflığının təmin edilməsi; kapitalın strukturunun optimallaşdırılması; maliyyə resurslarının cəlb edilməsində bazar mexanizmlərindən istifadə; fəaliyyətin davam etdirilməsi üçün vəsaitin istənilən vaxt kifayət qədər olmasının təmin edilməsi |

*Müəllif tərəfindən tərtib olunmuşdur. İlkin mənbə: [10, s.33-34]*

Hazırda aqrar-sənaye sahələrində istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsinin, burada texnoloji, iqtisadi, idarəetmə və digər xarakterli innovasiyalara və onların investisiyalaşdırılmasına münasibətdən birbaşa asılılığı müşahidə edilir. Haqqında danışılan sahələrdə innovasiyalı inkişafa marağın təşviqi və onun reallaşdırılması bir çox tədqiqatçıların fikrincə, demək olar ki, alternativsiz görünür. Məsələ ondadır ki, məhz innovasiya və investisiya siyasətinin prioritetlərinə vahid rakursda münasibət sayəsində adekvat amortizasiya siyasətini reallaşdırmaqla iqtisadi artımın yeni istehsal gücləri hesabına əldə edilməsi, resursqoruyucu texnologiyaların geniş tətbiqi mümkündür. Bu və digər səbəblər innovasiya və investisiya siyasətinin prioritetlərinə vahid rakursda yanaşmanı, onların birgəliyinin təmin edilməsini obyektiv zərurətə çevirir [11].

Araşdırmalar göstərir ki, aqrar - sənaye sahələrində innovasiya və investisiya siyasətinin əsaslandırılması prosesində prioritet istiqamətlərin birgəliyi dedikdə, əlbəttə onların heç də həmişə üst-üstə düşməsi nəzərdə tutulmur. İntensiv inkişafın alternativsiz olduğu ən dinamik inkişaf şəraitində belə yalnız yeniliklərə investisiya qoyulması tələbinin real olmadığı qeyd olunan ətraflı tədqiqatların nəticələri ilə razılaşmaq lazım gəlir [12]. Eyni zamanda, unutmaq olmaz ki, aqrar-sənaye fəaliyyətinin miqyasının genişləndirilməsini nəzərdə tutan hər hansı investisiya layihəsində də innovasiyalı yanaşmalar sərf-nəzər edilmir.

**Aqrar-sənaye sahələrində innovasiyalı fəaliyyətlərin şaxələndirilməsi**

İnnovasiya və investisiya siyasətinin prioritetlərinin birgəliyi, nəinki postsovet və postsosialist ölkələrinin, habelə inkişaf etmiş Qərb ölkələrinin təcrübəsindən göründüyü kimi, başlıca olaraq dövlətin təşviqedici tədbirləri sayəsində təmin oluna bilər. Bu baxımdan, aqrar-sənaye sahələrində dövlət-özəl bölmə tərəfdaşlığı, zənnimizcə, perspektivli istiqamət sayılmalıdır. İlkin yanaşmada onu demək olar ki, məhz dövlət-özəl bölmə tərəfdaşlığının imkanları sayəsində innovasiyalı inkişaf strategiyasından irəli gələn şaxələndirmənin iqtisadi məqsədəuyğunluğu, daha az riskli şəraitdə

təmin edilə bilər.

Resursların yenidən bölgüsü, demək olar ki, istehsal-iqtisadi fəaliyyətlərin şaxələndirilməsinin növündən asılı olmayaraq baş verir. Həmin bölgü məhsulların çeşidində, satış kanallarında və sair istiqamətlərdə baş verən dəyişikliklərlə əlaqədardırsa, şaxələndirmə barədə qərar, ilk növbədə tələbin potensial həcminin, əlavə məsrəflərin, yaranacaq təhdidlərin gözlənilən dinamikası haqqında ilkin və törəmə informasiyanın hərtərəfli təhlilinə əsaslanmalıdır. Fəaliyyət dairəsini genişləndirməyə xidmət edən, başqa sözlə mövcud və yeni istiqamətlərdə paralel fəaliyyəti nəzərdə tutan şaxələndirmə resurslardan istifadə sisteminə innovasiyalı yanaşma halında daha məhsuldar hesab edilir [13]. Şaxələndirmə nəticəsində investisiyaların traektoriyasının dəyişməsinə gəldikdə isə, onun daha perspektivli sayılan istiqaməti, artıq qeyd edildiyi kimi innovasiyalı inkişaf xəttidir. Bu və digər səbəblərdən aqrar – sənaye sahələrində investisiya - innovasiya siyasətinin prioritetlərin birgəliyi və fəaliyyətin şaxələndirilməsi məsələlərinə vahid rakursda baxılması məqsədəuyğundur.

Aqrar-sənaye sahələrində investisiya siyasətinin prioritetlərinə innovasiya və fəaliyyətin şaxələndirilməsi aspektlərinə vahid rakursda baxılması ərazilərin sosial-iqtisadi inkişafı imkanlarına yeni yanaşmalar tələb edir. Həmin yanaşmalar struktur dəyişikliklərinin keyfiyyətcə qiymətləndirilməsi, daha doğrusu həmin dəyişikliklərin mütərəqqiliyini müəyyənləşdirmək məsələsini gündəliyə çıxarır. Müvafiq mənbələrdə qeyd olunudğu kimi aqrar-sənaye sahələrində müəssisələrin investisya fəaliyyəti struktur siyasətinin [14, s. 43], resursqoruma və innovasiyalı inkişafın [15, s.76-77] prioritetlərini önə çəkməlidir.

Aqrar-sənaye sahələrində innovasiyalı inkişaf tələblərinə cavab verən investisiya siyasətinin prioritetlərinin əsaslandırılması prosesində istehsal və xidmət fəaliyyətinin şaxələndirilməsi məsələləri lazımi dərəcədə tədqiq olunmamışdır. Bu vəziyyət həm ölkəmizdə, həm də bir sıra xarici ölkələrdə, xüsusilə postsovet məkanı ölkələrində aparılan elmi araşdırmalarda müşahidə olunur. Fəaliyyətin şaxələndirilməsi problemlərinə, o cümlədən innovasiyalı inkişafın investisiyalaşdırılması aspektində kifayət qədər uzun bir müddət ərzində lazımi diqqət verilməməsinin bir sıra səbəbləri vardır.

İlk növbədə, mərkəzləşdirilmiş iqtisadiyyatın inteqrasiya və ixtisaslaşmaya münasibətdə hələ də özünü göstərən stereotipləri ilə bağlıdır. İri təsərrüfatların üstünlükləri, dar miqyas effektinin əhəmiyyəti və s. kimi mövzularda aparılmış elmi tədqiqatlara istinadların çox olması həmin stereotiplərin mövcudluğundan xəbər verir. Digər səbəb inteqrasiya əlaqələrinin inkişafı sayəsində baş verən struktur dəyişikliklərinin investor marağını cəlb etmək məqsədilə, bəzi hallarda hərtərəfli aparılmamasıdır. Başqa bir səbəb kimi, kiçik müəssisələrdə innovasiyalara investisiyaların maliyyələşdirilməsində mövcud təcrübədən qaynaqlanan çətinliklərin səthi araşdırılmasıdır. Məsələ ondadır ki, rəqəmsal mühitdə innovasiyalı fəaliyyətin məhz yığcam ölçülərə malik müəssisələrdə uğurlu nəticələri barədə məlumatlar kifayət qədər təhlil edilməmişdir.

Aqrar-sənaye sahələrində fəaliyyətlərin şaxələndirilməsinin nəzəri-metodiki və təcrübi aspektləri də arzuolunan səviyyədə tədqiq olunmamışdır [16, s. 46-59]. Şaxələndirmə proseslərinin davamlı olmaması (bu çox vaxt, heç arzu edilən də deyildir) amili də, qeyd olunan baxımdan az əhəmiyyətli deyildir. Səmərəli təsərrüfatçılıq baxımından, dəyişikliklərin yüksək dinamizmi əldə edilən nəticələrin hərtərəfli öyrənilməsi baxımından çətinlik yarada bilər. Məhz innovasiyalı inkişaf tələbləri baxımından fəaliyyətlərin istiqaməti və xarakterində baş verən şaxələndirmələrin səmərəliliyinin vaxtında qiymətləndirilməməsi isə investisiya fəallığına neqativ təsir göstərə bilir. Başqa sözlə, istehsalın şaxələndirilməsi prosesinin investisiya axınlarının adekvat şaxələndirilməsi ilə müşayiət olunması heç də həmişə baş vermir. İqtisadi-istehsal fəaliyyətlərinin şaxələndirilməsi risklərin xarakteristikalarının şaxələndirilməsi ilə müşayiət olunur (şəkil).

Aqrar-sənaye fəaliyyətlərinin şaxələndirilməsi malyyə dayanıqlığına və risklərin idarə edilməsi sisteminə birmənalı təsir etmir. Fəaliyyət dairəsi genişləndikcə risklərin müxtəlifliyi artır, onların, xüsusilə maliyyə xarakterli risklərin meydana çıxması ehtimalı yüksəlir. Rəqabət qabiliyyətinin yüksəldilməsi və bazar payının artması sayəsində mənfəətin artırılması məqsədilə həyata keçirilən şaxələndirmə bu faktı nəzərə almaq məcburiyyətindədir.




***Şəkil. Şaxələndirmənin istiqamətləri. İlkin mənbə: [17].***
*Müəllif tərəfindən hazırlanmışdır.*

Müvafiq mənbələrdə istehsal-iqtisadi şaxələndirmənin məqsədləri qismində ilk növbədə aşağıdakılara önəm verilir: mövcud olan istehsal güclərinin yüklənməsi səviyyəsinin yüksəldilməsi; müəssisələrin iflas riskinin azaldılması;rəqabət qabiliyyətinin yüksəldilməsi və s. [18, s.164-196].

İqtisadi fəaliyyətin şaxələndirilməsinin məqsədəuyğunluğunu şərtləndirən amillər qismində, ilk növbədə innovasiyalı fəaliyyət üzrə real imkanların meydana çıxması qeyd olunmalıdır. Mövcud fəaliyyət istiqamətində mənfəət normasının aşağı düşməsi meylinin davamlı hal alması da şaxələndirməni gündəliyə çıxara bilər. Aqrar-sənaye sahələrində idxalın əvəzlənməsi istiqamətində atılan və tədricən, lakin sistemli surətdə ixracyönümlü istehsalın təşviqi kursuna keçid də fəaliyyətin şaxələndirilməsi məsələlərini aktuallaşdırır.

Aqrar-sənaye sahələrində bazarın müvafiq seqmentinin tələblərinə uyğun hərəkət etmək məcburiyyətindən irəli gələn şaxələndirmə mövcud istehsal və resurs potensialının nəzərə alınması əlamətinə görə ciddi surətdə fərqlənə bilər. Bu baxımdan, fəaliyyətlərin şaxələndirilməsi əlaqəli və əlaqəsiz kimi fərqləndirilə bilər. Digər təsnifat əlaməti kimi, şaxələndirmənin istiqaməti götürülür və bu halda şaquli (məhsul çeşidinin genişləndirilməsi) və üfüqi (fəaliyyət dairəsinin genişləndirilməsi) şaxələndirmənin ciddi fərqləndiyi, müvafiq mənbələrdə qeyd olunur.

Aqrar-sənaye müəssisəsində fəaliyyət dairəsinin mövcud istehsal istiqaməti ilə əlaqəsi olmayan, başqa sözlə tamamilə yeni istiqamətdə genişləndirilməsini nəzərdə tutan əlaqəsiz şaxələndirmə, operativ, lakin eyni zamanda əsaslandırılmış yanaşma mümkündür. İnnovasiyalı inkişafa xas olan belə vəziyyət, bir çox hallarda texnoloji və digər xarakterli innovasiyaların transferini tələb edir. Görmək çətin deyildir ki, belə addım bazarın yeni seqmentinin tələblərinə uyğunlaşma məsrəflərini də ödəyə biləcək böyük məbləğdə investisiyaların cəlb edilməsi ilə müşayiət olunmalıdır.

Haqqında danışılan müəssisələrin profilinə uyğun fəaliyyətlərin genişləndirilməsi (əlaqəli hesab edilən şaxələndirmə) isə, əlaqəsiz şaxələndirmə variantından fərqli olaraq mövcud iqtisadi davranış modelində tədrici təshihlərə imkan verə bilir. Yəni, yüksək ehtimalla demək olar ki, əlaqəli şaxələndirmə zamanı investisiya (habelə digər xarakterli) risklərlə qarşılaşma halları əlaqəsiz şaxələndirmə variantından bir qədər az olacaqdır. Məsələ ondadır ki, aqrar-sənaye fəaliyyətlərinin əlaqəli şaxələndirilməsi nəinki mövcud resurs, habelə istehsal potensialından paralel istifadə üçün

real imkanlar yarada bilər. Aparılan araşdırmalar göstərir ki, əlaqəli və əlaqəsiz şaxələndirmənin vəhdəti innovasiyalı inkişaf strategiyasının həyata keçirilməsi baxımından mühit yaradan amil sayıla bilər (19). Belə ki, əlaqəli şaxələndirmə aşağı inkişaf səviyyəsinə malik ölkələrdə daha tez-tez rast gəlinsə də, əlaqəsiz şaxələndirmə açıq inkişaf baxımından daha mühüm hesab edilir.

### *Nəticə*

Aqrar - sənaye fəaliyyətinin şaxələndirilməsi prosesində müvafiq sahələrdə investisiya – innovasiya siyasəti prioritetlərinin birgəliyindən gözlənilən effektin gerçəkləşdirilməsi üçün şaxələndirilən fəaliyyətin yeni istiqamətlərinin alternativləri müqayisəli təhlil edilməli və bu əsasda istehlakçıların dinamikası qiymətləndirilməli, bu məqsədlə rəqəmsal texnologiyaların tətbiqi təşviq edilməli; bazarın yeni seqmentində mövqe tutmaq və möhkəmlənmək imkanlarını aşkar etmək üçün marketinq tədqiqatları dərinləşdirilməli; innovasiya - investisiya potensialından istifadə səmərəliliyinin yüksəldilməsi üçün birgə yanaşmaların metodiki bazası formalaşdırılmalı; investisiya infrastrukturunun şaxələndirmə tələblərinə uyğunlaşdırılması üçün iqtisadi - texnoloji, institusional və digər tədbirlər həyata keçirilməlidir.

### ƏDƏBİYYAT


1. Innovation to achieve competitive, sustainable and inclusive agriculture / Inter-American Institute for Cooperation on Agriculture, Fundación Colegio de Postgraduados en Ciencias Agrícolas – Mexico: IICA, 2017. 169 p.
2. Bebudovna, Boltayeva & Ganjiyevich, Jumayev & Tairova, Mavluda. (2021). Ways Of Financing Innovative Activities In Agrobusiness. 138-143
3. Muradov Ş.M. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. Bakı, “Elm”, 2004, 660s.
4. Семин А.Н. Инновационно-ориентированная стратегия развития агропродовольственного сектора: региональные аспекты, формирование и реализация //http:// econorus.org› consp › files/.23.12.2022
5. Ардашева Е. П. Отраслевая политика: понятие и функции в инновационной экономике // Вестник Казанского технологического университета. 2007. №3-4. URL: https://cyberleninka.ru/ article/n/otraslevaya-politika-ponyatie-i-funktsii-v-innovatsionnoy-ekonomike (дата обращения: 22.12.2022. c.245-252, s.248).
6. Egil Petter Stræte et all. Critical support for different stages of innovation in agriculture: What, when, how? Agricultural Systems. Volume 203, December 2022, 103526// https://doi.org/ 10.1016/j.agsy.2022.103526
7. Germanjuk, Natalia. (2018). İnvestments ın the development of ınnovatıve management ın the company. Baltic Journal of Economic Studies. 4. 87-92. 10.30525/2256-0742/2018-4-4-87-92
8. Макарова Ю. Г. Инвестиционная политика предприятия: сущность и этапы/ Ю. Г. Макарова, Е. А. Павлова, А. М. Ковалева // Молодой ученый. 2012. №12. С. 232-233
9. Власкин Г.А., Ленчук Е.Б. Промышленная политика в условиях перехода к инновационной экономике: опыт стран Центральной и Восточной Европы и СНГ. Москва, Наука, 2006, 246 с.
10. 10, Мальщукова О.М. Проблемы разработки инвестиционной политики предприятия //Вопросы инновационной экономики. 2011. № 4 (4). с. 29-38.,s.33-34. http://old. creativeconomy. ru / articles/14510
11. Gordon Prain, David Simon, Jess Halliday and Pay Drechsel. Investment priorities for research and innovation in urban agri-food systems: Toward more resilient cities in the Global South. https://www. frontiersin.org/articles/10.3389/ fsufs.2022.965011/full
12. Cirera, Xavier, Jaime Frías, Justin Hill, and Yanchao Li. 2020. A Practitioner’s Guide to Innovation Policy. Instruments to Build Firm Capabilities and Accelerate Technological Catch-Up in Developing Countries. Washington, DC: World Bank.2020

13. Sang M. Lee, Silvana Trimi. Innovation for creating a smart future. Journal of Innovation & Knowledge.Vol. 3. Issue 1.pages 1-8 (January - April 2018). DOI: 10.1016/j.jik. 2016. 11. 001.26.12.2022
14. Тагиев Н. Ф. Модели управления инветиционными процессами в условиях транзитивной экономики. Рига, БРИ, 2004, 304 с.
15. Rzayev P.Q. İnvestisiyaların tənzimlənməsinin vergi aspektləri. Azərbaycanın Vergi Xəbərləri. №5, Bakı, 2011, s.69-82
16. Deogharia, Prakash. (2018). Dıversıficatıon of agrıculture: a revıew. 14. 46-59
17. Мартынова К.Э. Концептуальные основы формирования стратегии диверсификации деятельности на предприятиях малого бизнеса // Экономика и менеджмент инновационных технологий. 2016. № 4. URL: https:// ekonomika.snauka.ru /2016/04/11486 (дата обращения: 15.12.2022
18. Addisu A Lashitew, Michael L Ross, Eric Werker (2020). What Drives Successful Economic Diversification in Resource-Rich Countries?, *The World Bank Research Observer*, Volume 36, Issue 2, August 2021, Pages 164–196, https://doi.org/10.1093/wbro/lkaa001
19. Flávio L. Pinheiro, Dominik Hartmann, Ron Boschma, César A.Hidalgo. The time and frequency of unrelated diversification. Research Policy. Volume 51, Issue 8, October 2022, 104323. https://doi.org/ 10. 1016/j.respol.2021.104323

***Фуад Мaариф оглы Ибрагимов***
***доктор философии по экономике,***
***Эксперт по экономическим вопросам***
***Общественного объединения***
***«Центр социально-экономических и***
***экологических исследований»***

# Приоритеты инвестиционно-инновационной политики в аграрно- промышленных отраслях

***Резюме***

Инновационная деятельность требует проведения адекватной инвестиционной политики. В ненефтяных отраслях, в том числе агропромышленных, на повестке дня стоит обеспечение согласования приоритетов инвестиционно-инновационной политики.

**Цель исследования** - обосновать направление реализации эффекта, получаемого от сочетания приоритетов и диверсификации мероприятий инвестиционно-инновационной политики в аграрно-промышленных отраслях.

**Методология исследования** – в процессе исследования использовались методы сравнительного анализа, научной абстракции, синтеза и логического обобщения.

**Прикладная значимость исследования** – полученные результаты могут быть использованы в процессе реализации инновационно-инвестиционной политики в агропромышленных сферах и оценки эффективности диверсификации деятельности.

**Результаты исследования** - обоснование и реализация приоритетов инвестиционно-инновационной политики в аграрно-промышленных отраслях на едином уровне, а также определены эффективные направления диверсификации деятельности.

**Оригинальность и научная новизна исследования** - уточнены понятия инвестиционно-инновационной политики и их совместимости, обоснованы приоритеты инвестирования инновационной деятельности в агропромышленные отрасли, а также были раскрыта эффективность связанной и несвязанной диверсификации этой деятельности.

***Ключевые слова: инвестиционно-инновационная политика, приоритет, агропромышленные отрасли, стратегия, диверсификация, совместимость, эффективность.***

***Fuad Maarif Ibrahimov***
***PhD in Economics, Expert on economic issues of the***
***"Center for Socio-Economic and***
***Ecological Research" Public Union***

**Priorities of investment and innovation policy in agro-industrial areas**

***Summary***

Innovative activity requires an adequate investment policy. In the non-oil sectors, including the agro-industrial sector, ensuring the alignment of investment and innovation policy priorities is on the agenda. The purpose of the study is to substantiate the direction of implementation of the effect obtained from a combination of priorities and diversification of investment and innovation policy measures in the agro-industrial sectors.

**Research methodology** – in the process of research, methods of comparative analysis, scientific abstraction, synthesis and logical generalization were used.

**Applied significance of the study** - the results obtained can be used in the process of implementing innovation and investment policy in the agro-industrial sectors and evaluating the effectiveness of diversification of activities.

**The results of the study** are the substantiation and implementation of the priorities of the investment and innovation policy in the agro-industrial sectors at a single level, as well as the identification of effective areas for diversifying activities.

**The originality and scientific novelty of the study** - the concepts of investment and innovation policy and their compatibility were clarified, the priorities for investing in innovative activities in the agro-industrial sectors were justified, and the effectiveness of related and unrelated diversification of this activity was revealed.

***Key words: investment and innovation policy, priority, agro-industrial sectors, strategy, diversification, compatibility, efficiency.***

UOT 658.5

*Təhminə Paşa qızı BALACAYEVA*
*BDU, Dünya İqtisadiyyatı kafedrası, müəllim*
*tahmina.balajayeva@gmail.com*

# AZƏRBAYCANDA EMAL SƏNAYESİNİN İNKİŞAFININ PRİORİTET İSTİQAMƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** Azərbaycanda kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının artırılması üçün mövcud vəziyyəti, qarşılıqlı əlaqələri və investisiya prioritetlərini öyrənməkdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** ondan ibarətdir ki, aparılan tədqiqatların nəticələri, irəli sürülən təkliflər kənd təsərrüfatı və qida sənayesinin inkişafı, inteqrasiyası və investisiya layihələrində istifadə oluna bilər.

**Tədqiqatın nəticələri** statistik məlumatlara və mövcud vəziyyətin qiymətləndirilməsinə əsaslanır və kənd təsərrüfatı və yeyinti sənayesinin inkişafının birgə nəzərdən keçirilməsi investisiyaya səbəb ola bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** Məqalədə eyni zamanda kənd təsərrüfatının inkişafı, yeyinti sənayesinin inkişafı və investisiya qoyuluşları araşdırılır. Bu sahələrin inkişafını sərmayə qoyuluşu, inteqrasiyası və ərzaq təhlükəsizliyi baxımından qiymətləndirmək haqlıdır. Mövcud resurslardan istifadə üçün konkret faktlar əsasında investisiya qoyuluşunun prioritet istiqamətləri müəyyən edilir.

***Açar sözlər: kənd təsərrüfatı istehsalı, qida sənayesi, potensial resurslar, investisiyalar, prioritet sahələr, infrastruktur.***

## *Giriş*

Güclü iqtisadiyyatı inkişaf etmiş sənayesiz təsəvvür etmək olmaz. Davamlı inkişaf, əhalinin məşğulluğunun artırılması, ölkənin ixrac potensialının yüksək səviyyədə saxlanması, elmin inkişafı, idxaldan asılılığın azaldılması və s. məqsədlər baxımından sənayenin inkişafı vacibdir.

İnkişaf etmiş sənaye kənd təsərrüfatı istehsalının artırılmasına zəmin yaradır, ərzaq təhlükəsizliyini təmin edir, iqtisadiyyatın müxtəlif sahələrinin rəqabət qabiliyyətini artırır, xarici bazarlardan asılılığı azaltmağa kömək edir.

Sadalanan mühüm məqamlar Azərbaycanda da sənayenin inkişafını zəruri edir. Ona görə də son illər sənayedə tərəqqinin əldə olunmasına, mədənçıxarma sənayesi ilə yanaşı, qeyri-neft sənayesinin inkişafına da xüsusi diqqət yetirilir.

Müstəqilliyin ilk illərində “Əsrin müqaviləsi”ndən başlayaraq sənayenin neft sektorunda böyük inkişaf gedirdisə, son illərdə daxili investisiyaların artması hesabına ölkədə də böyük inkişaf meyilləri müşahidə olunur. Tam əminliklə demək olar ki, Azərbaycan sənayesi keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu mərhələ gələcəkdə iqtisadiyyatın qeyri-neft sahələrinin davamlı, rəqabətqabiliyyətli inkişafına zəmin yaradacaqdır [1].

**Davamlı inkişaf sənayenin inkişafından asılıdır**

Sənaye inkişafının yeni mərhələsindən böyük gözləntilər var. Bununla bağlı prezident İlham Əliyevin daha maraqlı fikirləri var. Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə başçısı bəyan edib ki, əsas məqsəd Azərbaycanın neft amilindən asılılığını mümkün qədər azaltmaqdır ki, Azərbaycan gələcəkdə qeyri-neft sektoru hesabına inkişafını təmin etsin. Prezident qeyd edib ki, Azərbaycanın gələcək inkişafı sənayenin inkişafı ilə bağlı olmalıdır. Ölkə başçısı bildirib ki, hazırda Azərbaycan dövlətinin kifayət qədər vəsaiti var və ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət kəsb edən sənaye sahələrinə dövlət investisiyaları cəlb edilməlidir [1].

İqtisadçı ekspert Əli Əlirzayev də sənayenin yeni inkişaf mərhələlərindən böyük gözləntilərin

olduğunu bildirir. A.Əlirzayev hesab edir ki, Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək, dövlət büdcəsinin gəlirlərini artırmaq üçün sənaye sektorunun tərəqqisinə daha çox diqqət yetirilməlidir. Onun sözlərinə görə, iqtisadiyyatın sahələri arasında sənaye sektoru öz imkanlarına görə prioritet istiqamətdir və sənayenin qeyri-neft sektoru yüksək səviyyədə inkişaf etdirilsə, gələcəkdə neft sektorunun istehsalı azalarsa hətta büdcənin doldurulmasında heç bir problem olmayacaq.

İqtisadçının izahatına görə, sənayenin inkişafı üçün yerli xammala əsaslanan sahələrə diqqəti artırmaq lazımdır. A.Əlirzayev bu fikirdədir ki, yüngül sənayenin, kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan sənaye sahələrinin, gündəlik istehlak mallarının istehsalı ilə bağlı sahələrin inkişaf etdirilməsi vacibdir.

A.Əlirzayev tam əmindir ki, güclü sənaye potensialı yaradılmadan nə kənd təsərrüfatı, nə turizm, nə də digər sahələrin inkişafı uğurlu nəticələr verməyəcək [2].

**Qeyri-neft sənayesinin inkişafı**

Biz artıq vurğulamışdıq ki, müstəqil Azərbaycanda sənaye ikinci böyük inkişaf mərhələsini yaşayır. Birinci mərhələ neft amili ilə bağlıdır və əsasən 1994-2011-ci illəri əhatə edir. Bu dövrdə sənayedə yaradılmış əlavə dəyər (ümumi daxili məhsul istehsalı) dəfələrlə artaraq 28 milyard manatı ötmüşdür. 2011-ci ildən sənayedə ÜDM istehsalı nominal ifadədə azalsa da, bu sektorda qeyri-neft sənayesinin rolu artır. Bu ilin 9 ayının yekunlarına görə, sənayenin neft sektorunda azalma olduğu halda, qeyri-neft sektorunda 3 faizdən çox artım var.

Sənayenin ikinci mərhələsi emal sektorunun inkişaf göstəricilərinin artması ilə bağlıdır. Emal sektoruna investisiyaların artması sənayenin qeyri-neft sektorunun davamlı artımını təmin edir. 2009-cu ildə emal sektoruna 352 milyon manat sərmayə qoyulduğu halda, ötən il investisiyaların həcmi 900 milyon manata çatıb.

Təkcə 2013-cü ildə 30-dan çox müasir müəssisə, o cümlədən Bakının Qaradağ rayonunda Gəmiqayırma, Qazaxda sement, Sumqayıtda polad boru, Daşkəsəndə qızıl, Qəbələdə şərab zavodları, Sumqayıtda tekstil parkı, Hacıqabulda keramik plitələr, Abşeronda karton qablar, Cənubda karton qablar sənaye müəssisəsi istifadəyə verilmiş, 90-dan çox sənaye müəssisəsinin tikintisi davam etdirilir və növbəti illərdə istifadəyə veriləcəkdir [3].

**Sənayenin inkişafına dövlət dəstəyi**

Növbəti mərhələdə sənayenin inkişafının əsas istiqamətlərindən biri də bu sahəyə dövlət dəstəyinin genişləndirilməsidir. Bununla əlaqədar sənaye parklarının yaradılması sahəsində zəruri işlər sürətləndirilir.

Sumqayıtda Kimya Sənaye Parkının, Yüksək Texnologiyalar Parkının və Balaxanı Sənaye Parkının yaradılması bu istiqamətdə atılan ilk addımlardır. Digər sənaye parkı Sumqayıt Kimya Sənaye Parkı olacaq. Həmçinin Gəncə və Mingəçevir şəhərlərində, Bakının Qaradağ rayonunda müasir sənaye şəhərciklərinin yaradılması nəzərdə tutulur. Ümumiyyətlə, gələcəkdə ölkəmizin bir çox şəhərlərində sənaye parklarının yaradılması nəzərdə tutulur[3].

Tikilməkdə olan bu iri sənaye kompleksləri Azərbaycanın ixracyönümlü sənaye potensialının artırılmasına öz töhfəsini verəcəkdir. Bununla əlaqədar olaraq, yaxın və uzunmüddətli perspektivdə texnoparkların inkişafının stimullaşdırılması məqsədilə ölkənin vergi qanunvericiliyində fiziki və hüquqi şəxslərə gəlir, mənfəət, ƏDV, əmlak və torpaq vergiləri üzrə 7 il müddətinə güzəştlər nəzərdə tutulub.

Dövlət dəstəyinin digər təzahür formaları sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, o cümlədən güzəştli maliyyə resurslarına çıxış imkanları, təhsilin genişləndirilməsi, beynəlxalq əməkdaşlıq üçün daha əlverişli şəraitin yaradılması olacaq. Çox güman ki, bu tədbirlər ölkədə qeyri-neft sənayesinin inkişafına töhfə verəcək [5].

İqtisadçı ekspert Vüqar Bayramov da hesab edir ki, sənayenin inkişafı üçün dövlət dəstəyinə böyük ehtiyac var. Onun fikrincə, dövlət dəstəyinin səmərəli olması üçün bu dəstəyin necə və hansı formada həyata keçirilməsindən çox şey asılıdır.

O qeyd edir ki, sənayeyə dövlət dəstəyinin göstərilməsi praktikası ümumiyyətlə yoxdur. V.Bayramov inkişaf etmiş Avropa ölkələrinin, ABŞ-ın, inkişaf etməkdə olan ölkələrin təcrübəsini nəzərə

alaraq sənayedə dövlət dəstəyinin artırılması üçün müqayisəli üstünlüyə malik olan sahələrin müəyyənləşdirilməsinə və həmin sahələrin dəstəklənməsinə ehtiyac olduğunu bildirib.

Müqayisəli üstünlük dedikdə, ixrac qabiliyyəti olan sektorları nəzərdə tutur. İqtisadçı bildirib ki, ixrac edilə bilən sektorların dəstəklənməsi siyasətini həyata keçirməklə ölkə xarici ticarət göstəricilərini yaxşılaşdırır və ixracdan daha çox gəlir əldə edir.

V. Bayramov hesab edir ki, bununla bağlı ən yaxşı xarici təcrübələrdən biri də Çin Xalq Respublikasıdır: "Çində sənayenin müqayisəli üstünlüyə malik sektorlarını dəstəkləmək üçün xüsusi ixrac subsidiyaları tətbiq edilir. İxrac subsidiyalarının mahiyyəti ondan ibarətdir ki, dövlət ilk növbədə ixrac qabiliyyəti olan sektorları müəyyən edir və bu təcrübə diferensial vergilər şəklində tətbiq oluna bilər.Müqayisəli üstünlüyə malik sektorlar daha aşağı dərəcə ilə vergiyə cəlb edilir. Aşağı vergi dərəcələri həmin sektorların məhsullarının aşağı qiymətə və yüksək ixracata malik olmasına imkan verir.

Vergi güzəştlərindən sonra ikinci mərhələdə ixrac subsidiyaları tətbiq edilir. Hər bir müəssisə və ya şirkət ixrac etdiyi məhsulun həcminə uyğun olaraq dövlətdən subsidiya alır. V. Bayramov deyir ki, inkişaf etməkdə olan ölkələrdə ixracın 10 faizi həcmində subsidiya müəyyən edilib. Bəzi hallarda bu, 7 və ya 12 faiz təşkil edir: "Subsidiya almaq üçün müəssisə müəyyən həcmdən artıq ixrac etməlidir. Bu stimul və stimullar ona gətirib çıxarır ki, müəssisələrin ixraca daha çox marağı var".

Bayramov hesab edir ki, eyni təcrübənin Azərbaycanda da tətbiqinə ehtiyac var. Bunun üçün müqayisəli üstünlüyə malik sahələri müəyyən etmək lazımdır. Onun sözlərinə görə, yüngül, yeyinti və kimya sənayesini prioritet sahələr kimi göstərmək olar.

İqtisadçının fikrincə, bu sahələrə güzəştlərin tətbiq edilməsi yaxşı olardı: “Mövcud texnoparklar, klasterlər vasitəsilə həmin sektorlara vergi tətbiq etmək olar, daha sonra həmin sektorlardan məhsul ixrac edən şirkətlərə ixrac subsidiyalarının tətbiqinə ehtiyac var. Bu, mütləq şirkətlərə investisiya qoymağa imkan verəcək, daha çox ixracyönümlü istehsal potensialı yaratmağa çalışacaqlar. Bu, son nəticədə Azərbaycan sənayesinin ixrac imkanlarını və qeyri-neft sektorunun inkişafını artıracaq”[6].

**Sənayenin yeni inkişaf mərhələsi perspektivləri**

Azərbaycanda yaxın gələcəkdə yerli xammala əsaslanan metallurgiya sənayesinin, neft-kimya və kimya sənayesinin, maşınqayırma sənayesinin, tikinti materialları istehsalı sahələrinin, yerli xammala əsaslanan kənd təsərrüfatı məhsullarının emalının inkişafına xüsusi önəm veriləcəkdir.

Qeyd olunanlarla yanaşı, yeni sahələr kimi kosmik və müdafiə sənayesinin inkişafına, alternativ enerji istehsalının genişləndirilməsinə xüsusi diqqət yetiriləcək.

Görüləcək işlər müasir, innovativ, rəqabətqabiliyyətli və ixracyönümlü sənayenin formalaşmasını təmin edəcək [7].

İqtisadiyyatın səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində qeyri-neft sektorunun inkişafının təmin edilməsi dövlətimizin əsas iqtisadi prioritetlərindən biridir. Bu məqsədlə ölkədə aparılan uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatın şaxələndirilməsi ilə yanaşı, ümumi daxili məhsulda qeyri-neft sektorunun xüsusi çəkisi xeyli artmışdır.

Ölkənin sosial-iqtisadi həyatında xüsusi əhəmiyyət kəsb etdiyinə görə ötən dövr ərzində qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı iqtisadiyyatın əsas sahələrindən biri kimi müəyyən edilmişdir, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda bu sahənin inkişafı üçün əlverişli şərait yaradılmışdır.

Kənd təsərrüfatının ənənəvi sahələri olan pambıqçılığın, üzümçülüyün, tütünçülüyün, baramaçılığın sürətli inkişafı, kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsi, əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması, emal müəssisələri üçün xammal, emal sənayesinin genişləndirilməsinə dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı bir sıra hüquqi aktlar, o cümlədən dövlət proqramları qəbul edilmişdir.

Əhalinin ərzaq məhsullarına olan tələbatının davamlı şəkildə ödənilməsi məqsədi ilə son illərdə qəbul edilmiş dövlət proqramlarının icrası, ixracyönümlü kənd təsərrüfatı məhsulları istehsalının

təşviqi istiqamətində həyata keçirilən tədbirlər ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələrə səbəb olmuşdur. Regionlarda əhalinin məşğulluğunun artırılması və yoxsulluğun səviyyəsinin aşağı salınması üçün etibarlı əsas yaradılmışdır.

Hazırda Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş dövlət proqramları, o cümlədən “Azərbaycan Respublikasında 2012-2020-ci illərdə üzümçülüyün inkişafına dair Dövlət Proqramı”, “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”, “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair” 2017-2022-ci illər üçün Dövlət Proqramı, “Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”, “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair”, “Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”, “Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illərdə sitrus meyvəçiliyinin inkişafına dair Dövlət Proqramı”nın icrası nəticəsində Azərbaycanda kənd təsərrüfatı sahələrinin inkişafı sahəsində bir sıra uğurlu nəticələr əldə olunub [6].

Son dövrlər ölkənin ixrac potensialının artırılması, kənd təsərrüfatı istehsalı və emalı sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların innovativ qabiliyyətlərinin artırılması, yüksək məhsuldarlığa nail olunması, istehsalçılar, emalçılar və sənaye müəssisələri arasında inteqrasiyanın formalaşmasında mühüm rol oynayır. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalında intensiv üsulların geniş tətbiqi ilə istehlakçılara aqroparkların yaradılması istiqamətində mühüm addımlar atıldı.

Azərbaycanda aqrar sahənin yeni siması olan Aqroparkların yaradılması istiqamətində artıq kompleks tədbirlər uğurla həyata keçirilir.

Məlumdur ki, dünyada kənd təsərrüfatının mütərəqqi üsullarla inkişafının yeni formaları yaranır. Ölkəmiz də bu təcrübələrdən bəhrələnmək üçün müvafiq tədbirlər görür. Belə mütərəqqi üsullardan biri də aqroparklardır.

Aqropark biznes modeli kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, logistika və digər xidmətləri də daxil olmaqla, bu zənciri birləşdirən iqtisadi subyektdir. Aqroparklarda kənd təsərrüfatı istehsalı və emalı prosesləri, aqrotexniki və logistika, sanitariya və fitosanitariya, marketinq, satış (daxili bazar və ixrac) və digər xidmətlər, xammal istehsalı və emalı prosesləri yüksək rentabellik şəraitində həyata keçirilir. Eyni zamanda, ətraf mühitin mühafizəsi, torpaq və su ehtiyatlarından səmərəli istifadə, onların mühafizəsi təmin edilir, bitkiçiliyin, heyvandarlığın, emal sənayesinin və digər sahələrin inkişafı üçün möhkəm əsaslar yaradılır. Ərzaq məhsullarının istehsalı ilə bağlı əsas fəaliyyətləri - enerji, su və tullantıların idarə edilməsi, logistika, nəqliyyat, torpaq planlaşdırılması və digər prosesləri təmin edən aqroparklar, həmçinin istehsal, emal, təchizat, tədqiqat və inkişaf, ticarət və sosial funksiyaları əhatə edir[8].

Bu gün Azərbaycanın qarşısında duran əsas məqsədlərdən birinin - qeyri-neft sektorunun, aqrar-sənaye sektorunun aparıcı bölməsinin inkişafını təmin etmək məqsədilə həmin sektorun innovativ meyarlara uyğun qurulması, o cümlədən aqroparkların yaradılması əsas istiqamətlərdən biridir. Azərbaycanda aqroparkların yaradılması prosesi öz sürəti ilə davam edir və onların sayı 40-a yaxındır.Uzun illər Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunmuş torpaqlarımız əsasən kənd təsərrüfatı sahəsində böyük iqtisadi potensiala malik ərazilər idi. Hazırda işğaldan azad edilmiş ərazilərlə bağlı Strateji Fəaliyyət Planı hazırlanıb, bütün ərazilərin və şəhərlərin bərpası vahid konsepsiya əsasında həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə torpaq islahatının yeni mexanizmlərinin və meyarlarının hazırlanması, heyvandarlıq, bağçılıq, tərəvəzçilik, üzümçülük, taxılçılıq kimi mühüm kənd təsərrüfatı sahələrinin inkişafı davam etdirilir.

**Azərbaycan sənayesinin müasir vəziyyətinin və inkişaf meyillərinin öyrənilməsi**

Sənayenin inkişaf səviyyəsi hər bir ölkənin sabit iqtisadi inkişafını təmin edən mühüm amillərdən biridir. Çünki sənaye iqtisadiyyatın mürəkkəb sahəsi kimi cəmiyyətin müxtəlif sahələrinin inkişafını tələb edir və bu inkişaf səviyyəsindən asılı olaraq onun rəqabət qabiliyyəti formalaşır.

Son dövrlərdə ölkədə aparılan genişmiqyaslı köklü islahatlar nəticəsində iqtisadiyyatın bütün sahələrində olduğu kimi sənayedə də canlanma müşahidə olunur. Son illər istehsal sahələrinin inkişafı, yeni müəssisələrin yaradılması, xüsusilə ölkənin neft-qaz sənayesinin sürətli inkişafı ümumi daxili məhsulun strukturunda sənaye istehsalının xüsusi çəkisinin artmasına səbəb olmuşdur. Belə ki, 2013-cü ildə sənaye istehsalının ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi 46,3 faiz təşkil edib. 2013-cü ildə ölkədə sənaye istehsalının həcmi 2000-ci illə müqayisədə 3,1 dəfə artmışdır. Bu artım mədənçıxarma sənayesində 3,2 dəfə, emal sənayesində 2,4 dəfə, elektrik enerjisi, qaz və buxar istehsalı sahəsində 1,6 dəfəyə bərabər olmuşdur , bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində isə 1,1 dəfə olmuşdur. Son illər sənayedə istehsalın artmasına baxmayaraq, hələ də 1990-cı ilin səviyyəsinə çatmamışdır.Belə ki, 2013-cü ildə sənaye məhsulunun həcmi 1990-cı illə müqayisədə 1,7 faiz, emal məhsullarının istehsalının həcmi isə 43,7 faiz az olmuşdur.

Neft hasilatı sahəsinə xarici investisiyaların cəlb edilməsi və bu sahədə istehsalın artması sənayenin sahə strukturunda bu sahənin xüsusi çəkisinin artmasına səbəb olmuşdur. Qeyd olunan dövrdə mədənçıxarma sənayesində istehsalın həcmi təxminən 2,5 dəfə artmışdır. Nəticədə sənaye məhsulunun strukturunda neft-qaz sektorunun xüsusi çəkisi artmışdır. Belə ki, 2013-cü ildə sənaye məhsulunda neft və qaz hasilatının xüsusi çəkisi 74,1 faiz, neft emalının payı 7,6 faiz, elektrik enerjisi, qaz, buxar və su istehsalı, bölüşdürülməsi və təchizatının payı isə 6,3 faiz təşkil etmişdir. Belə ki, sənaye məhsulunda qeyri-neft emalı sektorunun payı 2000-ci ildəki 12,8 faizdən 2013-cü ildə 8,9 faizə enmişdir. Son dövrlərdə yanacaq-energetika sektorunda müşahidə olunan inkişaf meyilləri xarici ticarət əlaqələrinin genişlənməsinə təkan vermişdir. Belə ki, 2013-cü ildə ümumi ixracın 92,7 faizi neft və neft məhsullarının payına düşüb. Bu, əsasən, ölkə sənayesinin sahə strukturunda qeyri-obyektivliklə bağlıdır. Belə bir şəraitdə qeyri-neft sektorunun inkişafı böyük əhəmiyyət kəsb edir. Toxuculuq və tikiş sənayesi, kimya sənayesi və elektrik avadanlıqları, optik və elektron avadanlıq istehsalı sahələri istisna olmaqla, emal sənayesinin digər sahələrində istehsalın həcmi artmışdır. Eyni zamanda, emal sənayesində məhsul istehsalının artımının əsas hissəsi qida məhsullarının, o cümlədən içkilərin və tütün istehsalının, neft məhsullarının istehsalının hesabına olmuşdur. Hazırda iqtisadi siyasətin əsas prioritetlərindən biri iqtisadi inkişafın daha da şaxələndirilməsinin təmin edilməsidir. 2013-cü il ərzində qeyri-neft sektorunda iqtisadi islahatların davam etdirilməsi, idxaldan asılılığın maksimum dərəcədə azaldılması, özünü gündəlik tələbat məhsulları ilə təmin etmək, ölkənin ixrac imkanlarının şaxələndirilməsi, o cümlədən yerli resurslarla işləyən sənaye komplekslərinin yaradılması və xammal və ixraca uyğun məhsul istehsal etmək, rəqabətqabiliyyətli məhsul istehsalı, o cümlədən dövlət əhəmiyyətli müəssisələrin fəaliyyətinin dəstəklənməsi, əlverişli biznes mühitinin artırılması, xarici və yerli investisiyaların cəlb edilməsi, özəl müəssisələrin fəaliyyətinin dəstəklənməsi, inkişafı təşviq edən qurumlara diqqətin artırılması özəl sektorun inkişafı və rəqabət mühitinin yaxşılaşdırılması, ölkə sahibkarlarının maarifləndirilməsi və onların işgüzar əlaqələrinin inkişafı istiqamətində mühüm işlər görülmüşdür. Sənayeləşmə siyasəti çərçivəsində 2013-cü ildə qeyri-neft sənayesinin çoxşaxəli inkişafının təmin edilməsi istiqamətində məqsədyönlü tədbirlər sistemli və ardıcıl olaraq davam etdirilmişdir. İnnovativ iqtisadiyyatın formalaşdırılması istiqamətində əməli tədbirlər həyata keçirilib. Dövlət sənaye müəssisələrinin özəlləşdirilməsi və özəl müəssisələrin yaradılması nəticəsində sənayedə dövlət sektorunun payı ildən-ilə azalmışdır. Belə ki, 2013-cü ildə sənaye məhsulunun 18,9 faizi dövlət bölməsində istehsal olunub. Dövlət bölgüsündə sənaye istehsalının azalması əsasən kimya məhsulları və elektrik enerjisi istehsalının azalması hesabına baş verib. Ölkə sənayesinin sahə strukturunda birtərəflilik onun ərazi strukturunda da özünü göstərir. Ölkənin iqtisadi rayonları üzrə sənaye inkişafının mövcud vəziyyətinin təhlili göstərir ki, Bakı şəhəri istisna olmaqla, ölkənin digər iqtisadi rayonlarında sənaye istehsalı kifayət qədər inkişaf etməmişdir[7].

Ölkə sənayesinin müasir vəziyyətinin təhlilindən məlum olur ki, indiki şəraitdə sənaye müəssisələrinin inkişafına mane olan əsas amillərdən biri bu sahədə yüksək ixtisaslı kadr çatışmazlığıdır. Məlumdur ki, respublikamız keçmiş Sovetlər İttifaqının tərkibində olarkən ölkə sənayesində

yüksək kadr potensialını formalaşdırmaq mümkün idi. Lakin respublikamız müstəqil dövlət olduqdan sonra obyektiv və subyektiv səbəblərdən sənaye müəssisələrinin inkişafının zəifləməsi, digər tərəfdən sənaye, xüsusilə də emal sənayesi müəssisələrində əməkhaqqının iqtisadiyyatın digər sahələrinə nisbətən aşağı olması, mövcud şərtlər, uzun illər ərzində yığılmış istehsal, texnoloji və kommersiya biliklərinin itkisi meydana gəldi və gələcəkdə bu istehsalların bərpası zamanı kadr problemi həlledici amillərdən biri olacaq.

Qeyd etdiyimiz kimi, sənayenin inkişafı siyasətini hazırlamaq üçün ilk növbədə ölkə sənayesinin hazırkı vəziyyəti öyrənilməli, problemləri müəyyən edilməlidir. Azərbaycan sənayesinin hazırkı vəziyyətinin əsas problemləri və xarakterik xüsusiyyətləri aşağıdakı kimi ümumiləşdirilə bilər:

✓ Resurs çatışmazlığı və mövcud resurslardan səmərəsiz istifadə problemləri (Bura daxildir: SAS vəsaitlərinin aşınması və müəssisələrin texnoloji geriliyi, investisiya və dövriyyə vəsaitlərinin çatışmazlığı, elmi-texniki potensialın itirilməsi və innovasiya mexanizminin yaradılmaması, aşağı səviyyədə əmək məhsuldarlığı, yüksək kadr dəyişikliyi (əsasən peşəkar mütəxəssislər), peşə istiqamətini dəyişdirməkdə çətinliklər və s.);

✓ Struktur problemləri (sənayenin əvvəllər formalaşmış sahə strukturunun müstəqillik şəraitində ölkənin milli iqtisadi inkişaf tələblərinə cavab verməməsi, sənaye strukturunun xammala (xüsusilə neft və qaz hasilatı) yönəlmiş son inkişafı), emal sənayesi məhsullarının ixracda çox kiçik payı, regional disproporsiyalar və sənaye istehsalının əsasən Abşeron yarımadasında cəmləşməsi, istehsal infrastrukturu sahəsində çatışmazlıqlar və s.);

✓ Dövlət siyasəti və dövlət tənzimlənməsi ilə bağlı problemlər (islahatların ləngiməsi, xüsusilə dövlət obyektlərinin tam özəlləşdirilməsi (dövlət mülkiyyəti bir sıra sənaye sahələrində yüksək pay saxlayır), azad sahibkarlığın inkişafı üçün zəruri şərait (xüsusilə mülkiyyət toxunulmazlığına dövlət təminatı, hamının qanun qarşısında bərabərliyi, məhkəmələrin müstəqilliyi və hamı üçün ilkin bərabər şərait və s.) təmin edilməmişdir;

✓ Bazar rəqabəti problemləri (zəif daxili tələb və məhdud bazar, əsasən yerli istehsal olunan əmtəə və xidmətlərin keyfiyyətinin aşağı olması və yüksək istehsal xərcləri, daxili bazarda idxal olunan malların yüksək payı, hətta yerli istehsal olunan məhsulların əsas komponentlərinin idxalı, daxili tələbatın aşağı salınması, məhsul və xidmətlərin keyfiyyətinin aşağı olması, məhsul və xidmətlərin keyfiyyətinin yüksək olması, daxili bazarda istehsal olunan məhsul və xidmətlərin keyfiyyətinin yüksək olması, daxili bazarda istehsal olunan məhsulların daxili bazarda yüksək payı olması, daxili tələbatın zəifləməsi və bazarın məhdud olması, daxili bazarda istehsal olunan məhsul və xidmətlərin keyfiyyətinin yüksək olması, daxili bazarda idxal olunan məhsulların yüksək payı, hətta yerli istehsal məhsullarının əsas komponentlərinin idxalı, daxili tələbatın zəif olması və bazarın məhdud olması, yerli istehsal məhsullarının və xidmətlərin keyfiyyətinin aşağı olması və yüksək istehsal xərcləri, yerli istehsala dövlət dəstəyi sisteminin yaradılması, müəssisələrin bazar münasibətləri şəraitində fəaliyyətə ləngiməsi, bazarın tədqiqində və beynəlxalq bazarlara çıxışda çətinliklər və s.);

✓ İnstitusional problemlər (bazar infrastrukturunun zəif inkişafı, müasir idarəetmə və idarəetmə bacarıqlarına yiyələnmiş mütəxəssislərin çatışmazlığı, mal və xidmətlərin beynəlxalq tələblərə uyğun standartlaşdırılması və sertifikatlaşdırılması sisteminin qurulmaması, iri, orta və kiçik müəssisələrin koordinasiyası qarşılıqlı maraqlar üzərində sistemin formalaşmaması, beynəlxalq biznes sahəsində zəif “oyun qaydaları”, təhsil, korporativ idarəetmə təcrübəsinin mənimsənilməməsi və s.).

### *Nəticə*

Respublikamızın rayonlarının sənaye istehsalında kəskin fərqlər bu sahədə dövlət tənzimlənməsini zəruri edir. Ərazidə sənayenin təşkili işinin tənzimlənməsi ilə bağlı tədbirlər müxtəlif üsullarla həyata keçirilir. Bunlara inzibati və iqtisadi üsullar daxildir. İnzibati üsullar adətən ayrı-ayrı rayonlarda, yəni sənaye müəssisələrinin cəmləşdiyi rayonlarda yeni yaradılmış müəssisələrin fəa-

liyyətinin məhdudlaşdırılmasına yönəldilir. Adətən sənaye cəhətdən inkişaf etmiş ölkələrdə, sənaye müəssisələrində təmərküzləşmənin yüksək səviyyədə olduğu regionlarda əmlaka və gəlirlərə yüksək vergi dərəcəsi tətbiq edilir, yeni müəssisələrin tikintisinə və ya mövcud müəssisələrin genişləndirilməsinə, müəssisənin ləğvinə kredit verilmir.

İqtisadi üsullar ərazi üzrə sənaye istehsalının təşkilinə dolayı təsir vasitələridir və onların fəaliyyəti ayrı-ayrı istiqamətlərdə rentabelliyi azaltmaqla və ya artırmaqla tənzimlənir. Əgər inzibati metodlar əsasən inkişafı məhdudlaşdırmağa yönəldilə bilərsə, iqtisadi metodlar inkişafı həm məhdudlaşdırmağa, həm də stimullaşdırmağa yönəldilə bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycanın statistik göstəriciləri 2013. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2014. 804 s.
2. Azərbaycan rəqəmlərdə 2013. Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Bakı, 2014, 278 s.
3. Azərbaycan sənayesi 2013. Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Bakı, 2014, 334 s.
4. Кушлина В.И. Государственное регулирование рыночной экономики. Москва, Издательство РАГС, 2008.
5. Ходов Л.Г. Государственное регулирование национальной экономики. Москва.: «Экономисть», 2005, 618 с.
6. Портер М.. Международная конкуренция. Конкурентные премушества стран. М.: Международные отношения, 1993. 896 с.
7. http://www.anl.az/down/meqale/respublika/2013/mart/297792.htm
8. https://azerbaijan.az/related-information/136
9. https://audit-journal.az/en/articles/47
10. https://unec.edu.az/application/uploads/2015/12/ibrahimov_murad.pdf

***Тахмина Паша кызы Баладжаева***
***преподаватель кафедры Мировой Экономики БГУ***
***tahmina.balajayeva@gmail.com***

## Приоритетные направления развития обрабатывающей промышленности Азербайджана

***Резюме***

**Целью исследования** является изучение текущей ситуации, взаимоотношений и инвестиционных приоритетов для увеличения производства сельскохозяйственной и пищевой продукции в Азербайджане.

**Прикладная значимость исследования** заключается в том, что результаты проведенных исследований, выдвинутые предложения могут быть использованы при разработке, интеграции и инвестиционных проектах агропродовольственной отрасли.

**Результаты исследования** основаны на статистических данных и оценке текущей ситуации, а совместный обзор развития сельского хозяйства и пищевой промышленности может привести к инвестициям.

**Оригинальность и научная новизна исследования** В статье рассматривается развитие сельского хозяйства, развитие пищевой промышленности и инвестиций одновременно. Правильно оценивать развитие этих направлений с точки зрения инвестиций, интеграции и продовольственной безопасности. Приоритетные направления инвестирования определяются исходя из конкретных фактов использования имеющихся ресурсов.

***Ключевые слова сельскохозяйственное производство, пищевая промышленность, потенциальные ресурсы, инвестиции, приоритетные направления, инфраструктура.***

***Tahmina Pasha Balajayeva***
***Lecturer, Department of World Economy, BSU***
***tahmina.balajayeva@gmail.com***

**Priority directions of processing industry development in Azerbaıjan**

***Summary***

**The purpose of the study** is to study the current situation, mutual relations and investment priorities for increasing the production of agricultural and food products in Azerbaijan.

**The applied importance of the research** is that the results of the conducted research, the proposed proposals can be used in the development, integration and investment projects of the agricultural and food industry.

**The results of the study** are based on statistical data and assessment of the current situation, and a joint review of the development of agriculture and food industry can lead to investment.

**Originality and scientific novelty of the research** The article examines the development of agriculture, the development of the food industry and investments at the same time. It is right to evaluate the development of these areas in terms of investment, integration and food security. Priority directions of investment are determined based on specific facts for the use of available resources.

***Keywords agricultural production, food industry, potential resources, investments, priority areas, infrastructure.***

# IV BÖLMƏ.
# İQTİSADİ RAYONLARIN İNKİŞAFI, MÜƏSSİSƏLƏRİN BİZNES STRATEGİYASI VƏ SƏNAYE KOMPLEKSLƏRİNİN İDARƏ EDİLMƏSİ

UOT: 332.1: 911.6; JEL: O18, R14, R58

*Zümrüd Cümşüd qızı NƏSİBOVA*
*Azərbaycan Kooperasiya Universitetinin dissertantı,*
*E-mail: nasibova.zumrud22@gmail.com*

## QLOBAL ÇAĞIRIŞLAR NƏZƏRƏ ALINMAQLA İQTİSADİ RAYONLARIN İNKİŞAF ETDİRİLMƏSİNİN METODOLOJİ XÜSUSİYYƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – qlobal çağırışlar nəzərə alınmaqla iqtisadi rayonların inkişaf etdirilməsinin metodoloji xüsusiyyətlərinin öyrənilməsi və ümumiləşdirilməsindən ibarətdir.

**Tədqiqatın metodologiyası** – analiz, sintez və ümumiləşdirmə metodlarından ibarətdir, eyni zamanda baxılan problemlər üzrə müxtəlif tədqiqatçıların yanaşmaları da nəzərə alınmışdır.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – müasir qlobal çağırışlar şəraitində iqtisadi rayonların inkişaf etdirilməsi istiqamətində məqsədli proqramların, fəaliyyət strategiyalarının hazırlanmasında əldə olunmuş elmi-praktiki nəticələrdən istifadə olunmasının mümkünlüyü ilə ifadə olunur.

**Tədqiqatın nəticələri** – qlobal transformasiyalar mühitində iqtisadi rayonların inkişafının dövrün tələblərinə uyğun şəkildə təmin edilməsi üçün tövsiyələrin hazırlanması və təkliflərin irəli sürülməsi ilə əlaqədardır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – məqalədə verilən materiallar işğaldan azad olunmuş ərazilərdə aparılan geniş həcmli reabilitasiya kontekstində hazırlanmışdır və əsasən orijinal xarakter daşıyır. Başlıca elmi yenilik müasir dövrdə yeni çağırışlara uyğun olaraq iqtisadi rayonların inkişaf etdirilməsinin daha üstün metodoloji üslublarının müəyyənləşdirilməsi və tətbiqinin vacibliyinin elmi arqumentlərlə əsaslandırılmasıdır. Baxılan problemlər üzrə bir sıra amillərə toxunulmuş və tətbiq xarakterli təkliflər hazırlanmışdır.

***Açar sözlər: qlobal çağırışlar, iqtisadi rayonlar, iqtisadi rayonların inkişaf problemləri, iqtisadi rayonların inkişaf perspektivləri, iqtisadi inkişafın metodoloji əsasları, işğaldan azad olunmuş ərazilər.***

### *Giriş*

Qlobal çağırışlar şəraitində iqtisadi rayonların inkişafının strateji prioritetlərinin müəyyənləşdirilməsi müasir dövrün aktual problemlərindəndir. Son zamanlar Azərbaycan Respublikasında yerli resursların öyrənilməsinin səmərəliliyinin artırılması, iqtisadi rayonların inkişafının tarazlılığının və davamlılığının təmin edilməsi istiqamətində ardıcıl siyasət həyata keçirilir. Ölkədə qəbul edilmiş fərman, sərəncam və digər normativ sənədlər, o cümlədən hökumət tərəfindən reallaşdırılan məqsədyönlü tədbirlər nəticəsində iqtisadi rayonların inkişafına mane olan bir çox problemlər həll edilmiş və bu inkişafın davamlılığı təmin edilmişdir. Hazırda iqtisadi rayonların inkişaf etdirilməsində əsas məqsəd əhalinin yaşayış şəraitinin yaxşılaşdırılmasıdır. Buna görə də inkişaf prosesi aşağıdakı elementləri əhatə edir: əhalinin gəlirlərinin artırılması, təhsil səviyyəsinin yüksəldilməsi və sağlamlığının yaxşılaşdırılması; insan ləyaqətinə hörmətlə yanaşmağa yönəlmiş iqtisadi, sosial və institusional sistemin formalaşması, insanların özünəhörməti təmin edə biləcək şəraitin yaradılması; insanların iqtisadi azadlıq səviyyəsinin artırılması [1, s.11]. Ölkənin və onun iqtisadi ra-

yonlarının inkişafı sahibkarlığın inkişaf səviyyəsindən asılıdır. İqtisadi rayonlarda sahibkarlığın inkişafı məqsədilə respublikamızda fərman, sərəncam və digər normativ sənədlər hazırlanmış və reallaşdırılmış, bir çox müsbət nəticələr əldə edilmişdir. Bununla belə, iqtisadi rayonlarda sahibkarlığın inkişafında əldə olunan müsbət meyillərə baxmayaraq, rəqabətə tab gətirə bilən, mövcud tələbatı tam ödəyən, ixracyönümlü məhsul istehsal edən sahibkarlıq subyektləri hələ də kifayət qədər yoxdur. Azərbaycanın iqtisadi rayonlarında sahibkarlığın inkişafına təsir göstərən çoxsaylı texniki, psixoloji, təşkilati, iqtisadi amillərlə yanaşı, həmin rayonlarda istehsalın səmərəliliyinin həcmi, sosial amillər, kənd əhalisinin maddi durumu, sahələrin infrastrukturunun inkişaf səviyyəsi və s. əhəmiyyətli təsir göstərir.

**Qlobal çağırışlar şəraitində iqtisadi rayonların inkişaf etdirilməsinin metodoloji aspektləri**

Müasir şəraitdə iqtisadi rayonların inkişafının təmin edilməsi daha çox gənclərin rayonlara və kəndlərə gəlişindən və məskunlaşmasından asılıdır. Araşdırmalar göstərir ki, kənd məktəbi məzunlarının az hissəsi kənddə qalmaq, işləmək və öz həyatlarını qurmaq istəyir. Bunun əsas səbəbi, kənd yerlərində infrastrukturun zəif inkişafı, yaşayış şəraitinin müasir tələblərə uyğun olmaması, ən əsası isə iqtisadi rayonların kənd yerlərində informasiya təminatının zəif olmasıdır. İqtisadi rayonlarda aparılan sosial islahatlar və yerli əhalinin əsas həyati tələbatlarının ödənilməsi üçün səmərəli tədbirlər kompleksinin reallaşdırılması yalnız dövlət dəstəyi və icra hakimiyyətlərinin bir-biri ilə əlaqəli fəaliyyəti ilə mümkündür. Bu aspektdə 2019-2023-cü illəri əhatə edən, Azərbaycanda regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan Dövlət Proqramnın reallaşdırılması xüsusilə əhəmiyyətlidir [2]. Qeyd edək ki, son illər təsdiq edilmiş və reallaşdırılmış dövlət proqramlarının nəticəsidir ki, ölkəmizdə ÜDM-in həcmi üç dəfədən çox artıb, onun strukturu getdikcə genişlənir. 2004-cü ildən regionların inkişafı problemlərinin həlli ilə bağlı üç məqsədli dövlət proqramı həyata keçirilib və hazırda 2019-2023-cü illəri əhatə edən, sayca dördüncü olan Dövlət Proqramı uğurla icra olunur. Ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi, planlaşdırılan və proqnozlaşdırılan tədbirlərin daha yüksək səviyyədə təşkili baxımından iqtisadi rayonların yeni bölgüsü əhəmiyyətlidir. Belə bölgü xarici investisiyaların cəlbediciliyinin daha da artırılmasına, daxili investisiyaların məqsədyönlü və səmərəli istiqamətləndirilməsində, yeni maliyyələşdirmə mənbələrinin formalaşdırılmasında, əlavə dəyər strukturunun şaxələndirilməsində öz müsbət təsirini göstərəcəkdir [5, s. 68].

Bunlarla bərabər 44 günlük Vətən müharibəsi də regionda qarşılıqlı faydalı əməkdaşlığın, sabitliyin, təhlükəsizliyin və rifahın formalaşmasına, ticarət-iqtisadi əlaqələrin genişlənməsinə, yeni beynəlxalq və regional nəqliyyat vasitələrinin istifadəsinə regionda böyük təkan verir. Hazırda Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş Qarabağda və onun ətraf ərazilərində artıq inkişaf başlanmışdır. Qarabağın inkişaf istiqamətləri “Azərbaycan Respublikasının 2030-cu ilədək olan dövr üçün sosial-iqtisadi inkişafının Milli Prioritetləri”ndə də öz əksini tapmışdır. Qarabağın dirçəldilməsi və bərpası işlərinin təşkili ilə bağlı intensiv və ardıcıl fəaliyyətə başlanılıb, infrastrukturların yaradılması, böyük köçə hazırlıq işlərinin sürətləndirilməsi istiqamətində tədbirlər ardıcıl surətdə reallaşdırılır. Şübhəsiz ki, bütün bu və ya digər proseslərin səmərəliliyi və məhsuldarlığı bilavasitə maliyyə resursları ilə təminat mexanizmlərinin funksionallığından və istifadə olunan maliyyə alətlərinin məqsədyönlülüyündən asılıdır [6, s. 59]. İqtisadi rayonların yeni bölgüsü səmərəliliyin daha da artırılması baxımından əhəmiyyətlidir. Belə strateji yanaşma planlı reinteqrasiya faktıdır və gələcəyə daha optimist proqnozlar verməyə əsas verir. 2021-ci ilin 7 iyul tarixində təsdiq edilmiş “İqtisadi rayonların yeni bölgüsü haqqında” Fərmandan irəli gələn vəzifələrinin icrası məqsədilə artıq zəruri tədbirlər reallaşdırılıb və bu proseslər davam etdirilməkdədir [3]. Yeni iqtisadi rayonlaşdırma ilə işlərin görülməsi məqsədilə layihə və təkliflər hazırlanıb, təqdimat və əlaqələndirmə tədbirləri görülüb, qəbul edilən qərarların qanunvericiliklə tənzimlənməsi istiqamətində əməli addımlar atılıb. Digər tərəfdən, iqtisadi rayonlaşdırma ölkə üzrə iqtisadi fəallığın gücləndirilməsində və dövlət tərəfindən bununla bağlı investisiyalaşdırma proseslərinin səmərəliliyinin yüksəldilməsinə, ölkənin bütün bölgələrində əhalinin gəlirlərinin şaxələndirilməsinə, sahibkarlığın inkişafının sürətləndirilməsinə və regionlarda yaşayış şəraitinin getdikcə yaxşılaşdırılmasına yeni imkanlar yaradacaq.

Xüsusilə, COVİD-19 pandemiyası ilə bağlı mövcud qlobal təhdidlər və çağırışlar kontekstində iqtisadi sektorların sürətli bərpası, iqtisadi geriliyin aradan qaldırılması və səmərəliliyin artırılması üçün daha geniş perspektivlər açılır. Digər tərəfdən, iqtisadi rayonlaşdırma ilə bağlı yenilənmə Vətən müharibəsində qələbədən sonra yaranmış obyektiv reallıqları əks etdirir. Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərin bərpası və təsərrüfat dövriyyəsinə qaytarılması iqtisadi rayonların, onların məhsuldar qüvvələrinin və resurslarının daha dəqiq, rasional bölüşdürülməsini zəruri edir. Siyasi və milli təhlükəsizlik baxımından da yeni yaradılmış iqtisadi rayonlar xüsusi əhəmiyyət daşıyır. Məlumdur ki, ölkəmizdə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri” hədəfləri həyata keçirilir. Fikrimizcə, bu proseslər ölkəmizin qüdrətli dövlətə çevrilmək şanslarını artıracaq və biz öz milli təhlükəsizliyimizi, eləcə də iqtisadi təhlükəsizliyimizi əhəmiyyətli dərəcədə gücləndirə biləcəyik. Beləliklə, Qarabağ iqtisadi rayonunun yaradılması ilə Qarabağın özü bütöv iqtisadi və siyasi konsepsiya kimi ön plana çıxır və revanşist qüvvələrə qarşı qabaqlayıcı tədbirlərdən biri kimi qiymətləndirilə bilər.

Son illər Azərbaycanın maliyyə imkanları artmış və ölkəmiz artıq transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməyə başlamışdır. Eyni zamanda, Bakıda və regionlarda müasir infrastrukturun yaradılması, ən müasir texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin yaşayış şəraitinin və biznes mühitinin yaxşılaşdırılması Azərbaycanın dünyada nüfuzunun daha da artmasına zəmin yaratmışdır. Hazırda infrastrukturun inkişafı prioritet sahələrdən biridir və iqtisadi rayonların səmərəli inkişafının əvəzsiz şərtidir. İnfrastrukturlar həm rayon iqtisadiyyatının fəaliyyət göstərməsi, həm də xalq təsərrüfatının fəaliyyət göstərməsi baxımından əhəmiyyətlidir. Üstəlik, infrastruktur iqtisadi rayonların ayrılmaz hissəsidir. Eyni zamanda, iqtisadi rayonlarda infrastrukturun inkişaf səviyyəsi ilə onun inkişafı arasında birbaşa əlaqənin olduğu da göz qabağındadır. Milli iqtisadiyyatda infrastrukturun aşağıdakı əsas növlərini ayırmaq adətdir: 1) sənaye infrastrukturu: yük nəqliyyatı, maddi-texniki təchizat, istehsal sektoruna xidmət edən rabitə və s.; 2) sosial infrastruktur: təhsil, səhiyyə, bədən tərbiyəsi və idman, mədəniyyət, uşaq müəssisələri, sosial müdafiə və sosial təminat sistemi, sərnişin nəqliyyatı, mənzil-kommunal təsərrüfatı, şəhərsalma, məişət xidməti, ticarət və ictimai iaşə; 3) bazar infrastrukturu: kommersiya bankları, audit firmaları, investisiya fondları, sığorta şirkətləri, informasiya sistemi, sərgi mərkəzləri, marketinq, reklam firmaları, ticarət və ictimai iaşə və s. Sosial-iqtisadi infrastruktur iqtisadi rayonların inkişaf amilidir və aşağıdakı tələblərə cavab verməlidir: cəmiyyətin bütün əsas sahələrində, o cümlədən istehsalatda səmərəli insan fəaliyyətinin təmin edilməsi; infrastruktur elementlərinin qarşılıqlı əlaqədə olduğu və bir-birini tamamladığı mürəkkəblik; infrastrukturun inkişafı problemlərinin həllində normativ yanaşmanın tətbiqi; sosial infrastrukturun iqtisadi rayonlarda əhalinin inkişafı məqsədlərinə tabe edilməsi və s.

Qeyd edək ki, istehsal infrastrukturu inkişaf etmədən müəyyən ərazidə istehsalın inkişafı mümkün deyildir, eyni zamanda infrastrukturun inkişaf səviyyəsi konkret ərazinin inkişafının ümumi səviyyəsini müəyyən edir. İnfrastruktur, istehsal sisteminin bir hissəsi kimi, açıq şəkildə regional xarakter daşıyır. Çox vaxt onun elementləri müəyyən bir bölgənin ərazisinə bağlıdır. Cəmiyyətin rasional ərazi təşkili bütün ərazi bölgülərinin inkişafının səmərəliliyini təmin etməlidir. İnfrastrukturun iqtisadi rayonların inkişafına təsiri əhalinin həyatının təmin edilməsi üçün şəraitin yaradılmasında, iqtisadiyyatın həyat qabiliyyətinin təmin edilməsində və s. özünü göstərir. Cəmiyyətin inkişafı üçün rahat və təhlükəsiz şəraiti təmin etməyən infrastrukturun fəaliyyəti, başqa sözlə, infrastrukturun fəaliyyətinin pozulması iqtisadi rayonların inkişafında problemlərin yaranmasına və kəskinləşməsinə səbəb olur [8, s.75].

İqtisadi rayonlarda innovativ infrastrukturlar kimi klasterlərin, texnoparkların, biznes inkubatorların və s. yaradılması da onların inkişafı baxımından zəruridir. İnnovasiya infrastrukturu iqtisadi fəaliyyətin əlaqələndirilməsinə töhfə verir, onun səmərəliliyini artırır. Klasterlər şəklində innovativ iqtisadiyyatın inkişafı iqtisadi rayonların inkişafı üçün perspektivli strategiyalardan biridir. Eyni zamanda, ərazi inkişafı strategiyasının hazırlanması iqtisadi rayonların tənzimlənməsinin ən vacib elementlərindəndir. Klaster təşkilatı regional inkişaf strategiyası üçün əsas ola bilər [7, s.15]. Regio-

nal klasterlərin yaradılması regional səviyyədə formalaşmış əlaqələrin köməyi ilə dövlət orqanlarının, əhalinin və biznes strukturlarının, hətta bütöv sənaye sahələrinin fəaliyyətinin birləşməsinə kömək edir. Regional klasterlər bazar münasibətlərinin intensiv inkişafına səbəb olur. Belə ki, rayonların inkişafı kəmiyyət artımından daha çox gəlirlərin artırılması, əhalinin təhsil səviyyəsinin yüksəldilməsi və sağlamlığının yaxşılaşdırılması əsasında orada baş verən keyfiyyət dəyişiklikləridir.

Ölkənin əksər iqtisadi rayonlarında kənd təsərrüfatı ərazilərinin inkişafı üçün imkanlar və çoxlu sayda fəaliyyət sahələri mövcuddur. Məsələn, kənd təsərrüfatı sahəsində pambıqçılığın inkişafı həm kənd təsərrüfatı rayonunun emal kompleksinin emal potensialını artıracaq, həm də əhalinin toxuculuq məhsullarına olan tələbatının ödənilməsində yerli brendlər yaradacaq. Digər tərəfdən, iqtisadi zonalar şəbəkəsinin yaradılması və bununla bağlı tədbirlərin sistemli şəkildə həyata keçirilməsi, onların ixtisaslaşdırılması və kompleks inkişafı mühüm şərtdir. Eyni zamanda, iqtisadi rayonlarda daha da inkişaf edəcəyi gözlənilən sahələrin imkanlarını diqqətlə öyrənmək, lazımi ehtiyat tədbirlərini görmək lazımdır. Bu kontekstdə kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi, innovasiyaların tətbiqi, kooperasiya və inteqrasiya əlaqələrinin adekvat qiymətləndirilməsi, kənd təsərrüfatının inkişafında elmi-texniki tərəqqinin rolunun yüksəldilməsi zəruridir. Hazırda iqtisadi rayonların inkişafına töhfə verən regionlararası əlaqələrin təkmilləşdirilməsinə ehtiyac var. Odur ki, həmin rayonların maddi, əməliyyat və institusional bazasında azad iqtisadi zonaların (AİZ) yaradılması perspektivi ilə terminalların və çoxnövlü nəqliyyat-boşaltma qovşaqlarının, anbar obyektlərinin daha da inkişaf etdirilməsi zəruridir. Qarşıdakı illərdə ölkəmizin müxtəlif iqtisadi rayonlarında AİZ-lərin yaradılması prosesləri xeyli sürətləndiriləcək. Bu baxımdan qeyd edilməlidir ki, Azərbaycanda AİZ-lərin yaradılması və onların inkişaf prosesləri böyük sürətlə daha aktiv fazaya keçəcəkdir. Belə ki, Azərbaycan iqtisadi inkişaf yolunda milli iqtisadiyyatın strukturunun yaxşılaşdırılması və təkmilləşdirilməsi, onun neftdən asılılığının azaldılmasında AİZ-lərin roluna və əhəmiyyətinə böyük əhəmiyyət verir. Bu proseslərdə AİZ-lər aparıcı fəaliyyət istiqamətlərindən biri hesab olunur. Son dövrlərdə ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, ilk növbədə, dünya təcrübəsinin ən yaxşı nümunələrindən istifadə etməklə bütün sahələrin inkişafı istiqamətində mühüm addımlar atılır. Müasir sənaye parkları, sənaye zonaları, texnoparklar, yüksək texnologiya parkları yaradılır və bir çoxları artıq uğurla fəaliyyət göstərir. Onlar təşkil olunduqda dövlət tərəfindən bir sıra məsələlərə diqqətin artırılması, elmi ictimaiyyətin iqtisadi mexanizmlərlə bağlı daha dərin tədqiqatlara marağı ön plana çıxır. Digər tərəfdən, əsas diqqət AİZ-lərin və digər bu kimi yeni iqtisadi alətlərin idarəetmə mexanizmlərinin formalaşdırılması prosesinə yönəlib. Azərbaycanda AİZ-ləri yaradılması proseslərinin daha məhsuldar və mütəşəkkil mərhələyə keçməsi məqsədilə zəruri əsas şəraitin formalaşması və inkişafı potensialı artır. Bu amillər ölkənin iqtisadi rayonlarında mövcud olan təbii və iqtisadi ehtiyatlardan daha səmərəli və məhsuldar istifadədə AİZ-lərin imkanlarından istifadə etmək üçün əsas ola bilər [4, s. 350-351].

**İqtisadi rayonların inkişaf etdirilməsində iqtisadi, maliyyə-kredit mexanizmlərinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması istiqamətləri**

Qeyd edək ki, iqtisadi rayonların innovativ seqmentlərinin, yüksək texnologiyalı istehsallarının inkişafı və onların əhalisinin müasir peşəkar strukturunun formalaşdırılması regiona investisiyaların cəlb edilməsi məqsədilə əlverişli institusional şəraitin yaradılmasına, mövcud resursların kapitallaşdırılması üçün bazar infrastrukturunun inkişafı töhfə verə bilər. İqtisadi rayonların maliyyə sistemi onların inkişafına böyük təsir göstərir. Bu, həmin rayonların maliyyə sisteminin mövcudluğunu, daimi inkişafını və normal fəaliyyətini şərtləndirir. Maliyyə sisteminin nəzərdən keçirilən komponentləri iqtisadi rayonlarda onun rolunu və əhəmiyyətini izah etməyə və aşkar etməyə imkan verir. İqtisadi rayonların maliyyə sistemi təkcə özlərinin deyil, bütün ölkənin iqtisadiyyatının mühüm hissəsidir. İqtisadi rayonların maliyyə bazarlarının mühüm komponentləri investisiya fondları və şirkətlərdir. İqtisadi rayonlarda investisiya fondlarının yaradılmasına ehtiyac çox yüksəkdir. Bu, investisiyaların əsas stimul olduğu ölkənin ümumi iqtisadi inkişafında hər bir regionun artan rolu ilə bağlıdır. Belə ki, belə fondların yaradılması investisiya cəlbediciliyinin yüksəldilməsi baxımından iqtisadi rayonların büdcə yükünü azaldır. Bu mexanizm özəl və dövlət tərəfdaşlığı

vasitəsilə həyata keçirilir. İqtisadi rayonların maliyyə-kredit sistemi onun iqtisadi və sosial həyatının digər sahələri ilə sıx bağlıdır və onlara nəzərəçarpacaq dərəcədə təsir göstərir. Maliyyə-kredit sisteminin inkişaf səviyyəsi regionun bütün təsərrüfat subyektlərinin artım templərini və onların rəqabətqabiliyyətli mövqelərini müəyyən edir. İnvestisiya üçün region seçərkən, inkişaf etmiş maliyyə-kredit sisteminin, kommersiya bankları, investisiya institutları və sığorta təşkilatları şəbəkəsinin olması yekun qərarın qəbul edilməsində mühüm rol oynayır. Maliyyə-kredit sistemində baş verən dəyişikliklər iqtisadi rayonların inkişafına birbaşa təsir göstərir.

Hesab edirik ki, iqtisadi rayonları inkişaf etdirərkən onların maliyyə-kredit mexanizmini təkmilləşdirmək lazımdır. Maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətlərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

1. İqtisadi rayonlarda bank sektorunun yenidən təşkili, daha dəqiq desək, sahibkarlığa verilən kreditlərə zəmanət sisteminin yaradılması, verilmiş kreditlərin məqsədli istifadəsinə nəzarət, müştərinin bütün xüsusiyyətlərini nəzərə almaqla analitik bankdaxili məlumatların strukturlaşdırılması, banklar tərəfindən vaxtında və səmərəli kreditləşdirilməsi məqsədi ilə rayonun inkişafı üçün prioritet olan müəssisə və təşkilatların siyahısının formalaşdırılması.
2. İşgüzar fəallığın stimullaşdırılması, o cümlədən iqtisadi rayonların inkişafı üçün əsas istiqamətlərin müəyyənləşdirilməsi, təsərrüfat subyektlərinin fəaliyyəti üçün rəqabət mühitinin formalaşdırılması, modernləşdirmə, innovasiya, ixrac və idxalı əvəzetmə sahəsində fəaliyyət göstərən müəssisələrə maliyyə dəstəyinin göstərilməsi.
3. İqtisadi rayonların potensialının inkişafının, onların maliyyə rifahının stimullaşdırılmasına və istehsalın maddi-texniki bazasının yaxşılaşdırılmasına kömək edəcək ixtisaslaşmış inkişaf institutlarının yaradılması yolu ilə ədalətli rəqabətə əsaslanan qabaqcıl təcrübənin tətbiqi.
4. Regional investisiya fondlarının yaradılması yolu ilə investisiya fəaliyyətinin təkmilləşdirilməsi, investisiyaların həcminin qiymətləndirilməsi üçün göstəricilərin tərkibinin müəyyənləşdirilməsi. Ayrı-ayrı iqtisadi rayonun qiymətləndirilməsi onun fəaliyyət istiqamətləri, ərazi yerləşməsi, inkişaf xüsusiyyətləri və s. nəzərə alınmaqla aparılmalıdır. Beləliklə, maliyyə-kredit alətlərinin standartları o qədər diferensiallaşdırılmalı, uyğunlaşdırılmalı və effektiv olmalıdır ki, sənayesi inkişaf etmiş, xammal potensialı, əmək ehtiyatları artıq olan, subsidiyalara yüksək tələbat olan və s. iqtisadi rayonlara tətbiqində heç bir çətinlik olmasın və s.

İqtisadi rayonların maliyyələşdirilməsi mənbələri kimi bank sektoru çıxış edir. İqtisadi rayonlarda bank sektoru üçün yeni şərtlər bank xidmətlərindən istifadə strukturunu əsaslı şəkildə dəyişdirir. Bank sektoru regionun həyatında xidmətlərin göstərilməsi, eləcə də yeni istifadəçilərin cəlb edilməsi baxımından mühüm rol oynayır. İstənilən iqtisadiyyat üçün bank sektorunun ən mühüm strateji vəzifəsi yüksək keyfiyyətli və sabit bank sisteminin formalaşdırılmasıdır ki, bu da öz növbəsində federal və regional bankların qruplaşdırılmış hüceyrəsidir. Uğur və iqtisadi artım bank sektorunda səmərəli və sağlam rəqabətin nəticəsidir. İnkişaf etməmiş bank sistemi həm təhdidlər yaradır, həm də iqtisadi inkişaf tempinə təsir göstərir. Regionun inkişafında ən mühüm rol yerli regional banklarla inkişaf etmiş bank sisteminin regionda olmasıdır. İnkişaf etmiş rəqabətqabiliyyətli bank sisteminin mövcudluğu müvafiq səviyyəni saxlayan regional bankların mövcudluğunun nəticəsidir, müasir şəraitə uyğun rəqabət qabiliyyətini qiymətləndirmək üçün yaxşı qurulmuş və adekvat mexanizm olmadan mümkün deyil [10, s. 60].

İqtisadi rayonların inkişafında bank sektorunun yerini müəyyənləşdirmək üçün potensialının strukturunu tədqiq etmək lazımdır. İqtisadi rayonların bank sektorunun potensialının strukturunda, fikrimizcə, aşağıdakı elementləri ayırmaq lazımdır: reproduktiv, kredit, investisiya, maliyyə, bazar, resurs, institusional və digər potensiallar. Bank sistemlərinin tədqiqinə həsr olunmuş müasir iqtisadi ədəbiyyatın təhlili göstərdi ki, iqtisadi potensialın reproduktiv aspektinə çox az diqqət yetirilir. Mütəxəssislər arasında kredit təşkilatlarına münasibətdə maddi sferada məhsul və xidmətlərin istehsalı və təkrar istehsalının prinsipləri, forma və üsullarından istifadəyə əsaslanan yanaşma üstünlük təşkil etməkdə davam edir. Mübahisələrin təkcə nəzəri deyil, həm də praktiki əhəmiyyəti var. Əsaslandırmanın məntiqi belədir ki, əgər kredit təşkilatları maddi istehsal müəssisə-

ləri kimi əlavə dəyər yaradırsa, maliyyə resursları kapital şəklində fəaliyyət göstərir. Bank əməliyyatları vasitəsilə çevrilən pullar dəyər artımına malik olmadığı üçün onları iqtisadi resurs hesab etmək olmaz. Belə olan halda pulla fəaliyyət göstərən banklar heç nə yaratmır və nəticədə onların təkrar istehsal prosesinin öyrənilməsi mənasızlaşır. Lakin məlum olduğu kimi, kredit-maliyyə münasibətləri ərazilərin bütün təkrar istehsal prosesinə, onun bütün mərhələlərində ÜDM-in hərəkətinə vasitəçilik edir, növbəti təkrar istehsal tsiklinin reallaşdırılması məqsədilə maliyyə imkanları yaradır. Odur ki, bank sektoru artan iqtisadi potensialın təsiri altında rayonlarda iqtisadi artımın təmin edilməsi baxımından əhəmiyyət daşıyır ki, bu da həmin sektorun strukturunun, iqtisadi potensialının vəziyyətinin real sektorla birgə öyrənilməsini zəruri edir.

Kredit potensialı - bank sisteminin hüquqi və fiziki şəxslərə, habelə dövlətə yeni kreditlər verməklə müəyyən müddət ərzində tədavüldə olan pul kütləsini artırmaq üçün real imkanları təmin edir. İnvestisiya potensialı - regionun bank sektorunun iqtisadiyyata uzunmüddətli kredit vermək qabiliyyətini nəzərdə tutur. İnvestisiya potensialı, kredit kimi, regionda bank sektorunun iqtisadi potensialının qiymətləndirilməsində ən vacib olanlardan biridir. Məhz kommersiya banklarının investisiya imkanları regionun iqtisadi yüksəlişi üçün xüsusilə əhəmiyyətlidir. Ekspertlərin fikrincə, regionun investisiya potensialının vəziyyəti regional bank sektorunun investisiya potensialının vəziyyətindən çox asılıdır. Maliyyə potensialı - regionda kredit təşkilatları sisteminin maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyində, onların fəaliyyətinin maliyyə nəticələrinin qiymətləndirilməsində, rentabelliyində, likvidliyində, kredit portfelinin keyfiyyətində və s. ilə ifadə olunur. Bankın bazar potensialı tutumu olduqca böyük olan bank xidmətləri bazarının potensialının qiymətləndirilməsini nəzərdə tutur. Resurs potensialı - bank sektorunun yüksək keyfiyyətli, əlverişli resurs bazasının - əsasən hüquqi və fiziki şəxslərin vəsaitləri və daha az dərəcədə banklararası kreditlər hesabına regionun iqtisadi potensialını dolayısı ilə əks etdirir. İnstitusional potensial regionda bank sektorunun inkişaf səviyyəsini xarakterizə edir [11, s.134].

Müasir şəraitdə iqtisadi rayonlarda fəaliyyət göstərən banklar üçün mühüm problem bank və ilk növbədə kredit risklərinin idarə edilməsidir [9, s.119]. Bank hər bir sahibkarlıq subyekti kimi məcburi qiymətləndirmə və idarəetmə tələb edən risk zonasında fəaliyyət göstərir. İqtisadi rayonlarda bank sistemində risklərin idarə edilməsinin inkişafı üçün kredit təşkilatlarının tənzimlənməsi üsullarının və istiqamətlərinin işlənib hazırlanmasının davam etdirilməsi, kommersiya banklarının yenidən maliyyələşdirilməsinin forma və şərtlərinin genişləndirilməsi əsasında bank sistemində likvidlik risklərinin tənzimlənməsinin təkmilləşdirilməsi, bank sisteminin likvidliyini qorumaq və iqtisadiyyatın real sektoruna kredit vermək üçün uzunmüddətli resursların çatışmazlığı problemini həll etmək, vəsait axınının yönləndirilməsi, maliyyə stimullarının tətbiqi üçün bir sıra tədbirlər görmək zəruridir. Bu sahələrdə məqsədyönlü səylər iqtisadi rayonlarda bank risklərinin azaldılmasına müsbət təsir göstərəcəkdir.

Fikrimizcə, bank sektoru müxtəlif səviyyələrdə iqtisadiyyata resursların səmərəli şəkildə bölüşdürülməsinə, əlaqəli sahələrin yeni məhsullarının formalaşdırılmasına, regionlara investisiya layihələrini həyata keçirməyə imkan verir, malların alınması üçün vəsait təmin etməklə tələbat yaradır. Bankların fəaliyyətinin və onların maraqlarının genişləndirilməsi ilə yeni iş yerləri yaradılır, həm də yeni müasir peşələrə tələbat yaranır. Bu halda iqtisadi rayonların inkişafı üç mühüm prinsipə əsaslanmalıdır: 1) iqtisadi inkişafın potensial və məhdudlaşdırıcı amillərinin təhlili, ölkənin iqtisadi inkişafında hər iqtisadi rayonun yerinin müəyyənləşdirilməsi; 2) strateji prioritetlərin müəyyənləşdirilməsi, iqtisadi rayonların xüsusiyyətlərindən və potensialından maksimum istifadə; 3) iqtisadi rayonlarda strateji prioritetlərin reallaşdırılmasının daimi monitorinqi, strateji inkişafın fundamental prinsipləri qorunmaqla sənaye sahələrinin inkişafında orta və uzunmüddətli meyillərin dəyişməsindən asılı olaraq onların müntəzəm tənzimlənməsi.

### *Nəticə*

Hesab edirik ki, yaxın perspektivdə Azərbaycanda iqtisadi rayonların inkişafı məqsədilə dövlət səviyyəsində aşağıdakı tədbirlərin görülməsi zəruridir:

– iqtisadi rayonlarda sahibkarlığın inkişafı, səmərəli məşğulluğun təmin edilməsi, yoxsulluğun azaldılması, emal müəssisələrinin inkişafının davamlılığının təmin edilməsi;

– regional səciyyəvi xüsusiyyətləri nəzərə alınmaqla sahibkarlığın təşkilati-hüquqi formalarının əsaslandırılması, kənd təsərrüfatında sahibkarlığın inkişafı, kənd təsərrüfatı xidmətlərinin genişləndirilməsi və bu uğurların hər bir iri kənddə təşkili;

– regional sahibkarlığın inkişafı üçün iqtisadi rayonlara investisiyaların qoyulması, o cümlədən kənd təsərrüfatı texnologiyalarının mənimsənilməsi, investisiya proqramlarının hazırlanması və reallaşdırılması;

– bütün rayonların və kəndlərin informasiya-məsləhət xidmətləri ilə əhatə olunması;

– regional infrastrukturun inkişafı ilə bağlı layihələrin hazırlanması və reallaşdırılması və s.

Bütün bunlarla yanaşı, iqtisadi rayonların tarazlı və dayanıqlı inkişafı üçün zəruri şərtlərdən biri də həmin rayonların üstünlük verdiyi sənaye sahələrinin inkişafı məqsədilə prioritetlərin müəyyənləşdirilməsidir və s.

## ƏDƏBİYYAT


1. Ağayev, A.M. Regionların sosial-iqtisadi inkişafinin idarə edilməsində dövlət proqramlarının rolu / A.M. Ağayev, R.A. Məmmədov // Tikintinin iqtisadiyyatı və menecment. – 2018. № 1, – s. 9-13.
2. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. –Bakı, – 29 yanvar 2019-cu il.
3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə ARNK-nin Qərarı. – Bakı, – 10 iyul 2021-ci il. https://nk.gov.az/az/document/ 5457/print/.
4. Əliyev, Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Monoqrafiya. Sumqayıt: SDU-nun Redaksiya və nəşriyyat işləri şöbəsi, – 2022, – 422 s.
5. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. “Geostrategiya” jurnalı, – Bakı, – sentyabr, 2021. №4, – s.67-72.
6. Quliyeva, A. Müasir dövrdə regionların inkişafının intensivləşdirilməsində maliyyə təminatı mexanizmlərinin aktual problemləri. “Geostrategiya” jurnalı, -Bakı,-2021. №3 (63). – s.56-61.
7. Бадахова, И.Т. Сущность государственного регулирования регионального социально-экономического развития / И. Т. Бадахова // Chronos. – 2020. № 10(49), – с. 13-15.
8. Влияние инфраструктуры на социально-экономическое развитие региона / А.А. Селиверстов, Н.Р. З. Шадейко, И.В. Волчкова [и др.] // Национальная Ассоциация Ученых. – 2016. № 8(24), – с. 74-75.
9. Идрисова, С.К. Роль банковского сектора в кредитовании экономики региона / С.К. Идрисова, Х.Р. Гаджиева // Экономика и управление: проблемы, решения. -2017.-Т.3. №3, - с.117-121.
10. Ковалена, Н.А Актуальные аспекты модернизации банковского сектора в условия современной экономики //Финансовые рынки и банки. – 2020. №2, – с.58-62.
11. Саитова, М.Ю. Потенциал банковского сектора в системе экономического роста региона / М.Ю. Саитова // Экономика и современный менеджмент: теория и практика. – 2014. № 42, – с. 130-135.


***Зумруд Джумшуд кызы Насибова***
***диссертант Азербайджанского Университета Кооперации,***
***E-mail: nasibova.zumrud22@gmail.com***

## Методологические особенности развития экономических районов с учётом глобальных проблем

***Резюме***

**Цель исследования** – в статье рассматриваются методологические особенности развития экономических районов с учётом глобальных проблем.

**Методология исследования** – состоит из экономических методов - анализа, синтеза, сравнения и обобщения. Кроме того, учтены научные подходы ряда учёных, изучающие проблемы развития экономических районов.

**Практическое значение исследования** – отражены в подготовке комплексных мероприятий и более действенных механизмов для углубления развития экономических районов в контексте глобальных трансформаций.

**Результаты исследования** – рассмотрены в подготовленных предложениях и рекомендациях по методологическим особенностям развития экономических районов в нынешних условиях.

**Оригинальность и научная новизна исследования** – заключается в обосновании важности оптимального определения методологических особенностей углубления развития экономических районов, выявления ресурсного потенциала и привлечения существующих возможностей в хозяйственно-финансовый оборот. Рассмотрены и систематизированы ключевые факторы и вопросы, способствующие интенсификации развития экономических районов в современных условиях.

***Ключевые слова: глобальные проблемы, экономические районы, проблемы развития экономических районов, перспективы развития экономических районов, методологические основы экономического развития, территории, освобождённые от оккупации***.

***Zumrud Jumshud Nasibova***
***doctoral student of Azerbaijan University of Cooperation,***
***E-mail: nasibova.zumrud22@gmail.com***

## Methodological features of the development of economic regions taking into account global challenges

***Summary***

**The purpose of the research** is to consider the methodological features of the development of economic regions, taking into account global challenges.

**Research methodology -** consists of economic methods - analysis, synthesis, comparison and generalization. In addition, the scientific approaches of a number of scientists studying the problems of the development of economic regions are taken into account.

**The practical significance of the research** is reflected in the preparation of integrated measures and more effective mechanisms for deepening the development of economic areas in the context of global transformations.

**The results of the research** are considered in the prepared proposals and recommendations on the methodological features of the development of economic regions in the current conditions.

**The originality and scientific novelty of the research** consists of justifying the importance of optimal determination of the methodological features of deepening the development of economic regions, identifying the resource potential and attracting existing opportunities to the economic and financial turnover. Main factors and issues contributing to the intensification of the development of economic regions in modern conditions are systematized.

***Key words: global challenges, economic regions, problems of development of economic regions, prospects for development of economic regions, methodological foundations of economic development, territories liberated from occupation.***

UOT 338

*Təbriz Sudeib oğlu ABBASOV*
*doktorant, Bakı Dövlət Universiteti*
*E-mail: abbasovtabriz.aze@gmail.com*

# AZƏRBAYCANDA POSTKONFLİKT DÖVRÜNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA İQTİSADİ ARTIMIN ƏHƏMİYYƏTİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** Azərbaycanda postkonflikt dövründə iqtisadi təhlükəsizliyin təmin olunmasının təhlili və bu prosesdə iqtisadi artımın əhəmiyyətini araşdırmaqdır.

**Tədqiqatın metodologiyası -** Araşdırmada əsasən təhlil və sintez, müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, induksiya və deduksiya metodları istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Məqalədən postkonflikt dövründə Azərbaycanın iqtisadi təhlükəsizliyi üçün yaranmış yeni təhdidlərin (xüsusilə, IV Sənaye İnqilabı nəticəsində potensial təhdidlərin) tədqiqi və ölkədə iqtisadi təhlükəsizliyin təmin olunmasında iqtisadi artımın əhəmiyyəti istiqamətlərində tədqiqat zamanı istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – Azərbaycanın ərazilərini işğaldan azad etməsi, milli iqtisadiyyatını gücləndirməsi və sosial rifah səviyyəsini artırması respublikanın sosial-iqtisadi siyasətinin önəmli nəticələridir. Həyata keçirilən inkişaf modeli ölkədə ictimai-siyasi sabitliyi daha da gücləndirmiş, dayanıqlı və inklüziv iqtisadi artım, yüksələn sosial rifah və davamlı sabitlik üçün zəmin yaratmışdır. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın həyata keçirilməsi milli iqtisadiyyatda böyük dəyişikliklərə gətirib çıxaracaq, iqtisadi artım templəri yüksələcək, ölkə iqtisadiyyatının xarici və daxili təhdidlərə dayanıqlılığı daha da güclənəcəkdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Sadəcə Azərbaycanda postkonflikt dövründə iqtisadi təhlükəsizliyin təmin olunması təhlil edilməmiş, eyni zamanda yaranmış yeni və potensial (xüsusilə, IV Sənaye İnqilabı nəticəsində potensial təhdidlər) təhdidlər tədqiq edilmişdir. Həmçinin, iqtisadi təhlükəsizliyin təmin olunmasında iqtisadi artımın əhəmiyyəti vurğulanmışdır.

***Açar sözlər: iqtisadi təhlükəsizlik, iqtisadi artım, milli iqtisadiyyat, sosial-iqtisadi inkişaf.***

## *Giriş*

Azərbaycanda postkonflikt dövründə ölkənin iqtisadi təhlükəsizliyi üçün yeni təhdidlər yaranmışdır. Belə ki, dünyada gedən qlobal geosiyasi və geoiqtisadi proseslər, IV Sənaye İnqilabı, ticarət müharibələri, iqtisadi idarəetmə arxitekturasının dəyişilməsi, yeni beynəlxalq və regional infrastruktur layihələrinin həyata keçirilməsi nəticəsində yeni texnologiyalar, süni intellekt və robotlaşdırma ölkələrin iqtisadi təhlükəsizliyi üçün yeni təhdidlərin meydana çıxmasına səbəb olmuşdur. Azərbaycan işğal altında olan ərazilərini işğaldan azad etdikdən sonra regionda yaranmış yeni geopolitik və geoiqtisadi vəziyyət riskləri qiymətləndirməli və qabaqlayıcı tədbirlər görməlidir. Milli iqtisadiyyatın və iqtisadi münasibətlərin inkişafına təhlükə yaradan yeni daxili və xarici amillərin neytrallaşdırılması, yaranmaqda olan yeni şəraitə adekvat cavab tədbirlərinin və strateji yanaşmaların formalaşdırılması, IV Sənaye İnqilabının Azərbaycanda lokalizasiya edilməsi (fiziki, rəqəmsal və bio texnologiyaların tətbiqi ilə) və dünya iqtisadiyyatına inteqrasiyanın sürətləndirilməsi zəruridir [5, s. 192-193].

Ölkənin milli iqtisadi təhlükəsizliyinin təmin edilməsi onun hərbi təhlükəsizliyi ilə eyni dərəcədə əhəmiyyət kəsb edir. Buna görə də, Azərbaycan milli iqtisadiyyatını xarici və daxili təhlükələrdən mühafizə etməlidir [9, s. 140].

**İqtisadi təhlükəsizliyin təmin olunmasında iqtisadi artımın əhəmiyyəti**

Dövlət müstəqilliyinin qorunub saxlanılması, ölkə ərazisinin müdafiə olunması, əhalinin sosial-iqtisadi rifahının yüksəldilməsi hər bir ölkənin milli maraqlarının təmin olunmasında əsas məqsəd-

lər hesab olunur. Ölkənin milli maraqlarının qorunmasında iqtisadi vasitələrin tətbiq olunması başlıca istiqamətlərdəndir. Çünki, iqtisadi metodlar və münasibətlər ölkənin milli təhlükəsizliyinin gücləndirilməsi, habelə baş verə biləcək münaqişələrin qarşısının alınması və həll yollarının tapılmasında önəmli əhəmiyyətə malikdir [4, s. 641-642].

Bəşəriyyətin inkişafının mürəkkəbləşməsi, maddi dünyanın predmetlərinin artımı, nüvə və digər kütləvi qırğın silahlarının daha da yayılması, yeni təhlükəli xəstəliklərin meydana çıxması, beynəlxalq terrorçuluğun artması ilə əlaqədar milli təhlükəsizlik, o cümlədən iqtisadi təhlükəsizlik üçün təhdidlər artmışdır. Yüksək texnologiyaların tətbiqi ilə maliyyə bazarlarının qloballaşması pul-əmtəə dövriyyəsinin sürətlənməsinə, kapital axımının miqyaslarının artımına gətirib çıxarmışdır. Bu proseslər iqtisadi artımın təmin olunmasına yardım göstərərək, eyni zamanda risk amillərinin əhəmiyyətini artıraraq təhlükə zonasını milli iqtisadiyyatların fəaliyyətində genişləndirir. Yer kürəsinin bir regionunda böhranın meydana çıxması zamanı o, sürətlə başqa regionlarda bərqərar olur [8, s. 7].

İqtisadi təhlükəsizlik dedikdə milli iqtisadiyyatın müstəqilliyi, sabitliyi və dayanıqlığını təmin edən, ona daim yenilənməyə və özünü təkmilləşdirməyə imkan verən şərt və amillər toplusu başa düşülür. İqtisadi təhlükəsizlik anlayışı ölkənin milli qaynaqlarını, istehsal və emal faktorlarını, geoiqtisadi resurslarını davamlı istifadə edə bilməsi qabiliyyətini, bu imkanlara zərər verə biləcək bütün risk və təhdidlərə qarşı zəruri tədbirləri inkişaf etdirməsi kimi təsnifləşdirilir [5, s. 193]. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında iqtisadi metodlarla birgə siyasi və hərbi vasitələrdən də istifadə olunur [4, s. 640].

Ölkənin iqtisadi təhlükəsizliyi üçün əsas xarici təhdidlər aşağıdakılar hesab olunur:

- xarici borcun yüksəkliyi və artan istiqamətdə olması;
- xarici ticarət dövriyyəsinin azalması;
- ixracatın xammal yönümlü olması.

Ölkənin iqtisadi təhlükəsizliyi üçün əsas daxili təhdidlər isə sosial və elmi-texniki sahələrdəki meyillər hesab olunur. Milli iqtisadiyyatın təhlükələrdən qorunmasında ölkənin resurs potensialının zənginliyi mühüm əhəmiyyət kəsb edir. Belə ki, ölkənin resurs və elmi-texniki potensialı onun milli iqtisadiyyatının inkişafını təmin edə bilər [7, s. 30]. Qeyd etmək lazımdır ki, iqtisadi təhlükəsizliyin səmərəli dövlət tənzimlənməsində təhlükə mənbələrinin mütəmadi olaraq monitorinqinin aparılması, həmçinin potensial xarici və daxili təhdidlərin təhlil olunması zərurət təşkil edir. Belə ki, bu qabaqlayıcı tədbirlər ölkənin iqtisadi təhlükəsizliyi üçün təhdidlərin aradan qaldırılması və məhdudlaşdırılmasında zəruridir [6, s. 268].

İnkişaf iqtisadi təhlükəsizliyin əsas komponentlərindən biridir. İqtisadiyyat inkişaf etmədikcə yaşama imkanları kəskin şəkildə ixtisara düşür. İnkişafın qorunması bütün dövrlərdə lazımi qüvvədən istifadənin effektivliyinin artım templərinin qorunması və yaxud nəinki indiki dövrdə, eləcə də gələcəkdə də faydalı potensialın artım templəri kimi izah olunur. Tam qüvvədən istifadənin effektivliyi hər adambaşına düşən enerji istehlakının artımı, faydalı potensialın artımı isə əməyin məhsuldarlığının və ya sərmayə şəklində qoyulmuş kapitalın faizinin daim artımı ilə xarakterizə olunur [8, s. 42-43].

İqtisadi təhlükəsizlik problemi ayrılıqda sərbəst şəkildə mövcud olmayıb, iqtisadi artımla əlaqəli zərurətdən meydana gəlmişdir [7, s. 25]. İqtisadi təhlükəsizliyin əsas prinsiplərindən biri dövlətin iqtisadi artım templərinin sabitliyini təmin etməsidir və yalnız bu halda dövlət iqtisadi təhlükəsizliyin tələb olunan səviyyəsini təmin etmiş olar. Milli iqtisadiyyatın təhlükəsizliyinin əsas meyarlarından biri ölkə iqtisadiyyatının sabit iqtisadi artımının təmin edilməsidir [3, s. 196].

İqtisadi təhlükəsizliyin əsas göstəricilərindən biri iqtisadi artımdır [4, s. 656]. Dövlətin makroiqtisadi siyasətinin əsas məqsədlərindən biri iqtisadi artımı dəstəkləməkdir. İqtisadi artım milli iqtisadiyyatın inkişafında mərkəzi yer tutur, çünki onun vasitəsilə məhdud resurs və hədsiz insan tələbinin artması arasında olan ziddiyyət aradan götürülür [3, s. 119].

**IV Sənaye İnqilabı nəticəsində iqtisadi təhlükəsizlik üçün potensial təhdidlər**

Dördüncü sənaye inqilabı dövlətlərarası münasibətlərin və beynəlxalq təhlükəsizliyin təbiətinə

çox ciddi təsir göstərəcəkdir. Dördüncü sənaye inqilabı təhlükəsizlik təhdidlərinin xarakterini dəyişdirəcək və eyni zamanda, gücün coğrafi olaraq və dövlətlərdən qeyri-dövlət oyunçularına doğru baş verən yerdəyişmələrinə təsir göstərəcəkdir [10, s. 94-95].

Dördüncü sənaye inqilabı münaqişələrin miqyasına olduğu qədər xarakterinə də təsir göstərəcəkdir. Müharibə ilə sülh arasındakı, davakar olanlarla olmayanlar arasındakı fərqlər narahatlıq doğuracaq şəkildə bulanıqlaşır. Eyni şəkildə, müharibə meydanı artan səviyyədə həm yerli, həm də qlobal xarakterə bürünür. Dünyanın istənilən bir yerində bir-biri ilə əlaqəli terror aktları meydana gələ bilir. Müasir münaqişələr getdikcə daha qarışıq xarakter daşıyır, ənənəvi müharibə ərazisi texnikaları, əvvəllər daha çox qeyri-dövlət silahlı qruplaşmalarla əlaqələndirilən ünsürlərlə birləşir. Bununla belə, texnologiyaların getdikcə daha çox proqnozlaşdırıla bilməyən formalarda birləşməsi, dövlət və qeyri-dövlət silahlı qruplaşma üzvlərinin bir-birindən öyrənməsi ilə qeyd edilən dəyişikliyin potensial ölçüləri hələ də geniş şəkildə qiymətləndirilə bilmir [10, s. 98].

Dördüncü sənaye inqilabının iqtisadi artım üzərindəki mümkün təsirləri məsələsi iqtisadçılar arasında fikir ayrılığı olaraq qalmaqda davam edir. Bir tərəfdə, texno-pessimistlər iddia edirlər ki, rəqəmsal inqilabın kritik töhfələri çoxdan reallaşmışdır və onun məhsuldarlıq üzərindəki təsiri artıq başa çatmışdır. Digər tərəfdə isə, texno-optimistlər texnologiya və innovasiyanın hazırda bir dönüş nöqtəsində olduğunu və onun qısa zaman ərzində məhsuldarlıq və yüksək iqtisadi artım üzərində yeni bir yüksəliş dalğasını başladacağını iddia edirlər. Dördüncü sənaye inqilabının iqtisadi artım üzərindəki potensial təsirlərinin son dövrdəki iqtisadi trendlərlə və artıma töhfə verən digər faktorlarla eyni kontekstdə müzakirə edilməsi əhəmiyyətlidir. 2008-ci ildə başlayan iqtisadi və maliyyə böhranından cəmi bir neçə il əvvəl qlobal iqtisadiyyat ildə 5% artırdı. Əgər bu sürət davam etsəydi, qlobal ÜDM hər 14-15 ildə ikiqat artardı və bu da milyardlarla insanın yoxsulluqdan çıxması ilə nəticələnərdi. Böyük Ressessiyadan dərhal sonra qlobal iqtisadiyyatın əvvəlki yüksək iqtisadi artım yoluna geri dönə biləcəyi ilə bağlı gözləntilər geniş yayılmışdı, lakin belə bir hadisə baş vermədi. Qlobal iqtisadiyyatın müharibədən sonrakı dövrün orta artım sürətindən daha aşağı bir sürət həddində, yəni illik təxminən 3-3,5% qaldığı görünür [10, s. 42-43].

**Azərbaycanda postkonflikt dövründə iqtisadi təhlükəsizlik və iqtisadi artımın təmin edilməsinin təhlili**

Ölkənin təhlükəsizliyi üçün yaranmış və yarana biləcək təhdidlərin qarşısının alınması və cəmiyyətdə sabitliyin qorunub saxlanılması dövlətin əsas funksiyalarından hesab olunur. Milli iqtisadi təhlükəsizliyin göstəricilərinin monitorinqi aparılmalı, təhlil olunmalı və proqnozlaşdırılmalıdır. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün dövlət strategiyası tərtib edilməlidir. Bu strategiya iqtisadi və sosial inkişafın proqnozlaşdırılması ilə qurulur və dəqiqləşdirilir [4, s. 655-656].

Azərbaycan işğal altında olan ərazilərini işğaldan azad etdikdən sonra regionda yaranmış yeni geopolitik və geoiqtisadi vəziyyət risklərini qiymətləndirməli və qabaqlayıcı tədbirlər görməlidir. Milli iqtisadiyyatın və iqtisadi münasibətlərin inkişafına təhlükə yaradan yeni daxili və xarici amillərin neytrallaşdırılması, yaranmaqda olan yeni şəraitə adekvat cavab tədbirlərinin və strateji yanaşmaların formalaşdırılması, IV Sənaye İnqilabının Azərbaycanda lokalizasiya edilməsi (fiziki, rəqəmsal və bio texnologiyaların tətbiqi ilə) və dünya iqtisadiyyatına inteqrasiyanın sürətləndirilməsi zəruridir. Müasir qlobal meyillərin beynəlxalq iqtisadiyyata təsirlərinin dördü Azərbaycanın iqtisadiyyatı üçün çox önəmlidir. Bu təsirlərə qlobal iqtisadi güc mərkəzinin Qərbdən Asiyaya doğru dəyişməsi, geosiyasi konfiqurasiyanın dəyişməsi, texnoloji innovasiyaların önəmli təsirləri və əmtəə bazarlarında (xüsusilə, neft-qaz) qiymətlər aid edilir [5, s.193].

Azərbaycanın iqtisadi müstəqilliyinin təmin edilməsi və digər ölkələrdən asılılığına imkan verilməməsi ölkənin dövlətçilik ənənələrinin əsasını təşkil edən ən mühüm dəyərlərdir. Milli iqtisadiyyatın müstəqilliyinin təmin edilməsi ölkənin müstəqilliyinin zəmanətçisi, sabitliyin və cəmiyyətin səmərəli fəaliyyət göstərməsinin ən mühüm şərtlərindəndir. Azad bazar iqtisadiyyatı və sağlam bazar münasibətlərinə əsaslanan sistemin inkişaf etdirilməsi rəqabət mühitinin inkişafını zərurətə çevirir və ölkədə fəaliyyət göstərən iqtisadi subyektlər üçün əsas təti̇kləyici müsbət amilə

çevriləcəkdir. Bununla belə ölkə vətəndaşlarının maraq və mənafelərinin müdafiə olunması, həssas təbəqələrin qloballaşan və kəskin rəqabət şəraitində inkişaf edən dünyada məhrumiyyətlərdən qorunması, milli resurslardan hamının bərabər əsaslarla faydalanması prinsiplərini əsas götürərək Azərbaycan sosial ədalət prinsiplərini özünün əsas məqsədlərindən hesab edir.

Beynəlxalq aləmlə davamlı inkişaf edən əlaqələrin qurulması, çoxsaylı güclü müttəfiqlərinin olması Azərbaycanın yerləşdiyi regionda əsas aparıcı gücə çevrilməsi və iri miqyaslı layihələrin təşəbbüskarı olaraq regionda həlledici mövqe sahibi olmasına şərait yaratmaqdadır. Hər hansı dövlətdən iqtisadi asılılığın yaranmasına imkan verilməməsi ölkə üçün mühüm əhəmiyyət kəsb edir və xarici aləmdə baş verən risklərin ölkəyə irimiqyaslı dağıdıcı təsirlərinin azaldılmasına xidmət edir.

İqtisadi təhlükəsizliklə bağlı gələcəyə baxış milli iqtisadiyyatın müstəqilliyi, yüksək texnoloji, rəqabətqabiliyyətli və inklüziv inkişafa nail olmaqla xarici şoklara dözümlülüyünün təmin olunması, dünya iqtisadiyyatı ilə effektiv inteqrasiyası, milli sərvətlərin sosial ədalət prinsipləri çərçivəsində davamlı istifadəsi, resurslardan ətraf mühit üzrə normalar gözlənilməklə iqtisadi məqsədlər üçün səmərəli istifadə olunması, insan kapitalının davamlı inkişafı, xarici və yerli investisiyaların qorunmasına zərər verə biləcək bütün risk və təhdidlərə qarşı zəruri tədbirlərin görülməsi üzrə əsas istiqamətləri nəzərdə tutur. Azərbaycanda resurslardan ekoloji normalara riayət olunmaqla istifadə olunması və yaşıl iqtisadiyyatın inkişaf etdirilməsi ölkənin dayanıqlı inkişafına böyük töhfə olacaqdır. Bütün hallarda iqtisadi artım rəqabətqabiliyyətli və inklüziv iqtisadiyyatın, deməli, həm də iqtisadi təhlükəsizliyin əsasını təşkil edir. İqtisadi artım iqtisadi təhlükəsizliyin bütün sahələrinə, o cümlədən enerji, nəqliyyat-logistika, maliyyə, ərzaq, kiber təhlükəsizlik üçün əsaslar yaradır [5, s. 195-196].

2011-2021-ci illərdə Azərbaycan iqtisadiyyatının makroiqtisadi sabitliyi, dayanıqlılığı və iqtisadi artımı təmin olunmuşdur. Azərbaycanın ərazilərini işğaldan azad etməsi başda olmaqla, qarşıya qoyulmuş digər məqsədlərin reallaşdırılmasında həyata keçirilən elmi cəhətdən əsaslandırılmış xarici və daxili siyasət mühüm rola malikdir. İnnovativ texnologiyanın tətbiq edilməsi və yüksək ixtisaslaşmış insan kapitalının cəlb edilməsi nəticəsində ölkə iqtisadiyyatının başlıca sahələrində məhsuldarlığın artırılmasına və iqtisadiyyatın şaxələnməsinə nail olunmuşdur. Ölkə IV Sənaye İnqilabının mərkəzlərindən biri kimi xarici investisiyaların yatırılması üçün səmərəli fürsətlər diyarı olmuşdur. Bəhs olunan dövrdə milli iqtisadiyyatın 15% böyüməsinə və qeyri-neft / qaz ÜDM-in 1,4 dəfə artmasına nail olunmuşdur. Bundan əlavə, 2011-ci illə müqayisədə 2021-ci ildə ölkədə qeyri-neft/qaz ixracı 78,3% artmışdır.

2011-2021-ci illərdə Azərbaycan iqtisadiyyatı 2 qlobal maliyyə böhranının təsirlərinə məruz qalsa da, milli iqtisadiyyat bu böhranlardan uğurla çıxmışdır. Həmin dövrdə milli iqtisadiyyatın makroiqtisadi sabitliyi üçün ciddi təhdidlərə COVID-19 pandemiyası böhranı və dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsi aid edilir. Həyata keçirilən səmərəli iqtisadi siyasət nəticəsində Azərbaycanda makroiqtisadi sabitlik və sosial-iqtisadi rifah qorunmuşdur. Bəhs olunan dövrdə ölkə iqtisadiyyatının xarici və daxili təhdidlərə dayanıqlı olduğunu göstərmək üçün qeyd edə bilərik ki, 2021-ci ilin sonunda Azərbaycanın valyuta ehtiyatlarının həcmi təqribən ÜDM-in həcminə bərabər olmuşdur.

Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin olunmasında qeyri-neft/qaz sektorunun inkişaf etdirilməsini xüsusilə vurğulamaq lazımdır. Belə ki, 2012-2021-ci illərdə milli iqtisadiyyatın strukturunda qeyri-neft/qaz ÜDM-i hər il orta hesabla 3,5 faiz artmışdır. Qeyri-neft/qaz ÜDM-i 2011-ci ildə 25,4 milyard manat, 2021-ci ildə isə 57,8 milyard manat təşkil etmişdir. Bundan başqa, ölkə iqtisadiyyatında qeyri-neft/qaz sektorunun payı 2011-ci ildə 48,8 faiz, 2021-ci ildə isə 62,2 faiz olmuşdur. Qeyd olunan dövrdə qeyri-neft/qaz sektoru 2,3 dəfə artmışdır. Həmin dövrdə milli iqtisadiyyatın inkişaf etmiş digər sahələrinə kənd təsərrüfatı (1,5 dəfə), informasiya və rabitə sahəsi (2,4 dəfə) aiddir.

Bu dövrdə iqtisadi artımın təmin olunması nəticəsində ölkə əhalisinin sosial rifahı yüksəldilmişdir. Belə ki, minimum əməkhaqqıda 2,7 dəfə, orta aylıq əməkhaqqıda isə 2 dəfə artım müşahidə

olunmuşdur. Bundan əlavə, pensiyaların minimum məbləği və ünvanlı dövlət sosial yardımının məbləğində 2,3 dəfə artım olmuşdur. 2011-ci ildə 75 manat olan ünvanlı dövlət sosial yardımının məbləği 2021-ci ildə 170 manat olmuşdur. Həmçinin aztəminatlı ailələrə verilən sosial yardımın məbləğində də artım olmuş və bu məbləğ 2021-ci ildə 280 manat təşkil etmişdir [1, s. 6-8].

Azərbaycanın ərazilərini işğaldan azad etməsi, milli iqtisadiyyatını gücləndirməsi və sosial rifah səviyyəsini artırması respublikanın sosial-iqtisadi siyasətinin önəmli nəticələridir. Həyata keçirilən inkişaf modeli ölkədə ictimai-siyasi sabitliyi daha da gücləndirmiş, dayanıqlı və inklüziv iqtisadi artım, yüksələn sosial rifah və davamlı sabitlik üçün zəmin yaratmışdır. Milli iqtisadiyyatın neft gəlirlərindən asılılığının azaldılması məqsədi ilə ölkə iqtisadiyyatı şaxələndirilmiş və qeyri-neft/qaz ixrac potensialı artırılmışdır. Qeyd olunan nəticələrə çatmaqda dövlət idarəetməsinin səmərəliliyinin rolunu vurğulamaq zəruridir [1, s.11-12].

“Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” və “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nı təhlil etdikdə ölkədə iqtisadi təhlükəsizliyin və iqtisadi artımın təmin olunması istiqamətində məqsədləri və hədəfləri görürük. Qlobal geosiyasi və geoiqtisadi proseslərin ölkə iqtisdiyyatı üçün yarada biləcəyi təhlükələr və çağırışların düzgün qiymətləndiriləcəyi və milli iqtisadiyyatın sabit inkişafının təmin ediləcəyi “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə bildirilmişdir. Milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsində enerji, ərzaq, maliyyə və nəqliyyat təhlükəsizliyinin önəmi vurğulanmışdır. Bundan əlavə, ölkə iqtisadiyyatının 2025-ci ildən sonrakı dövrdə hədəflərinin əsas istiqamətlərinə iqtisadi təhlükəsizliyin təmin olunması, rəqabətqabiliyyətliliyi üstün olan sahələrin daha da ixtisaslaşdırılması, beynəlxalq iqtisadiyyata səmərəli inteqrasiya olunması, infrastrukturun daha da inkişaf etdirilməsi qeyd olunmuşdur [2, s. 6, 49].

Azərbaycan postkonflikt dövründə yeni strateji inkişaf mərhələsinə daxil olur. 2022-2030-cu illəri əhatə edən bu inkişaf mərhələsində yeni məqsədlər və hədəflər qarşıya qoyulmuşdur. Keyfiyyətcə yeni olan bu inkişaf mərhələsinin məqsəd və hədəflərini həyata keçirmək üçün “Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” tərtib olunmuşdur. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” məhz bu prioritetlər əsasında hazırlanmışdır [1, s. 4]. Bu milli prioritetlərə aşağıdakılar aiddir:

- dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
- dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
- təmiz ətraf mühit və yaşıl artım ölkəsi.

Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat milli prioriteti üzrə 2 məqsəd qarşıya qoyulmuşdur:

- davamlı və yüksək iqtisadi artım məqsədi;
- daxili və xarici təsirlərə dayanıqlıq məqsədi [1, s.19-20].

“Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın həyata keçirilməsi 2026-cı ilin sonunadək milli iqtisadiyyatda böyük dəyişikliklərə və inkişafa gətirib çıxaracaqdır. Belə ki, milli prioritet istiqamətlərində iqtisadi artım templəri yüksələcək və ölkə iqtisadiyyatının xarici və daxili təsirlərə dayanıqlılığı güclənəcəkdir [1, s.4]

*Cədvəl 1*

***Davamlı və yüksək iqtisadi artım strateji məqsədi üzrə əsas hədəf indikatorları***

| Məqsəd | İndikatorlar | 2021 | 2026 |
|---|---|---|---|
| **Davamlı və yüksək iqtisadi artım** | ÜDM-in artımı | 5,6% | 1,2 dəfə (2021=100) |
| | Qeyri-neft/qaz ÜDM-in artımı | 7,2% | 1,3 dəfə (2021=100) |
| | Qeyri-neft/qaz ixracının həcmi | 2,7 mlrd ABŞ dolları | 1.8 dəfə artım (2021=100) |
| | Qeyri-neft/qaz sektoruna cəlb olunan birbaşa xarici investisiyaların həcmi | 790,4 mln ABŞ dolları | hər il 10–15% artım |
| | Əhalinin içməli su ilə təminat səviyyəsi | 70% | 85% |
| | Əkin sahələrinin suvarma suyu ilə təminat səviyyəsi | 80% | 90% |

*Mənbə: [1, s.19].*

*Cədvəl 2*

***Daxili və xarici təsirlərə dayanıqlıq strateji məqsədi üzrə əsas hədəf indikatorları***

| Məqsəd | İndikatorlar | 2021 | 2026 |
|---|---|---|---|
| **Daxili və xarici təsirlərə dayanıqlıq** | İllik inflyasiya səviyyəsi % | 12% | 4±2% |
| | İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft/qaz ÜDM-ə nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı həddi | 23,5% | 17,5% |
| | Məcmu dövlət borcunun ÜDM-ə nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı həddi *(o cümlədən 2022-ci il yanvarın 1-nə xarici dövlət borcu 14,9%, daxili dövlət borcu isə 3,3%)* | 18,2% | 20,0% |

*Mənbə: [1, s.20].*

### *Nəticə*

Tədqiqat göstərir ki, Azərbaycanda iqtisadi təhlükəsizliyin təmin olunmasında iqtisadi artımın əhəmiyyəti böyükdür. Azərbaycanın ərazilərini işğaldan azad etməsi, milli iqtisadiyyatını gücləndirməsi və sosial rifah səviyyəsini artırması respublikanın sosial-iqtisadi siyasətinin önəmli nəticələridir. Bu inkişaf modeli ölkədə ictimai-siyasi sabitliyi daha da gücləndirməklə dayanıqlı iqtisadi artım, yüksələn sosial rifah və davamlı sabitlik üçün zəmin yaratmışdır. Müharibənin gətirdiyi maddi ziyanlara, COVID-19 pandemiyası böhranı və dünya bazarında neftin qiymətinin kəskin azalmasına baxmayaraq, ölkə iqtisadiyyatının xarici və daxili təhlükələrə dayanıqlı olduğunu göstərmək üçün aşağıdakıları qeyd edə bilərik:

- 2011-2021-ci illərdə milli iqtisadiyyat 15% böyümüşdür;
- 2021-ci ilin sonunda ölkənin valyuta ehtiyatlarının həcmi təqribən ÜDM-in həcminə bərabər olmuşdur;
- 2011-2021-ci illərdə qeyri-neft/qaz ÜDM-i 1,4 dəfə artmışdır;
- 2011-ci illə müqayisədə 2021-ci ildə ölkədə qeyri-neft/qaz ixracı 78,3% artmışdır;
- 2012-2021-ci illərdə qeyri-neft/qaz sənayesi 2,3 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, informasiya və rabitə sahəsi isə 2,4 dəfə böyümüşdür;

- 2011-2021-ci illərdə minimum əməkhaqqı 2,7 dəfə, orta aylıq əməkhaqqı 2,0 dəfə, pensiyaların minimum məbləği isə 2,3 dəfə artmışdır.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın həyata keçirilməsi 2026-cı ilin sonunadək milli iqtisadiyyatda böyük dəyişikliklərə və inkişafa gətirib çıxaracaq, iqtisadi artım templəri yüksələcək, ölkə iqtisadiyyatının xarici və daxili təsirlərə dayanıqlılığı daha da güclənəcəkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı: 2022, 83 s.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı: 2016, 111 s.
3. Əzizova G.A. İqtisadiyyatın tənzimlənməsi. Bakı: İqtisad Universiteti, 2015, 204 s.
4. İqtisadi nəzəriyyə. Makroiqtisadiyyat-1,2. Metaiqtisadiyyat. Transformasiya iqtisadiyyatı: Dərslik / Q.P.Juravlyovanın ümumi redaktəsi ilə. / Rus dilindən tərcümə. Moskva: Daşkov və K$^{o}$ nəşriyyat-ticarət korporasiyası, 2008, 920 s.
5. Qasımlı V.Ə. İqtisadi artım. Bakı: AzPrint MMC, 2021, 234 s.
6. Qradov A.P. Milli iqtisadiyyat. / Rus dilindən tərcümə. Bakı: İqtisad Universiteti, 2008, 275 s.
7. Mikayılava S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Bakı: Gənclik, 2009, 400 s.
8. Sençaqov V.K. İqtisadi təhlükəsizlik: Geosiyasət, qloballaşma, özünüqoruma və inkişaf. / Rus dilindən tərcümə. Bakı: İqtisad Universiteti, 2008, 157 s.
9. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı: İqtisad Universiteti, 2009, 455 s.
10. Şvab K. Dördüncü sənaye inqilabı. / İngilis dilindən tərcümə. Bakı: İqtisad Universiteti, 2020, 200 s.

***Табриз Судейб оглы Аббасов***
***докторант, Бакинский Государственный Университет***
***abbasovtabriz.aze@gmail.com***

## Значение экономического роста в обеспечении экономической безопасности в постконфликтный период в Азербайджане

***Резюме***

**Цель исследования -** Анализ обеспечения экономической безопасности в постконфликтный период в Азербайджане и изучение значения экономического роста в этом процессе.

**Методология исследования -** В исследовании в основном использовались анализ и синтез, сравнительный анализ, логическое обобщение, методы индукции и дедукции.

**Прикладная значимость исследования -** Статья может быть использована при изучении новых угроз экономической безопасности Азербайджана в постконфликтный период (особенно потенциальных угроз в результате IV промышленной революции) и значения экономического роста в обеспечении экономической безопасности в стране.

**Результаты исследования -** Восстановление территориальной целостности Азербайджана, повышение его международного авторитета, укрепление экономического потенциала страны и повышение социального благосостояния населения являются основными результатами реализуемой в стране модели социально-экономического развития. Эта модель создала основу для устойчивого экономического роста, повышения общественного благосостояния и устойчивой стабильности за счет дальнейшего укрепления социально-

политической стабильности в стране. Необходимо нейтрализовать новые внутренние и внешние угрозы, сформулировать адекватные меры реагирования и стратегические подходы к возникающим новым условиям, локализовать IV промышленную революцию в Азербайджане и ускорить интеграцию в мировую экономику.

**Оригинальность и научная новизна исследования -** Проанализировано не только обеспечение экономической безопасности в постконфликтный период в Азербайджане, но и изучены новые и потенциальные (особенно потенциальные угрозы в результате IV промышленной революции) угрозы, возникшие при этом. Также была подчеркнута важность экономического роста в обеспечении экономической безопасности.

***Ключевые слова: экономическая безопасность, экономический рост, национальная экономика, социально-экономическое развитие.***

***Tabriz Sudeib Abbasov***
***PhD student, Baku State University***
***abbasovtabriz.aze@gmail.com***

**Importance of economic growth in ensuring economic security in the post-conflict period in Azerbaijan**

***Summary***

**The aim of the study -** Analyzing the provision of economic security in the post-conflict period in Azerbaijan and examining the importance of economic growth in this process.

**Methodology of the research** - The research mainly used analysis and synthesis, comparative analysis, logical generalization, induction and deduction methods.

**Practical significance of the research -** The article can be used during the study of new threats to the economic security of Azerbaijan in the post-conflict period (especially potential threats as a result of the IV Industrial Revolution) and the importance of economic growth in ensuring economic security in the country.

**Results of the study -** Restoring the territorial integrity of Azerbaijan, increasing its international reputation, strengthening the country's economic potential and improving the social welfare of the population are the main results of the socio-economic development model implemented in the country. This model has created a foundation for sustainable economic growth, increasing social welfare and sustainable stability by further strengthening socio-political stability in the country. It is necessary to neutralize new internal and external threats, formulate adequate response measures and strategic approaches to the emerging new conditions, localize the IV Industrial Revolution in Azerbaijan and accelerate integration into the world economy.

**Originality and scientific novelty of research -** Not only the provision of economic security in the post-conflict period in Azerbaijan was analyzed, but new and potential (especially potential threats as a result of the IV Industrial Revolution) threats that arose at the same time were studied. Also, the importance of economic growth in ensuring economic security was emphasized.

***Key words: economic security, economic growth, national economy, socio-economic development.***

UOT:3 38:246

*Магистр: Эльвин Рауль Тамерлан БУНЬЯДОВ*
*Научный руководитель:*
*к.э.н. Лала Гамлет кызы ИСМАИЛОВА*
*Азербайджанский Государственный Университет*
*Нефти и Промышленности*
*e-mail: bunyadovelvin@gmail.com*

# ОСНОВЫ РЕАЛИЗАЦИИ БИЗНЕС-СТРАТЕГИИ НА ПРЕДПРИЯТИЯХ

***Резюме***

На современном этапе экономического развития хорошо продуманная стратегия управления бизнесом не только считается конкурентным преимуществом, но и вскоре станет одним из методов выживания.

**Актуальность темы** заключается, специфические характеристики среды, в которой существует и развивается бизнес в Азербайджане, делают необходимым научное осмысление и обоснование принципов, подходов, методов и инструментов, оказывающих существенное влияние на управление бизнесом. Стратегия - это фактически определение предприятия на основе специально собранной и проанализированной информации о рыночной среде и возможностях предприятия.

**Постановка проблемы и степень изучения** в диссертационной работе появились научные позиции ученых по проблемам стратегии развития предприятия, маркетинга, менеджмента, конкуренции, реинжиниринга бизнеса, эффективного управления фирмой.

**Основная целю** исследования является исследование путей комплексного анализа, применения и постоянного совершенствования стратегического управления развитием бизнеса в условиях рыночных отношений.

**Методология работы** составляют труды классиков экономической науки и ведущих ученых-экономистов, соответствующие законы Азербайджанской Республики, указы президента страны, постановления и распоряжения Кабинета Министров, другие нормативные акты.

**Объектом исследования** В качестве объекта исследования были выбраны действующие в Азербайджане субъекты предпринимательства, в том числе предприятия

**В итоге** заключается в том, что результаты и предложения, полученные в ходе исследовательской работы, могут быть использованы при составлении плана мероприятий по внедрению системы стратегического управления в хозяйствующих субъектах и ее постоянному совершенствованию в соответствии с конкретными условиями, а также при составлении бизнес-планов.

***Ключевые слова: стратегия, бизнес, информация, предприятия, фирма, система, развития компании.***

## *Введение*

Проблема стратегий реализации считается новым полем задач для современных предприятий. Исследования показывают, что девять из десяти компаний не имеют достаточных ресурсов, как организационно-финансовых, так и в области знаний, чтобы самостоятельно осуществлять разработку и реализацию стратегии. Необходимость внедрения процесса стратегического управления предельно очевидна не только на фоне внешних изменений, но и с точки зрения внутренних требований к управлению предприятием. Эти процессы отстают от современных технологий. Поэтому в большинстве случаев управление современными предприятиями осуществляется не с помощью реализации сложной стратегии, а только посредством простых планов, которые считаются выводом прогнозирования преды-

дущих финансовых и маркетинговых результатов и управленческих решений, с учетом некоторого условно принятого коэффициента. Однако не следует забывать, что на современном этапе экономического развития крайне сложно обеспечить успешную деятельность предприятия в долгосрочной перспективе без продуманной стратегии и эффективного механизма ее реализации. Интуитивный стиль руководства сейчас уступает место более прагматичному управлению стратегическими планами.

Стратегический план - это процесс определения будущего предприятия и определения стратегических целей с учетом приоритетов предприятия. Стратегический план, который должен быть разработан на предприятии, должен включать четыре компонента: философию и миссию управления, видение и цели, стратегии достижения цели и политику предприятия.

Философия управления - это идеальные ценности, которыми руководствуется организация в целом и все сотрудники организации. Эта цепочка ценностей, определяющая приоритеты предприятия, влияет на принятие решений, которые позволят достичь цели и, в связи с этим, на стратегический план. В стратегическом плане рациональные решения, принимаемые в соответствии с приоритетами компании, позволяют выбрать наиболее подходящую для компании стратегию среди альтернатив.

Важным аспектом философии управления является миссия. Миссия определяет приоритеты предприятия и согласовывает работу сотрудников со стратегическими целями.

Видение - это самая важная концепция, которая определяет, каким будет предприятие в будущем.

Стратегические цели - это цели, которых предприятие хочет достичь в долгосрочной перспективе. Такие цели, как прибыльность, доля рынка, общественная польза, технологическое лидерство, формируют стратегические цели и направляют предприятие к его видению.

Стратегии - это решения и планы о том, как выполнить миссию и стратегические цели.

Политика - это решения и действия, направленные на реализацию определенных стратегий. Политика существует на каждом этапе управления, и эта политика распространяется на политику предприятия, политику ведомства и политику самых маленьких предприятий.

**Анализ и оценка бизнес-стратегии предприятия**

Определение и формирование миссии и целей организации является основой стратегического процесса организации. В целом под миссией понимается четкое, краткое и точное изложение целей и приоритетов организации. Большое значение при формировании миссии имеет согласование общечеловеческих и социальных ценностей с внутрикорпоративной культурой организации. Миссия организации должна создавать чувство доверия, которое в первую очередь должно проявляться у потенциальных и текущих клиентов, а также сотрудников и наблюдателей. По своему буквальному значению слово «миссия» означает намерение, которое образовано от слов «постановка миссии» и «миссия». Когда мы говорим о миссии, в первую очередь на ум приходят большие цели, и эти цели создают усилия для достижения чего-либо в хозяйствующих субъектах. Через миссию формируются долгосрочная цель организации или будущие качественные изменения, которые невозможно осуществить в течение планового периода. [1, стр 45]

На вопросы, заданные для определения будущей деятельности предприятия, можно ответить через миссию. Эти вопросы включают в себя «почему существует организация», «почему мы в этой конкретной организации», «почему работа, которую мы делаем» и так далее. такие вопросы, как Однако на предприятии вопрос «каким видеть предприятие, что делать и чего мы хотим достичь» - это наличие у менеджера миссии и стратегии. Для того чтобы найти ответы на эти вопросы, руководитель должен прежде всего иметь представление о характере текущей и перспективной деятельности организации, ее потребностях, которые возникнут через 5-10 лет. [2].

Менеджер определяет будущий период организации, сферу деятельности и одновременно определяет миссию. Стратегическое видение менеджера относится к его взглядам на место организации на рынке. Через миссию нельзя узнать что-либо о приоритете развития компании, будущей деятельности и бизнес-планах, то есть миссия об этом ничего не говорит. Таким образом, в то время как миссия отражает текущую эпоху компании, стратегическое видение включает будущую эпоху компании.

Исходя из опыта, можно сказать, что существуют разные подходы к формированию миссии. Они также не в стандартной форме. Миссия, как длительный и сложный процесс, тесно связана с накоплением в организациях корпоративной культуры, традиций и соответствующего опыта. Миссия может быть выражена различными способами, включая короткие и точные предложения, которые включают целевых потребителей, требования к оплате и платежную технологию. Чтобы достичь целей каждого отдела на предприятии, миссия должна определить роли этих отделов на предприятии. Бывает в ряде случаев, что миссия незначительна, не имеет смысла. К этим случаям относится также тот факт, что планы развития и миссия предприятия не поддаются количественной оценке и не связаны с конкретными задачами, а менеджеры не добиваются прогресса в реализации этих задач. Основная задача руководителя - оценить новые возможности, которые появляются в сфере деятельности, вовремя почувствовать угрозы и получить возможность внесения изменений в процессе развития предприятия.

Определение видения и миссии предприятия является первым этапом стратегического планирования. Потому что видение и миссия обеспечивают связь с процессом определения целей компании [3, с. 54].

Видение - это долгосрочное видение будущего предприятия и превращение этого воображаемого будущего в цель предприятия. В то же время видение - это то состояние, в котором предприятие желает находиться в будущем. Например, видение Google состоит в том, чтобы охватить всю информацию в мире и сделать эту информацию доступной для пользователей.

Видение - это представление о том, как будет определяться будущее с точки зрения предприятия, и мыслительный замысел (стиль) для достижения этого будущего. Видение - это путешествие из известного настоящего состояния в неизвестное будущее и событие, состоящее из надежд, мечтаний, истин и опасностей, существующих в этом процессе. С учетом всего этого видение состоит из 3-х частей [4,с.56]:

- философия управления;
- образ будущего;
- Предсказание будущего.

Миссия определяет причину существования и создания предприятия. Таким образом, предприятие определяет, какой продукт производить и где производить, а также своих конкурентов. При установлении миссии предприятие должно определить свои обязательства перед заинтересованными сторонами, производственную сферу предприятия и свое видение будущего. Например, миссия Google состоит в том, чтобы стать лучшим исследовательским браузером в Интернете, делающим всю информацию в мире общедоступной и удобной.

Миссия - это конкретная задача, выполняемая человеком или организацией.Миссия - это конкретная задача в рамках стратегии предприятия и задачи, которые необходимо выполнить при выполнении этой задачи. В данном контексте миссия - это определенные цели и деятельность предприятий по отношению к рынку.

Миссия любого предприятия должна иметь следующие характеристики:

- миссия - это долгосрочная цель;
- миссия - это постановка и задача, которую предприятие может часто менять, а иногда она останется неизменной за время существования предприятия;

- миссия связана со всей рабочей группой;
- это ответственность и обязанность всех от высшего руководства до низшего звена, от Председателя Совета директоров до работника;
- миссия - понятие, связанное с качеством (особенностью), а не с количеством, поэтому финансовые цели, темпы роста и прибыльности не должны включаться в миссию предприятия;
- Миссия принадлежит предприятию и отделяет предприятие от других предприятий на рынке.

Заявление о миссии должно включать следующие четыре элемента: цель, стратегию, ценности и стандарты поведения. Именно с этой точки зрения миссия является управленческой деятельностью и охватывает основные обязательства организации по отношению к своему окружению. Поэтому миссия должна быть разработана с участием сотрудников, должна быть оформлена в письменной форме и доведена до всех.

Например, миссия турецкой компании Seranit Seramik звучит так: «Решить технические, эстетические и дизайнерские задачи архитекторов с помощью гранита высшего качества, который постоянно развивается и отличается от конкурентов». Миссия общественной организации, работающей в области энергетики, заключается в следующем: «Помнить об общественной пользе, предоставляя клиентам надежные услуги по электроэнергии, энергетическую информацию и энергетические возможности, услуги, которые наилучшим образом удовлетворят их потребности в энергии». Миссия является причиной существования предприятия, а видение выражает желаемое состояние предприятия в будущем. Поэтому миссия, определяющая ситуацию сегодня, является важным инструментом в достижении видения, связанного с будущим. Видение влияет на долгосрочные решения менеджеров и играет важную роль в создании организационных структур. Миссия - достижение целей предприятия определяет деятельность сотрудников и обеспечивает единство цели в организации.

После определения видения и миссии предприятия необходимо определить цели и задачи предприятия. Потому что эти определенные цели и задачи способствуют процессу стратегического управления, помогая оценить стратегическое развитие. Цель - это числовая форма видения на конкретный период времени [5,с.67].

**Бизнес – цели**

Бизнес-цели должны быть четкими, измеримыми и достижимыми. Если цели компании недостижимы, то мотивация сотрудников очень низкая. Поэтому целесообразнее использовать метод SMART при постановке целей предприятия:

- S - Конкретный. Цели должны быть четко сформулированы и отвечать на вопросы что, когда, где и как
- M - Измеримый. Цели должны иметь числовые показатели.
- A - Доступен. Цели должны быть достижимы для сотрудников.
- P - Реалист. Цель должна быть установлена с учетом приоритета и задач предприятия.
- T - Время. Должен быть установлен период времени для достижения цели.

При этих характеристиках цель является критерием измерения успешности и оценки деятельности сотрудников.

Стратегические цели можно определить как результаты, которых компания стремится достичь в долгосрочной перспективе, для этого стратегические цели должны согласовываться с видением и миссией компании и должны занимать важное место в других вопросах процесса стратегического планирования.

В целях обеспечения экономического развития развитие малых и средних предприятий (МСБ) в нашей стране является одной из основных целей в части диверсификации экономики, повышения конкурентоспособности и занятости населения, удовлетворения спроса на товары народного потребления за счет местные ресурсы.

«Стратегическая дорожная карта по производству товаров народного потребления на

уровне малых и средних предприятий в Азербайджанской Республике» подготовлена в рамках реализуемых по всей стране мер по обеспечению конкурентоспособности, инклюзивности и устойчивости в экономике Азербайджана.Эти меры отражают одиннадцать различных секторов экономики Азербайджана, а также стратегические дорожные карты перспектив национальной экономики Азербайджанской Республики, охватывающие общие темы для каждого сектора. Реализация Указа Президента Азербайджанской Республики № 1897 от 16 марта 2016 года об утверждении основных направлений стратегической дорожной карты для национальной экономики и основных секторов экономики и вопросов, которые могут возникнуть в связи с этим. предназначен для этой цели [6, с.76].

Основные направления, определенные стратегической дорожной картой в МСП, включают кратсрочные, среднесрочные и долгосрочные перспективы экономических реформ и развития. Документ содержит стратегическое видение до 2020 года, долгосрочное видение до 2025 года и целевое видение на период после 2025 года. В стратегической дорожной карте стратегия развития и план действий на 2016-2020 годы содержат стратегические цели, задачи, приоритеты, установленные для достижения этих целей, и меры, которые должны быть реализованы в рамках этих приоритетов [7, с.78].

При этом указывается наименование каждого мероприятия, основные и другие исполнители, показатели результата и конкретный срок реализации. В целях обеспечения эффективности процесса реализации эффективная реализация определенных приоритетов в карточной перспективе ляжет в основу других следующих шагов, которые должны быть реализованы в среднесрочной и долгосрочной перспективе. Реализация стратегической дорожной карты будет происходить в условиях сотрудничества и общения между неправительственными организациями, местными и международными партнерами из частного сектора. Основным направлением деятельности является совершенствование законодательной базы в отношении МСП в нашей стране и дальнейшее усиление стимулирующего эффекта финансовой и налоговой политики, расширение доступа к финансовым ресурсам, укрепление технической и информационной базы и эффективное размещение МСП на территории, защита внутреннего рынка, развивать рыночную инфраструктуру и получать необходимые документы, применяя принцип «одного окна», обеспечивая усиление взаимодействия между субъектами, представляющими данную сферу и будет направлено в таких направлениях.

Финансирование реализации мероприятий, указанных в Стратегической дорожной карте, планируется за счет следующих источников:

- государственный бюджет и внебюджетные фонды;
- средства Национального фонда поддержки предпринимательства и местных бюджетов;
- средства местных администраций, предприятий и организаций независимо от форм собственности;
- Прямые иностранные инвестиции, кредиты и гранты банковской системы страны;
- кредиты международных организаций и иностранных государств, техническая и финансовая помощь и другие источники, не запрещенные законодательством [8, с.21].

**Разработка бизнес – стратегии предприятия, ее анализ и оценка**

Перед разработкой стратегии компании анализируется ее текущая ситуация, оцениваются потенциальные угрозы и возможности. При этом анализируются воздействия внешней среды, конкурентных условий, потребителей, внутренних конкурентных преимуществ. Воздействие внешней среды включает экономические факторы, технологическую среду, правовые и политические воздействия. Только при правильном учете и оценке этих факторов можно сделать вполне правильный стратегический вывод. [9, стр.172]

Велика роль экономических факторов в принятии деловых решений. Пример процентной ставки в банковской сфере можно привести как один из факторов, играющих ведущую роль при составлении инвестиционного плана экономических факторов. К другим экономическим факторам относятся доходы населения (одним из основных факторов, определяющих

спрос на товар, являются доходы населения, которые связаны с общеэкономической ситуацией), валютный курс, инфляция, уровень безработицы, и т.п. можно привести пример.

Для более эффективного использования ресурсов и одновременного достижения эффективных результатов роль технологической среды в построении стратегии неоценима. То есть в результате развития технологий можно сократить человеческие ресурсы и добиться более качественных результатов за меньшее время. В настоящее время возможности контроля расширяются, и доступно множество компьютерных программ (ERP, CRM и т. д.). Благодаря этим программам появилась возможность контролировать бизнес-процессы, в то же время быстрее выполнять операции, более гибко обмениваться информацией. Эффективное управление погребами может быть достигнуто за счет правильного использования технологических новшеств.

Стратегия компании по удовлетворению потребностей клиентов может быть успешной, если компания может делать это лучше, чем конкуренты на рынке, удовлетворяя при этом потребности клиентов. Поэтому углубленное изучение текущих и перспективных планов фирм-конкурентов на рынке является важным условием. [10]

В результате анализа конкуренции, т. е. может быть оценена способность конкурента соответствовать критериям заказчика и определена позиция компании на рынке.В то же время не следует забывать, что все эти анализы также проводятся компаниями-конкурентами и соответственно готовятся стратегии.

При разработке стратегии по силе компании учитывается ряд факторов, в том числе оценка существующих ресурсов компании, бизнес-процессов, информационных систем, навыков и умений сотрудников. Если ресурсная база компании или другие факторы плохо организованы, это не значит, что с этим надо мириться, наоборот, над этими слабыми местами важно работать.

## *Заключение*

Успешное стратегическое управление устремляет предприятие в будущее, позволяет определить долгосрочные направления развития и его положение в бизнесе. Результаты стратегического управления отражаются в положении предприятия на рынке и долгосрочных тенденциях экономических и финансовых показателей.

1. Стратегическое управление бизнесом является основой обеспечения его долгосрочного развития. Задача стратегического управления организацией связана с реализацией ее планов и прогнозов, целей, стратегии, экономических методов и функций.

Rəqəmsal mühasibat uçotu modullarının yaradılması proseslərində mühüm məsələlərdən biri uçot informasiyalarının işlənməsi mərhələlərinin ardıcıllığına uyğun olan və zəruri informasiyaları özündə yerləşdirə bilən şablon formaların quraşdırılmasından ibarətdir [10]. Belə şablon formalar özlüyündə ayrı-ayrı uçot informasiyaları massivlərini ehtiva etməklə, mühasibat uçotunun uyğun registrlərinin xarici görünüşünə malik olan elektron tablolar qismində təzahür edir. Onların hər biri mühasibat uçotu informasiyalarının rəqəmsal qaydada işlənməsi proseslərinin mərhələlər üzrə yerinə yetirilməsinə xidmət göstərir. Şablon formaların yaradılması məsələləri mühasibat uçotunun müvafiq sahəsinin xarakterik xüsusiyyətlərinə uyğun tənzimlənir. Mühasibat uçotunun bir sıra sahələrinə aid olan rəqəmsal mühasibat uçotu modullarının yaradılması zamanı əsas ilkin sənəd formalarının da şablonlarının yaradılması mümkündür. Məsələn, bizim fikrimizcə, ticarət müəssisələrində mal əməliyyatlarının uçotu modulunda hesab-faktura, mal mədaxili qaiməsi, adi qaimə, maddi-məsul şəxslərin hesabatları (anbar hesabatı, logistik ekspedisiya hesabatı, mağaza hesabatı ayrı-ayrılıqda olmaqla) [14; s.83-87] və digər bu kimi şablon formalar yaradılmaqla, onlarda formalaşdırılmış elektron xanalara (yuvalara) daxil ediləcək informasiyalar əsasında əsas uçot registrlərinin növbəti işlənməsi prosesləri təmin edilə bilər. Pul vəsaitlərinin uçotu modulunda isə kassa mədaxil və məxaric orderlərinin, kassa hesabatının, bank sənədlərindən ödəniş tapşırığının, ödəniş tələbnaməsinin, nağd ödəniş üçün elan-qəbz-orderin və bank hesablarından çıxarışların [14; s.182-189] şablon formalarının yaradılması məqsədəuyğun hesab edilir. Burada verilmiş kapitalın uçotu modulunda isə ilkin sənəd nümunələrinə aid olan şablon formaların yaradılmasına ehtiyac yoxdur, çünki bu modul tədqiqat xarakteri daşıyır və ilkin sənədlərin daxil edilməsi onun kompakt şəkildə təqdim edilməsini, həmçinin də əlaqədar proseslərin şərh edilməsini ağırlaşdırır. Əslində isə praktik mühasibat uçotunda istifadə ediləcək rəqəmsal mühasibat uçotu modullarında lazımi ilkin sənədlərin də şablon formalarının yaradılması məqsədəuyğun hesab edilir. Qeyd etmək lazımdır ki, rəqəmsal mühasibat uçotu modullarında yerləşdirilən bütün şablon formalar həm xarici görünüş, həm də məzmun və mahiyyət etibarı ilə mühasibat uçotu elminin xarakterik xüsusiyyətlərinə və mövcud uçot qaydalarının məzmununa uyğun olmalıdır.

**Mühasibat uçotu məsələsinin "Kapitalın rəqəmsal uçotu" modulunda həlli.** Bizim təqdim etdiyimiz "Kapitalın rəqəmsal uçotu" modulunda yerləşdirilmiş ilk şablon əməliyyat jurnalının formasıdır. Məlumdur ki, müəssisənin əməliyyat jurnalında baş vermiş təsərrüfat əməliyyatlarının sıra nömrəsi, tarixi, məzmunu, məbləği və onlara aid tərtib edilmiş müxabirləşmə (debet və kredit hesablarının nömrələri) ayrı-ayrı sütunlarda əks etdirilməlidir. Burada hər bir təsərrüfat əməliyyatına aid ayrıca sətir ayrılmalı və cədvələ daxil olan təsərrüfat əməliyyatının məbləğlərinin yekunu sonuncu sətirdə əks olunmalıdır. Göstərilən tələblərə cavab verən əməliyyat jurnalının şablon forması aşağıdakı şəkildə verildiyi kimi quraşdırılmışdır (Bax: Şəkil 1):

Şəkil 1-də göründüyü kimi, burada verilmiş əməliyyat jurnalının şablon forması "Şahvəlli" MMC-nin nizamnamə kapitalına aid 2022-ci ilin yanvar ayında baş vermiş təsərrüfat əməliyyatlarının sözügedən modula daxil edilməsi üçün nəzərdə tutulmuşdur. Əməliyyat jurnalının yerləşdirildiyi elektron cədvəl (tablo) 6 sütun və 10 sətirdən ibarətdir. Elektron tablo formasında quraşdırılmış bu əməliyyat jurnalı şablonu cəmi 61 elektron yuvadan ibarətdir ki, onlardan da 60 ədədi sərbəst, 1 ədədi isə asılı yuvadır. Qeyd edək ki, mühasibat uçotu məsələlərinin həll edilməsi üçün

hazırlanmış elektron tablolar sərbəst və asılı elektron yuvalardan (xanalardan) ibarət olur. Sərbəst xanalarda klaviaturadan daxil edilmiş informasiyalar yerləşdirilir, asılı xanalarda isə informasiyalar müəllif tərəfindən qoyulmuş düsturlar əsasında avtomat rejimdə hesablanmaqla əks olunur. Burada quraşdırılmış əməliyyat jurnalı şablonunda yalnız 1 ədəd asılı xana vardır ki, o da elektron tablonun D15 koordinatında yerləşən yekun məbləğinin əks etdirilməsi üçün nəzərdə tutulmuş xanadır. Bu xanada müəllif tərəfindən “=СУММ(D7:D14)” düsturu təyin edilmişdir ki, bu da əməliyyat jurnalının 4-cü sütununda klaviaturadan daxil ediləcək məbləğlərin cəmlənərək, müvafiq düsturun qoyulduğu xanada əks etdirilməsini təmin etmək məqsədini daşıyır.

“Şahvəlli” MMC-də 2022-ci ilin yanvar ayında
nizamnamə kapitalına aid baş vermiş biznes-təsərrüfat əməliyyatları üzrə
**əməliyyat jurnalı**

| Sıra № | Tarix | Əməliyyatın məzmunu | Məbləği, manatla | Müxabirləşmə | |
|---|---|---|---|---|---|
| | | | | D-t | K-t |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | YEKUNU: | 0 | | |

**Şəkil 1. “Şahvəlli” MMC-nin nizamnamə kapitalına aid 2022-ci ilin yanvar ayında baş vermiş təsərrüfat əməliyyatlarının daxil edilməsi üçün quraşdırılmış şablon forma**

*Müəllif tərəfindən yaradılmış “Kapitalın rəqəmsal uçotu” modulundan çəkilmişdir.*

Burada göstərilən şablon formada lazımi informasiyaların daxil edilməsindən sonra hazırlanmış əməliyyat jurnalının formalaşdırılması prosesləri aşağıda şərh ediləcəkdir.

“Kapitalın rəqəmsal uçotu” modulunda yerləşdirilmiş ikinci şablon forma memorial orderin şablon formasıdır. Məlumdur ki, memorial orderdə müəssisədə baş vermiş təsərrüfat əməliyyatları üzrə tərtib edilmiş icmal müxabirləşmələr əks olunur. Belə icmal müxabirləşmələrin tərtib edilməsi üçün bütün təsərrüfat əməliyyatları bir-bir nəzərdən keçirilərək, eynitipli fərdi müxabirləşməyə malik olan eyniməzminlu təsərrüfat əməliyyatlarının məbləğləri toplanmalı və alınmış cəmi məbləğ bir icmal müxabirləşmədə əks etdirilməlidir. Memorial orderin yekun sətrində oraya daxil edilmiş icmal müxabirləşmə məbləğlərinin yekunu əks etdirilməlidir. Burada göstərilən tələblərə cavab verən memorial orderin şablon forması aşağıdakı şəkildə əks olunduğu kimi quraşdırılmışdır (Bax: Şəkil 2):

Şəkil 2-də göründüyü kimi, burada verilmiş memorial orderin şablon forması “Şahvəlli” MMC-nin nizamnamə kapitalına aid 2022-ci ilin yanvar ayında baş vermiş təsərrüfat əməliyyatları üzrə icmal müxabirləşmələrin avtomat rejimdə tərtib olunaraq, sözügedən modula daxil edilməsi üçün nəzərdə tutulmuşdur. Memorial orderin şablon forması başlıq və cədvəl hissələrindən ibarət olub, başlıq hissəsi müəssisənin adının, memorial orderin nömrəsi, adı və aid olduğu ayın, cədvəl hissəsi isə həmin ay ərzində baş vermiş təsərrüfat əməliyyatları üzrə icmal müxabirləşmə informasiyalarının yerləşdirilməsi üçün nəzərdə tutulmuşdur. Şablon formanın cədvəl hissəsi 5 sütun və 8 sətirdən

ibarət olub, özündə 41 ədəd elektron xananı birləşdirir. Burada 3-cü sütunda yerləşən 6 ədəd elektron xana asılı, digər 35 elektron xana isə sərbəst xanalardır. Burada yaradılmış memorial orderin şablon formasında sıra nömrəsi, təsərrüfat əməliyyatının məzmunu və məbləği, həmçinin, onlara aid müxabirləşən debet və kredit hesablarının nömrələri, ayrı-ayrı sütunlarda əks olunur. İnformasiyalar sərbəst xanalarda icraçı mühasib tərəfindən klaviatura vasitəsi ilə daxil edilir, asılı xanalarda isə modul müəllifi tərəfindən qoyulmuş düsturlar əsasında avtomat rejimdə formalaşır.

“Şahvəlli” MMC üzrə
Memorial order №____ — Nizamnamə kapitalı
Yanvar 2022-ci il

| Sıra № | Əməliyyatın məzmunu | Məbləği | Müxabirləşmə | |
|---|---|---|---|---|
| | | | D-t | K-t |
| *1* | *2* | *3* | *4* | *5* |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | **YEKUNU:** | **0** | | |

**Şəkil 2. “Şahvəlli” MMC-nin nizamnamə kapitalına aid 2022-ci ilin yanvar ayında baş vermiş təsərrüfat əməliyyatları üzrə icmal müxabirləşmələrin daxil edilməsi üçün quraşdırılmış şablon forma**

*Müəllif tərəfindən yaradılmış “Kapitalın rəqəmsal uçotu” modulundan çəkilmişdir.*

“Kapitalın rəqəmsal uçotu” modulunda yerləşdirilmiş üçüncü şablon forma müəssisənin Baş Kitabında olan hesab vərəqələrinin şablon formalarıdır. Modulda yerləşdirilmiş memorial orderdə (və ya əməliyyat jurnalında) yer almış müxabirləşmələrdə iştirak edən mühasibat hesablarının sayı qədər hesab vərəqələri üçün şablon formalar yaradılmalıdır, Buraya eyni zamanda cari ayın əvvəli tarixinə qalıqları olan, lakin ay ərzində heç bir əməliyyat baş verməyən, ilk qalıqları dəyişilmədən son qalıqlara köçürülən hesablar üzrə də şablon formaları əlavə etmək lazımdır. Məlumdur ki, müəssisənin Baş Kitabına daxil edilən hesab vərəqələrinin başlıq hissəsində müvafiq mühasibat hesabının nömrəsi və adı əks olunmaqla, vərəqənin yerdə qalan hissəsi “T” hərfi formasında düzəldilir və onun sol yarısı “debet”, sağ yarısı isə “kredit” adlandırılır. Buradakı hesab vərəqələri də bu tələblərə uyğun hazırlanmışdır. Bundan əvvəldə haqqında bəhs edilən memorial orderin məzmununa uyğun olaraq, modulda 4 ədəd hesab vərəqəsi üçün şablon forma hazırlanmışdır. Bu mühasibat hesabları aşaşğıdakılardır:

301№-li “Nizamnamə (nominal) kapitalı” hesabı;
302№-li “Nizamnamə (nominal) kapitalının ödənilməmiş hissəsi” hesabı;
111№-li “Torpaq, tikili və avadanlıqların dəyəri” hesabı;
223№-li “Bank hesablaşma hesabları” hesabı [7, 212s.; 14, s.329-332].

Həmin hesablardan ikisi: 301№-li “Nizamnamə (nominal) kapitalı” hesabı və 223№-li “Bank hesablaşma hesabları” hesabı üçün hazırlanmış şablon formalar aşağıdakı şəkildə əks olunmuşdur (Bax: Şəkil 3):

Şəkil 3-də göründüyü kimi, burada verilmiş hesab vərəqələrinin şablon formalarının hər biri “debet” və “kredit” tərəflərindən ibarət olan elektron cədvəldə yerləşdirilmişdir. 301№-li “Nizamnamə (nominal) kapitalı” hesabı və 223№-li “Bank hesablaşma hesabları” hesabı üçün hazırlanmış şablon formalar “Şahvəlli” MMC-də 2022-ci ilin yanvar ayında bu hesablarda baş vermiş təsərrüfat əməliyyatları üzrə icmal müxabirləşmələrin məbləğlərinin, müvafiq debet və kredit dövriyyələrinin, həmçinin, ilk və son qalıqların avtomat rejimdə tərtib olunaraq, modulda əks etdirilməsi üçün nəzərdə tutulmuşdur. Həm debet, həm də kredit tərəflərinin hər birində müxabirləşən hesabların

**“Şahvəlli” MMC-nin 2022-ci ilin yanvar ayına aid hesab vərəqələri**
**(Baş Kitabdan çıxarış)**

**301№-li “Nizamnamə (nominal) kapitalı” hesabı**

| Debet | | Kredit | |
|---|---|---|---|
| *Müxabirləşən hesabın №-si* | *Məbləğ, manatla* | *Müxabirləşən hesabın №-si* | *Məbləğ, manatla* |
| | | 01.01.2022 qalıq | 0 |
| | | *0* | 0 |
| | | | |
| | | | |
| *Dövriyyə* | *0* | *Dövriyyə* | *0* |
| | | 01.02.2022 qalıq | - |

*Kapitalın uçotu modul-1: Baş Kitab-hesab vərəqəsi*

**223№-li “Bank hesablaşma hesabları” hesabı**

| Debet | | Kredit | |
|---|---|---|---|
| *Müxabirləşən hesabın №-si* | *Məbləğ, manatla* | *Müxabirləşən hesabın №-si* | *Məbləğ, manatla* |
| 01.01.2022 qalıq | 0 | | |
| *0* | 0 | | |
| | | | |
| | | | |
| *Dövriyyə* | *0* | *Dövriyyə* | *0* |
| 01.02.2022 qalıq | - | | |

*Kapitalın uçotu modul-1: Baş Kitab-hesab vərəqəsi*

**Şəkil 3. “Şahvəlli” MMC-də nizamnamə kapitalının uçotu üzrə quraşdırılmış hesab vərəqələrinin şablon formaları**

*Müəllif tərəfindən yaradılmış “Kapitalın rəqəmsal uçotu” modulundan çəkilmişdir.*

nömrələri və məbləğlər üçün 2 sütun ayrılmışdır. Sütunlarda aktivləşdirilmiş elektron xanalar müvafiq hesablar üzrə ilk və son qalıqların, təsərrüfat əməliyyatlarının və dövriyyələrin məbləğlərinin əks etdirilməsi üçün nəzərdə tutulmuşdur. Aktivləşdirilmiş asılı xanalarda informasiyalar belə formalaşdırılır: 1) ilk qalıq məbləği icraçı mühasib tərəfindən klaviatura vasitəsi ilə daxil edilir; 2) təsərrüfat əməliyyatlarına aid informasiyalar (müxabirləşən hesabın nömrəsi və məbləğ) qoyulmuş düstur əsasında memorial orderdən avtomat rejimdə köçürülür; 3) son qalığın məbləği modul müəllifi tərəfindən qoyulmuş düstur əsasında avtomat rejimdə hesablanır.

“Kapitalın rəqəmsal uçotu” modulunda yerləşdirilmiş dördüncü şablon forma dövriyyə-qalıq cədvəlinin şablon formasıdır. Məlumdur ki, dövriyyə-qalıq cədvəli çoxsaylı hesab vərəqələrində əks olunmuş mühasibat hesabları üzrə dövriyyə və qalıq məbləğlərinin yığcam şəkildə bir cədvəldə yerləşdirilərək, onların sistemləşdirilməsi, nəzarətedici yekun məbləğlərinin hesablanması və bərabərliklərin təmin edilməsinə əminlik yaradaraq, mühasibat balansının tərtib edilməsi üçün hazırlıq görülməsi məqsədi ilə nəzərdə tutulmuşdur. Burada yaradılan elektron dövriyyə-qalıq cədvəlinin şablon forması da bu tələblərə uyğun tərtib edilmişdir. Elektron dövriyyə-qalıq cədvəlinin şablon forması aşağıdakı şəkildə əks olunmuşdur (Bax: Şəkil 4):

**“Şahvəlli” MMC-nin 2022-ci ilin yanvar ayına aid kapital hesabları üzrə dövriyyə-qalıq cədvəli**

(manatla)

| Hesab № | Hesabın adı | 01.01.2022 tarixinə | | Yanvar 2022 dövriyyə | | 01.02.2022 tarixinə | |
|---|---|---|---|---|---|---|---|
| | | Debet | Kredit | Debet | Kredit | Debet | Kredit |
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* | *8* |
| 111 | Torpaq, tikili və avadanlıqlar | 0 | | 0 | 0 | 0 | |
| 223 | Bank hesablaşma hesabları | 0 | | 0 | 0 | 0 | |
| 301 | Nizamnamə (nominal) kapitalı | | 0 | 0 | 0 | | 0 |
| 302 | Nizamnamə (nominal) kapitalının ödənilməmiş hissəsi | 0 | | 0 | 0 | 0 | |
| | | | | | | | |
| | | | | | | | |
| X | CƏMİ: | 0 | 0 | 0 | 0 | 0 | 0 |

**Şəkil 4. “Şahvəlli” MMC-nin 2022-ci ilin yanvar ayına aid kapital hesabları üzrə quraşdırılmış elektron dövriyyə-qalıq cədvəlinin şablon forması**

*Müəllif tərəfindən yaradılmış “Kapitalın rəqəmsal uçotu” modulundan çəkilmişdir*

Şəkil 4-də göründüyü kimi, elektron dövriyyə-qalıq cədvəlinin şablon formasında 8 sütun və 9 sətirdə 75 elektron xana yerləşdirilmişdir ki, onlardan da 42 xana asılı, 33 xana isə sərbəst xanalardır. Cədvəlin başlıq sətrində hesabın nömrəsi və adı, 1 yanvar 2022-ci il tarixinə debet və kredit qalıqları, 2022-ci ilin yanvar ayı üçün debet və kredit dövriyyələri, həmçinin, 1 fevral 2022-ci il tarixinə debet və kredit qalıqlarına aid olan sütunlar təyin edilmişdir. Burada 1-2-ci sütunlarda hesabların nömrələri və adları klaviaturadan daxil edilir, 3-8-ci sütunlara aid olan xanalarda isə ayrı-ayrı hesablar üzrə qalıqların və dövriyyələrin məbləğ informasiyaları müəllif tərəfindən qoyulmuş düsturlar üzrə müvafiq hesablara dair hesab vərəqələrindən avtomat rejimdə gətirilir. Cədvəlin sonuncu “Cəmi” sətrindəki məbləğlər müəllif tərəfindən qoyulmuş düsturlar əsasında avtomat rejimdə hesablanır.

“Kapitalın rəqəmsal uçotu” modulunda yerləşdirilmiş beşinci şablon mühasibat balansının şablon formasıdır. Məlumdir ki, mühasibat balansı dövriyyə-qalıq cədvəlində əks olunmuş sintetik hesablar üzrə dövrün sonuna olan qalıq informasiyaları əsasında formalaşdırılır. Bu zaman dövrün sonuna debet qalıqları olan hesabların nömrələri, adları və qalıq məbləğləri mühasibat balansının aktiv tərəfinə, kredit qalıqları olan hesabların nömrələri, adları və qalıq məbləğləri isə passiv tərəfinə köçürdülür. Burada yaradılan elektron mühasibat balansının şablon forması da bu tələblərə uyğun tərtib edilmişdir. Elektron mühasibat balansının şablon forması aşağıdakı şəkildə əks olunmuşdur (Bax: Şəkil 5):

**“Şahvəlli” MMC-nin 01 fevral 2022-ci il tarixinə mühasibat balansı**

(manatla)

| Aktiv | | | Passiv | | |
|---|---|---|---|---|---|
| № | Adı | Məbləği | № | Adı | Məbləği |
| *1* | *2* | *3* | *4* | *5* | *6* |
| 111 | Torpaq, tikili və avadanlıqların dəyəri | 0 | 301 | Nizamnamə (nominal) kapitalı | 0 |
| 223 | Bank hesablaşma hesabları | 0 | | | |
| | | | | | |
| | **Balans:** | **0** | | **Balans:** | **0** |

**Şəkil 5. “Şahvəlli” MMC-nin 01 fevral 2022-ci il tarixinə elektron mühasibat balansının şablon forması**

*Müəllif tərəfindən yaradılmış “Kapitalın rəqəmsal uçotu” modulundan çəkilmişdir.*

Şəkil 5-də göründüyü kimi, elektron mühasibat balansının şablon formasında 6 sütun və 7 sətirdə 38 elektron xana yerləşdirilmişdir ki, onlardan da 20 xana asılı, 18 xana isə sərbəst xanalardır. Cədvəlin başlıq hissəsini təşkil edən 3 sətirdə olan informasiyalar, həmçinin də yekun sətirdə görünən 2 ədəd “Balans” sözü klaviaturadan daxil edilmiş, asılı xanalardan ibarət olan növbəti 3 sətirdə isə informasiyalar müəllif tərəfindən qoyulmuş düsturlar vasitəsi ilə dövriyyə-qalıq cədvəlindən avtomat rejimdə gətirilir. Cədvəlin sonuncu “Balans” sətrindəki məbləğlər qoyulmuş düsturlar əsasında avtomat rejimdə hesablanır.

“Kapitalın rəqəmsal uçotu” modulunda yerləşdirilmiş altıncı və yeddinci şablonlar müəssisənin maliyyə hesabatlarının şablon formalarıdır. Burada yalnız kapital informasiyalarının əks olunduğu maliyyə hesabatlarından lazım olan fraqmentlər göstərilir [8; 9;]. Ona görə ki, həmin maliyyə hesabatlarının həcmi çox böyükdür və onları monitorda bütövlükdə əlverişli şəkildə əks etdirərək şərh etmək çətindir.

Altıncı şablon Maliyyə vəziyyəti haqqında hesabatın şablon formasıdır. Elektron Maliyyə vəziyyəti haqqında hesabatın şablon forması aşağıdakı şəkildə əks olunmuşdur (Bax: Şəkil 6):

Məlumdir ki, Maliyyə vəziyyəti haqqında hesabatı tərtib etmək üçün mühasibat balansında əks olunmuş informasiyalardan istifadə edilir. Bu zaman əvvəlcə maliyyə hesabatının blank formasına uyğun olan forma yaradılır, sonra isə onun müvafiq xanalarında 2 ədəd başlıq sətrinə aid olan

informasiyalar, həmçinin də hesabat maddələrinin nömrə və adları klaviaturadan daxil edilir. Şəkil 6-da göründüyü kimi, burada yaradılmış Maliyyə vəziyyəti haqqında hesabatın cədvəl hissəsində 5 sütun və 9 sətirdə 45 elektron xana yerləşdirilmişdir ki, onlardan da yalnız 2 ədəd xana asılı, qalan 43 xana isə sərbəst xanalardır. Hesabat maddələrinin məbləğlərinin yerləşdirilməli olduğu asılı xanalarda əks etdiriləcək informasiyaların mühasibat balansından gətirilməsini təmin edən düsturlar qoyulur (*burada yalnız 1 xanada belə düstur qoyulmuşdur*). Kapitalın cəmi məbləğinin əks etdirildiyi xanada isə müvafiq informasiya müəllif tərəfindən qoyulmuş düstur vasitəsi ilə avtomat rejimdə hesablanır. Burada yaradılan elektron Maliyyə vəziyyəti haqqında hesabatın şablon forması bu tələblərə uyğun tərtib edilmişdir.

**"Şahvəlli" MMC-nin 01 fevral 2022-ci il tarixinə**
**Maliyyə vəziyyəti haqqında hesabatından çıxarış**
**("Kapital" bölməsi)**

**Ölçü vahidi: manat**

| Bölmə/ Maddə №-si | Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 3 | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | | 0 | |
| 31 | Emissiya gəliri | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | |
| 33 | Kapital ehtiyatları | | | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | | |
| | **CƏMİ KAPİTAL** | | 0 | |

**Şəkil 6. "Şahvəlli" MMC-nin 01 fevral 2022-ci il tarixinə Maliyyə vəziyyəti haqqında hesabatından çıxarış ("Kapital" bölməsi)**

*Müəlilf tərəfindən yaradılmış "Kapitalın rəqəmsal uçotu" modulundan çəkilmişdir.*

Yeddinci şablon Kapitalda dəyişikliklər haqqında hesabatın şablon formasıdır. Məlumdir ki, Kapitalda dəyişikliklər haqqında hesabatı tərtib etmək üçün kapitalın sintetik uçotunun əks olunduğu müvafiq ledcer hesablarının informasiyalarından istifadə edilir. Burada da əvvəlcə müvafiq maliyyə hesabatının blank formasına uyğun olan forma yaradılır, sonra isə onun müvafiq xanalarında başlıq hissəyə və hesabat maddələrinə aid olan xanalarda informasiyalar klaviaturadan daxil edilir. Elektron Kapitalda dəyişikliklər haqqında hesabatın şablon forması aşağıdakı şəkildə əks olunmuşdur (Bax: Şəkil 7):

**"Şahvəlli" MMC-nin 01 fevral 2022-ci il tarixinə Kapitalda dəyişikliklər haqqında hesabatı**
***(Əvvəlki ilə aid hissə ixtisar edilmiş formada)***

| | Uçot siyasəti və izahlı qeydlərin №-si | Ödənilmiş nizamnamə kapitalı | Emissiya gəliri | Geri alınmış kapital (səhmlər) | Kapital ehtiyatları | | | | | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yenidən qiymətləndirilmə üzrə ehtiyat | Məzənnə fərqləri üzrə ehtiyat | Qanunvericilik üzrə ehtiyat | Nizamnamə üzrə ehtiyat | Digər ehtiyatlar | | |
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | | 0 | | | | | | | | | |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | | 0 | | | | | | | | | |
| Hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq** | | 0 | | | | | | | | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | 0 | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | | |
| Sair məcmu gəlir | | | | | | | | | | | |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | 0 | | | | | | | | | |
| **Hesabat dövrünün sonuna qalıq** | | 0 | | | | | | | | | |

**Şəkil 7. "Şahvəlli" MMC-nin 01 fevral 2022-ci il tarixinə Kapitalda dəyişikliklər haqqında hesabatından çıxarış (Əvvəlki ilə aid hissə ixtisar edilmiş formada)**

*Müəllif tərəfindən yaradılmış "Kapitalın rəqəmsal uçotu" modulundan çəkilmişdir.*

Şəkil 7-də göründüyü kimi, burada yaradılmış Kapitalda dəyişikliklər haqqında hesabatın cədvəl hissəsində 12 sütun və 13 sətirdə 157 elektron xana yerləşdirilmişdir ki, onlardan da yalnız ödənilmiş nizamnamə kapitalina aid olan 6 ədəd xana asılı, qalan 151 xana isə sərbəst xanalardır. Hesabat maddələrinin məbləğlərinin yerləşdirilməli olduğu asılı xanalarda əks etdiriləcək informasiyaların müvafiq ledcer hesablarından gətirilməsini təmin edən düsturlar qoyulur (*burada yalnız ödənilmiş nizamnamə kapitalına aid olan sütunda düsturlar qoyulmuşdur*). Kapitalın cəmi məbləğinin əks etdirildiyi xanada isə müvafiq informasiya müəllif tərəfindən qoyulmuş düstur vasitəsi ilə avtomat rejimdə hesablanır. Burada yaradılan elektron Kapitalda dəyişikliklər haqqında hesabatın şablon forması bu tələblərə uyğun tərtib edilmişdir.

Qeyd edək ki, istər Maliyyə vəziyyəti haqqında hesabat olsun, istərsə də Kapitalda dəyişikliklər haqqında hesabat, burada verilmiş bu elektron hesabat formalarında yalnız kapitalın uçotu vasitəsi ilə formalaşan hissələr modula daxil edilərək, şərh edilmişdir. Burada nümayiş etdirilən modellərdən istifadə etməklə, müəssisənin mühasibat uçotunun bütövlükdə işlənməsini təmin edə bilən bir və ya bir neçə elektron mühasibat uçotu modulları yaradıla bilər. Onun həcminin çox böyük olacağı səbəbindən, belə bir layihənin bu tədqiqat işində bütövlükdə şərh edilməsi məqsədəuyğun hesab edilmir.

**Mühasibat uçotu informasiyalarının alqoritmik işlənməsi düsturları.** Yuxarıda göstərilən şablon formalarda kapitalın uçotu proseslərinin ardıcıl şəkildə yerinə yetirilməsi üçün modula daxil ediləcək informasiyaların mühasibat qaydasında avtomatik işlənməsi alqoritmlərini özündə ehtiva edən düsturlar müəyyən edilməli və onların hər biri şablon formaların müvafiq xanalarına yerləşdirilməlidir. Burada istifadə edilən düsturlar müxtəlif xarakterik xüsusiyyətlərə malik olurlar. Mühasibat uçotu məsələlərində ünvan tanıtmaqla köçürtmə düsturlarından və riyazi hesablama düsturlarından daha çox istifadə edilir. Ünvan tanıtmaqla köçürtmə düsturları hər hansı bir seçilmiş xanaya başqa bir ünvanda yerləşən xanada əks olunan informasiyanın heç bir dəyişiklik edilmədən köçürdülməsinə xidmət edən alqoritmi hərəkətə gətirir. Elektron mühasibat uçotu modullarının qurulmasında müxtəlif tipli ünvan tanıtmaqla köçürtmə düsturlarından istifadə edilə bilər. Bunlardan daha çox istifadə edilən düstur tipləri aşağıdakılardır:

1) informasiyaların bir Excel vərəqəsi daxilində yerləşən elektron yuvaların birindən digərinə köçürdülməsini təmin edən düsturlar;

2) informasiyaların eyni fayl daxilində olan başqa bir Excel vərəqəsindən köçürdülüb, digər vərəqədəki müəyyən edilmiş elektron xanaya gətirilməsini təmin edən düsturlar;

3) informasiyaların başqa Excel faylında yerləşən vərəqədən köçürdülüb, digər bir fayldakı müəyyən olunmuş elektron xanaya gətirilməsini təmin edən düsturlar.

Bu düsturların hər biri hər hansı bir uçot informasiyasının əks etdirilməsi üçün təyin edilmiş elektron xanaya həmin informasiyanın hansı ünvanda yerləşən elektron xanadan gətirilməli olduğunu əks etdirir. Bir Excel vərəqəsində yerləşən iki elektron xana arasında informasiyanın köçürülməsini təmin edən düsturun formatı belədir: "=D12". Bu düstur yazıldığı xanada onunla eyni vərəqədə olan "D12" ünvanında, yəni "D" sütunu ilə 12-ci sətrin kəsişməsində yerləşən xanada olan informasiyanın heç bir dəyişiklik edilmədən köçürdülüb, gətirilməsini təmin edir. İnformasiyaların eyni fayl daxilində olan başqa bir Excel vərəqəsindən köçürdülüb, digər vərəqədəki müəyyən edilmiş elektron xanaya gətirilməsini təmin edən düsturun formatı belədir: "='Mühasibat Balansı'!G8". Bu düstur yazıldığı xanada onunla eyni faylda olan "Mühasibat Balansı" adlandırılmış vərəqədəki "G8" ünvanında, yəni "G" sütunu ilə 8-ci sətrin kəsişməsində yerləşən xanada olan informasiyanın heç bir dəyişiklik edilmədən köçürdülüb, bu xanaya gətirilməsini təmin edir. Başqa Excel faylında yerləşən vərəqədən informasiyaların köçürdülüb, digər bir fayldakı müəyyən olunmuş elektron xanaya gətirilməsini təmin edən düsturun formatı belədir: "='[Kapitalın uçotu modulu-1.xlsx] Maliyyə vəziyyəti HH'!$D$10". Bu düstur yazıldığı xanada "Kapitalın uçotu modulu-1.xlsx" faylında olan "Maliyyə vəziyyəti HH" adlandırılmış vərəqədəki "D10" ünvanında, yəni "D" sütunu ilə 10-cu sətrin kəsişməsində yerləşən xanadakı informasiyanın heç bir dəyişiklik edilmədən köçürdülüb gətirilərək, əks etdirilməsini təmin edir.

Mühasibat uçotu məsələlərində istifadə edilən riyazi hesablama düsturları hər hansı bir seçilmiş xanaya başqa bir ünvanda yerləşən bir və ya bir neçə xanada əks olunan informasiyadan istifadə etməklə aparılan riyazi hesablamalardan alınmış informasiyaların əks etdirilməsinə xidmət edən alqoritmi hərəkətə gətirir. Bizim təqdim etdiyimiz elektron mühasibat uçotu modulunda cəmləmə düsturlarından istifadə edilmişdir ki, bunun da formatı belədir: “=СУММ(F7:F12)”. Bu düstur yazıldığı xanada həmin vərəqədəki “F” sütununda olan 7-ci sətirdən 12-ci sətirədək yerləşən 6 ədəd xanada əks etdirilmiş ədədlərin (bu halda məbləğlərin) cəminin yazılmasına xidmət edir.

Şablon formalarda informasiya mənbələrini əks etdirən düsturların yerləşdirilməsi nümunəsi aşağıdakı şəkildə öz əksini tapmışdır (Bax: Şəkil 8):

| **302№-li “Nizamnamə (nominal) kapitalının ödənilməmiş hissəsi” hesabı** | | | |
|---|---|---|---|
| **Debet** | | **Kredit** | |
| *Müxabirləşən hesabın №-si* | *Məbləğ, manatla* | *Müxabirləşən hesabın №-si* | *Məbləğ, manatla* |
| **01.01.2022 qalıq** | **0** | | |
| *='Memorial order'!F7* | *='Memorial order'!C7* | *='Memorial order'!D8* | *='Memorial order'!C8* |
| | | *='Memorial order'!D9* | *='Memorial order'!C9* |
| | | | |
| ***Dövriyyə*** | ***=D30+D31+D32*** | ***Dövriyyə*** | ***=F30+F31+F32*** |
| **01.02.2022 qalıq** | ***=D29+D33-F33*** | | |

*Kapitalın uçotu modul-1: Baş Kitab-hesab vərəqəsi*

**Şəkil 8. “Şahvəlli” MMC-nin 2022-ci ilin yanvar ayına aid hesab vərəqələrindəki elektron xanalarda informasiya mənbələrini əks etdirən düsturların yerləşdirilməsi nümunəsi**

*“Kapitalın rəqəmsal uçotu” modulu əsasında müəllf tərəfindən hazırlanmışdır.*

Şəkil 8-də 302№-li “Nizamnamə (nominal) kapitalının ödənilməmiş hissəsi” hesabının Baş Kitabda olan vərəqəsinin formalaşdırılması üçün müəllif tərəfindən tərtib edilmiş düsturlar görünür. Düsturların yerləşdirildiyi asılı xanalar yaşıl rənglə, digərləri isə rəngsiz verilmişdir. Göründüyü kimi, hesabın debet tərəfində 2 xanada, kredit tərəfində isə 4 xanada informasiyalar “Memorial order” adlı vərəqədən gətiriləcək, dövriyyə və qalıq məbləğləri isə hesablama yolu ilə tapılacaqdır. Belə ki, hesabın debet tərəfində bir icmal müxabirləşmədə müxabirləşən hesabın nömrəsi “='Memorial order'!F7” ünvanında, məbləğ isə “='Memorial order'!C7” ünvanında yerləşən xanalardan gətiriləcəkdir. Kredit tərəfində isə iki icmal müxabirləşmədə müxabirləşən hesabların nömrələri “='Memorial order'!D8” və “='Memorial order'!D9” ünvanlarında, məbləğlər isə “='Memorial order'!C8” və “='Memorial order'!C9” ünvanlarında yerləşən xanalardan gətiriləcək, debet və kredit dövriyyələrinin məbləğləri müvafiq olaraq, bu vərəqədəki “D” və “F” sütunlarında olan 30, 31 və 32-ci sətirlərə düşən xanalarda əks etdirilmiş məbləğlərin cəmi kimi hesablanacaqdır.

Burada göstərilən düsturlar müvafiq xanalarda yerləşdirildikdən sonra 302№-li “Nizamnamə (nominal) kapitalının ödənilməmiş hissəsi” hesabının Baş Kitabda olan vərəqəsi avtomatik rejimdə aşağıdakı şəkildə göründüyü kimi formalaşacaqdır (Bax: Şəkil 9):

Şəkil 9-da göründüyü kimi, 302№-li “Nizamnamə (nominal) kapitalının ödənilməmiş hissəsi” hesabında bundan əvvəldə haqqında bəhs edilən düsturlarla hərəkət edən alqoritmlərin fəaliyyəti nəticəsində debet tərəfdə 301№-li “Nizamnamə (nominal) kapitalı” hesabı ilə müxabirləşməklə

500000 manat məbləğində bir icmal təsərrüfat əməliyyatı, kredit tərəfdə isə 223№-li “Bank hesablaşma hesabları” hesabı ilə müxabirləşməklə 400000 manat, 111№-li “Torpaq, tikili və avadanlıqların dəyəri” hesabı ilə müxabirləşməklə 100000 manat məbləğində iki icmal təsərrüfat əməliyyatı yer almışdır. Hesabın debet və kredit dövriyyələrinin məbləğləri 500000 manat olmaqla bir-birinə bərabər olmuş, ilk və son qalıqlar isə mövcud olmamışdır.

**302№-li “Nizamnamə (nominal) kapitalının ödənilməmiş hissəsi” hesabı**

| Debet | | Kredit | |
|---|---|---|---|
| *Müxabirləşən hesabın №-si* | *Məbləğ, manatla* | *Müxabirləşən hesabın №-si* | *Məbləğ, manatla* |
| **01.01.2022 qalıq** | **0** | | |
| *301* | *500 000* | *223* | *400 000* |
| | | *111* | *100 000* |
| | | | |
| ***Dövriyyə*** | ***500 000*** | ***Dövriyyə*** | ***500 000*** |
| **01.02.2022 qalıq** | **0** | | |

*Kapitalın uçotu modul-1: Baş Kitab-hesab vərəqəsi*

**111№-li “Torpaq, tikili və avadanlıqların dəyəri” hesabı**

| Debet | | Kredit | |
|---|---|---|---|
| *Müxabirləşən hesabın №-si* | *Məbləğ, manatla* | *Müxabirləşən hesabın №-si* | *Məbləğ, manatla* |
| **01.01.2022 qalıq** | **0** | | |
| *302* | 100 000 | | |
| | | | |
| | | | |
| ***Dövriyyə*** | ***100 000*** | ***Dövriyyə*** | ***0*** |
| **01.02.2022 qalıq** | **100 000** | | |

*Kapitalın uçotu modul-1: Baş Kitab-hesab vərəqəsi*

**Şəkil 9. “Şahvəlli” MMC-nin 2022-ci ilin yanvar ayına aid elektron hesab vərəqələrinin mühasibat qaydasında formalaşdırılması nümunəsi**

*Müəllif tərəfindən yaradılmış “Kapitalın rəqəmsal uçotu” modulundan çəkilmişdir.*

### *Nəticə*

Beləliklə, burada haqqında bəhs edilən və bir sıra informasiya işləmə imkanları nümayiş etdirilən “Kapitalın rəqəmsal uçotu” modulu müəssisədə kapitalın bütün tərkib hissələri üzrə baş vermiş təsərrüfat əməliyyatlarının elektron mühasibat uçotu rejimində uçota alınmasını, əlaqədar uçot registrlərinin tam avtomatlaşdırılmış rejimdə işlənməsini və maliyyə hesabatı formalarının yüksək keyfiyyətlə tərtib edilməsini təmin edir. Bu rəqəmsal mühasibat uçotu modulu digərləri ilə inteqrasiya olunmaqla, müəssisədə rəqəmsal mühasibat uçotunun qurulmasında müvəffəqiyyətlə istifadə edilə bilər. Bunun üçün mühasibat uçotunun ayrı-ayrı sahələrinə aid bu tipli rəqəmsal modulların da işlənib hazırlanması və onların birgə istismar edilməsi məqsədəuyğun hesab edilir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. “Qanun” Nəşriyyatı. Bakı, 2016.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. 2019-cu il 1 fevral tarixinədək edilmiş dəyişikliklərlə. Bakı, “BESTPACK” Mətbəəsi, 2019-cu il, 276 s.
3. “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 30 sentyabr 2002-ci il. https://e-qanun.az/framework/1865
4. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu. 4 may 2018. 27 s.
5. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 29 iyun 2004. 14 s.
6. İbadoğlu LTD. Mühasibat işi (normativ sənədlər toplusu). “Mühasibin kitabxanası” seriyasından. Bakı, “Elm və həyat” Nəşriyyatı, 1998. 393 s.
7. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının 30 yanvar 2017-ci il tarixli Q-01№li Qərarı ilə təsdiq edilmiş və 18 oktyabr 2018-ci il tarixli Q-09№li Qərarı ilə dəyişiklik edilmişdir. 212 s.
8. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2021-ci il, 115 s. https://www.socar.az/az/page/maliyye-hesabatlari

9. ARDNŞ-nin 31 dekabr 2019-ci il tarixinə konsolidasiya edilmiş maliyyə hesabatları. http://www.socar.az/az/page/maliyye-hesabatlari
10. Məmmədova Ə.Ə., Məmmədov F.C. Makroiqtisadi göstəricilərin təhlilində Excel elektron cədvəli. Bakı, “Kooperasiya” Nəşriyyatı, 2002
11. Məmmədov S.M. Rəqəmsal maliyyə. Ali məktəblər üçün dərs vəsaiti. Bakı-Gəncə, “Elm və Təhsil” Nəşriyyatı, 2022
12. Mehdiyev V.M. Milli mühasibat uçotu standartları və kompüter mühasibatı: mahiyyəti, formalaşdırılması və tətbiq edilməsi problemləri. Bakı,“SABAH” nəşriyyatı, 2014. 228 s.
13. Salahov Ə.S. Mühasibat uçotunun kompüterləşdirilməsi. “Azmühasib” mühasibat uçotu proqramları paketinin tətbiqi xüsusiyyətləri. Dərs vəsaiti. Bakı,“Kooperasiya” nəşriyyatı, 2008. 236 s.
14. Salahov Ə.S., Mehdiyev V.M. Mühasibat uçotu. Dərslik.Bakı,“3 saylı Bakı mətbəəsi” ASC, 2016. 566 s.

***Вугар Мухтар оглы Мехтиев***
***Доцент кафедры “Бухгалтерский учет и аудит”***
***Азербайджанского Кооперативного Университета***
***кандидат экономических наук***
***vugarmehdiyev@yandex.ru***

**Вопросы организации цифрового учета капитала в коммерческих предприятиях**

***Резюме***

**Цель исследования** - охарактеризовать современное состояние программного обеспечения цифрового учета и улучшить его за счет использования возможностей обработки информации программы Microsoft Excel, исследовать вопросы учета капитала на коммерческих предприятиях в «Модуле цифрового учета капитала».

**Методика исследования** основана на соответствующих положениях действующих нормативно-правовых материалов по вопросам формирования и учета капитала в предприятиях коммерческого типа, состоит в изучении современного положения в данном разделе бухгалтерской науки и разработке методики цифрового учета.

Прикладная значимость исследования заключается в том, что существуют возможности применения описанного в статье «Модуля цифрового учета капитала» на коммерческих предприятиях, а их внедрение в реальную экономику создают условия для ведения цифрового учета на предприятиях по современным стандартам.

**Оригинальность и научная новизна исследования** связана с первой разработкой представленной в статье методики цифрового учета капитала в данном контексте и представлением научному сообществу нового модуля цифрового учета.

**Результаты исследования** – внедрение «Модуля цифрового учета капитала» на коммерческих предприятиях может стать реальным вкладом в оцифровку бухгалтерской и финансовой отчетности в целом. Создание модулей такого типа, соответствующих разным разделам бухгалтерской науки и их интеграция могут быть успешно использованы при налаживании цифрового учета на предприятии.

***Ключевые слова - коммерческие предприятия, цифровая бухгалтерия, капитал, программное обеспечение.***

***Mehdiyev Vugar Mukhtar oglu***
***Associate Professor of the "Accounting and Audit" Department of the ACU,***
***Candidate of Economic Sciences***
***vugarmehdiyev@yandex.ru***

**Issues of organization of digital accounting of capital in commercial enterprises**

***Summary***

**The purpose of the research** is to characterize the modern state of the digital accounting software and to improve it by using the information processing capabilities of the Microsoft Excel program, to investigate the issues of capital accounting in commercial enterprises in the "Capital digital accounting module" created by the author, and in this regard to show the ways of improvement of the relevant section of accounting.

**The methodology of the research** is based on the relevant provisions of the existing normative-legal materials on the formation and accounting of capital in commercial-type enterprises, it consists of examining the current situation in this section of accounting science and developing a digital accounting methodology of capital based on it.

**The application importance of the research** is that there are opportunities to apply the "Capital digital accounting module" described in the article in commercial enterprises, and their implementation in the real economy will create conditions for digital accounting in such enterprises according to modern standards.

**The originality and scientific novelty of the research** is related to the first time use of the methodology presented in the article on the digital accounting of capital in this context and the presentation of a new digital accounting module to the scientific community.

**The results of the study** – The implementation of the "Capital digital accounting module" in commercial enterprises can be a real contribution to the digitization of accounting and financial statements in general. The creation of modules of this type corresponding to different departments of accounting science and their integration can be successfully used in the establishment of digital accounting in the enterprise.

***Key words: commercial enterprises, digital accounting, capital, software.***

UOT 33.336.2/657

*Səadət Ramil qızı QULİYEVA*
*iqtisad üzrə fəlsəfə doktoru, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*E-mail: 13sada@mail.ru*

# BALANS MƏNFƏƏTİNİN TƏHLİLİ

***Xülasə***

Mənfəət hər bir subyektin xalis gəlirini təşkil etməklə satış qiyməti ilə maya dəyəri arasında olan fərqdir. Mənfəət bilavasitə məhsulun,iş və xidmətlərin səviyyəsindən, həcmindən və onların maya dəyərindən asılıdır. Lakin onu hər bir subyektin əvvəlcədən təminat verilmiş gəlir forması hesab etməz də olmaz. Çünki bir sıra obyektiv və subyektiv səbəblərə görə gəlirlər,həmçinin onun əsas hissəsi olan mənfəət müəyyən risklərin qurbanı ola bilər. Ən pis cəhət subyektlərin məcmu gəlirləri ilə məcmu xərcləri arasında fərqin məcmu xərcin xeyrinə olmasıdır. Bu halda isə mənfəətin səviyyəsi subyektlərin daxili maliyyə resurslarının mənbəyi rolunu oynaya bilmir və bunun nəticəsində isə iflasa uğrama təhlükəsini tezləşdirmiş olur.

**Tədqiqatın məqsədi -** Vergiqoymadan əvvəl mənfəətin (balans mənfəətinin) mütləq məbləğinin, təsisçilərin və səhmdarların gəlirlərinin artırılması üzrə təsərrüfat subyektlərinin potensial imkanını müəyyən etmək və müəssisənin maliyyə “sağlamlığının” dəqiq proqnozlaşdırılmasını tədqiq etməkdir.

**Tədqiqatın metodologiyası -** müqayisəli təhlil, nəzəri yanaşma

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Aparılmış araşdırma və tədqiqatlar, əldə olunmuş nəzəri və praktiki nəticələr müxtəlif mülkiyyət növlərinə mənsub təsərrüfat subyektlərində mənfəət və rentabelliyin təhlili metodikasının təşkilinə, onun nəzəri, metodoloji, konseptual və metodiki problemlərinin sistemli şəkildə həll olunmasına və müəssisənin maliyyə nəticələrinin yaxşılaşdırılması ehtiyatlarının aşkara çıxarılmasına əlverişli şərait yaradır.

**Tədqiqatın nəticələri -** Aparılan tədqiqat nəticəsində təsərrüfat suybektlərinin istehsal və kommesiya fəaliyyətinin son maliyyə nəticəsi hesab olunan balans mənfəətinin formalaşmasının nəzəri, metodoloji, konseptual və metodiki problemləri sistemli şəkildə nəzərdən keçirilir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** Tədqiqatda nəzərdən keçirilən məsələlər sayəsində balans mənfəətinin düzgün qurulması məsələsi tədqiq olunmuş və balans mənfəətinə mənfi təsir göstərən amillər araşdırılmışdır.

***Açar sözlər: mənfəət, balans mənfəəti, müəssisənin ümumi mənfəəti, mənfəət planı, məhsul, iş və xidmətlərdən əldə olunan mənfəət.***

## *Giriş*

Hər bir subyektin təsərrüfat-maliyyə fəaliyyəti nəticələrinin ümumiləşdirilmiş göstəricisi mənfəətdir. O, müəyyən vaxt (ay, gün, il) ərzində müəssisədə istifadədə olan əmək, material, maliyyə resurslarından, əsas vəsait obyektlərindən, torpaqlardan, digər maddi və qeyri-maddi ehtiyatlardan nə dərəcədə səmərəli istifadə olunmasını xarakterizə edir. Mənfəət əmək kollektivinin izafi əməyi ilə yaradılan xalis gəlirin reallaşdırılan hissəsidir. Belə bir vəziyyətdə isə mənfəətin səviyyəsinin artırılması əmək adamlarının maddi cəhətdən maraqlandırılması prinsipini pozmadan,maddi və maliyyə ehtiyatlarından daha da səmərəli, qənaətlə istifadə olunmasını tələb edir. «Müəssisələr haqqında» Azərbaycan Respublikasının Qanununda deyilir ki, «Büdcəyə vergiləri və digər ödənişləri verdikdən sonra xalis mənfəət müəssisənin tam sərəncamına daxil olur və o, xalis mənfəətdən müstəqil istifadə edir». [5]

**Mənfəətin müəssisə, idarə və təşkilatlarda əhəmiyyəti və rolu**

Müəssisənin mənfəəti artdıqca artıq müəssisə işçilərə maddi yardımların göstərilməsinə, onların iş və sosial şəraitinin yaxşılaşdırılmasına,ixtisaslarının yüksəldilməsinə daha çox vəsait yönəltmək imkanı yaratmış olur.

Dövlət büdcəsi gəlirinin bir hissəsini mənfəət vergisi təşkil edir. Mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq, Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatların mənfəəti artdıqca,mənfəət vergisi ödəyicilərindən büdcəyə daxilolmalar da artır. [1]

Müəssisə mənfəətlə işlədikdə və rentabellik səviyyəsi artdıqda onun dövriyyə vəsaiti,xüsusilə də pul vəsaiti çoxalır. Belə olduğu halda müəssisə malsatan və podratçılara, büdcə və sosial sığorta orqanlarına, fəhlə və qulluqçulara, elektrik enerjisi, su, rabitə, təmir və s. xidmətlər üçün müxtəlif müəssisə və təşkilatlara, banklara, təsisçilərə, yuxarı orqanlara və digər kreditorlara olan borclarını vaxtında ödəmək məcburiyyətində olur ki, bu da onun normal iş fəaliyyətini təmin edir.

Müəssisənin mənfəətinin ən önəmli payını məhsulun (iş və xidmətlərin)reallaşdırılmasından əldə olunan mənfəət təşkil edir. Reallaşdırılan məhsulun satış qiyməti ilə tam maya dəyəri arasında müsbət fərq onun reallaşdırılmasından alınan mənfəətdir.

**Məhsul, iş və xidmətlərin dövlət tənzimlənməsi**

Müasir şəraitdə məhsul, iş və xidmətlərin satış qiymətləri dövlət tərəfindən tənzimlənmir, bazarın tələb və təklifinin fəaliyyət dairəsindən asılı olaraq formalaşır. Ona görə də məhsulun keyfiyyətinə xələl gətirmədən onun maya dəyərindən aşağı salınması, mənfəətin çoxaldılması üçün başlıca ehtiyat mənbəyidir. Satış qiymətlərindən fərqli olaraq, məhsulun maya dəyəri göstəriciləri müəssisə tərəfindən idarə olunan göstəricilərə aiddir. Qiymətlərin sərbəstləşdirilməsi məhsulun,iş və xidmətlərin keyfiyyətini aşağı salmadan onların maya dəyərinin aşağı salınmasında müəssisələrin maddi marağını artırır. Ona görə də məhsulun qiymətinin aşağı həddi həmişə istehsalçının nəzarəti altında olur. İstehsal müəssisələri bu həddi müntəzəm olaraq qorumağa çalışır. Yəni, istehsalçılar qiymətin maya dəyəri ilə müəssisənin mənfəətinin cəmindən yuxarı olması üçün cəhd göstərirlər. Lakin qiymət və maya dəyəri göstəricilərindən ancaq maya dəyəri göstəriciləri müəssisə tərəfindən idarə edildiyinə görə, o, istehsal edilən məhsulların, görülən iş və xidmətlərin maya dəyərini aşağı salmaq üçün daha çox səylə çalışır.Onu da qeyd etmək lazımdır ki, cəmiyyətin inkişafının bütün mərhələlərində, qiymətlərin formalaşdırılmasında maya dəyəri göstəricisi əsas olmuşdur.Maya dəyəri aşağı düşdükcə, məhsul, iş və xidmətlərin satış qiymətlərinin də aşağı salınması mümkün olur. Deməli, istehsal müəssisələrində satışdan alınan mənfəəti çoxaltmaq məqsədi ilə onların maya dəyərinin aşağı salınmasını, qiymətlərin ucuzlaşdırılmasını təmin edən əsas ehtiyat mənbəyidir. Qiymətlərin aşağı salınması isə bütün ölkə əhalisinin maddi marağını təmin edən problemlərdən biridir.

Danışılanlardan aydın olur ki, istehsal müəssisələrində mənfəətin çoxaldılması, nəinki əmək kollektivlərinin, eyni zamanda dövlətin, onlarla qarşılıqlı əlaqədə olan müəssisə, idarə və təşkilatların, habelə, ölkə əhalisinin maddi marağını təmin edən iqtisadi, siyasi və təşkilati məsələlərdən biridir. Buna görə də istehsal miqyasları daim azalan, az mənfəətlə və ya mənfəətsiz işləyən, hesablaşma öhdəliklərini yerinə yetirdiyinə görə ləğv edilən müəssisələrin sayı artan indiki şəraitdə, mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq, hər bir müəssisədə mənfəət və ondan istifadə göstəricilərini təhlil etməklə, mənfəətin çoxaldılması və ondan istifadənin yaxşılaşdırılmasını təmin edən təsərrüfatdaxili ehtiyatların aşkarlanması xüsusi əhəmiyyətə malikdir.

**Mənfəət planının əhəmiyyəti**

Mənfəət planının yerinə yetirilməsini, müxtəlif amillərin mənfəətə təsirini, onun strukturunu və dinamikasını qiymətləndirmək üçün planlaşdırma, uçot, hesabat və təhlil işlərində istifadə olunan və mənfəəti xarakterizə edən göstəricilər sistemini bilmək vacibdir. Hazırda istifadə edilən qaydaya görə idarəetmə işlərində, planlaşdırma və proqnozlaşdırma, mühasibat uçotu, audit, hesabat və təhlil işlərində balans mənfəəti, məhsul (iş və xidmətlər) satışından əldə olunan mənfəət, sair satışdan əldə olunan mənfəət, satışdan kənar əməliyyatlardan gəlirlər və xərclər (satışdankənar nəticələr), vergi tutulan mənfəət (vergiyə cəlb olunan mənfəət), güzəştli mənfəət (mənfəət vergisi hesablanarkən hesaba alınmayan mənfəət), müəssisənin sərəncamında qalan mənfəət, xalis mənfəət və reinvestisiya edilmiş mənfəət göstəricilərindən istifadə olunur.

Mənfəəti xarakterizə edən göstəricilər sistemində balans mənfəəti xüsusi yer tutur. Bu göstərici müəssisənin istehsal-maliyyə və idarəetmə fəaliyyətinin nəticələrini özündə əks etdirir. Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş “Müəssisənin illik hesabatları və onların tərtibi qaydaları”nda göstərilir:

«Balans mənfəəti (zərər) mühasibat uçotu əsasında təsərrüfat əməliyyatlarının və bu qanuna uyğun olaraq balans maddələrinin qiymətləndirilməsinin sonuncu maliyyə nəticəsi kimi özündə müəssisənin əsas vəsaitlərinin və başqa əmlaklarının, məhsullarının (işlərinin, xidmətlərinin) satışından olan mənfəəti (zərəri), həmçinin qeyri-satış əməliyyatlarından gələn gəlirləri (bu əməliyyatlar üzrə xərc məbləğləri çıxılmaqla) cəmləşdirir».

Məhsulların (iş və xidmətlərin), malların satışından əldə olunan mənfəət (zərər) Azərbaycan Respublikasının Qanunvericiliyi ilə müəyyən edilmiş vergilər və digər məcburi ödənişlər nəzərə alınmadan qüvvədə olan qiymətlərlə məhsulların (iş və xidmətlərin) satışından gələn gəlirlə onların istehsalına və satışına çəkilən xərclər, başqa sözlə desək reallaşdırılan məhsulun (iş və xidmətlərin) tam maya dəyəri arasındakı fərq kimi müəyyənləşdirilir. Bu mənfəət göstəricisi müəssisənin məhsul istehsalı və satışı fəaliyyətinin nəticələrini daha da dəqiq qiymətləndirməyə imkan verir və balans mənfəətinin tərkibində əsas yer tutur.

Balans mənfəəti hesablanan zaman hesaba alınan satışdan kənar əməliyyatlardan əldə olunan gəlirlər və xərclər, başqa sözlə desək,satışdankənar nəticələr, alınmış və ödənilmiş peniya, cərimə və dəbbələmə məbləğləri, əmanətlər və qiymətli kağızlar üzrə gəlirlər, digər iqtisadi sanksiyalar üzrə alınan gəlirlər (qanunvericiliyə müvafiq olaraq büdcəyə və büdcədənkənar fondlara ödəmələr müstəsna olmaqla), müəssisənin hesabına olan vəsaitlərin yekunu üzrə alınmış faiz məbləğləri, valyuta hesabları və xarici valyuta əməliyyatları üzrə məzənnə (kurs) fərqləri, hesabat ilində aşkara çıxarılmış keçmiş illərin mənfəəti və zərərləri, təbii fəlakətlərdən dəyən zərərlər,debitor borclarının silinməsindən itkilər, əvvəllər ümidsiz borclar kimi silinmiş borcların ödənilməsi üzrə gəlirlər daxil edilir.

Qüvvədə olan qaydaya görə müəssisəyə aid olan səhmlər,istiqrazlar və digər qiymətli kağızlar üzrə əldə edilən gəlirlərin (dividentlərin; faizlərin) ümumi məbləği və birgə müəssisələrin fəaliyyətində iştirakına görə alınan gəlirlər satışdankənar gəlirlərə aid olmasına baxmayaraq «Maliyyə nəticələri və onların istifadəsi haqqında» 2№-li hesabat formasında ayrıca sətirdə əks etdirilir. Bundan başqa, həmin hesabatda xarici valyuta əməliyyatları üzrə məzənnə (kurs) fərqi də ayrıca sətirdə göstərilir.[9]

Müasir şəraitdə müəssisə dövlətin himayəsində yox, əksinə, dövlət müəssisənin himayəsində saxlanılır. Buna görə də dövlət istehsal müəssisələrinin sürətli və geniş iqtisadi və sosial inkişafının qayğısına qalır və qüvvədə olan qanuna uyğun mənfəətdən vergi üzrə güzəştlər nəzərdə tutulur. Müəssisənin mənfəət vergisi hesablanarkən vergi tutulan mənfəət məbləği istehsal təyinatlı kapital qoyuluşlarının maliyyələşdirilməsi və bu məqsədlər üçün alınmış və istifadə olunmuş bank kreditlərinin ödənilməsinə, elmi-axtarış və təcrübə-konstruktor işlərinin aparılmasına, təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsinə, səhiyyə, təhsil, mədəniyyət və idman təyinatlı obyekt və müəssisələrin, qocalar və əlillər evlərinin, məktəbəqədər uşaq müəssisələrinin və xeyriyyə işlərinə çəkilən xərclər qədər azaldılır. Bununla bərabər əvvəlki ildə zərərlə işləmiş müəssisələr üçün sonrakı beş il ərzində zərərin ödənilməsinə yönəldilmiş mənfəət hissəsi vergi ödənişindən azad edilir. Qeyd etdiyimiz kimi arqumentlər iqtisadi təhlil işlərində vergiyə cəlb olunan (yəni vergi tutulan), vergiyə cəlb olunmayan (və ya güzəşt nəzərdə tutulan) və müəssisənin sərəncamında qalan mənfəətin ayrı-ayrılıqda tədqiqini mütləq edir.

Vergiyə cəlb olunan, yəni vergi hesablanan mənfəətdən vergi və digər ödəmələri (mənfəət hesabına) çıxdıqdan sonra müəssisənin xalis mənfəəti alınır.

Xalis mənfəətdən ödənilısi dividentlər çıxıldıqda,reinvestisiya edilmiş mənfəət kütləsi alınır.

Mənfəətin formalaşdırılmasının təhlili zamanı balans mənfəətinin təhlilinə, mənfəətdən istifadənin təhlili zamanı isə vergiyə cəlb olunan və olunmayan (güzəştli vergi hesablanan), müəssisənin sərəncamında qalan mənfəətin təhlilinə geniş yer verilir.

Müasir şəraitdə iqtisadiyyatın idarə olunmasında dövlətin tənzimləyici funksiyalarının azalması müəssisələrin məsuliyyətinin və maddi marağının artmasına səbəb olmuşdur. Mülkiyyət formasından, tabeçiliyindən asılı olmayaraq müəssisə,idarə və təşkilatların iqtisadi-sosial inkişafı onların özləri tərəfindən tənzimlənir. İqtisadi-sosial inkişafı təmin edən bütün problemlərin həllində mənfəət əsas rol oynayır. Bu səbəbdən də mənfəətin çoxaldılması istehsal müəssisələrində idarə etmənin qarşısında duran vacib məsələdir. İndi mənfəət göstəricisi və onun artımı dövlət orqanları tərəfindən planlaşdırılmır. Mənfəətin çoxaldılmasında dövlətin maddi marağı olmasına baxmayaraq, o, mənfəəti idarə etmir, çoxaldılması ehtiyatlarının səfərbər edilməsində iştirak etmir,ancaq vergiyə cəlb olunan,vergi alınmayan və güzəştli vergi alınan mənfəət göstəricilərinin hesablanması və hesabatlarda düzgün əks etdirilməsinə,mənfəətdə verginin ödənilməsinə nəzarət funksiyalarını icra edir. Deməli, istənilən təsərrüfat strukturunda mənfəətin çoxaldılması sahibkarların əsas məqsədidir.

İstehsalın iqtisadi və sosial inkişafı,investisiya və maliyyə qoyuluşlarının genişləndirilməsi sahəsində qarşıda duran vəzifələrin yerinə yetirilməsi ilk növbədə mənfəətin çoxaldılmasını təmin edən təsərrüfatdaxili ehtiyatların aşkar edilməsini və onların axtarılıb tapılmasını tələb edir. Buna əsasən də mənfəətin artırılması ehtiyatlarının təhlili idarəetmə funksiyalarını icra edən vəzifəli şəxslərin qarşısında duran əsas təxirəsalınmaz vəfizələrindən biridir.

Mənfəətin artırılması ehtiyatlarının aşkar edilməsi əmtəəlik məhsul,iş və xidmətlər istehsalının çoxaldılması, onların istehsalı və reallaşdırılmasına məsrəflərin azaldılması,alıcılara təklif olunan məhsulların (iş və xidmətlərin) keyfiyyətinin yüksəldilməsi, satışdankənar gəlirlərin artırılması və xərclərin azaldılması imkanlarının öyrənilməsi əsas və vacibdir. Analitik hesablamalar aparmaqla mənfəətin artırılması imkanlarının aşkara çıxarılması təhlilin ilkin mərhələsidir. Sonrakı mərhələdə bu ehtiyatlardan istifadəni təmin edən konkret hesablamalarla əsaslandırılmış mühəndis-texniki, texnoloji, iqtisadi, təşkilati və sosial tədbirlər planı hazırlanır. Məhsul, iş və xidmətlər istehsalının çoxaldılması istehsal üçün lazım olan material və əmək məsrəflərinin çoxaldılmasını tələb edir. Maddi və əmək məsrəflərinin artımı məhsul istehsalının artmasına,keyfiyyətinin yüksəldilməsinə təsir göstərir. Maddi ehtiyatların qıtlığı daim artan və bu səbəbdən də onların qiymətləri daim yüksələn, digər tərəfdən də istehsalın texniki səviyyəsinin yüksəlməsi ilə əlaqədar olaraq amortizasiya xərcləri, mürəkkəb texnoloji prosesləri icra edən fəhlə və qulluqçuların ixtisas səviyyəsinin və peşə vərdişlərinin artması ilə əlaqədar olaraq əməkhaqqı xərcləri, kənar müəssisələrin, idarə və təşkilatların gördükləri xidmətləri üçün tariflər mütəmadi artan şəraitdə mənfəətin çoxaldılması ehtiyatlarını ilk növbədə istehsalın genişləndirilməsində,məhsulun istehsalı və reallaşdırılması ilə əlaqədar xərclərin, yəni onun maya dəyərinin aşağı salınmasında axtarıb tələb olunur.

Sənaye müəssisə və birliklərinin mənfəət planlarının yerinə yetirilməsi və onun bölüşdürülməsinin iqtisadi təhlili aşağıdakı ardıcıllıqla aparılır:

1. Müəssisə tərəfindən mənfəət planının yerinə yetirilmə səviyyəsini müəyyən etmək;
2. Mənfəətin artım tempi, dinamikası və əmələgəlmə mənbələrini öyrənmək;
3. Mənfəət planının yerinə yetirilməsinə təsir edən amillərin müsbət və ya mənfi təsirini hesablamaq;
4. Plan daxilində mənfəətin bölüşdürülməsi üçün tərtib edilmiş planın düzgünlüyü;
5. Plan və plandan artıq mənfəətin bölüşdürülməsi zamanı aparılmış əməliyyatların məzmununu aydınlaşdırmaq və s.

Mənfəətin bütün bu göstəricilər üzrə təhlili ücün əsas obyekt məhsul satışının həcmi ,əmtəəlik məhsul satışının nəticəsi, satışdan kənar (planlaşdırılmayan) gəlir və itkilər, ayrı-ayrı satış növlərindən daxilolmalar, sair satışdan əldə olunan mənfəət hesab olunur. Mənfəət planının yerinə yetirilməsi və bölüşdürülməsi üzrə təhlilin qarşısında duran əsas vəzifələrdən biri də mənfəət planının yerinə yetirilməsinə mənfi təsir edən amilləri aşkara çıxarmaq, planlı zərərlə işləyən müəssisələrdə zərərlərin əmələ gəlməsi səbəblərini aydınlaşdırmaq, mənfəətin bölüşdürülməsində yol verilmiş səhvləri aşkar etmək və göstərilən bütün qeyri-normal vəziyyəti aradan qaldırmaqla

bərabər müəssisə üzrə bütövlükdə mənfəətin daha da artırılması üçün ehtiyat mənbələrini müəyyən etməkdən ibarətdir. Mənfəət və rentabellik planının yerinə yetirilməsinin təhlil edilməsində aşağıdakı informasiya mənbələrindən istifadə edilir.

- 1N-li "Əsas istehsalat fəaliyyəti haqqında balans forması".
- 2N-li "Maliyyə nəticələri və onlardan istifadə haqqında hesabat".

İllik hesabatın göstərilən bu formalarından başqa təhlil işində statistika hesabatı formalarından da geniş istifadə olunur. Sənaye müəssisələrinin mənfəət planının yerinə yetirilməsi və onun bölüşdürülməsi üzrə təhlilin daha dəqiqləşdirilməsi üçün istifadə olunan mənbələrə aşağıdakı aylıq uçot sənədlərini də aid etmək olar. 601N-li (46) "Satış" hesabı üzrə mühasibat qeydləri, 801N-li (80) "Mənfəət və zərərlər" hesabının yekunu,yüklənmiş malların qrafiki, sex hesabatları, büdcə ilə hesablaşmalar, hazır məhsulların istehsaldan anbara göndərilməsi və onların anbardakı qalığı haqqında məlumatlar və s. İcmal sənədlər.

Müəssisənin ümumi mənfəət məbləği balans mənfəəti göstəricisi ilə xarakterizə olunur. Balans mənfəətinin, o cümlədən məhsul satışından əldə edilən mənfəət planının təhlilinə planın real olmasının öyrənilməsi ilə başlanılır. Müəssisələrin balans mənfəətinin əsasını yəni 97-98%-ni məhsul satışından əldə edilən mənfəət təşkil edir. Məhsul satışından mənfəət isə bir qayda olaraq satışdan daxil olan ümumi məbləğdən satılmış məhsulun tam maya dəyəri (əlavə dəyər vergisiz) çıxılmaqla müəyyən edilir. Ona görə müəssisənin mənfəətinin təhlili prosesində məhsul satışından mənfəətin təhlilinə, bu mənbədən olan mənfəətə təsir edən amillərin təsir dərəcəsinin öyrənilməsinə xüsusi fikir verilməlidir. Əmtəəlik məhsul satışından mənfəətə aşağıdakı 5 amil təsir göstərir. Bu amillərin təsir dərəcəsi bir çox hallarda kəmiyyət göstəricilərindən keyfiyyət göstəricilərinə keçməklə təhlil edilir və qiymətləndirilir:

1. Əmtəəlik məhsul satışı həcminin dəyişilməsi;
2. İstehsal maya dəyərinin dəyişilməsi;
3. Qeyri-istehsal xərclərinin dəyişilməsi;
4. Topdansatış qiymətinin dəyişilməsi;
5. Məhsulun quruluşu və çeşidlərinin dəyişilməsi.

Mənfəət planının yerinə yetirilməsinin təhlili prosesində təkrarlamaya yol verməmək üçün planın yerinə yetirilməsinə təsir edən amillər müəyyən ardıcıllıqla hesablanmalıdır.

Məsələn, mənfəət planının yerinə yetirilməsinə məhsul sartışı həcminin dəyişilməsinin təsirini maya dəyərinin, qiymət amilinin və məhsulun quruluşu və çeşidlərinin dəyişilməsinin təsirindən əvvəl hesablamaq əlverişlidir. Çünki, bizə məhsulun maya dəyərinin təsirini hesablayarkən məhsul satışı həcminin dəyişməsinin mənfəətə nə dərəcədə təsir etdiyini bilmək lazımdır. Sənaye müəssisələrində ümumi qaydaya görə məhsul satışından daxil olan məbləğlər müvafiq hesabatlarda müəssisənin topdansatış qiymətilə əks etdirilir. Ona görə də müəssisə üzrə mənfəət məbləğini müəyyən edərkən məhsul satışından daxil olan məbləğdən məhsulun tam maya dəyərini(istehsal maya dəyəri və qeyri-istehsal xərcləri) çıxmaq lazımdır.

### *Nəticə*

Mənfəət müəssisənin təsərrüfat fəaliyyətinin nəticəsidir və bununla bərabər məhsulun istehsalına və satışına istifadə olunan xərclərin, hansı ki məhsulun,iş və xidmətlərin satışından əldə olunan məbləği arasında yaranan müsbət saldo kimi müəyyən edilir. Mənfəət firma,idarə və təşkilatların səmərəlilik kriteriyası və ya göstəricisidir. Hansı müəssisədə mənfəət varsa deməli həmin müəssisənin rentabellik səviyyəsi yüksəkdir. Beləliklə, burdan belə bir nəticəyə gəlmək olar ki, mənfəətsiz müəssisə inkişaf etmiş və qabaqcıl müəssisələrlə rəqabətə girə bilməz və nəticədə sahibkar da qazanc əldə etmiş olmayacaq.

### ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi.
2. Aydın Kərimov – "Mühasibat uçotu.Vergilər" (dərslik), 2014.

3. Алексеева Г.Н “Теория бухгалтерского учета” (учебное пособие), 2014.
4. Qəzənfər Əli oğlu Abbasov –“Mühasibat uçotu” (dərslik), Bakı, 2015.
5. “Müəssisələr haqqında” Azərbaycan Respublikasının Qanunu.
6. Telman Hüseynov –“Müəssisənin iqtisadiyyatı” (dərslik).
7. Усикова Е.Н. “Бухгалтерское дело”, 2014.
8. Xankişiyev Bəybala Aslan oğlu, Əliyev Şahrza Hacı oğlu. “Büdcə təşkilatlarında uçot və hesabat”, 2013.
9. https://muhasibat.wordpress.com/movzu-vii-maliyy%C9%99-n%C9%99tic%C9%99l%C9%99rinin-v%C9%99-onun-istifad%C9%99sinin-ucotu/
10. https://unec.edu.az/application/uploads/2015/05/.pdf
11. https://www.muhasib.az/article.php?cat=2&n=901
12. http://unec.edu.az/application/uploads/2016/03/ pdf

***Саадат Рамиль Гулиева***
***доктор философии по экономике***
***Азербайджанская Академия Труда и Социальных Отношений***
***13sada@mail.ru***

## Анализ балансовой прибыли

***Резюме***

Прибыль - это разница между ценой реализации и себестоимостью, составляющая чистый доход каждого субъекта. Прибыль напрямую зависит от уровня, объема и стоимости продукции, работ и услуг, однако не может считаться формой гарантированного дохода для каждого субъекта. Потому что доход в силу ряда объективных и субъективных причин, и прибыль, составляющая его основную часть, могут быть подвержены определенным рискам. Отрицательным моментом является то, что разница между общим доходом и общими расходами субъектов выступает в пользу полной себестоимости. В этом случае уровень прибыли не может играть роль источника внутренних финансовых ресурсов субъектов и, как следствие, ускоряет риск банкротства.

***Ключевые слова: прибыль, балансовая прибыль, общая прибыль предприятия, плановая прибыль, прибыль сферы услуг.***

***Saadat Ramil Guliyeva***
***PhD in Economics***
***Azerbaijan Academy of Labor and Social Relations***
***13sada@mail.ru***

## Balance report analysis

***Summary***

Profit is the difference between the selling price and the cost price, making up the net income of each subject. Profit depends directly on the level, volume and cost of products, work and services. However, it cannot be considered a form of guaranteed income for each subject. Because a income for a number of objective and subjective reasons, and profit, which is its main part, can be a victim of certain risks. The worst thing is that the difference between the total income and total expenses of the subjects is in favor of the total cost. In this case, the level of profit cannot play the role of the source of internal financial resources of the subjects and as a result, it accelerates the risk of bankruptcy.

***Key words: profit, balance sheet profit, total profit of the enterprise, profit plan, products, profit from business and services.***

UOT 338.2

*Rəşad Arzuman oğlu MUSTAFAYEV*
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*
*E-mail: resad_320_m@mail.ru*

# DÖVLƏTİN FİSKAL SİYASƏTİNİN EFFEKTİVLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

*Xülasə*

**Tədqiqatın məqsədi** - Vergi siyasətinin əsas məqsədi bir çox ictimai malları vergilərin xüsusiyyətlərindən və funksiyalarından ayırmaq və büdcə vasitəsi ilə büdcəyə ayırmaqdır. Əsas məqsəd vergi ödəyicilərinə vergilərin yığılması üçün hüquqi çərçivə təqdim etmək və vergitutmanın təsirində olan iqtisadi əlaqələrin hərtərəfli qiymətləndirilməsini təmin etməkdir.

**Tədqiqatın metodologiyası -** Fiskal sistemin səmərəliliyinin qiymətləndirilməsi və onun optimallaşdırılması dövlətin iqtisadi siyasətinin prioritetlərindən hesab olunur. Bu baxımdan fiskal siyasətin səmərəliliyinin qiymətləndirilməsində istehsal həcmi ilə vergi daxilolmaları arasındakı asılılığa xüsusi diqqət yetirilməsi vacibdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Ayrımçı olmayan bir vergi siyasətini tətbiq edərək, iqtisadiyyatın vergi yükü yaradılır. Vergi yükü vergi mexanizmlərinin tətbiqi nəticəsində yaranan ümumi daxili məhsulda vergi ödəyicisinin payını təşkil edir. Vergitutma mexanizmlərinin tətbiqi hüquqi və ya fiziki şəxslərin gəlir hissəsinin vergilər formasında büdcəyə köçürülməsini müəyyən edir.

**Tədqiqatın nəticələri -** Beləliklə, fiskal siyasətin effektivliyinin dövlətin sosial-iqtisadi maraqları kontekstində qiymətləndirilməsinə konseptual yanaşmalar fiskal siyasətin səmərəliliyinin və makroiqtisadi səmərəliliyin qiymətləndirilməsini ayırmağa və vergi dərəcələri müəyyən edilərkən təklif olunan parametrləri rəhbər tutmağa imkan verir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** Vergi siyasətinin həyata keçirilməsi müvafiq qanunvericiliyin və normativ qaydaların qəbul edilməsi yolu ilə həyata keçirilir. İqtisadi cəhətdən təsdiqlənmiş vergi siyasəti vergitutma sistemi vasitəsilə vəsaitin toplanmasını optimallaşdırmağa yönəlib. Əsas məqsəd vergi ödəyicilərinə vergilərin yığılması üçün hüquqi çərçivə təqdim etmək və vergitutmanın təsirində olan iqtisadi əlaqələrin hərtərəfli qiymətləndirilməsini təmin etməkdir. Vergi yükü dövlətin həyata keçirdiyi vergi siyasətinin vacib nəticəsi kimi ictimai həyatda vergilərin rolunu xarakterizə edən və ümumi vergi daxilolmalarının ÜDM-ə nisbəti formasında ifadə olunur. Uzunmüddətli dövr üçün əldə edilmiş iqtisadi artım vergi daxilolmalarının həcmini artırır. Qısamüddətli dövrdə isə vergilərin azaldılması birmənalı olaraq məcmu tələbin artmasına və büdcəyə vergi daxilolmalarının azalmasına səbəb olur. Belə ki, fiskal siyasətlə məcmu təklif arasındakı səbəb-nəticə əlaqəsi yalnız uzunmüddətli dövrdə səmərə verir.

***Açar sözlər: fiskal siyasət, tənzimləmə, səmərə, qiymətləndirmə, optimallaşdırma, modelləşdirmə.***

## *Giriş*

İqtisadiyyatın müxtəlif sferalarında subyektlərin işgüzar fəallığının artmasını şərtləndirən əsas amillərdən biri dövlətin həyata keçirdiyi səmərəli fiskal siyasətdir. Təcrübədə fiskal siyasətin effektivliyi müxtəlif mövqelərdən, o cümlədən subyektlər və dövlət baxımından qiymətləndirilir. Hüquqi və fiziki şəxslərin mövqeyindən dövlətin fiskal siyasətinin səmərəliliyinin qiymətləndirilməsi o qədər də aktuallıq kəsb etmir, çünki iqtisadi subyektləri maraqlandıran əsas məsələlərdən biri vergidən azad olunma və ya müxtəlif vergi güzəştlərinin tətbiqidir. Fiskal siyasətin dövlət nöqteyi-nəzərindən qiymətləndirilməsində aşağıdakı istiqamətlərin önə çəkilməsi vacib hesab edilir: fiskal siyasətin səmərəliliyinin iqtisadi sistemin istehsal fəaliyyətinə təsiri və dövlət büdcəsinin gəlirlərinin qiymətləndirilməsi [2, s.14]. Bir qayda olaraq, bu iki qiymətləndirmə ziddiyyət təşkil edir və ikinci meyar baxımından effektiv olan fiskal siyasət birinci meyar baxımından qeyri-səmərəli ola bilər. Bundan əlavə, bu meyarların hər biri çərçivəsində də fiskal siyasət qeyri-müəy-

yən nəticələr verə bilər, yəni proseslərin inkişafında dalğalanmalar müşahidə oluna bilər.

Fiskal sistemin səmərəliliyi qiymətləndirilərkən diqqəti cəlb edən məqamlardan biri istehsal həcminin və vergi daxilolmalarının vergi yükündən qeyri-xətti asılılığı məsələsidir. Dövlət tərəfindən tətbiq olunan vergi yükünün artması fiskal təzyiqlə nəticələndiyindən müəyyən neqativ hallara gətirib çıxara bilər: iqtisadiyyatın müxtəlif sferalarında sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılması; daha çov xərc tutumlu fəaliyyət sahələrində durğunluğun yaranması; vergi təzyiqi səbəbindən vergidən yayınma və kölgə iqtisadiyyatının inkişafının “stimullaşdırılması” və s. Ümumiyyətlə, fiskal siyasətin tətbiqində bir sıra problemlərin yaranması ehtimalları mövcuddur. Vaxt amili - iqtisadi vəziyyət, qəbul edilən qərar və bu qərarın subyektlərin fəaliyyətinə təsiri arasında gecikmənin olmasında özünü göstərir: problemin səbəblərini müəyyən etmək üçün vaxt lazımdır; dövlət büdcəsinə və vergilərə dəyişikliklərin qəbulu mexanizminin qanunvericilikdə uzun müzakirə və qəbul prosesi vaxt tələb edir; qərarın qəbulu ilə qəbul edilmiş qərarın hərəkətinə başlaması arasında zaman fərqi mövcuddur. Siyasi amil - fiskal siyasət siyasətçilər tərəfindən kifayət qədər mübahisəli olan problemlərin həlli üçün istifadə olunur və birinin təşviqi digər problemin kəskinləşməsinə səbəb olur. Eyni zamanda, bəzi hallarda iqtisadi məqsədlərə zidd olan siyasi məqsədlərə çatmaq üçün fiskal siyasətdən istifadə edilir, bunu mikroiqtisadiyyatda nəzərdən keçirilən siyasi dövr problemi sübut edir.

Mövcud şəraitdə fiskal sistemin səmərəliliyinin qiymətləndirilməsi və onun optimallaşdırılması yollarının tapılması dövlətin maliyyə siyasətinin əsas vəzifələri sırasında yer alır. Onların həlli bir çox müxtəlif yanaşmaları, o cümlədən vergi qanunvericiliyinin təkmilləşdirilməsini əhatə edir. Beynəlxalq təcrübədə müəyyən dövr üçün vergilərin tutulması praktikasından imtina etmək və müəssisələrin hesabına vəsait daxil olduqdan sonra vergilərin ödənilməsini nəzərdə tutan mexanizmdən geniş istifadə olunur [3, s.106]. Bundan fərqli olaraq, vergi sisteminin optimallaşdırılmasının kəmiyyət üsulu, mövcud fiskal mexanizm çərçivəsində ən rasional vergi dərəcələrinin müəyyən edilməsinə yönəldilir. Rasional vergi dərəcələrinin tətbiqi həm fərdi vergi dərəcələrinin, həm də hüquqi və fiziki şəxslər üçün ümumi vergi yükünün optimallaşdırılmasını nəzərdə tutur. Bu üsul mövcud vergitutma sistemini əsaslı şəkildə dəyişdirmir və əslində, yalnız kəmiyyət baxımından fiskal parametrlərin tənzimlənməsinə yönəlir. Dövlətin tənzimləmə sisteminin təkmilləşdirilməsinin bu istiqaməti geniş spektrli mikro və makroiqtisadi üsul və modellərdən istifadəni nəzərdə tutur [1, s. 43].

**Laffer əyrisi üzrə səmərəlilik və effektivlik parametrlərinin aparılması**

Araşdırmalar göstərir ki, səmərəlilik parametrlərinin əsas spesifik hesablamaları A.Laffer əyrisi çərçivəsində aparılır. Ona görə dövlətin vergi gəlirlərinin vergi yükünün səviyyəsindən funksional asılılığı parabola ilə təsvir olunur. Laffer əyrisi konsepsiyası müasir fiskal tənzimləmə nəzəriyyəsində əsas yerlərdən birini tutur. Bu sahədə tədqiqatlar, bir qayda olaraq iki istiqamətdə aparılır. Birinci istiqamət, istehsal və fiskal proseslərin modelləşdirilməsini, həmçinin qurulmuş modellərdən Laffer əyrisi asılılığının nəzəri konsepsiyasını nəzərdə tutur. Bu zaman vurğu “əyri effektinin” mövcudluğunun əsaslandırılmasına və onun baş verməsi şəraitinin müəyyənləşdirilməsinə yönəldilir. İkinci istiqamət, ayrı-ayrı ölkələrə münasibətdə Laffer nöqtələrinin praktiki hesablamaları ilə bağlıdır və əslində makroiqtisadi nəzəriyyənin xüsusi qiymətləndirmə bölməsi kimi xarakterizə olunur. Bu zaman iqtisadi sistemin funksional xüsusiyyətləri öz yerini müvafiq alqoritmlərə və konkret statistik məlumatların hesablanmasına verir. Bir sıra hallarda nəzəri model empirik hesablamalarla müşayiət olunur ki, bu da birinci və ikinci yanaşmaların əlaqəsini təmin edir.

Bununla belə, hər iki istiqamətin daxilində problemin təhlilinə yanaşmada fərqliliklər mövcuddur. İqtisadi ədəbiyyatlara istinad etməklə, onları iki qrupa bölmək olar. Birinci qrup tədqiqatlarda, bir qayda olaraq, sistemin təsvirinə mikroiqtisadi yanaşma önə çəkilir. Belə ki, fərdi təsərrüfat subyekti üçün əldə edilən nəticələr bütün təsərrüfat subyektlərinə şamil edilir ki, bu da aparılan təhlilin ümumilik dərəcəsinə nail olmağa imkan verir. İkinci qrupda əsaslı şəkildə yığılmış strukturlardan istifadə olunur və bu, makroümumiləşdirmələr aparmağa imkan verir.

Dövlətin fiskal siyasətinin effektivliyini qiymətləndirmək üçün bəzi mümkün yanaşmaları nə-

zərdən keçirmək zəruridir. Bir çox tədqiqatlarda, vergi yığımlarının konkret növləri üçün (əlavə dəyər vergisi, mənfəət vergiləri, əmlak vergisi, gəlir vergisi və s.) Laffer nöqtələrini tapmaq yolu ilə fiskal sistemin müəyyən aspektlərinin effektivliyinin qiymətləndirilməsi aparılır. Qeyd etmək lazımdır ki, Laffer əyrisi konsepsiyası ilkin olaraq ümumi vergi yükü, yəni vergi ayırmaları anlayışına münasibətdə yaradılmışdır. Buna görə vergi yükünün orta makroiqtisadi göstəricisi üçün Laffer nöqtələrinin müəyyən edilməsi əsas məqsəd hesab olunur. Bu zaman, ölkənin icmal büdcəsinə vergi daxilolmalarının ümumi daxili məhsulun (ÜDM) həcmində payı göstəricisinə xüsusi diqqət yetirilir.

Hesablamalar göstərir ki, vergi daxilolmalarının ümumi daxili məhsulun həcmində xüsusi çəkisi 2017-ci ildə 23,5%, 2018-ci ildə 28,1%, 2019-cu ildə 29,8%, 2020-ci ildə 33,2%, 2021-ci ildə 27,4% təşkil etmişdir. Göründüyü kimi 2017-2020-ci illərdə göstərici dinamik olaraq artmış, 2021-ci ildə 2020-ci illə müqayisədə 5,8 bənd azalmışdır. Buna baxmayaraq 2017-ci illə 2021-ci ildə müqayisədə vergi daxilolmalarının payı 0,9 bənd artmışdır [qrafik 1].




***Qrafik 1. Vergi daxilolmalarının ümumi daxili məhsulun həcmində xüsusi çəkisi, %-lə.***

Dövlət büdcəsinin gəlirlərinin və Ümumi Daxili Məhsulun dinamikasına nəzər saldıqda məlum olur ki, hər iki göstərici üzrə 2020-ci il istisna olmaqla digər illərdə artım qeydə alınmışdır. 2020-ci ildə baş verən geriləməni pandemiya ilə əlaqələndirmək olar. Büdcənin gəlirlərinin artımı 2017-ci illə müqayisədə 53,9%, ÜDM-in artımı 32,0% təşkil etmişdir [qrafik 2].

Vergi daxilolmaları və ümumi daxili məhsulun həcmi arasındakı asılılıq vergi dərəcələri və vergi daxilolmalarının həcmi arasındakı əlaqəni əks etdirən Laffer əyrisi konsepsiyasına əsaslanır. Laffer əyrisi konsepsiyasına əsasən vergi dərəcələrinin artması vergi daxilolmalarının artımını şərtləndirir və bu, müəyyən həddə qədər mümkün olur. Yəni vergi yükü paralel olaraq ÜDM-ə mənfi təsir etməməlidir. Deməli, ÜDM-in dinamikası vergi yükünün səviyyəsindən asılı olma ehtimalına əsaslanır. Bu asılılıq qeyri-xətti funksiya ilə, onun parametrləri kəmiyyətlə müəyyən edilir və Laffer nöqtələrini hesablamağa imkan verir.




**Qrafik 2. Dövlət büdcəsinin gəlirlərinin və Ümumi Daxili Məhsulun dinamikası, mln.man. [6].**

Bu halda birinci və ikinci növ Laffer nöqtələri fərqləndirilir. Birinci növ Laffer nöqtəsinə əsasən istehsal əyrisi maksimuma çatır. İkinci növ Laffer nöqtəsi fiskal əyrinin maksimuma çatdığı nöqtədir. İqtisadi baxımdan birinci növ Laffer nöqtəsi istehsal sisteminin daxil olmadığı vergi yükünün həddi deməkdir. İkinci növ Laffer nöqtəsi vergi yükünün miqdarını göstərir, ondan kənarda vergi gəlirlərinin əhəmiyyətli şəkildə artması qeyri-mümkün olur. Hər iki Laffer nöqtəsinin müəyyən edilməsi və onların faktiki vergi yükü ilə müqayisəsi ölkənin vergi sisteminin effektivliyini və onun optimallaşdırılması istiqamətini qiymətləndirməyə imkan verir. Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, fiskal siyasətin effektivliyinin qiymətləndirilməsini istehsalın həcminin qeyri-xətti olaraq vergi yükünün miqyasından asılı olmasına əsaslanan ekonometrik üsullarla həll etmək olar.

**Fiskal siyasətin effektivliyinin qiymətləndirilməsi üsülləri**

İqtisadi artım prosesində fiskal siyasətin effektivliyinin qiymətləndirilməsidə başqa üsullardan da istifadə etmək olar. Belə alternativ yanaşmalara təhlil edilən prosesin nöqtə-parça yaxınlaşması üsulları daxildir ki, bunlar interval yaxınlaşmasına əsaslanan ekonometrik metodlardan əsaslı şəkildə fərqlənir. Bu halda, hər bir hesabat nöqtəsi üçün funksiya, ona daxil edilmiş parametrlərin müvafiq qiymətləri ilə qurulur. Funksiya parametrlərinin sayı birdən çox ola bildiyi üçün onların birmənalı qiymətləndirilməsi üçün zamanla dəyişənlərin artımları haqqında əlavə məlumatlardan istifadə etmək lazım gəlir. İstehsalın həcmi ilə vergi yükünün səviyyəsi arasındakı əlaqənin qeyri-xətti olduğunu nəzərə alaraq, yaxınlaşma funksiyası kimi kvadrat çoxhədli qəbul edilməlidir. Burada iki hesablama variantı mümkündür: ümumiləşdirilmiş üçparametrli və sadələşdirilmiş iki parametrli üsullar.

Üçparametrli üsul iqtisadi artım prosesinin üçparametrli kvadratik funksiya ilə yaxınlaşmasına əsaslanır və burada vergi yükünün səviyyəsi arqument kimi çıxış edir. Bu yanaşmaya uyğun olaraq, istehsal və fiskal əyrilər müəyyənləşdirilir, bununla da istənilən funksional asılılıqları seçmək mümkün olur. Funksiyaların xassələrinin əlavə tədqiqi stasionar nöqtələrin Laffer nöqtələri olub-olmadığını müəyyən etməyə imkan verir. Əgər stasionar nöqtələr minimum nöqtələrdirsə və ya onların dəyərləri icazə verilən dəyərlər diapazonundan kənara çıxarsa, bu o deməkdir ki, Laffer nöqtələri yoxdur. Nəzərdən keçirilən üçparametrli metoda alternativ istehsal funksiyası kimi üçüncü dərəcəli yanaşma ola bilər. Yəni, parametrlərin sayı dəyişmir, üçə bərabər qalır. Bu zaman Laffer nöqtələrinin tapılması proseduru ilkin asılılıq nəzərə alınmaqla düzəldilir və nəticədə fiskal əyri üçün stasionar nöqtələr tapılır. Aydındır ki, belə bir alqoritm ikinci növ iki Laffer nöqtəsini yarada bilər. Təcrübədə daha çox birmənalılığa və görünmə qabiliyyətinə görə üçparametrli metodun birinci, əsas variantından istifadə edilir. Qeyd etmək lazımdır ki, fiskal siyasətin effektivliyinin qiymətləndirilməsinin analitik üsulu parametrlərinin sayı üçdən çox olmayan funksional asılılıqlardan istifadə etməyə imkan verir [5, s. 57].

İkiparametrli üsul iqtisadi artım prosesinin yalnız iki parametrini özündə birləşdirən funksiya ilə yaxınlaşmasına əsaslanır. Üçparametrli metoddan istifadə edildiyi kimi, istehsal sistemi "nöqtə" xassələrini əks etdirir. Eyni zamanda, fiskal sistemin dinamik xüsusiyyətlərini müəyyən edən vergilərin məbləği istehsal sisteminin fəaliyyəti və fiskal təzyiq səviyyəsi ilə müəyyən edilir. Beləliklə, Laffer nöqtələrindən istifadə etməklə fiskal sistemin səmərəliliyinin hesablanmasına iki mümkün yanaşma mövcuddur. Sonrakı hesablamalar üçün ən uyğun olanı seçmək üçün onların hər birinin xüsusiyyətlərini təhlil etmək vacibdir.

**Fiskal siyasətin səmərəliliyinin parametrik metodlarla aparılması**

Parametrik metodlardan istifadə istehsalın həcmi ilə vergi yükünün səviyyəsi arasında funksional əlaqənin mövcudluğu müddəasına əsaslanır. Eyni zamanda, bu əlaqənin növü bütün təhlil edilən dövrlər üçün ümumidir, yalnız onun parametrləri dəyişir. Bu zaman istehsal funksiyasının parametrlərinin müəyyən edilməsində baza ili əsas, ikinci isə köməkçi kimi görünür. Bu yanaşma daha perspektivli hesab edilir və sabitləşmiş iqtisadi artım prosesi haqqında məlumatlar toplamağa imkan verir. Nəticə etibarilə, təxmin edilən parametrlər praktikada çox fərqli ola bilən istehsal və fiskal sistemlərin xüsusiyyətləri ilə eyni vaxtda müşayiət olunur. Ümumiyyətlə, makroiqtisadi

vəziyyəti başa düşmək üçün qeyri-müəyyən şərhlərə səbəb olmayan son dərəcə sadə alqoritmlərdən istifadə etmək lazım gəlir. İstehsal və fiskal sistemlərin xassələrinin təhlili onu deməyə əsas verir ki, Laffer nöqtələrini tapmaq üçün ikiparametrli sxem nəzəri baxımdan daha məqbuldur. Bunu əsaslandırmaq üçün istehsal və fiskal əyrilərin xassələrini təhlil etmək kifayətdir. Belə ki, əgər asılılıqlar üçün birinci və ikinci növ Laffer nöqtələri varsa, o zaman istehsal əyrisi və fiskal əyri formasında onun analoqunu görmək olar. Eyni zamanda, istehsalın həcminin və vergi daxilolmalarının sinxron şəkildə iki nöqtədə sıfıra endiyini asanlıqla görmək olar. Beləliklə, istehsal və fiskal funksiyaların müəyyənləşdirilməsinin aktiv sahələri üst-üstə düşür. Bununla belə, ən mühüm və maraqlı nəticə ondan ibarətdir ki, birinci və ikinci növ Laffer nöqtələri üst-üstə düşmür və ikinci növ Laffer nöqtəsi birinci növ nöqtəyə nisbətən vergi oxu boyunca sağa sürüşür. Bu onu göstərir ki, istehsal və fiskal əyrilər müxtəlif əyrilik dərəcələri ilə xarakterizə olunur.

Birinci və ikinci növ Laffer nöqtələrinin qarşılıqlı düzülüşündə qeyd olunan xüsusiyyət çox vacibdir. Bu onunla bağlıdır ki, müasir vergilər nəzəriyyəsi əsasən ikinci növ Laffer nöqtələri ilə fəaliyyət göstərir və birinci növ Laffer nöqtələrini diqqətdən kənarda qoyur. Eyni zamanda, fiskal sistemin konstruktiv təhlili üç parametrin nəzərə alınmasını nəzərdə tutur. Bu o deməkdir ki, faktiki vergi yükü ikinci növ Laffer nöqtəsindən azdır və ona görə də dövlətin fiskal maraqları baxımından tamamilə normal dəyərə malikdir. Lakin, eyni zamanda, o, birinci növ Laffer nöqtəsindən böyükdür, yəni müəyyən edilmiş vergi yükü istehsalın azalmasına təkan verir və beləliklə, ölkənin iqtisadi inkişafının uzunmüddətli maraqları ilə ziddiyyət təşkil edir. Yuxarıda deyilənlər belə nəticəyə gəlməyə əsas verir ki, ideal halda fiskal sistem elə qurulmalıdır ki, vergi təzyiqi subyektlərin işgüzar fəallığına xələl gətirməsin. Bu mexanizm eyni zamanda, vergilər nəzəriyyəsinin əvvəllər tam inkişaf etdirilməmiş bəzi aspektlərini aydınlaşdırır ki, bu da fiskal siyasətin effektivliyinin praktiki qiymətləndirilməsi üçün ən uyğun olan ikiparametrli metodun seçilməsində həlledici rol oynayır.

### *Nəticə*

Qeyd edilənlərə əsaslanaraq fiskal siyasətin səmərəliliyini şərtləndirən meyarları aşağıdakı kimi ümumiləşdirmək olar: büdcə gəlirlərinin, xüsusən də vergilərin yığılma səviyyəsi; büdcə öhdəliklərinin icra səviyyəsi; büdcə kəsirinin ölçüsü və dövlət borcunun artım tempi; dövlət büdcəsinə xidmət üçün yönəldilmiş maliyyə vəsaitlərinin məbləği; büdcə kəsirinin maliyyələşdirilməsi üçün istifadə olunan ehtiyatların məbləği; ümumi daxili məhsulun dinamikası; büdcə haqqında qanunvericilik və onlara bərabər tutulan aktların icra dərəcəsi [4, s. 25].

Beləliklə, fiskal siyasətin effektivliyinin dövlətin sosial-iqtisadi maraqları kontekstində qiymətləndirilməsinə konseptual yanaşmalar fiskal siyasətin səmərəliliyinin və makroiqtisadi səmərəliliyin qiymətləndirilməsini ayırmağa və vergi dərəcələri müəyyən edilərkən təklif olunan parametrləri rəhbər tutmağa imkan verir. Bu da dövlətin fiskal siyasətindən cəmiyyətin sosial-iqtisadi maraqlarının uyğunlaşdırılması elementi kimi istifadə edilməsini önə çəkir.

### ƏDƏBİYYAT


1. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. (Monoqrafiya). Bakı “Elm”, 2005. 468 s.
2. Сухарев А.Н. Бюджетный дефицит и бюджетный профицит: вопросы методологии / А.Н. Сухарев // Деньги и кредит. – 2014. – №1. – С. 10-16.
3. Сидорова Е.А. Пакт стабильности и роста и бюджет Европейского союза: что впереди? / Е.А. Сидорова // Экономические стратегии. – 2010. – №6. – С. 104-109.
4. Кудрин А.Л. Бюджетная политика как источник экономического роста / А.Л. Кудрин, А.Ю. Кнобель // Вопросы экономики. – 2017. – №10. – С. 5-26.
5. Шванадар К.В. Фискальная консолидация: мировой опыт / К.В. Швандар, Анисимова А.А. // Финансовая аналитика: проблемы и решения. – 2016. – № 27. – С. 51- 62.
6. www.stat.gov.az

***Рашад Арзуман оглу Мустафаев***
***Докторант Азербайджанского Университета Кооперации***
***Электронная почта: resad_320_m@mail.ru***

## Оценка эффективности фискальной политики государства

*Резюме*

**Цель исследования** - Основной целью налоговой политики является выделение многих общественных благ из характеристик и функций налогов и выделение их в бюджет через бюджет. Основная цель состоит в том, чтобы предоставить налогоплательщикам правовую основу для сбора налогов и дать всестороннюю оценку экономических отношений, затронутых налогообложением.

**Методология исследования** - Оценка эффективности фискальной системы и ее оптимизация рассматриваются как приоритеты экономической политики государства. С этой точки зрения важно обратить особое внимание на зависимость между объемом производства и налоговыми поступлениями при оценке эффективности фискальной политики.

**Прикладная значимость исследования.** Применяя недискриминационную налоговую политику, создается налоговая нагрузка на экономику.

**Налоговая нагрузка** – это доля налогоплательщика в валовом внутреннем продукте, возникающая в результате применения налоговых механизмов. Применение механизмов налогообложения определяет перечисление доходов юридических или физических лиц в бюджет в виде налогов.

**Результаты исследования.** Таким образом, концептуальные подходы к оценке эффективности фискальной политики в контексте социально-экономических интересов государства позволяют разделить оценку эффективности фискальной политики и макроэкономической эффективности и ориентировать предложенные параметры при определении налоговых ставок.

**Оригинальность и научная новизна исследования** - Реализация налоговой политики осуществляется путем принятия соответствующего законодательства и нормативных правил. Экономически обоснованная налоговая политика направлена на оптимизацию сбора средств через систему налогообложения. Основная цель состоит в том, чтобы предоставить налогоплательщикам правовую основу для сбора налогов и дать всестороннюю оценку экономических отношений, затронутых налогообложением. Налоговая нагрузка выражается в виде отношения совокупных налоговых поступлений к ВВП, что характеризует роль налогов в общественной жизни как важного результата налоговой политики, проводимой государством. Экономический рост, достигнутый в долгосрочной перспективе, увеличивает объем налоговых поступлений. В краткосрочной перспективе снижение налогов однозначно ведет к увеличению совокупного спроса и уменьшению налоговых поступлений в бюджет. Таким образом, причинно-следственная связь между фискальной политикой и совокупным предложением эффективна только в долгосрочной перспективе.

***Ключевые слова: фискальная политика, регулирование, эффективность, оценка, оптимизация, моделирование.***

***Rashad Arzuman Mustafayev***
***PhD student of Azerbaijan Cooperation University***
***E-mail: resad_320_m@mail.ru***

**Evaluation of the effectiveness of the state's fiscal policy**

***Summary***

**The purpose of the study** - The main purpose of the tax policy is to distinguish many public goods from the characteristics and functions of taxes and allocate them to the budget through the budget. The main objective is to provide taxpayers with a legal framework for tax collection and to provide a comprehensive assessment of the economic relationships affected by taxation.

**Methodology of the research** - Assessment of the efficiency of the fiscal system and its optimization are considered to be priorities of the state's economic policy. From this point of view, it is important to pay special attention to the dependence between production volume and tax revenues in assessing the efficiency of fiscal policy.

**Application significance of the study-** By applying a non-discriminatory tax policy, the tax burden of the economy is created. The tax burden is the taxpayer's share of the gross domestic product resulting from the application of tax mechanisms. The application of taxation mechanisms determines the transfer of the income of legal or natural persons to the budget in the form of taxes.

**Research results -** Thus, conceptual approaches to assessing the effectiveness of fiscal policy in the context of the socio-economic interests of the state allow to separate the assessment of fiscal policy efficiency and macroeconomic efficiency and guide the proposed parameters when determining tax rates.

**Originality and scientific innovation of the research** - The implementation of the tax policy is carried out through the adoption of relevant legislation and normative rules. An economically sound tax policy is aimed at optimizing the collection of funds through the taxation system. The main objective is to provide taxpayers with a legal framework for tax collection and to provide a comprehensive assessment of the economic relationships affected by taxation. The tax burden is expressed in the form of the ratio of total tax revenues to GDP, which characterizes the role of taxes in public life as an important result of the tax policy implemented by the state. Economic growth achieved in the long term increases the amount of tax revenues. In the short term, reducing taxes clearly leads to an increase in aggregate demand and a decrease in tax revenues to the budget. Thus, the causal relationship between fiscal policy and aggregate supply is effective only in the long run

***Key words: fiscal policy, regulation, efficiency, evaluation, optimization, modeling.***

**UOT:336.14, 336.2, 336.22**

***Esmira HƏSƏNZADƏ***
***Doktorant, Bakı Dövlət Universiteti***
***esmira.hesenzade@mail.ru***

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA BÜDCƏ VƏ PUL-KREDİT SİYASƏTİNİN ROLU

***Xülasə***

**Tədqiqatın məqsədi** – Ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin edilməsi sahəsində maliyyə mexanizminin səmərəliliyinin yüksəldilməsi istiqamətlərini ayırd etməkdir.

**İşin metodologiyası** – tədqiqatın yerinə yetirilməsi zamanı müqayisəli təhlil, məntiqi mühakimə, analiz və sintez metodlarından geniş istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – qlobal aləmdə baş verən dəyişikliklər fonunda ölkənin milli təhlükəsizliyinin təmin edilməsinin aktuallığı artır. Bu sahədə yeni növ maliyyə mexanizmlərinin işlənib hazırlanmasına, onların səmərəli yollarla tətbiqinə ehtiyac duyulur.

**Tədqiqatın nəticələri** – Milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin qorunub saxlanılmasında maliyyə mexanizmlərinin rolunu ön plana çəkməklə, pul-kredit siyasətinin effektivliyinin artırılması istiqamətində həll edilməsi vacib məsələlərə toxunulur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Məqalədə iqtisadi təhlükəsizliyin maliyyə mexanizminin səmərəliliyinin artırılması sahəsində yerli və xarici iqtisadi ədəbiyyatlara istinad edilmiş, yeni imkanlar, çağırışlar haqqında fikir ümumiləşməsinə yer verilmişdir.

***Açar sözlər: milli təhlükəsizlik, iqtisadi təhlükəsizlik, pul-kredit siyasəti, dövlət siyasəti, səmərəlilik, iqtisadi artım, tənzimlənmə siyasəti.***

## *Giriş*

XX əsrin ikinci yarısından etibarən beynəlxalq iqtisadiyyatda müxtəlif istiqamətli dəyişikliklər, milli iqtisadi təhlükəsizlik qarşısında maliyyə mexanizmlərinə yenidən baxılması zərurəti yaratdı. Belə ki, bir qrup İEÖ-nün daha sürətli sənayeləşməsi, bu əsasda miqyasına görə iri istehsal, ticarət vahidlərinin təsir gücünün artması nisbətən zəif inkişaf etmiş iqtisadiyyatlar qarşısında müəyyən öhdəliklər qoydu. Bunlardan ən başlıcası, daxili iqtisadi sabitliyin təmin olunması məqsədilə xarici risklərin bu və ya digər formada maliyyə alətlərindən istifadə edilməklə neytrallaşdırılması məsələsi idi. Xüsusilə 2008-ci ildə qlobal maliyyə böhranı ilə başlayan və günbəgün əhatə dairəsini genişləndirən maliyyə şoklarının nəticələrinin milli iqtisadiyyata yansımaması məqsədilə, ölkədə fəaliyyət göstərən iqtisadi subyektlərə maliyyə dəstəyinin ifadə olunması, düşünürük ki, milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsi sarıdan olduqca səmərəli addım idi. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə 2009-2016-cı illər aralığında iqtisadi təhdidlərin səmərəli həllinə nail olunmaması səbəbi ilə, dünyanın üzləşdiyi potensial maliyyə itkilərinin ümumi həcmi təqribən doqquz trln dollar səviyyəsindədir. Qloballaşmanın təsirinin artdığı vaxtda, bu cür maliyyə itkilərindən hətta dünyanın ən sürətli inkişaf etmiş ölkələri belə kənarda qala bilmir. Təkcə onu qeyd etmək kifayətdir ki, Covid-19 pandemiyasının təsiri ilə Birləşmiş Ştatlarda sənaye məhsulu istehsalının həcmində 16.5 faiz, zavod sifarişlərinin həcmində isə 22.7 faiz azalma müşahidə edilmişdir [10]. Bu hal, sonrakı vaxtda milli iqtisadi təhlükəsizliyin təmin edilməsi qarşısında maliyyə mexanizmlərinin yeni mühitə uyğunlaşdırılması məsələsinin aktuallığını artırmışdır. Görüldüyü üzrə hazırkı vaxtda istər iqtisadi cəhətdən sürətli inkişaf etmiş ölkə olsun, istərsə də nisbətən zəif inkişaf etmiş, onların hər biri milli iqtisadi təhlükəsizliyin təmin olunması məqsədilə dəyişən mühitə uyğun yeni növ maliyyə mexanizminin, tənzimlənmə üsulunun işlənib hazırlanılmasına səy göstərir.

**Milli iqtisadi təhlükəsizliyin təmin olunmasında pul-kredit siyasətinin rolu.** Milli iqtisadiyyatın təhlükəsizliyinin təmin olunmasında, dövlətin monetar siyasətinin mühüm əhəmiyyəti vardır.

Beynəlxalq təcrübə göstərir ki, effektiv monetar siyasətin həyata keçirilməsi ökədə milli iqtisadi təhlükəsizliyin təmin olunmasında maliyyə mexanizminin hansı səviyyədə reallaşdırılması ilə xarakterizə edilir. İqtisadi ədəbiyyatlardan bilindiyi üzrə, ölkədə monetar siyasətin reallaşdırılmasına cavabdeh, məsul qurum Mərkəzi Bank olduğundan, o effektiv iqtisadi tənzimlənmə metodu kimi pul-kredit siyasətinin hansı istiqamətdə rellaşdırılmasını müəyyən etmək məqsədilə uzunmüddətli iqtisadi təhlillərə istinad edir. Yəni bu gün Mərkəzi Bank, dünyada baş verən qlobal iqtisadi dəyişikliklər fonunda tez qərar qəbuletmə prinsiplərinə əsas versə də, həmin hadisə və proseslərə qarşı öncədən uzunmüddətli önləm tədbirləri görməkdədir. Belə ki, qəbul edilən iqtisadi qərarlar müxtəlif risk faktorları nəzərə alınmaqla, öncədən təhlil edilməli və sonrakı vaxtda həmin istiqamətdə əməli tədbirlərin müşayiəti ilə reallaşdırılmalıdır.Əks halda, düşünülməmiş iqtisadi qərarların ani anda qəbul edilməsi, müxtəlif dərəcədə risk faktorunu artırmaqla iqtisadi təhlükəsizlik qarşısında müxtəlif təhdidlər formalaşdıra bilir. Adətən Mərkəzi Bank monetar siyasəti 3 istiqamətdə reallaşdırır. Bunlardan biri pul bazarında təklifin həcminə təsir etməklə, digər pul emissiyaları üzrə faiz dərəcələri olsa da sonuncu komersiya banklarına təklif edilən maliyyə öhdəlikləri qarşılığında müəyyən edilən uçot dərəcələri ilə bağlıdır [5, s. 243]. Qeyd edilən hər 3 istiqamət üzrə fikir ümumiləşməsinə yer versək, onda Şəkil 1.1-dəki kimi nəticə əldə etmiş olarıq. Belə ki, Mərkəzi Bankın 02.02.2023-cü il tarixinə olan faiz dərəcələrinin aşağı və yuxarı həddi müvafiq olaraq 6.25 və 9.5 faiz təşkil etdiyi şəkildə aydın göstərilmişdir. Aralıq faiz dərəcəsi kimi çıxış edən uçot dərəcələrinin səviyyəsinə diqqət edildiyi zaman isə, bu həddin 8.5 faiz olduğunu görmüş oluruq [9]. Əslində milli iqtisadiyyatın maliyyə təhlükəsizliyinin təmin edilməsi deyəndə, ağıla ilk gələn fikir Mərkəzi Bankın digər banklar üçün təyin etdiyi uçot dərəcələri ilə bağlıdır. Uçot dərəcələri digər kommersiya banklarının faizlərinin əsas müəyyənedicisi qismində çıxış edir. Yəni Mərkəzi Bankın uçot dərəcələrinin səviyyəsinə təsir etməsi digər bankların müxtəlif adda təqdim etdiyi kreditlərin, maliyyə öhdəliklərinin maliyyətinə təsir edir. Bunu nəzərə alaraq, milli iqtisadi təhlükəsizliyin təmin edilməsi zamanı maliyyə mexanizmlərindən istifadə zamanı, pul kütləsinin dövriyyədə olan həcminə elə bir səviyyədə təsir etmək lazımdır ki, millli iqtisadiyyatın tənzimlənməsi zamanı, burada nə pul kütləsinin həcmində aşırı izafilik yaşansın, nə də pulun həcmində kiçilmə hesabına, dövrüyyə sürəti azalmasın. Şəkil 1.1-də həmçinin Mərkəzi Bankın 31.01.2023-cü il tarixinə Azərbaycan Respublikasında dövriyyədə olan pul əskinaslarının ümumi həcmi göstərilmişdir. Görüldüyü üzrə hazırda ölkənin pul bazarında təqribən 16 884.9 mln pul vəsaiti, emissiyası dövr etməkdədir [8]. (Göstərilən tarazlıq halının şərti olduğunu nəzərə almaq lazımdır. Burada pul-kredit əməliyyatları zamanı əyaniliyin diqqətə çatdırılması məqsədilə şəkil hazırlanmışdır). Tarazlıq halının bu göstəricilər üzrə təmin olunduğu qənaətinə gəlsək, onda 8.5 faizlik uçot dərəcələrindən kənarlaşma tarazlıq halının pozulmasına səbəb olar.




***Şəkil 1. Mərkəzi Bankın faiz dərəcələri nəzərə alınmaqla pul bazarında tələb-təklif. Tarazlıq halı və kənarlaşma***

*Mənbə: Mərkəzi Bank. https://www.cbar.az/*

Belə ki, bu göstəricidən yuxarı faiz həddinin təyin olunması, milli iqtisadi təhlükəsizliyin təmin olunmasında ciddi risk faktorunu ortaya çıxara bilər. Belə olduğu halda, dövriyyədə pul kütləsi təklifi artar, ancaq pula olan tələbin səviyyəsindəki azalma hesabına Mərkəzi Bankın hesabında pul kütləsinin izafiliyi yaranar. Digər halda isə, daha dəqiq desək faiz dərəcələrinin aşağı həddinin seçilməsi kommersiya bankları tərəfindən pula olan tələbi artırsa da, ucuz pullar siyasətini hələki seçmək niyyətində olmayan Mərkəzi Bank tərəfindən pul təklifi artırılmaz və beləcə də pul bazarında defisitlik halı yaşanar.

İqtisadi təhlükəsizliyin təmin edilməsində maliyyə mexanizminin əsas istiqamətlərindən biri kimi xarakterizə edilən pul-kredit siyasətinin əsas mahiyyəti, yuxarıda da qeyd etdiyimiz kimi dövriyyədə olan pul kütləsinin həcminə Mərkəzi Bankın vasitəçiliyi ilə təsir etməklə burada faiz dərəcələrinin optimal səviyyəsinin müəyyən edilməsidir. Belə olduğu halda, optimal faiz səviyyəsi həm kiçik və orta sahibkarların, həm də milli iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi kimi çıxış edən iri istehsal subyektlərinin fəaliyyətinin fasiləsizliyinə münbit şərait yaradır. Bilindiyi üzrə, milli iqtisadiyyatda reallaşdırılan investisiya layihələrinin mütləq əksəriyyəti məhz kreditlər hesabına reallaşdırılan layihələrdir. Onların hər növbəti ildəki artım və ya azalma dinamikasına təsir edən başlıca iqtisadi fenomen isə məhz faiz dərəcələridir. Odur ki, milli iqtisadiyyatın maliyyə təminatının təmin edilməsi məsələrinə diqqət edilərkən, əsas fikir çəkən məqam məhz faiz dərəcələri ilə bağlı olur. Faiz dərəcələrinin yüksəkliyi investisiya layihələrinin səviyyəsinin azalmasına təsir etdiyi halda, onun azalması investorların işgüzar fəaliyyətinə müsbət təsir edir. Milli iqtisadiyyatın diversifikasiya olunmasına əlverişli iqtisadi mühit yaradır. Beləliklə aydın olur ki, Mərkəzi Bankın pul təklifinə müxtəlif istiqamətlərdə təsir etməsi ümumilikdə milli iqtisadiyyatın maliyyə mexanizmləri içərisində daha effektiv üsul hesab edilir [3, s.128-130]. Bu hal milli iqtisadiyyatın həm genişləndirilməsinə, inkişafına təkan verir, həm də daraldıcı fəaliyyəti qarşısında geniş imkanlar açır. Göstərilən siyasət, adətən qlobal aləmdə baş verən dəyişikliklərin təsiri ilə aktuallaşır və effektiv tənzimlənmə siyasəti ilə neytrallaşdırılır. Bunun üçün isə istifadə alətləri qismində Mərkəzi Bankın yuxarı, aşağı və diskont faiz dərəcələrinin optimal nisbətdə müəyyənləşdirilməsindən istifadə edilir. Amerikalı iqtisadçı alim Con Perkinsin (1945) 2004–cü ildə nəşr edilən İqtisadi Killerin Etirafları (Confessions of an Economic Hit Man) kitabında maliyyə təhlükəsizliyinə diqqət çəkərkən belə bir iqtisadi yanaşmaya, fikrə yer verilmişdir. Aşağı faiz dərəcələri müəyyən etməklə öz yerli istehsalını təmin etməyib, xarici bazardan ölkəsinə müxtəlif təyinatlı məhsulların idxalını reallaşdıran bir ölkə ilkin vaxtlarda borclanmaya məcburdur. Bundan sonra, o digər ölkələr tərəfindən verilən borc öhdəlikləri ilə yolları, körpüləri inşa edib həmin vəsaitlərlə üçüncü ölkələrdən özlərinə avtomobillər və bu qəbildən olan digər məhsullar idxal edər. Beləliklə, aldığı borclar üzərində misli ilə faiz ödəyərək, öz milli maliyyə təhlükəsizliyi üçün yüksək risk almış olar. Daha sonra beynəlxalq səviyyəli maliyyə təşkilatları tərəfindən həmin ölkəyə təklif, təqdim edilən borclar, kreditlər elə həcmdə müəyyən edilər ki, həmin kreditlər üzləşilən problemin bütövlükdə həllinə imkan verməz. Bununla da sözügedən ölkənin borc öhdəliyi yüksəlməklə, digər ölkədən iqtisadi cəhətdən asılı vəziyyətdə qalar [6, s. 23]. Görüldüyü kimi, milli iqtisadi təhlükəsizliyin təmin edilməsində vacib əhəmiyyətə malik pul-kredit siyasətinin düzgün müəyyən edilməməsi bəzən digər ölkələrdən iqtisadi asılılığa belə gətirib çıxara bilir. Bunu nəzərə alan müəllif əslində iqtisadiyyatda reallaşdırılan pul-kredit siyasətinin elə bir səviyyəsini müəyyən etməyi tövsiyə edir ki, orada digər ölkələrdən idxal asılılığının aradan qaldırılması mümkün olsun. İstehsalı reallaşdırılan məhsullar üzrə idxaldan asılılığın aradan qaldırılmasının mənbəyində, maliyyə təhlükəsizliyinin təmin edilməsi məsələlərinin dayandığı artıq bizə məlumdur. Xarici təcrübə göstərir ki, uyğun faizlərlə sahibkarlıq subyektlərinə fəaliyyət göstərdikləri sahələr üzrə maliyyə dəstəyinin ifadə edilməməsi, göstərilməməsi sonrakı vaxtda istehsalın həcmindən əsaslı şəkildə kəmiyyət və keyfiyyət göstəricilərinin azalmasına səbəb olur. Bu halın uzun müddət davam etməsi, yerli istehsal subyektlərinin fəaliyyətlərini dayandırmasına, alternativ sənaye sahələrinə üz tutmasına səbəb olur. Uzaqlaşan istehsalçılar fonunda müxtəlif məhsullar üzrə ölkədə özünütəminetmə imkanları azalır ki, bu da yerli istehsalın azalması fonunda idxaldan asılılıq səviyyəsinin yüksəl-

məsinə gətirib çıxarır. Beləliklə, maliyyə itkilərinin artması üçün arzuolunmaz şərait yaranır. Xüsusilə xarici valyuta rezervlərinin azalması ölkənin xammal, yarımfabrikat şəklində resurslarının digər ölkələrə ucuz qiymətlərlə ixracına gətirib çıxarır. Məqalə üzrə seçilən mövzunun təhlilindən aydın olur ki, əslində pul-kredit siyasəti dövriyyədə olan əmtəə və xidmətlərin ümumi dövriyyəsini, istehsalının həcmini və bu əsasda istehlakçı tələbini, davranışlarını müəyyən etmək iqtidarındadır. Qeyd edilənlərdən çıxış edərək fikir ümumiləşməsinə yer versək, onda pul-kredit siyasətinin həll etdiyi vacib iqtisadi məsələləri aşağıdakı ardıcıllıqla ayırd etmək olar:

- ✓ yerli kommersiya banklarının inkişafına, bu əsasda aşağı faizli kredit təminatına imkan verir;
- ✓ aşağı faiz dərəcələri hesabına sahibkarlıqda əlverişli iqtisadi mühit yaratmaqla, istehsalçıların işgüzar mühitə cəlb edilməsini təşviq edir;
- ✓ yerli istehsalın artırılması hesabına, müxtəlif məhsullar üzrə özünütəminetmə səviyyəsinin artırılmasına münbit şərait yaradır;
- ✓ yerli istehsalın artırılması hesabına, idxaldan asılılığın aradan qaldırılması fonunda xarici valyuta rezervlərinin əsassız şəkildə digər ölkələrə axınının qarşısını alır;
- ✓ milli iqtisadiyyatın ayrı-ayrı sahələrində rəqabətqabiliyyətliliyin yüksəldilməsinə imkan verir;
- ✓ real iqtisadi artımın təmin edilməsi ilə, ölkədə məşğulluğun yüksəldilməsinə, buna paralel olaraq işsizlik səviyyəsinin azaldılmasına nail olunur;
- ✓ təkcə iqtisadi sahələrin deyil, həm də milli iqtisadiyyatın digər sahələri olan sosial sahələrin də əsaslı inkişafına təkan verir, sosial-iqtisadi göstəricilər üzrə köklü dəyişikliklərə gətirib çıxarır;
- ✓ pul-kredit sahəsində etibarlı və uzunmüddətli səmərəli qərarların qəbul edilməsi hesabına bank sisteminin maliyyə təhlükəsizliyi üzrə risklərin azaldılmasına, yerli banklarda əmanətlərin artmasına müsbət təsir edir.

Qeyd edilən, bu yolla həlli mümkün olan məsələlərin siyahısını istənilən qədər artırmaq mümkündür. Ancaq bunlar içərisində düşünürük ki, daha səmərəli olanlar məhz haqqında qeyd etdiyimiz, sıraladığımız bəndlər hesab edilə bilər. Haqqında qeyd edilən bəndlərə diqqət edildiyi zaman aydın olur ki, maliyyə mexanizminin etibarlı təşkil edilməsi ümumilikdə ölkənin milli iqtisadiyyatı qarşısında üzləşilən çoxsaylı məsələlərin həllinə imkan verir. Onların hər birinin ayrı-ayrılıqda həllinə nail olunması isə real iqtisadi artımı təmin edən iqtisadi parametrlər kimi xüsusi əhəmiyyət kəsb edir.

**Milli iqtisadi təhlükəsizliyin təmin olunmasında büdcə-vergi (fiskal) siyasətinin rolu**

Azərbaycan Respublikası qanunvericiliyinə görə büdcə, dövlət hakimiyyəti orqanları və özünüidarəetmə orqanları tərəfindən təsis edilən, sosial-iqtisadi layihələrin relallaşdırılması məqsədilə toplanan maliyyə vəsaitlərinin mərkəzləşmiş fondudur. Belə ki, dövlət büdcə vəsaitləri hesabına sosial-mədəni layihələri reallaşdırır, iqtisadiyyatın müxtəlif sahələrində əsaslı dəyişikliyə səbəb olan layihələrin icrasını təmin edir [4]. Bu vəsaitlər hesabına təhsil, səhiyyə sahələrinin, o cümlədən ordunun saxlanılmasını həyata keçirir. Büdcə siyasəti vasitəsi ilə dövlət pul gəlirlərinin təkrar bölgüsünü təmin edir, ehtiyyac olan sahələrdə investisiya qoyuluşlarının səviyyəsini müəyyənləşdirir, müxtəlif sahələr arasında kəskin disbalansın aradan qaldırılmasına nail olur. Orta aylıq əməkhaqlarının səviyyəsinə, bu əsasda əhalinin müxtəlif təbəqələri üzrə sosial-iqtisadi dəyişikliyə səbəb olan digər əsas iqtisadi parametrlərə təsir etmək imkanını əldə edir. Beləliklə, büdcə bələdiyyələrin, yerli icra hakimiyyəti orqanlarının maliyyə planı kimi təkcə müəyyən maliyyə öhdəliyi formasında çıxış etmir. O dövlətin cəmiyyət qarşısında maliyyə öhdəliklərinin, vəzifələrinin yerinə yetirilməsi üçün yığımları özündə ehtiva edir. Hazırkı vaxtda büdcə iqtisadi təhlükəsizliyin təminatçısı qismində iştirak edir və onun iki tərəfi mövcuddur. Onlardan biri büdcə gəlirlərinin yaradılması, digəri isə büdcə xərclərindən istifadə ilə əlaqəlidir.

Büdcə gəlirləri, Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının bu əsasda yerli icra hakimiyyəti orqanlarının büdcələrinə ödənilən vergilər, gömrük rüsumları, yığımlar və bu qəbildən digər ödənişlər hesabına formalaşır [10]. Odur ki, büdcə gəlirlərinin artımı ilə ÜDM-in

real iqtisadi artımı arasında düz mütənasib əlaqə mövcuddur. Onlardan hər hansısa birində artımın baş verməsi, digərindəki artımın səbəb-nəticəsi kimi xarakterizə edilir. Büdcə-vergi siyasəti milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin təmin edilməsində bir növ tənzimləyici mövqedə yer alır. Burada, vergi siyasəti vasitəsilə milli iqtisadiyyatda məhsul buraxılışının ümumi həcmini müəyyən etmək mümkündür. Bu yolla dövlət, sahibkarların mövqelərinin müdafiəsini təmin etmək məqsədilə, vergi dərəcələrinin müxtəlif səviyyələrini müəyyən edə bilir. Digər istehsalçıların daxili bazarda əsassız itkilərlə qarşılanmamaları və ya məhsul üzrə izafi istehsal nəticəsində qiymətlərin kəskin azalmasının qarşısının alınmasına müvəffəq olur. Ancaq vergi siyasəti elə bir iqtisadi təsir vasitəsidir ki, onun yüksək həddinin təyin olunması heç də həmişə büdcə vəsaitlərinin, daxilolmalarının səviyyəsini kəskin artırmır. Əksinə, bəzən bu dərəcələrin yüksək həddə müəyyənləşdirilməsi büdcə gəlirlərinin sonrakı vaxtda artmasına deyil, azalmasına səbəb ola bilir. Odur ki, vergi dərəcələrinin elə bir optimal səviyyəsini müəyyən etmək lazımdır ki, burada məhsul istehsalını reallaşdırmaq niyyətində olan heç bir sahibkar vergi yayınmasına yol verməsin. Yalnız bu yolla vergi daxilolmalarının optimal nisbəti hesabına büdcə gəlirlərinin artırılmasına nail olmaq mümkündür. Əks halda, optimal nisbətdən yüksək təyin olunan vergi dərəcələri büdcə gəlirlərinin azalmasına səbəb ola bilir.




***Şəkil 2.Vergi daxilolmaları ilə vergi dərəcələri arasında əlaqə***

*Mənbə: [11]*

Milli iqtisadi təhlükəsizliyin təmin edilməsində büdcə siyasətinin roluna diqqət çəkərkən, büdcə vəsaitlərinin formalaşması mənbələrindən biri hesab edilən vergi daxilolmalarının optimal səviyyədə yığımına diqqət etmək olduqca vacibdir. Məsələnin daha aydın şəkildə öyrənilməsi, dərk edilməsi məqsədilə, bu halın şəkil 2 vasitəsilə göstərilməsi düşünürəm ki, faydalı olar. Amerikalı iqtisadçı alim A.B.Lafferin (1940) irəli sürdüyü fikrin əyani təsviri olan Laffer əyrisinə diqqət edildiyi zaman aydın olur ki, vergi dərəcələrinin T* səviyyəsində müəyyən edilməsi, R* həcmində vergi daxilolmalarına imkan verir ki, bu halın kombinasiyalarını özündə birləşdirən ən optimal səviyyə, məhz M nöqtəsinə uyğun gəlir. T* nöqtəsindən solda müəyyən edilən vergi dərəcələri, optimal səviyyədə vergi daxilolmalarına imkan vermədiyi hala uyğun gəlsədə, T* nöqtəsindən sağda yerləşən vergi dərəcələri gələcəkdə sahibkarları vergi yayınmalarına sövq edir. Çünki bu hal vergi ödəyiciləri tərəfindən həddindən artıq vergi öhdəliyi kimi qiymətləndirilir. Bu isə nəticə etibarı ilə milli iqtisadi təhlükəsizliyin təmin olunması qarşısında müəyyən çətinliklər yaradır. Milli iqtisaidyyatın nəinki inkişafına, genişlənməsinə, əksinə, kiçilməsinə, geriləməsinə gətirib çıxarır. Beləliklə, büdcə-vergi siyasəti milli iqtisadiyyatın maliyyə mexanizminin reallaşdırılması istiqamətlərindən biri kimi vacib əhəmiyyətə malik olsa da, o heç də həmişə iqtisadi tərəqqiyə təkan verən iqtisadi parametr kimi çıxış etmir. Hətta optimal, potensial səviyyədən kənarlaşma milli iqtisadiyyat qarşısında risk faktorunu artırmaq imkanına malikdir. Odur ki, milli iqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədilə maliyyə mexanizmlərindən istifadə edilərkən, burada iqtisadi alətlərin müxtəlif istiqamətdə dəyişdirilməsinin ümumi nəticəyə təsiri öncədən proqnozlaşdırılmalıdır.

### *Nəticə*

Milli iqtisadi təhlükəsizliyin təmin edilməsində maliyyə mexanizmlərindən pul-kredit və büdcə-vergi siyasətinə diqqət edildiyi zaman aydın olur ki, hazırda bu istiqamətdə çoxsaylı əməli tədbirlər planı reallaşdırılmaqdadır. Məsələnin aktuallığını vacib edən çoxsaylı parametrlər olsa da, bunlar içərisindən beynəlxalq iqtisadi mühitdə baş verən sosial-iqtisadi dəyişikliklərə çevik adaptasiya olma xüsusiyyəti ön sırada qərarlaşır. Aparılan əməli tədbirlərin nəticəsinə diqqət edildiyi zaman məlum olur ki, Covid-19 pandemiyasının qalıcı təsirinin bu qədər yüksək olduğu vaxtda, ölkəmizdə milli iqtisadi təhlükəsizliyin təmin edilməsi istiqamətində çoxsaylı hüquqi-normativ aktlar qəbul edilmişdir. Məhz bunun nəticəsidir ki, son illər istər monetar, istərsə də fiskal siyasətdə elə də ciddi itkilərlə, uğursuzluqlarla üzləşilməmişdir. Belə ki, dövlət büdcəsinin 2022-ci il üçün gəlirləri 30660,5 mln. manat təşkil etmişdir ki, bu da təxmin edilən səviyyədən 5,0 faiz və ya 1462,7 mln. manat daha çoxdur. Bu göstərici keçən ilin müvafiq dövrü ilə müqayisədə 4264,2 mln. manat və ya 16,2 faiz daha yüksəkdir. Büdcə daxilolmalarının əsas hissəsini vergi ödənişləri təşkil etmişdir. Cari ildə vergi daxilolmalarının ümumi kəmiyyəti 15541,5 mln. manat olub, baza ili ilə (2021-ci il ilə) müqayisədə 82,2 faiz (7012.3 mln) artım göstərmişdir. Qeyd edək ki, həmin vəsaitlərin təqribən 52.1 faizi, məhz qeyri-neft sektoru üzrə iqtisadi fəaliyyətdən daxil olan vergilər hesabına formalaşmışdır [7, 9]. Görüldüyü üzrə, dövlətin milli iqtisadi təhülükəsizlik sahəsində reallaşdırdığı iqtisadi siyasətin təsiri ilə büdcə gəlirlərinin ümumi kəmiyyətində əsaslı dəyişikliklərə nail olunmuşdur. Beləliklə, tədqiqat işinin icrasından irəli gələn fikirləri ümumiləşdirərək, bu sahədə görülməsi tövsiyə olunan əməli tədbirləri ümumiləşdirərək, təklif şəklində ardıcıllıqla qeyd etmək mümkündür:

- ✓ daxili və xarici mühit amillərinin təsiri ilə, müəyyən vaxtda vergi dərəcələrinin qismən dəyişdirilməsini həyata keçirmək;
- ✓ istehsal növləri arasında fərqin olması xüsusiyyətindən irəli gələrək həmin sahələr üzrə ayrı-ayrılıqda diferensiallaşdırılmış vergi dərəcələri müəyyənləşdirmək;
- ✓ vergi ödəyiciləri arasında vergi ödənişlərinin vahid mərkəzdən, elektron ödənilməsini təşviq etmək;
- ✓ vergi ödənişləri də daxil olmaqla, büdcənin gəlir hissəsini təşkil edən digər rüsumların beynəlxalq standartlara uyğunlaşdırılmasına və müqayisəli təhlil əsasında yaranan fərqlərin aradan qaldırılmasına nail olmaq;
- ✓ işgüzar mühitə müsbət istiqamətdə təsir etmək məqsədilə, vergi ödənişləri də daxil olmaqla, digər dövlət rüsumları üzrə ödəyicilərə müəyyən zaman daxilində güzəştlərin tətbiq edilməsini genişləndirmək;
- ✓ sürətli amortizasiya olunan istehsal vasitələrinin fasiləsiz yenilənməsi məqsədilə, bu sahədə sahibkarlara müxtəlif adda dövlət rüsumları üzrə əlavə güzəştin tətbiq edilməsi;
- ✓ investisiya xarakterli layihələrin təşviq edilməsi məqsədilə, həm aşağı faizli kreditlərin miqyasını, həm də vergi güzəştlərinin əhatə dairəsini genişləndirmək.

Milli iqtisadi təhlükəsizliyin təmin edilməsində pul-kredit, büdcə-vergi siyasəti üzrə məqalədə apardığımız tədqiqatın nəticəsinə diqqət edildiyi zaman aydın olur ki, müstəqilliyin ilk illərindən bu yana aparılan əməli fəaliyyət nəticəsində çoxsaylı problemlərin həllinə nail olunmuşdur. Ancaq digər tərəfdən bəzi məsələlərin dəyişkənlik xüsusiyyətinə malik olması, həllinin uzun müddət tələb etməsi, bu sahədə həyata keçirilməsi vacib tədbirlərin, addımların fasiləsizliyini zəruri edir. Odur ki, bundan sonra da dəyişən mühit amillərinin diqqətdə saxlanılması şərti ilə onların neytrallaşdırılması istiqamətində fəaliyyət davam etdirilməlidir.

### ƏDƏBİYYAT

1. “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 29 iyun 2004-cü il
2. Qasımlı, V. İqtisadi artım/-Bakı: “AzPrint MMC” Nəşriyyatı, -2021.-234 s.
3. Mahmudov M.M., Mahmudova., Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı, -2012. -269 s.

4. Səfərov S. Dövlətin iqtisadi təhlükəsizlik strategiyası// Xalq qazeti.-2009.16 oktyabr.-s.4
5. ŞəkərəliyevA. Dövlətin iqtisadi siyasəti: Reallıqlar və perspektivlər. Bakı: İqtisadi Universiteti Nəşriyyatı, -2009. -414 s.
6. Perkins, J. İqtisadi Killerin Etirafları (Confessions of an Economic Hit Man)/ Bakı: Altun nəşriyyat, -2004. -304 s.
7. https://www.stat.gov.az/source/regions/ (11.23.2022)
8. https://www.economy.gov.az/az (09.17.2023)
9. https://www.cbar.az/ (16.02.2023)
10. https://www.dhs.gov/trade-and-economic-security (08.02.2023)
11. https://www.investopedia.com/terms/l/laffercurve (19.12.2022)

***Эсмира ГАСАНЗАДЕ***
***Докторант, Бакинский Государственный Университет***
***esmira.hesenzade@mail.ru***

## Роль бюджета и денежно-кредитной политики в обеспечении экономической безопасности

***Резюме***

**Цель исследования** - выделить направления повышения эффективности финансового механизма в сфере обеспечения экономической безопасности нашей страны.

**Методология работы** – в ходе исследования широко использовались методы сравнительного анализа, логического суждения, анализа и синтеза.

**Прикладная значимость исследования** - на фоне изменений, происходящих в глобальном мире, возрастает актуальность обеспечения национальной безопасности страны. В этой области необходимо разработать новые виды финансовых механизмов и эффективно их применять.

**Результаты исследования** - выделение роли финансовых механизмов в обеспечении экономической безопасности национальной экономики, а также решение важных вопросов, требующих решения в направлении повышения эффективности денежно-кредитной политики.

**Оригинальность и научная новизна исследования** - статья обратилась к отечественной и зарубежной экономической литературе в области повышения эффективности финансового механизма экономической безопасности, дала место для обобщения представлений о новых возможностях и проблемах.

***Ключевые слова: национальная безопасность, экономическая безопасность, денежно-кредитная политика, государственная политика, эффективность, экономический рост, регуляторная политика.***

***Esmira HASANZADE***
***Doctoral student, Baku State University***
***esmira.hesenzade@mail.ru***

## The role of budget and monetary policy in ensuring economic security

***Summary***

**The purpose of the study** is to distinguish directions for increasing the efficiency of the financial mechanism in the field of ensuring the economic security of our country.

**The methodology of the work** - comparative analysis, logical judgment, analysis and synthesis methods were widely used during the research.

**Application importance of the research** - against the background of the changes taking place in the global world, the relevance of ensuring the national security of the country is increasing. In this field, there is a need to develop new types of financial mechanisms and to apply them in efficient ways.

**The results of the study** - highlighting the role of financial mechanisms in maintaining the economic security of the national economy, and addressing the important issues to be resolved in the direction of increasing the effectiveness of the monetary policy.

**The originality and scientific novelty of the research** - the article referred to local and foreign economic literature in the field of increasing the efficiency of the financial mechanism of economic security, and gave a place to generalize ideas about new opportunities and challenges.

***Keywords: national security, economic security, monetary policy, state policy, efficiency, economic growth, regulatory policy.***

UOT 336

*Vüqar Pənah oğlu ƏHMƏDZADƏ*
*Magistr, Azərbaycan Respublikasının Prezidenti*
*Yanında Dövlət İdarəçilik Akademiyası*
*vuqarahmedzade639@gmail.com*
*Süleyman Mehrəli oğlu QASIMOV*
*Elmi rəhbər, iqtisad elmləri doktoru, professor*

# AZƏRBAYCANDA GƏLƏCƏK DÖVRDƏ İNVESTİSİYA ÜÇÜN PERSPEKTİVLİ SAHƏLƏR

*Xülasə*

**Tədqiqatın aktuallığı -** Hal-hazırda Azərbaycan regionların inkişafının rəqabətqabiliyyətliliyi, investisiyalar üzrə fəaliyyət istiqamətlərinin və investisiya fəaliyyətinin gözlənilən nəticəsinin müəyyənləşdirilməsi kimi amillər önəmlidirlər. Bu hallar seçilmiş tədqiqat mövzusunun aktuallığını göstərir.

**Tədqiqatın məqsədi -** Tədqiqatın məqsədi investisiya fəaliyyəti ilə Azərbaycan regionlarının, xüsusən də Dağlıq Qarabağın inkişafı arasında əlaqəni müəyyən etməkdir.

**Tədqiqatın metodologiyası -** Bu məqalədə nəzəriyyənin öyrənilməsi və ümumiləşdirilməsi, təhlilə sistemli yanaşma, xarici və daxili mühit amillərinin təsirinin qiymətləndirilməsi, regionların, yəni Dağlıq Qarabağın, fəaliyyətinin təhlili kimi tədqiqat metodlarından istifadə olunur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Tədqiqat nəticələrinin praktiki əhəmiyyəti hazırlanmış təhlil alətlərinin regionun inkişaf istiqamətlərin seçimindən, inkişaf hədəfinin və onun göstəricisinin müəyyən edilməsində istifadə olunmasından ibarətdir.

**Tədqiqatın nəticələri -** Məqalədə regionların daha dayanıqlı inkişafını təmin etmək üçün investisiya mexanizminin daxili mühitdə məqsədyönlü dəyişikliklərə yönəldilməsi nəticəsinə gələ bildik.

**Tədqiqatın orijinallığı -** İnvestisiya fəaliyyəti və onun effektivliyinin qiymətləndirilməsi üzrə geniş spektrli tədqiqatların mövcudluğuna baxmayaraq, elmi ədəbiyyatda, regionun və onun təkmilləşdirilməsi üçün investisiya layihəsinin hazırlanması üçün, inkişaf indikatorunun seçilməsi əsasında regionun inkişaf məqsədinin müəyyən edilməsi metodologiyası öz əksini tapmır və bu, tədqiqatın orijinallığını nümayiş etdirir.

**Tədqiqatın elmi yeniliyi -** Tədqiqatın elmi yeniliyi regionların fəaliyyətinin hərtərəfli təhlili əsasında regionların investisiya fəaliyyətinin təhlil edilməsindən, həmçinin xarici və daxili amillərin təsirinin qiymətləndirilməsindən, regionların fəaliyyət göstəricilərinin təhlilindən, məhsuldarlıq göstəricisinin hesablanmasından ibarətdir və bu, nəticədə, regionun inkişafına nail olunmasına yönəldilən investisiyaların optimal istiqamətini müəyyən etməyə imkan verəcəkdir.

***Açar sözlər: İnvestisiyalar, investisiya, investisiya fəaliyyəti, xarici investisiyalar, investisiya cəlbediciliyi, iqtisadiyyat, iqtisadi fəaliyyət***

## *Giriş*

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra keçən 30 il ərzində Azərbaycan Respublikası öz dövlətçiliyinin möhkəmləndirilməsində və sosial-iqtisadi inkişafında heyranedici nailiyyətlər əldə etmişdir.

Müasir Azərbaycan dünya və regional siyasətdə getdikcə daha əhəmiyyətli amilə çevrilir. Bu, ilk növbədə, daxili siyasi sabitlik, sabit iqtisadiyyat, düzgün istiqamətlənmiş və bacarıqla həyata keçirilən xarici siyasətlə bağlıdır. Transmilli nəqliyyat, kommunikasiya və enerji layihələrinin həyata keçirilməsi nəticəsində Azərbaycan Qafqaz regionunun iqtisadi lideri və dünyanın qlobal xəritəsində mühüm oyunçuya çevrilib.

Azərbaycan Respublikası “aşağı gəlirli dövlətlərdən” “yüksək orta gəliri olan dövlətlərə” böyük addım atıb. Artıq 2004-cü ildə Azərbaycanda adambaşına düşən ümumi daxili məhsul (ÜDM) 1000 ABŞ dollarını ötübsə, 2022-ci ildə bu rəqəm 6842 ABŞ dolları olub [1].

**İqtisadiyyatın yenidən qurulması**

30 il ərzində respublikada ölkənin mühüm sənaye-innovativ, sosial-iqtisadi inkişaf dövlət proqramları uğurla həyata keçirilib, eləcə də, torpaq islahatı, səhiyyənin və təhsilin inkişaf və modernləşdirmə proqramları uğurla tamamlanıb. Əhalinin sosial müdafiəsi, mənzil və yol tikintisi və s. sistemlərində geniş islahatlar aparılıb. Bu da, son nəticədə, Azərbaycan əhalisinin artım tempinə müsbət təsir göstərib.

Azərbaycanın uzunmüddətli davamlı inkişafı üçün mühüm əhəmiyyət kəsb edən iqtisadiyyatın infrastrukturu tamamilə yenidən qurulmuş və müasirləşdirilmişdir. Nəqliyyat, energetika, təhsil, tibb, turizm və digər sahələrdə infrastruktur demək olar ki, tamamilə yenidən qurulmuş, infrastruktur imkanları əvvəlki dövrlərlə müqayisədə xeyli genişləndirilmişdir.

15 ildən artıqdır ki, Azərbaycan xarici investorlar üçün etibarlı tərəfdaşdır. Azərbaycanın iqtisadi müstəqilliyi möhkəmlənib və ölkə borc alan ölkədən donor ölkəyə çevrilib. Azərbaycan valyuta ehtiyatları, daxili istehsal və ixrac potensialı ilə öz iqtisadi müstəqilliyini təmin etmiş, iqtisadiyyatı üçün vacib olan istənilən iqtisadi layihəni maliyyələşdirmək imkanına malik ölkədir. Hazırda ölkənin valyuta ehtiyatları xarici borcdan dəfələrlə çoxdur. Ölkənin valyuta ehtiyatları 50 milyard ABŞ dollarından çox, xarici borcu isə 9 milyard ABŞ dolları təşkil edir, bu da ÜDM-in 13%-ni təşkil edir [2, s. 318].

**Azərbaycan dünya reytinqlərində**

Azərbaycan iqtisadiyyatı 2009-cu ilin qlobal maliyyə böhranından, 2014-cü ilin qlobal enerji böhranından və davam edən pandemiyadan məharətlə qorunub. Azərbaycan iqtisadiyyatı regionun ən rəqabətqabiliyyətli iqtisadiyyatına çevrilib. Nüfuzlu Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatına əsasən, Azərbaycan iqtisadiyyatı uzun müddətdir ki, rəqabət qabiliyyətinə görə MDB məkanında ən rəqabətqabiliyyətli iqtisadiyyatlardan biri hesab olunur [3, s. 187]. Azərbaycan iqtisadiyyatı investisiya mühiti baxımından ön sıralara çıxıb və Dünya Bankı Azərbaycana “ən islahatçı ölkə” statusu verib. DB-nin “Biznesin aparılması” hesabatına əsasən, Azərbaycan hazırda ən əlverişli biznes mühitinə malik dünyada 34-cü və biznesin qurulmasının asanlığına görə isə dünyada 9-cu yerlərdədir [4, s. 162]. Bunun nəticəsində, 2003-cü ildən indiyədək, bütövlükdə, ölkə iqtisadiyyatına 240 milyard ABŞ dollarından çox sərmayə qoyulmuşdur və həmin miqdardan təxminən yarısı xarici investisiyalardır [1, 4, s. 169].

1990-cı illərdən bu günə kimi Azərbaycan iri regional iqtisadi layihələrdə iştirak edir. “Əsrin müqaviləsi” sərfəli şərtlərlə “yeni əsrin müqaviləsi”nə çevrilərək “qara qızıl”ın Azərbaycanın ən azı 2050-ci ilə qədər dayanıqlı iqtisadi inkişafına töhfə verməyə imkan verdi [5, s. 58]. Böyük enerji və nəqliyyat layihələri Azərbaycanın tranzit imkanlarını kökündən artırmaqla yanaşı, qlobal enerji və nəqliyyat təhlükəsizliyinə mühüm şəkildə təsir edibdir. Bu dövrdə Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərində neft-qaz layihələri, TANAP, TAP, BTK və digər kimi transmilli vacib layihələr həyata keçirilib.

Azərbaycan investisiyaların cəlb edilməsi və investisiya mühitinin yaxşılaşdırılması üçün bütün imkanlardan istifadə etməyə çalışır. Dağlıq Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi ilə Azərbaycan məcburi köçkün problemini həll etməyə başladı və iqtisadi dövriyyədən kənarda qalan torpaqlarının 20%-nə çıxış əldə etdi. Bunlara yeni kənd təsərrüfatı torpaqları, yeni faydalı qazıntı yataqları, turizm marşrutları, yeni nəqliyyat şəbəkələri, alternativ enerji mənbələri, su ehtiyatları və s. potensiallar aiddilər. Bütün bu amillər Azərbaycanın iqtisadi inkişaf potensialının artması ilə yanaşı, ölkənin investisiya potensialını artırır.

**İnvestisiya mühitinin yaxşılaşdırılması tədbirlərinin aparılması**

Son illərdə vergi və gömrük islahatları investisiya mühitinin daha da yaxşılaşdırılmasına, o cümlədən vahid onlayn ixrac ərizəsi, “Yaşıl Dəhliz”, elektron məhkəmə, elektron satınalma, tikinti, biznesin başlaması, elektrik enerjisi, kreditlər, icra müqavilələri ilə bağlı əməliyyatlara rəsmi

icazə və giriş üçün “bir pəncərə” onlayn elektron portallar yaradılmışdır. Bundan başqa, əmlakın qeydiyyatı sahəsində də mühüm addımlar atılıb.

2021-ci ildə ölkə iqtisadiyyatına investisiyaların ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 10.9% artaraq 51.1%, xarici investisiyalar olmaqla 14.7 milyard ABŞ dolları təşkil edib. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə xarici investisiyaların ümumi investisiyalarda xüsusi çəkisi 4.8% artıb. Hesabat dövründə ölkə iqtisadiyyatına qoyulan xarici investisiyaların strukturunda əsas yeri birbaşa investisiyalar (63.9%) tutub. Bu dövrdə birbaşa xarici investisiyaların 83.5%-i neft sektoruna, qalan hissəsi isə qeyri-neft sektoruna yönəldilib [6, s. 148, 7, s. 76]. Xarici investisiyaların 20.4%-ni maliyyə kreditləri, 15.7%-ni neft bonusları və digər investisiyalar təşkil edib. 2020-ci ildə olduğu kimi Böyük Britaniya (1.6 milyard ABŞ dolları) 2021-ci ildə də Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiya yatıran ölkələr arasında 1-ci yerdədir. İlk üçlükdə yer alan ölkələrin siyahısı da dəyişməyib. Türkiyə ikinci (700.2 milyon ABŞ dolları), üçüncü yerdə isə ABŞ (507.4 milyon ABŞ dolları) qərarlaşıb. Hesabat dövründə birbaşa xarici investisiyaların ümumi həcmində Böyük Britaniyanın payı 33.1%, Türkiyənin payı 14.6%, ABŞ-ın payı 10.6% təşkil edib. 2021-ci ildə qeyri-neft sektoruna ən çox investisiya yatıran ölkələr ABŞ (144.7 milyon ABŞ dolları), Gürcüstan (82.4 milyon ABŞ dolları) və Birləşmiş Ərəb Əmirlikləri (71.1 milyon ABŞ dolları) olub [6, s. 148, 7, s. 76].

**Regionun investisiya potensialı**

Azərbaycanın investisiya potensialını aşağıdakı sahələrə ayırmaq olar: tranzit və nəqliyyat, kənd təsərrüfatı, sənaye, mədənçıxarma, bərpa olunan enerji və digər sənayelər. Bildiyimiz kimi, Azərbaycanın ən perspektivli və sürətlə inkişaf edən regionlarından biri Dağlıq Qarabağdır. Elmi məlumatlara əsasən, Dağlıq Qarabağın işğaldan azad edilmiş rayonlarında investisiya sahələrini beş mühüm seqmentə ayırmaq olar.

Hərbi infrastrukturun müasirləşdirilməsi, hərbi büdcənin möhkəmləndirilməsi, yeni hərbi qarnizonların yerləşdirilməsi və təkmilləşdirilməsi xərclərinin yaranması və digər müdafiə sahəsinə aid olan investisiyaları birinci seqmentə aid etmək olar.

İkinci seqment ilə əlaqələndirilən ərazinin minalardan təmizlənməsi prosesinə aid önəmli işlərdən biri olan Ağdam şəhərində keçirilən birinci Azərbaycan Milli Şəhər Forumunda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) sədr müavini Samir Poladov bildirib ki, 2023-ci ildə Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi Agentliyi (ANAMA) 40 min hektar ərazinin minalardan təmizlənməsini planlaşdırıb. Təmizlənən 8 min hektar ərazi mənzil tikintisi üçün ayrılacaq və investisiyaların artırılması prosesi daha da sürətlə artacaqdır [8].

Bazar, sosial və sənaye infrastrukturunun yaradılması ilə bağlı investisiyalar sahəsi üçüncü seqmenti əhatə edir. Burada nəqliyyat kommunikasiyalarının yaradılması (avtomobil yolları, hava limanları), su qurğularının tikintisi (su anbarı sisteminin tikintisi, dağ çaylarının tənzimləmə sistemləri), elektrik təchizatı obyektlərinin tikintisi (gücü 160 MVt olan 40 kiçik SES məhv edilib və onların elektrik həcmini kompensasiya etmək üçün 300 MVt-a qədər quraşdırılmış güc tələb olunacaq) kimi investisiyaların artımı tələb olunacaq [9, 10, s. 118]. “Yaşıl Enerji” konsepsiyası çərçivəsində “Suqovuşan” və “Güləbird” adlı 2 kiçik SES, eləcə də Kəlbəcər rayonunda Lev çayında 4 SES artıq bərpa olunub [9, 10, s. 123]. Yaxın 5 il ərzində 5 SES-in tikintisinin başa çatdırılması nəzərdə tutulur. Həmçinin “British Petroleum“ (BP) şirkəti Zəngilan rayonunda günəş elektrik stansiyasına (240 MVt) və Kəlbəcərdə külək elektrik stansiyasına (100 MVt) 200 milyon ABŞ dolları sərmayə qoymağı planlaşdırır [9, 10, s. 126]. Eləcə də, “ACWA Power“ şirkəti ilə birlikdə 240 MVt gücündə elektrik stansiyasının tikintisi, Xudafərin və Qız Qalası su anbarlarında (280 MVt) elektrik stansiyalarının İranla birgə tikintisi planlaşdırılır [9, 10, s. 117, 11, s. 176]. Qafqaz regionunda Azərbaycan ən böyük elektrik enerjisi ixrac edən ölkədir. Bərpa olunan enerjinin payı ümumi enerji istehsalında 17% təşkil edir. Məqsəd 2030-cu ilə qədər bərpa olunan enerjinin payını 30%-ə qədər çatdırmaqdır. Bununla bağlı 3 iri beynəlxalq enerji şirkəti ilə 3 külək və günəş elektrik stansiyasının (gücü 700 MVt) tikintisinə investisiya qoyuluşuna dair müqavilələr imzalanıb. Zəngəzur dəhlizi ilə Azərbaycandan Naxçıvan Muxtar Respublikasına və oradan Türkiyəyə

və İrana yeni elektrik xəttinin çəkilməsi nəzərdə tutulur [9, 10, s. 115]. Bu da gələcəkdə Türkiyəyə, Rusiyaya, Gürcüstana və İrana 1.6 milyard kilovatsaat elektrik enerjisi ixrac etməyə imkan verəcəkdir.

Dördüncü mühüm seqment sosial sahələrin ("ağıllı" şəhər və kəndlərin yaradılması və s.) inkişaf olunması üçün ayırılan investisiyaların artırılmasından ibarətdir. Ağıllı şəhər və kəndlərin, mehmanxana və iaşə obyektlərinin, mobil rabitə infrastrukturunun, 2G/3G/4G baza radiostansiyalarının və digər dövlət obyektlərinin yaradılması nəzərdə tutulur, eləcə də turizm biznesinin imkanları qiymətləndirilir.

Beşinci mühüm seqment iqtisadi fəaliyyətin maliyyələşdirilməsidir. Müasir kənd təsərrüfatı, kənd təsərrüfatı məhsullarının emalı, mədənçıxarma sənayesi prioritet investisiya sahələri sayılır. İsrailin müasir aqroparklara yatırdığı sərmayələr yeni damcı suvarma sistemlərinin yaradılmasına, bitkilərin və mal-qaranın yeni məhsuldar sortlarının yetişdirilməsinə, müasir aqrotexniki tədbirlərin həyata keçirilməsinə, kənd təsərrüfatı məhsullarının saxlanması və emalı yollarının yaradılmasına imkan verəcəkdir. Türkiyə sərmayələri isə 6000 hektar ərazini əhatə edəcək "Dost" ağıllı kənd təsərrüfatı parkının tikintisinə kömək edəcək. Aqroparkda 10 min baş damazlıq mal-qaranın yetişdirilməsi üçün kənd təsərrüfatı istehsalı yaradılacaq və bu da gələcəkdə ət və kənd təsərrüfatı məhsullarının ixracını artıracaqdır [9, 11, s. 176]. Həmçinin, bölgənin enerji və şəhər infrastrukturunun, mədəni irsinin və turizm potensialının bərpasına kömək edəcək İtaliya investisiyaları da mühüm töhfə verəcəkdilər. Məsələn, "Ansaldo Energia" şirkəti 5 milyon avroluq müqavilə əsasında Azərbaycanın Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında tikiləcək hər biri 110 kV-luq 4 yarımstansiyanı avadanlıqlarla təmin edəcəkdir [9, 11, s. 176]. İqtisadi müşahidəçilər uzunmüddətli perspektivdə Türk Şurası dövlətləri, Rusiya, Böyük Britaniya, Pakistan və iri beynəlxalq infrastruktur banklarının Azərbaycanda əsas xarici investorlar olacağını proqnozlaşdırırlar. Məsələn, Asiya İnkişaf Bankı 2022-ci ildən peşə təhsili və təlimi sisteminin inkişafı üçün 75 milyon dollar kredit ayırıb [12].

### *Nəticə*

Əsas beş investisiya seqmentlərinə əlavə olaraq kimya, metallurgiya və enerji sənayesi; qida və yüngül sənayesi; İKT sahəsi; parfümeriya məhsullarının, plastik qabların, tikinti materiallarının, məişət texnikası istehsalı investisiyaların cəlb edilməsi üçün potensial sahələr ola bilər. Nəticədə, etibarlıqla deyə bilərik ki, işğaldan azad edilmiş ərazilərin bərpa prosesi iqtisadiyyatımız üçün iki ciddi məsələni həll etməyə imkan verəcəkdır: pandemiya nəticəsində zəifləmiş iqtisadi artımı əhəmiyyətli dərəcədə sürətləndirmək və Azərbaycanda məşğulluq səviyyəsini xeyli yüksəltmək. Bundan başqa, Azərbaycanda yaradılmış əlverişli investisiya və biznes mühiti, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa işləri, regional inteqrasiya üçün geniş imkanların olması gələcək investisiya fəallığına töhfə verir. Təcrübə göstərdi ki, əcnəbilər risklərdən qorxaraq inkişaf etməkdə olan ölkələrdə qeyri-neft sektoruna investisiya qoymaqdan çəkinirlər. Buna baxmayaraq Azərbaycanda son illərdə daxili kapital iqtisadiyyatın əsas maliyyə mənbəyinə çevrilib və burada yerli investisiyalar bütün kapital qoyuluşlarının 60%-dən çoxunu təşkil edir. Qeyri-neft sektorunun maliyyələşdirilməsinin nəzərəçarpacaq dərəcədə artması milli iqtisadiyyatın şaxələndirilməsi və neftin dünya qiymətlərindəki dalğalanmalardan asılılığının azaldılması üçün əlverişli amildir.

### ƏDƏBİYYAT

1. https://www.stat.gov.az
2. Tofiq Hüseynov. “Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika“ 2015 (səh. 318)
3. Cəlil Kərimov, Tahirə Kərimova. “Beynəlxalq münasibətlər və xarici siyasət.“ 2013 (səh. 187)
4. Qəmbər Əliyev. “İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşməsi“ 2008 (səh. 157-173)
5. "Əsrin müqaviləsi" - 10 il 2004 (səh. 51-67)
6. Babayev İ.A. “Layihələrin idarə edilməsi üzrə dərs vəsaiti“ 2022 (səh. 148)

7. Əhmədova T.M. “İnvestisiya proseslərinin idarə edilməsi“ 2021 (səh. 76)
8. http://anama.gov.az
9. http://azerenerji.gov.az/newsdetail/1670
10. Hacıyev F.O. “Xarici kapitalın qeyri-neft sektorunun innovasiyalı inkişafına təsirinin gücləndirilməsi.“ 2022 (səh. 113-127)
11. Qəşəmoğlu Ə.Q. “Sosial-iqtisadi proseslərin idarə olunmasında ahəng yol nəzəriyyəsindən istifadə”, Monoqrafiya“ 2021 (səh. 176)
12. https://www.taxes.gov.az/az/

***Вугар Панах оглы Ахмедзаде***
***Магистр, Академия государственного управления при президенте Азербайджанской Республики***
***vuqarahmedzade639@gmail.com***
***Сулейман Мехрали оглы Гасымов***
***Научный руководитель, доктор экономических наук, профессор***

## Перспективные направления для будущих инвестиций в Азербайджане

***Резюме***

**Актуальность исследования -** В настоящее время основными факторами развития регионов Азербайджана являются их конкурентоспособность, определение направления деятельности для инвестиций и предполагаемый результат инвестиционной деятельности. Эти обстоятельства характеризуют актуальность выбранной темы исследования.

**Цель исследования -** Целью исследования является выявление взаимосвязи между инвестиционной деятельностью и развитием регионов Азербайджана, в частности Нагорного Карабаха.

**Методы исследования -** Методы исследования включают изучение и обобщение теории, системный подход к анализу, оценка влияния факторов внешней и внутренней среды, анализ деятельности регионов, а именно Нагорного Карабаха.

**Практическая значимость -** Практическая значимость результатов исследования обусловлена тем, что разработанный инструментарий анализа может быть использован при выборе направления развития региона, определении целевого показателя развития и его значения.

**Результаты исследования -** В данной статье мы пришли к выводу, что для обеспечения более устойчивого развития регионов, механизм инвестирования должен направляться на целенаправленные изменения внутренней среды.

**Степень разработанности проблемы -** Несмотря на наличие широкого круга исследований по данному вопросу, в научной литературе отсутствует методика определения цели развития региона на основе выбора показателя развития региона, для улучшения которого разрабатывается инвестиционный проект, что и являет собой степень разработанности проблемы.

**Научная новизна -** Научная новизна исследования заключается в предложении анализа инвестиционной деятельности регионов на основе всестороннего анализа деятельности регионов, включая оценку воздействия внешних и внутренних факторов, анализ показателей деятельности регионов, расчет показателя результативности деятельности, что позволит выявить оптимальное направление инвестирования, нацеленного на достижение развития региона.

***Ключевые слова: Инвестиции, инвестирование, инвестиционная деятельность, иностранные инвестиции, прямые инвестиции, инвестиционная деятельность, инвестиционная привлекательность, экономика, экономическая деятельность.***

*Vugar Panakh Ahmadzada*
*Master, The Academy Of Public Administration*
*Under The President Of The Republic Of Azerbaijan*
*vuqarahmedzade639@gmail.com*
*Suleyman Mekhrali Gasimov*
*Scientific leader, doctor of economic sciences, professor)*

## Prospective areas for future investment in Azerbaijan

***Summary***

**The relevance of the study -** At present, main factors in the development of Azerbaijan regions are their competitiveness, direction of investments activity and expected result of investment activity determination. These circumstances characterize the relevance of research topic chosen.

**The purpose of the study -** The purpose of the study is to identify the relationship between investment activity and the development of Azerbaijan regions, in particular Karabakh.

**Research methodology -** Research methods include the study and generalization of theory, systematic approach to analysis, assessment of influence of external and internal environment factors, regions activities analysis, namely Karabakh.

**Empirical significance of research -** The practical significance of the study results is the ability to use the developed analysis tool in choosing the direction of region development, determining the target development indicator and its value.

**Research results -** In this article we came to conclusion that the investment mechanism should be directed to targeted changes in internal environment in order to ensure more sustainable development of regions.

**The level of problem development -** Despite the existence of a wide range of studies on investment activity and evaluation of its effectiveness, there is no methodology in the scientific literature for determining the goal of regional development, investment project is being developed for its improvement, based on choice of the region development indicator and this, in term, demonstrates the degree of problem development.

**Scientific innovation -** The scientific novelty of the study focuses on proposal of the regional investment activity analysis based on comprehensive analysis of regional activity, which includes assessment of external and internal factors impact, regional performance indicators analysis, calculation of performance indicator and that, it term, will allow to identify the optimal direction of investment aimed on achieving the regional development.

***Keywords: Investments, investment activities, foreign investment, investment attractiveness, economy, economic activity***

**UOT: 338.012: 657.1; JEL: Q14; M4; M42**

***Cavid Ramiz oğlu MƏLİKLİ***
***Azərbaycan Kooperasiya Universitetinin doktorantı,***
***E-mail: meliklid@bk.ru***

# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATINDA DAXİLİ AUDİTİN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

***Xülasə***

**Tədqiqatın məqsədi** - Azərbaycanda kənd təsərrüfatında daxili auditin rolunun qiymətləndirilməsi prinsiplərinin müəyyənləşdirilməsi və fəaliyyət mexanizminin hazırlanmasından ibarətdir.

**Tədqiqatın metodologiyası** – analiz, sintez, ümumiləşdirmə kimi metodlardır, bunlarla bərabər məqalədə baxılan problemlərə dair müxtəlif tədqiqatçıların elmi əsərlərinə də istinad edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – hazırkı dövrdə ölkəmizdə kənd təsərrüfatında daxili auditin rolunun artırılması və obyektiv olaraq qiymətləndirtilməsi mexanzimlərinin işlənərək, tətbiq edilməsi ilə birbaşa əlaqəlidir.

**Tədqiqatın nəticələri** – qlobal transformasiyalar şəraitində və ərzaq təhlükəsizliyi problemlərinin çətinləşdiyi bir dövrdə kənd təsərrüfatının səmərəliliyinin təmin edilməsi məqsədilə müvafiq tövsiyələrin hazırlanması və təkliflərin verilməsidir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** baxımından, əsas elmi yenilik qlobal ərzaq təhlükəsizliyi və Azərbaycanda qeyri-neft sektorunun prioritetliyinin təmin edilməsi ilə bağlı hədəflər kontekstində, kənd təsərrüfatının inkişafının səmərəliliyinin gücləndirilməsi və bu məqsədlə auditin rolunun artırılmasının vacibliyinin elmi arqumentlərlə verilməsidir. Kənd təsərrüfatının maliyyə nəticələrinin yaxşılaşdırlması və bu sahəyə yönəldilən maliyyə resurslarından səmərəli, həm də təyinatı üzrə istifadə edilməsi, maliyyə hesabatlarının dürüstlüyünün və şəffaflığının qorunmasının zərurililiyi əsaslandırılmışdır. Məqalədə tədqiqat predmeti olan problemlərin həlli yolları üzrə təkliflər hazırlanmışdır.

***Açar sözlər: Azərbaycan, kənd təsərrüfatı, daxili audit, qiymətləndirmə, kənd təsərrüfatının inkişaf problemləri, kənd təsərrüfatının inkişaf perspektivləri, audit fəaliyyəti.***

## *Giriş*

Müasir dövrdə ölkənin demokratikləşməsi və iqtisadiyyatın müasirləşməsi, kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin yeni formalarının yaradılması ilə audit yoxlamasına ehtiyac artmışdır. Auditorların xidmətlərinə ehtiyac müxtəlif hallarla əlaqədardır. Bir çox kənd təsərrüfatı müəssisələrinin, xüsusən də fermer təsərrüfatlarının rəhbər və mütəxəssislərinin mühasibat uçotu sahəsində kifayət qədər bilikləri olmadığından bəzən bazar münasibətlərinin tələblərini nəzərə alaraq uçotun aparılmasına, maliyyə və vergi hesabatlarının hazırlanmasına auditorları dəvət edirlər. Audit çox vacib və strateji məsələlərin həlli üçün zəruri olan mexanizm və fəaliyyət kimi xarakterizə olunur. Audit vasitəsilə kənd təsərrüfatı sahələrinin fəaliyyətini tənzimləmək, nöqsanları aşkar etmək mümkündür. Kənd təsərrüfatının spesifik xüsusiyyətlərini nəzərə alaraq, onun fəaliyyətinin tənzimlənməsi, daha yüksək fəaliyyət mexanizmlərinin müəyyən edilməsi və ehtiyatların sistemli öyrənilməsi vəzifələrinin həyata keçirilməsində auditin səmərəli rolu vardır. Bundan əlavə, audit istehsalın səmərəli təşkilində və bu proseslərin təsərrüfat mexanizmlərinin səmərəliliyinə nail olmaqda, bu sahədə ehtiyat mənbələrinin və potensialın aşkar edilməsi istiqamətində mühüm funksiyaları yerinə yetirir [3, s. 77]. Kənd təsərrüfatının səmərəli inkişafı üçün audit daxili və kənar olur. Daxili auditorların funksiyalarına nəzarət xarakterli vəzifələrin yerinə yetirilməsi, maliyyə siyasətinə, marketinq tədqiqatlarına, vergi və digər maliyyə öhdəliklərinə ciddi riayət etməklə hesablamaların optimallaşdırılması, müəssisə rəhbərliyinin dəqiq və düzgün məlumatlarla təmin edilməsi, qərarların qəbulu üçün etibarlı məlumatların verilməsi, təhlükəsizlik aktivlərinə nəzarət edilməsi

və s. daxildir. Daxili auditdən fərqli olaraq, maliyyə hesabatlarının kənar auditinin məqsədi müəyyən dövr üçün aktivlərin, öhdəliklərin, maliyyə fəaliyyətinin etibarlılığının, tamlığının və düzgünlüyünün obyektiv qiymətləndirilməsi, qəbul edilmiş uçot siyasətinin mövcud qanunvericiliyə uyğunluğunun yoxlanılmasıdır.

**Müasir dövrdə Azərbaycanda kənd təsərrüfatında daxili audit sisteminin formalaşması və inkişaf etməsi proseslərinin tədqiqi**

Azərbaycanda daxili audit fəaliyyəti "Daxili audit haqqında" Qanunla tənzimlənir. Bu qanun Azərbaycanda bütün təsərrüfat subyektlərində, o cümlədən kənd təsərrüfatı müəssisələrində fəaliyyətin səmərəliliyinin artırılması üçün daxili audit xidmətinin təşkili və reallaşdırılması üzrə hüquqi əsasları, habelə, daxili auditorlara aid hüquq və vəzifələri müəyyənləşdirir [1]. Daxili audit sistemi müəssisənin fəaliyyətinin düzgünlüyünü qiymətləndirməyə imkan verən bir proses, tədbirlər toplusudur. Kənd təsərrüfatı müəssisələrində daxili audit sistemi aşağıdakı funksiyaları yerinə yetirir: 1) istehsal, maliyyə və kommersiya fəaliyyətinin təhlili; 2) həyata keçirilən hərəkətlərin qanuniliyinə uyğunluğunun yoxlanılması; 3) müəssisə əmlakının təhlükəsizliyinə nəzarət; 4) maliyyə-təsərrüfat pozuntularının, çatışmazlıqların, artıqlıqların və onlara şərait yaradan səbəblərin müəyyənləşdirilməsi; 5) uçotun və hesabatların etibarlılığının düzgünlüyünə nəzarət; 6) istehsalın səmərəliliyinin artırılması üçün təsərrüfatdaxili ehtiyatların aşkar edilməsi. Bütün bu işləri müəssisədə daxili auditor xidməti həyata keçirir. Bundan əlavə, müqavilə əsasında auditor təşkilatının işçiləri daxili auditor kimi dəvət oluna bilər. Kənd təsərrüfatı müəssisələrində daxili auditin əsas fəaliyyət istiqamətləri kimi aşağıdakılardır: daxili nəzarət sisteminin effektivliyinin və etibarlılığının təhlili; daxili auditin təkmilləşdirilməsi üzrə tədbirlərin işlənib hazırlanması; kənd təsərrüfatı müəssisəsində uçot və hesabatların qanunvericiliyə, tələblərə və mühasibat uçotu standartlarına uyğunluğunun yoxlanılması; mühasibat uçotu və hesabat prosedurlarının təkmilləşdirilməsi üzrə tədbirlərin işlənib hazırlanması [8, s. 83]. Daxili auditin məqsədi kənd təsərrüfatı müəssisəsinin idarəetmə sistemini təkmilləşdirmək və qarşıya qoyulan məqsədlərə nail olmaq üçün vəzifələrin səmərəli icrasına kömək etməkdir. Həmin vəzifələrin icrası idarəetmə qərarlarının qəbulundan asılıdır. İqtisadi və idarəetmə baxımından bu yanaşma bütövlükdə kənd təsərrüfatı istehsalının səmərəliliyinin artırılması amili kimi qəbul edilməlidir. İstehsalın səmərəliliyi, əlbəttə ki, hər bir konkret halda qəbul edilən qərarın keyfiyyətindən asılıdır. Qərarların düzgünlüyü və effektivliyi əsasən daxili auditin təşkilati strukturunun keyfiyyəti ilə müəyyən edilir [7, s. 151].

Qeyd edək ki, qərarların qəbulu üçün müəyyən məlumatlar olmalı və həmin məlumatların auditi aparılmalıdır (bax: şəkil 1).




***Şəkil 1. Kənd təsərrüfatı müəssisəsinin rəhbərliyi tərəfindən qərarların qəbulu üçün məlumat axınının auditi***

*Mənbə: müəllif tərəfindən tərtib edilib*

Daxili audit tərəfindən yaradılan məlumatların keyfiyyəti idarəetmə işçilərinin şirkətin fəaliyyətinin idarə edilməsi prosesində müvafiq qərarlar qəbul etmək qabiliyyətinə kömək edir və bütövlükdə səmərəli idarəetmə ehtiyatlarını müəyyən etmək imkanı verir. Effektiv qərarların qəbulu üçün müəssisənin sahibləri, investorlar, dövlət qurumları, maraqlı istifadəçilər, bildiyiniz kimi, etibarlı maliyyə məlumatlarına ehtiyac duyurlar. Müəyyən bir müəssisənin vəziyyəti və daxili nəzarət sistemi haqqında obyektiv məlumatların təqdim edilməsi daxili audit xidmətinin səlahiyyətinə daxildir. Kənd təsərrüfatında əsas vəsaitlərin səmərəli şəkildə idarə edilməsi yalnız audit prosedurlarının məcmusu olan effektiv mexanizm olduqda mümkündür. Bu baxımdan əsas vəsaitlərlə aparılan əməliyyatların auditi ümumi audit prosesinin ən vacib tərəfidir. Əsas vəsaitlərin auditinin aparılması məqsədilə bir sıra üsullar işlənib hazırlanmışdır. Daxili auditorlar daxili auditin məqsədindən, onun yoxlanılan obyektləri əhatə etmə dərəcəsindən asılı olaraq müxtəlif üsullardan istifadə edə bilərlər. Müəssisənin daxili auditinin tamlığına sənədli yoxlamalar vasitəsilə mühasibat uçotu və hesabat məlumatlarının etibarlılığını obyektiv qiymətləndirməklə nail olunur. Odur ki, daxili auditorlar təsərrüfat əməliyyatlarının xarakterini, qanuniliyini, məqsədəuyğunluğunu və etibarlılığını müəyyənləşdirmək üçün sənədlərin və mühasibat uçotu registrlərinin yoxlanılmasının müxtəlif metodoloji üsullarından istifadə edə bilərlər. Bunlara sənədlərin yoxlanılması, müqayisəsi, iqtisadi təhlil və digərləri daxildir [2, s.134]. Məlumdur ki, kənd təsərrüfatı müəssisələrinin inkişafı üçün dövlət tərəfindən müxtəlif maliyyələşdirmə növləri tətbiq edilir. Kənd təsərrüfatının dəstəklənməsinə ayrılan dövlət vəsaitlərindən istifadənin səmərəliliyinin artırılması üçün auditin aparılması zəruri şərtdir. Bu zaman auditin məqsədləri aşağıdakılardan ibarət ola bilər: 1) Sahənin inkişafının proqnoz (plan) göstəricilərinə nail olma dərəcəsinin qiymətləndirilməsi; 2) Dövlət dəstəyi ilə tikilmiş əsaslı vəsait qoyuluşu obyektlərindən istifadənin səmərəliliyinin müəyyən edilməsi; 3) Kənd təsərrüfatı müəssisələrinin bilavasitə maliyyə, maddi təminatı tədbirlərinin səmərəliliyinin müəyyən edilməsi, onların təmin edilməsi və istifadəsi qaydasına riayət olunmasının yoxlanılması; 4) Dövlət vəsaitlərinin istifadəsinə və proqram tədbirlərinin icrasına daxili nəzarət sistemlərinin etibarlılığının qiymətləndirilməsi; 5) kənd təsərrüfatının inkişafına mane olan əsas problemlərin həlli dərəcəsinin qiymətləndirilməsi; 6) Dövlət dəstəyi tədbirlərinin kənd təsərrüfatı istehsalının səmərəliliyinin artırılmasına və aqrar-sənaye kompleksinin inkişafının makroiqtisadi göstəricilərinə təsirinin qiymətləndirilməsi [5, s. 7].

Hər bir məqsəd üçün müəssisənin keyfiyyət və kəmiyyət xarakteristikasını, dövlət vəsaitlərindən istifadə prosesləri və nəticələrini qiymətləndirmək üçün müəyyən meyarlar seçmək lazımdır. Bunun əsasında əldə edilən nəticələr dövlət vəsaitlərindən səmərəli istifadə olunub-olunmamasının əyani sübutudur. Dövlət dəstəyi tədbirlərinin son məqsədlərini müəyyən edən məqsədli proqramlar, strategiyalar, inkişaf konsepsiyaları və digər sənədlər qiymətləndirmə meyarlarının seçilməsi üçün əsas mənbələr kimi çıxış edir. Daxili auditin aparıldığı digər bir istiqamət təchizatçılar və podratçılarla aparılan əməliyyatlarla bağlıdır. Təchizatçılar və podratçılarla hesablaşmaların daxili audit prosedurlarını həyata keçirərkən aşağıdakı vəzifələr həll edilməlidir:

– müxtəlif amillər nəzərə alınmaqla təchizatçıların və podratçıların seçiminin əsaslılığının qiymətləndirilməsi;

– qarşı tərəflərlə əməkdaşlığın hüquqi aspektlərinin və iqtisadi və hüquqi xarakterli mümkün xərclərin təhlili;

– ödəniş intizamının və qarşı tərəflərin və onlara olan borcların ödənilməsi (restrukturizasiyası) üsullarının qiymətləndirilməsi;

– təchizatçılara borcun artmasına səbəb olan şərtlərin öyrənilməsi və onların iqtisadi məqsədəuyğunluğunun qiymətləndirilməsi;

– təchizatçılar və podratçılarla ödənişlərin uçot qaydalarının və maliyyə hesabatlarının etibarlılığın qiymətləndirilməsi;

– təchizatçılar və podratçılarla hesablaşmaların təşkilinə dair kompleks məlumatların formalaşdırılması, onların mühasibat uçotu registrlərində vaxtında və düzgün əks etdirilməsi;

– kənd təsərrüfatı istehsalçılarına təchizatçılar və podratçılarla hesablaşmaların təkmilləşdirilməsi prosedurları üzrə operativ və keyfiyyətli idarəetmə qərarlarının qəbul edilməsində köməklik göstərilməsi [9, s. 90].

Təchizatçılar və podratçılarla hesablaşmaların daxili auditi prosesi aşağıdakı mərhələlərə bölünür: nəzarət prosedurlarının planlaşdırılması və onların həyata keçirilməsinə ilkin hazırlıq; yoxlama prosedurlarının nəticələrinə əsasən audit sübutlarının toplanması və təhlili; toplanmış məlumatların ümumiləşdirilməsi və əsaslandırılmış audit tövsiyələrinin hazırlanması. Daxili auditor kənd təsərrüfatı subyektlərinin təchizatçı və podratçılarla hesablaşmaları haqqında məlumat mənbələrindən istifadə etməyi bacarmalıdır. Onları iki qrupa bölmək olar: tədarükçülər və podratçılarla mühasibat uçotu və hesablaşmalar üçün əsas olan ilkin sənədlər və tədarükçülərdən alınan qiymətlilərin mühasibat uçotu hesablarında qeydlərin aparıldığı mühasibat registrləri. Təchizatçılar və podratçılarla hesablaşmaların daxili auditi müxtəlif hüquqi, mühasibat, maliyyə və digər məlumat mənbələrindən istifadəni nəzərdə tutur (bax: şəkil 2).




**Şəkil 2. Təchizatçılar və podratçılarla hesablaşmaların daxili auditinin məlumat mənbələri**

*(Mənbə: müəllif tərəfindən tərtib edilib)*

Təchizatçılar və podratçılarla hesablaşmaların təşkilinin düzgünlüyü və əsaslılığı üçün mühüm audit proseduru sənəd dövriyyəsinə nəzarətdir. Podratçılara borcun yaranması təhlil edilərkən, başa çatdırılmış işlərin və ya göstərilən xidmətlərin qəbulu və təhvil verilməsi aktlarını yoxlamaq lazımdır. Daxili auditorlar sənədlərdəki məlumatları yoxlayır, bunun nəticəsində satın alınan qiymətlilərin kəmiyyət və keyfiyyətində fərqlər olduqda təchizatçılara qarşı iddiaların əsaslılığını müəyyən edir. Uyğunsuzluqlar aşkar edildikdə, məsul işçilərdən izahat almaq və məlumat uyğunsuzluğunun səbəbini müəyyən etmək lazımdır. Kənd təsərrüfatı müəssisələri gündəlik fəaliyyətlərində məqsədlərinə müxtəlif yollarla nail olmaq qabiliyyətinə təsir edən xarici və daxili amillərlə qarşılaşır. Bu təsiredici amillər riskin yaranmasına, yəni müəssisənin məqsədlərinə çatmasına mane olan neqativ hadisələrin başvermə ehtimalına kömək edir.

Ən çox risk şəraitində fəaliyyət göstərən sahələrdən biri məhz kənd təsərrüfatıdır. Kənd təsərrüfatı sahəsinin üzləşdiyi risklər əhalinin yaşayışına və ümumilikdə ölkənin ərzaq təhlükəsizliyinə mənfi təsir etdiyindən onların daxili auditinin də aparılması zəruridir [4, s.102]. Hazırda daxili auditin ən məşhur yanaşmalarından biri riskə əsaslanan yanaşmadır. Bu gün bu yanaşma ölkəmizdə və xaricdə geniş istifadə olunur. Daxili auditin riskə əsaslanan yanaşması auditorların özlərinin ən əhəmiyyətli risklərini müəyyən etməkdən, habelə onun fəaliyyətinin və fəaliyyət göstərdiyi

sahənin xüsusiyyətlərini nəzərə almaqla müəssisəyə xas olan riskləri müəyyən etməkdən ibarətdir. Auditdə riskə əsaslanan yanaşma müxtəlif ölçülü müəssisələrə tətbiq olunur. Kənd təsərrüfatı müəssisələrində əhəmiyyətli risklər büdcə maliyyələşdirilməsi ilə bağlıdır. Çünki müəssisənin rəhbərliyi tərəfindən büdcə vəsaitlərinin məqsədyönlü istifadəsinə düzgün nəzarət edilməməsi müqavilə öhdəliklərinin pozulmasına və müvafiq olaraq dövlət tərəfindən maliyyə sanksiyalarına səbəb olacaqdır [6, s.122]. Risklərlə yanaşı, kənd təsərrüfatı müəssisələrinin daxili audit, mühasibat uçotu və daxili nəzarət sistemlərinin təşkilinə təsir edən bir sıra xüsusiyyətləri də nəzərə almaq lazımdır. Kənd təsərrüfatı müəssisələrinin xüsusiyyətlərini iki qrupa bölmək olar. Birinci qrup xüsusiyyətlər kənd təsərrüfatının özünün, yəni, heyvanlara və bitkilərə xas olan təbii bioloji xüsusiyyətlərlə bağlıdır. İkinci qrup xüsusiyyətlər kənd təsərrüfatının sənaye kimi fəaliyyət göstərməsi şərtləri, bu sahənin tənzimlənmə dərəcəsi, dövlət dəstəyinin mövcudluğu və səviyyəsi ilə bağlıdır. Burada daxili auditin təşkilində aşağıdakı xüsusiyyətləri ayırmaq olar: 1) işin mövsümi xarakteri nəzərə alınmaqla auditin planlaşdırılması; 2) dövlət siyasətində kompensasiyaların və subsidiyaların verilməsi qaydasında dəyişiklik, habelə onlardan istifadəyə dövlət nəzarəti; 3) təbii, iqlim və coğrafi şəraitdən asılılıq, o cümlədən kənd təsərrüfatı müəssisələrinin ərazisinin uzaqlığı və s.

**Azərbaycanda kənd təsərrüfatında daxili auditin rolunun artırılması perspektivləri və istiqamətləri**

Qeyd edək ki, həm müəssisədə mühasibat uçotunun və daxili nəzarətin təşkili, həm də daxili auditin planlaşdırılması və həyata keçirilməsi zamanı bir sıra vacib amillər nəzərə alınmalıdır. Əhəmiyyətli risklərin təsirinin qarşısını almaq üçün müəssisə risklərin idarə edilməsi sistemi yaratmalıdır. Müəssisədə tətbiq olunan daxili audit alətləri və üsulları risk amillərinin təsirindən, şirkətin və bütün sənayenin fəaliyyətindən asılı olaraq müəyyən edilir. Bu zaman nəzarətin həyata keçirilməsi üzrə vəzifələr müxtəlif şöbələr arasında bölüşdürülə bilər. Yəni, nəzarətin bir şöbə tərəfindən həyata keçirilməsi vacib deyil. Ancaq yadda saxlamaq lazımdır ki, nəzarət sisteminin düzgün işləməsinin həyata keçirilməsi və təşkili üçün məsuliyyət müəssisənin rəhbərliyinin üzərinə düşür. Müəssisələrin səhmdarları, ilk növbədə, öz investisiyalarının risklərini minimuma endirmək üçün səmərəli fəaliyyət göstərən daxili nəzarət sistemində maraqlıdırlar. Kənd təsərrüfatı müəssisələrində kəmiyyət riskinin qiymətləndirilməsində tətbiq olunan ən geniş yayılan üsul statistik metoddur ki, bunun üçün müəssisənin məlumat bazalarından istifadə olunur. Zərər ehtimalını aşağıdakı düsturdan istifadə etməklə tapmaq olar:

$$R_s = \frac{R_0}{R_1}$$

Burada: $R_s$- müəyyən itki səviyyəsinin başvermə ehtimalı; $R_0$ – baş verən itkilərin həcmi; $R_1$- planlaşdırılan itkilərin ümumi həcmi.

Müəyyən bir müəssisədə keçmişdə müəyyən risklər haqqında kifayət qədər məlumat bazası olduqda, şirkət üçün gələcəkdə belə riskləri qiymətləndirmək daha asan olur.

Məlumdur ki, daxili auditorların bir sıra vəzifələri vardır. Bunlar məqsədlərə çatmaqda müəssisənin rəhbərliyinə kömək etmək, biznes imkanlarını genişləndirmək, riskləri azaltmaq və əməliyyat proseslərini optimallaşdırmaq, müəyyən məsələlər üzrə məsləhətlər vermək və zəmanət verməkdir. Daxili audit şöbəsi risklərin qiymətləndirilməsi əsasında daxili nəzarətin əsas vəzifələrinin həyata keçirilməsinə öz töhfəsini verir.

Kənd təsərrüfatı müəssisələrində auditin əhatə etdiyi məsələlərdən biri gəlir və xərclərin uçotunun yoxlanılmasıdır. Gəlirlərin uçotunun yoxlanılması zamanı auditorun vəzifələrinə bunları aid etmək olar:

1. Mühasibat (maliyyə) hesabatlarının yekun maliyyə nəticəsinin tərkib hissələrinin sintetik və analitik uçot məlumatlarına uyğunluğunun qiymətləndirilməsi;
2. Müəssisə tərəfindən aparılan mühasibat uçotu əməliyyatlarının mühasibat uçotu sahəsində mövcud qanunvericiliyə uyğunluğunun təsdiqi;
3. Satışdan əldə edilən mənfəətin (zərərin) düzgünlüyünə nəzarət;

4. Digər əməliyyatlardan mənfəətin (zərərin) formalaşması və əks etdirilməsinin etibarlılığının yoxlanılması;
5. Xalis mənfəətin formalaşmasının dəqiq uçotunun aparılması;
6. Təxirə salınmış gəlirin səhvsiz uçotu və s.

Maliyyə nəticələrinin formalaşmasının auditi zamanı məlumat mənbələri kimi aşağıdakılardan istifadə oluna bilər: 1) təşkilati və inzibati sənədlər: təsis sənədləri (fəaliyyət növü, mənfəətin bölüşdürülməsi üsulu haqqında məlumat), təsisçilərin yığıncaqlarının protokolları (mənfəətin bölüşdürülməsinə dair qərarlar), uçot siyasəti; 2) ilkin sənədlər: malların satışı, xidmətlərin göstərilməsi üzrə əməliyyatların uçotu üçün əsas olan sənədlər, istehsal xərclərinin uçotu və digər ilkin sənədlər; maliyyə nəticələri; 3) analitik və sintetik uçot üçün registrlər; 4) hesabat sənədləri: balans hesabatı, mənfəət və zərər hesabatı, kapitalda dəyişikliklər haqqında hesabat [10, s.126].

Auditor maliyyə hesabatlarının etibarlılığına təsir edən xətaların başvermə ehtimalını müəyyən etmək üçün yoxlanılan müəssisədə qəbul edilmiş mühasibat uçotu və daxili nəzarət sistemlərini qiymətləndirməlidir. Audit idarəetmədə mühüm rol oynayır. İdarəetmə sistemində audit informasiyanın əldə edilməsi ilə idarəetmə qərarının qəbulu arasında aralıq yeri tutur. Planlaşdırma mərhələsində auditorun növbəti addımı auditin əsas sahələrini müəyyən etmək və kənd təsərrüfatı müəssisəsində gəlir və xərclərin uçotunu yoxlamaq üçün audit proqramını tərtib etməkdir. Audit proqramı aşağıdakı əsas müddəaları müəyyən edir: auditin məqsədi; müəssisənin əsas iş sahələri və yoxlanılacaq uçot obyektləri; təftişin təxmini müddəti və s. Audit proqramı zəruri audit prosedurlarının ardıcıl şəkildə həyata keçirilməsini və onların icraçılarını göstərir. Belə ki, kənd təsərrüfatı müəssisələrində gəlir və xərclərin auditinin ilkin mərhələsi həmin müəssisələrin fəaliyyəti ilə ümumi tanışlıq, habelə auditin planlaşdırılması və müfəssəl audit proqramının tərtib edilməsidir. Audit kənd təsərrüfatı müəssisəsinin mühasibat uçotu ilə tanışlıqdan başlayır. Bu zaman yoxlanılacaq ilkin sənədlər aşağıdakılardır: 1) müəssisənin uçot siyasəti haqqında sənədi; 2) hazır məhsulların satışı üzrə müqavilələr; 3) dövriyyə balansları; 4) müvafiq hesab kartları; 5) mühasibat hesabatları və s.

Qeyd edək ki, müəssisədə gəlir və xərclərin auditi aparılarkən aşağıdakı aspektləri yoxlamaq lazımdır: əsas fəaliyyətdən gəlirlərin hesablanmasının etibarlılığını və vaxtında olmasını; hazır məhsulun satışı üzrə xərclərin uçotda düzgün əks etdirilməsini; satılmış hazır məhsulların maya dəyərinin obyektiv hesablanmasını. Auditin xüsusi mühüm mərhələsi müəssisənin mühasibat uçotunda və hesabatında xərc və gəlir maddələrinin əks etdirilməsinin düzgünlüyünün yoxlanılmasıdır. Bu bölmənin auditi auditor tərəfindən nəzərə alınmalı olan məsələlərin siyahısının tərtib edilməsi ilə başlanır. Xərclərin auditi proqramına aşağıdakılar daxildir:

1. Müəssisənin uçot siyasətinin normativ sənədlərə uyğunluğu;
2. Material məsrəflərinin düzgün bölüşdürülməsi;
3. Əsas vəsaitlər üzrə amortizasiyanın qanuniliyi;
4. Dolayı xərclərin əsaslılığı və onların obyektlər üzrə bölüşdürülmə yolları.

Bu zaman məhsulların (işlərin, xidmətlərin) maya dəyərini formalaşdıran xərcləri müəyyənləşdirmək lazımdır. Bu məsrəflər iqtisadi məzmununa görə aşağıdakı qruplara bölünür:

- material xərcləri;
- əmək xərcləri;
- əsas vəsaitlərin köhnəlməsi xərcləri;
- ayırmalar və digər xərclər (vergilər, rüsumlar).

## *Nəticə*

Göründüyü kimi, daxili audit kənd təsərrüfatı müəssisələrinin fəaliyyətini yaxşılaşdırmaq, daxili nəzarət sistemini gücləndirmək və müəssisə idarəetməsinin səmərəliliyini artırmaq imkanı verən effektiv vasitədir. Müasir böhran şəraitində daxili audit xidmətinin işi xüsusi əhəmiyyət kəsb edir. Çünki fəaliyyəti çiçəklənən təşkilatlar belə, rəhbərlərinin səhvləri ictimaiyyətə məlum olarsa, onların nüfuzuna xələl gələ bilər. Məhz buna görə də nəzarət birbaşa idarəetmə sistemi ilə bağlıdır.

Daxili audit xidmətinin strukturu ona həvalə edilmiş vəzifələri həll etmək üçün şəraitə maksimum uyğunlaşdırılmalıdır. Bunun üçün bir sıra hazırlıq tədbirləri həyata keçirmək lazımdır:

– həlli tələb olunan tipik sahələr üzrə məqsəd və vəzifələri təhlil etmək və qruplaşdırmaq;
– müəssisənin statusunın, tabeçiliyinin, maliyyələşmə mənbələrinin müəyyən edilməsi;
– xidmətin strukturunun inkişafı;
– işçilərin ixtisas və təcrübəsi, vəzifə təlimatları nəzərə alınmaqla xidmətin ştat cədvəlinin işlənib hazırlanması.

Bundan əlavə, daxili audit standartları sistemini hazırlamaq lazımdır. Kənd təsərrüfatı müəssisəsində səmərəli təşkil edilmiş daxili audit xidməti müəyyən edilmiş uçot qaydasına əməl olunmasına və əmlakın təhlükəsizliyinə, habelə ondan effektiv istifadəyə nəzarətin əsas həlqəsinə çevrilə bilər.

## ƏDƏBİYYAT


1. "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanunu. – Bakı, 22 may 2007-ci il.
2. Məlikli, C.R. Müasir dövrdə Azərbaycanın kənd təsərrüfatında auditin təkmilləşdirilməsinin əsas istiqamətləri. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2021 (iyul-avqust), – s.133-142.
3. Məlikli, C.R. Qlobal risklər şəraitində kənd təsərrüfatının səmərəliliyinin artırılmasında auditin əhəmiyyəti. "İnformasiya cəmiyyətində iqtisadiyyatın davamlı inkişaf problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Sumqayıt Dövlət Universiteti, 16-17 dekabr 2021-ci il, – s.75-79.
4. Şərifov, Q.Q., Fikrətzadə, F.F. Kənd təsərrüfatında risklərin qiymətləndirilməsinin metodoloji əsasları. Kənd təsərrüfatının iqtisadiyyatı. – 2020. № 1 (31), – s.101-110.
5. Валеев, А.Р. Методика аудита эффективности использования государственных средств, направляемых на поддержку агропромышленного комплекса / А. Р. Валеев // Вестник Казанского государственного аграрного университета. – 2013. – Т. 8. № 3(29). – с. 5-9.
6. Грабивчук, В.Я. Риск-ориентированный внутренний аудит: сущность, условия применения и актуальность для предприятий сельского хозяйства / В. Я. Грабивчук, И. Г. Пивень // Экономика и бизнес: теория и практика. – 2020. № 9-1(67), – с. 121-123.
7. Демьяненко, Т.Е. Внутренний аудит в сельскохозяйственных предприятиях: организационно-управленческий аспект / Т. Е. Демьяненко // Облік і фінанси. – 2017. № 3(77), – с. 148-153.
8. Кащеева, К.В. Рекомендации по организации внутреннего аудита в сельскохозяйственных организациях / К.В. Кащеева, З.И. Кругляк // Вестник научно-технического творчества молодежи Кубанского ГАУ. – 2017. № 1, – с. 82-88.
9. Мусаев, Т.К. Внутренний аудит расчетов с поставщиками и подрядчиками в сельскохозяйственных организациях / Т. К. Мусаев // Известия Дагестанского ГАУ. – 2022. № 1(13), – с. 89-96.
10. Шолпанбаева, К.Ж. Методика проведения аудита в сельскохозяйственных предприятиях / К.Ж. Шолпанбаева, А.А. Апышева, Н.К. Шайханова // Проблемы агрорынка. – 2019. № 4, – с. 123-127.



***Джавид Рамиз оглу Меликли***
***докторант Азербайджанского Университета Кооперации***
***E-mail: meliklid@bk.ru***


### Оценка роли внутреннего аудита в сельском хозяйстве Азербайджана

***Резюме***


**Цель исследования** – обеспечить объективную оценку роли внутреннего аудита в сельском хозяйстве Азербайджана в современном периоде.

**Методология исследования** – состоит из общеизвестных методов - анализа, синтеза, сравнения и обобщения. Кроме того, учтены научные взгляды ряда исследователей, изучающие объективную роль внутреннего аудита в повышении эффективности сельского хозяйства.

**Практическое значение исследования** – заключается в эффективном применении соответствующих механизмов и инструментария внутреннего аудита в сельском хозяйстве с целью усиления финансовой дисциплины и рационального использования финансовых ресурсов в данной сфере.

**Результаты исследования** – отражены в ряде предложений и рекомендаций по усилению роли внутреннего аудита в сельском хозяйстве Азербайджана.

**Оригинальность и научная новизна исследования** – обоснование углубления роли внутреннего аудита по усилению контрольной системы в сфере финансов и эффективного использования ресурсов сельского хозяйства Азербайджана, которые являются одной из приоритетных отраслей ненефтяного сектора экономики страны. Отмечена необходимость выявления допущенных финансовых просчётов в сельском хозяйстве путём повышения эффективности в контрольных механизмах внутреннего аудита. Подготовлен ряд практичных предложений по усилению роли внутреннего аудита в сельском хозяйстве Азербайджана.

***Ключевые слова: Азербайджан, сельское хозяйство, внутренний аудит, оценка, проблем развития сельского хозяйства, перспективы развития сельского хозяйства, аудиторская деятельность.***

***Javid Ramiz Malikli***
***doctoral student of Azerbaijan University of Cooperation***
***E-mail: meliklid@bk.ru***

**Assessment of the role of internal audit in agriculture of Azerbaijan**

***Summary***

**The purpose of the research** is to provide an objective assessment of the role of internal audit in Azerbaijan's agriculture in the modern period.

**Research methodology -** consists of well-known methods - analysis, synthesis, comparison and generalization. In addition, the scientific views of a number of researchers studying the objective role of internal audit in improving agricultural efficiency are taken into account.

**The practical significance of the research** is the effective use of appropriate mechanisms and tools of internal audit in agriculture in order to strengthen financial discipline and rational use of financial resources in this area.

**The results of the research** are reflected in a number of proposals and recommendations for strengthening the role of internal audit in Azerbaijan's agriculture.

**The originality and scientific novelty of the research** is the justification for deepening the role of internal audit in strengthening the control system in the field of finance and effective use of agricultural resources of Azerbaijan, which are one of the priority sectors of the non-oil sector of the country's economy. The need to identify financial miscalculations in agriculture by increasing efficiency in the control mechanisms of internal audit is noted. A number of practical proposals to strengthen the role of internal audit in Azerbaijan's agriculture are given.

***Keywords: Azerbaijan, agriculture, internal audit, assessment, problems of agricultural development, prospects for agricultural development, audit activity.***

UOT 338.2

*Günay Cahangir qızı ƏSƏDOVA*
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*
*günay.asadova30@gmail.com*

# İDARƏETMƏ UÇOTUNUN TƏŞKİLİ PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

*Xülasə*

**Tədqiqatın məqsədi-**İdarəetmənin müasir tələblərinə müvafiq olaraq idarəetmə uçotunun nəzəri qaydalarının, onun inkişafının əsas istiqamətlərinin tədqiqi və ümumiləşdirilməsidir.

**Tədqiqatın metodologiyası-**İdarəetmə uçotunun, idarəetmə təhlilinin və digər əlaqəli iqtisad elmlərinin nəzəriyyəsi üzrə ölkə və xarici müəlliflərin əsərlərində nəzərdən keçirilmiş nəzəri və elmi-metodiki qaydalar, elmi konfransların materialları tədqiqatın nəzəri və metodoloji əsasları qismində çıxış edir. Mövzunun tədqiqi prosesində həm ümumelmi (dialektika, təhlil, sintez, induksiya, deduksiya, oxşarlıq və s.), həmçinin də elmi məlumatların sistemləşdirilməsinin xüsusi metodlarından (tədqiqat, müqayisə, nəzəri və praktiki materialların ümumiləşdirilməsi, kompleks təhlil və sistemli yanaşma) istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti-**Aparılmış tədqiqatın nəticələri, formalaşdırılmış təklif və tövsiyələr idarəetmə uçotunun nəzəriyyəsi və praktikasının gələcək inkişafı üçün nəzərə alına və tətbiq oluna bilər. Alınmış nəticələrin tətbiqi tam informasiya sisteminin yaradılmasına və bütövlükdə müəssisənin deyil, eləcə də onun struktur bölmələrinin (məsuliyyət mərkəzlərinin) fəaliyyətinin səmərəliliyinin düzgün qiymətləndirilməsinə imkan verəcəkdir.

**Tədqiqatın nəticələri-**İdarəetmə uçotunun düzgün qurulması müəssisənin uğurlu fəaliyyətini, onun strateji inkişafının yüksək tempini təmin edir, menecerə operativ qaydada zəruri uçot və analitik informasiyanı əldə etməyə, xərclərin, kommersiya və bütün fəaliyyətin düzgün idarə edilməsi nəticəsində təşkilatın rəqabət üstünlükləri əldə etməsinə imkan yaradır.

**Tədqiqatın optimallığı və elmi yeniliyi-**İdarəetmə uçotunun müasir vəziyyətinin xarakteristikasının verilməsi. İqtisadi subyektlərdə idarəetmə uçotunun təşkili problemlərinin təsnifləşdirilməsi, onun təkmilləşdirilməsi üçün mühüm zəruri aspektlərin- yeni idarəetmə uçotu metodlarından istifadə olunması.

***Açar sözlər: idarəetmə uçotu, xərclər, informasiya, idarəetmə, təşkilati struktur, büdcələşmə.***

## *Giriş*

Müasir təsərrüfatçılıq şəraitində idarəetmə uçotunun nəzəri və təşkilati-metodiki problemləri bu sahədə tədqiqatlar aparan mütəxəssislərin diskussiya obyektinə çevrilmişdir. Aparılan tədqiqat xarakteli işlər sözügedən problemlərin və onların səbəblərinin müəyyən edilməsinə istiqamətlənmişdir. Vurğulamaq yerinə düşər ki, həmin problemlərin yaranmasının obyektiv və subyektiv tərəfləri mövcuddur. Tədqiqat həmin problemlərin ayrılıqda öyrənilməsini, onlar arasında qarşılıqlı əlaqələrin təhlilini və qiymətləndirilməsini əhatə etməlidir. Fikrimizcə, idarəetmə uçotu sisteminin təkmilləşdirilməsi onun fəaliyyəti üzrə problemlərin həllinə fokuslanmalıdır ki, bu, bütövlükdə təşkilatların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə zəmin yaradacaqdır. Məhz bu baxımdan, bu sistemdə mövcud əsas problemləri bilmək lazımdır. Geniş elmi ədəbiyyatların, ölkə və xarici müəlliflərin, o cümlədən, Abbasov Q.Ə., Səbzəliyev S.M., Quliyev V.M., Druri K., İvaşkeviç V.B., Karpova T.P., Nikolayeva S.A., Paliy V.F., Şeremet A.D. və digərlərinin nəşr və tədqiqatlarının təhlili əsasında ölkənin mövcud idarəetmə uçotu sistemi üçün müəssisənin menecerləri tərəfindən səmərəli idarəetmə qərarlarının qəbul edilməsi imkanlarını məhdudlaşdıran xarakterik nöqsanlar mövcuddur.

**İdarəetmə uçotunun mahiyyəti**

Bütövlükdə dünya, eləcə də ölkə iqtisadiyyatının inkişaf tempi müəssisələrin qarşısında vəzifələrin müəyyən edilməsinə istiqamətlənməsinin mürəkkəbliyini nəzərdə tutur. Mühüm taktiki və

strateji inkişaf məsələlərini həll etmək, hesablamaları əsaslandırmaq və bu əsasda operativ qərar qəbul etmək uçotu, planlaşdırmanı, nəzarəti və idarə olunan obyektlər kəsiyində təsərrüfat fəaliyyətinin nəticələri haqqında məlumatların təhlilini həyata keçirməyə imkan verən çevik idarəetmə sisteminin yaradılması şəraitində mümkündür. İdarəetmə uçotu kompleks və sistemli qaydada müxtəlif metodlardan istifadəyə əsaslanır. Belə ki o, bir neçə tətbiqi iqtisad elmlərini – planlaşdırma, istehsalın təşkili və idarə olunması, normalaşdırma, operativ uçot, idarəetmə təhlili və digərlərini birləşdirir. Bu üstünlük onunla izah olunur ki, müxtəlif metodlardan istifadə zamanı yeni biliklərə və texnologiyalara giriş edilir [8].

İdarəetmə uçotu sisteminin qurulması idarəetmənin məqsəd və vəzifələri nəzərə alınmaqla hər bir müəssisənin daxili işidir. Vurğulamaq yerinə düşər ki, hər bir müəssisədə idarəetmə uçotunun təyinatı fərqlidir. Buna görə də, onun məqsədlərindən danışarkən yadda saxlamaq lazımdır ki, hər bir müəssisədə idarəetmə texnologiyaları qismində öz məqsədlərinə çatmaq, özlərinin metodiki alətlərindən istifadə etmək, müəssisə daxilində növmüxtəlifliyi və çoxsaylı amillərdən asılılıqda mövcud təşkilati struktura əsaslanan istənilən zəruri uçot sistemlərini yarada bilər.

Uçot, informasiya təminatı, nəzarət və uzlaşdırmanın kəsişməsində yerləşməklə idarəetmə uçotu müəssisənin idarə olunmasında mühüm yer tutur. O, nəzarət-idarəetmə və informasiya təminatı funksiyalarını özündə vahid sistem kimi əlaqələndirir, onları inteqrasiya edir və uzlaşdırır, idarəetməni yüksək keyfiyyət səviyyəyə çatdırır. İdarəetmə uçotunun yaranmasının zəruriliyi onunla şərtlənmişdir ki, müasir iqtisadi subyektlər bütövlükdə və onun ayrı-ayrı struktur bölmələri kəsiyində fəaliyyətin çevik qiymətləndirilməsi və təhlili sisteminə ehtiyac duyurlar. İdarəetmə uçotu yalnız baş vermiş faktlar haqqında məlumatlara əsaslanmır, eyni zamanda proqnoz informasiyalara da ehtiyac duyur. Bundan savayı, mühasibat hesabatı müəyyən edilmiş dövrdə tərtib edilməlidir, biznesin aparılması hadisələrin operativ qiymətləndirilməsini tələb edir. Əgər maliyyə uçotu sistemində ümumqəbuledilmiş prinsip və qaydalardan istifadə olunursa, idarəetmə uçotunun aparılması qaydaları müəssisələr tərəfindən müəyyən edilir.

**İdarəetmə uçotunun təşkili sahəsində çatışmazlıqlar**

İdarəetmə uşotunun təşkilində mövcud çatışmazlıqların müəyyən edilməsi ilk növbədə bütövlükdə təsərrüfat subyektinin, eləcə də onun ayrı-ayrı struktur bölmələrinin idarə olunması sistemində boşluqların müəyyən edilməsinə fokuslanmışdır. Sözsüz ki, mövcud çatışmazlıqların qiymətləndirilməsinə istiqamətlənmiş aparılan tədqiqatların nəticələri əsasında idarəetmə uçotu sahəsində boşluqların aradan qaldırılması üzrə praktiki tədbirlər hazırlanmalı və tətbiq edilməlidir. Son nəticədə onlar iqtisadi subyektlərin fəaliyyətinin maliyyə nəticələrinin və onların maliyyə vəziyyətinin yaxşılaşmasına müsbət təsir göstərəcəkdir. İndi müəssisələrdə idarəetmə uçotunun təşkilində özünü göstərən çatışmazlıqları ətraflı nəzərdən keçirək.

*1. İdarəetmə uçotunun təşkilində boşluqlar:*

- əksər müəssisələrdə idarəetmə uçotu təşkil edilməmişdir və ya aşağı səviyyədədir ki, bu da neqativ hal hesab olunmalıdır. Belə ki, müəssisədə özünü təmzimləmənin xüsusi müxanizmi qismində çıxış edərək o, idarəetmə konturunda əks əlaqəni təmin etmir;
- əksər müəssisələrdə təşkilati strukturunu nəzərdən keçirdikdə məlum olur ki, yüksək həlqədə idarəetmə funksiyalarının hədsiz cəmləşməsi və idarəetmə uçotu sisteminin belə struktura həvalə edilməsi hər cür məntiqdən uzaqdır - fəaliyyətin bütün istiqamətləri üzrə səmərəli nəzarətin təşkilinə imkan vermir, diqqətin cəmlənməsinə maneçilik yaradır;
- ixtisaslı kadrların çatışmazlığı, əmək resurslarının aşağı səviyyəsi.

Qeyd etmək lazımdır ki, iqtisadi subyektin tam təşkilati strukturu aşağıdakı aspektlərdən asılıdır:

- istehsalın xarakteri və onun sahə xüsusiyyətləri;
- büraxılan məhsulların tərkibi, onun hazırlanması texnologiyası;
- istehsalın miqyası və tipi;
- müəssisənin texniki silahlanması səviyyəsi;
- idarəetmənin təşkili formaları (xətti, xətti-funksional, matris);

- idarəetmə aparatının strukturu və istehsalın ierarxik strukturunun uyğunluğu;
- mərkəzləşdirilmiş və demərkəzləşdirilmiş idarəetmə formaları arasında nisbət;
- idarəetmə işlərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsi;
- işçilərin ixtisas səviyyəsi.

Əksər müəssisələrin təşkilati strukturu xətti-funksionaldır. Bu model funksional rəhbərlərin yalnız öz bölmələrinin idarə olunmasını nəzərdə tutur. Bu struktur stabil şəraitdə uğurla işləyir. Fikrimizcə, idarəetmə uçotu sisteminin tətbiqindən əvvəl idarəetmənin təşkili strukturunun təkmilləşdirilməsi tələb olunur ki, idarəetmənin divizional strukturuna keçid daha səmərəli istiqamət hesab oluna bilər. O, əksər şirkətlərin idarə olunması təcrübəsində istifadə olunur və aşağıdakı üstünlüklərə malikdir: ətraf mühitin dəyişməsinə reaksiyanı artıran bölmələrin hüquqlarının genişlənməsi ilə təşkilatın çevikliyinə və adaptasiyasına, rəhbərlərin gəlir əldə olunmasına məsuliyyətini artırmağa, eyni zamanda, ayrı-ayrı bazarlara, məhsullara və ya istehlakçılara daha çox diqqət yetirilməsinə imkan verir.

İdarəetmənin bu və ya digər obyektlərinin və funksiyalarının məcmusu idarəetmə uçotunun müxtəlif konsepsiyalarını nəzərdən keçirməyə imkan verir: dar mənada (uçot funksiyası, idarəetmə obyekti qismində xərclər götürülür, predmet xərclərin uçotu hesab edilir), geniş-(idarəetmənin bütün sisteminin informasiya əsası hesab olunur, idarəetmənin bütün funksiyalarını və obyektlərini əhatə edir).

İdarəetmə obyektlərinin qeyd edilən təsnifatı bazasında belə bir fikri təsdiq etmək olar ki, təşkilatın idarə olunmasının əsası qismində çıxış edən idarəetmə uçotu aşağıdakı məsələlərə münasibətdə idarəetmə funksiyalarının həyata keçirilməsini nəzərdə tutur:

- təşkilatın fəaliyyətini təşkil edən daxili biznes-proseslərin məcmusu;
- təşkilatın fəaliyyətində iştirak edən struktur bölmələr;
- istehsal proseslərində iştirak edən müxtəlif resurslar;
- təşkilatın fəaliyyətini xarakterizə edən göstəricilər.

Texniki aspektdə idarəetmə uçotunun tətbiqi aşağıdakıları nəzərdə tutur:

- iqtisadi subyektin təşkilati strukturunun dəyişməsi və məsuliyyət mərkəzlərinin formalaşdırılması;
- idarəetmə uçotu məqsədi üçün hesablar planının hazırlanması;
- büdcələşmə sisteminin yaradılması;
- firmadaxili idarəetmə hesabatının formalaşdırılması.

Məsuliyyət mərkəzlərinin yaradılması, müəssisədə səmərəli idarəetmə uçotu sisteminin yaradılması zəruri və mütləq şərtdir. Müəssisənin təşkilati strukturunun dəyişməsi və məsuliyyət mərkəzlərinin yaradılması yalnız funksional vəzifələrin yerinə yetirilməsi üzrə deyil, əldə edilmiş nəticələrə görə məsuliyyəti nəzərdə tutur. Məsuliyyət mərkəzlərinin yaradılması zamanı müəssisənin texnoloji strukturu diqqətə alınmalıdır, daha sonra onun şaquli və üfüqi kəsiyi fərqləndirilir. Birinci məsuliyyət mərkəzə görə cavabdeh olan hər bir şəxsin fəaliyyət dairəsi ilə məhdudlaşır, ikinci idarəetmə qərarını qəbul edən şəxsin səlahiyyətləri ierarxik pilləni müəyyən edir. Məsuliyyət mərkəzlərinin şaquli və üfüqi kəsiyi ümumi məqsədə nail olmaq məqsədi ilə mərkəzləşdirilmiş rəhbərliyin struktur bölmələri rəhbərlərinin mümkün təşəbbüslərinin maksimum uzlaşdırılmasına imkan verir [2; 8].

İdarəetmə uçotunda səlahiyyətlərin ötürülməsi mühümdür. Bu, əsas prinsipdir, əks halda uçotun lazımi səviyyədə fəaliyyəti mümkün deyildir. İdarəetmə uçotu bölməsinin mühüm vəzifələri ierarxiya üzrə elə ötürülməlidir ki, hər bir menecer onun təcrübəsi, kompetentliyi və motivasiyası nəzərə alınmaqla ümumi vəzifənin yalnız müəyyən hissəsinin yerinə yetirilməsinə görə öz məsuliyyət payını verə bilsin. Baş mühasib-menecer bütün idarəedənlər qarşısında qoyulan bütün vəzifələrin uzlaşdırılmasını və qarşılıqlı əlaqəsini təmin etməlidir. Digər tərəfdən, müəyyən qərara görə məsuliyyət daşıyan menecer onu həyata keçirmək üçün müvafiq səlahiyyətlərə malik olmalıdır.

Vurğulamaq lazımdır ki, hər kəs öz vəzifələrinin həllinin zəruriliyini dəqiq anlamalıdır, çünki, idarəetmə uçotu sisteminin və bütövlükdə müəssisənin uğurlu fəaliyyəti ilə bağlı sualın cavablan-

dırılması məhz bundan çox asılıdır. Mühasib-menecerin statusunun, idarəetmə uçotunun müəssisənin rəhbərliyində rolu və yerinin artması menecer tərəfindən yüksək səviyyədə qoyulmuş vəzifənin həllinin keyfiyyətindən, onun inkişaf prioritetlərinin düzgün formulə etməsi qabiliyyətindən asılıdır. İxtisaslı kadr çatışmazlığı probleminin həlli təhsil ocaqlarında onların keyfiyyətli hazırlanması ilə bağlıdır. Bu problem yalnız uçotdan deyil, eləcə də menecment, iqtisadi təhlil, audit, maliyyə, informasiya texnologiyaları üzrə biliklərə malik olan mütəxəssislərin hazırlanması ilə həll edilə bilər.

Sözsüz ki, müəssisənin qarşılaşacağı bütün problemlərin həlli üçün hazır qərar möbcud deyil. Real iqtisadi problemlər mürəkkəb xarakter daşıyır, bir qada olaraq, onların həlli üçün vaxt və giriş informasiya kifayət deyildir. Bununla əlaqədar olaraq müxtəlif yanaşmaları kombinə etmək, qeyri müəyyənlik şəraitində yaradıcı qərar axtarışı üçün bütün toplanmış bilik baqajından istifadə etmək lazımdır.

İdarəetmə uçotu sisteminin mühüm bloku kimi xərclərin uçotunda boşluqlarla bağlı aşağıdakıları qeyd etmək olar:

- istehsala xərclər və məhsulun maya dəyərinin kalkulyasiyası mühasibat uçotunun tərkib hissəsi kimi nəzərdən keçirilir;
- istehsal uçotu məlumatları fəaliyyətin keyfiyyət tərəfini əks etdirmədən xərclərin yalnız kəmiyyət xarakteristikasını əks etdirir;
- xərclərin mövcud təsnifatı gələcəkdə xərclərin azaldılmasına və istehsalın səmərəliliyinin yüksəldilməsinə imkan verən informasiyanın kommunikasiya şəbəkəsini tam təmin etmir;
- xərclərin uçotunun mövcud metodologiyası uçotda sadələşməyə xas olduğundan bazar şəraitində özünü doğrultmur. Onlar maya dəyəri göstəriciləri haqqında informasiyanın dürüstlüyü, obyektivliyini azaldır, xərc daşıyıcıları və yaranma mənbələri üzrə xərclərə nəzarəti təmin etmir;
- xərclərin uçotda əks etdirilməsi praktikası istehsal bölmələrinin işinin nəticələri haqqında düzgün məlumatlar əldə etməyə imkan vermir ki, bu da onların fəaliyyəti üzərində nəzarəti çətinləşdirir.

Həmin problemin həlli dolayı xərclərin bölüşdürülməsi üzrə və maya dəyərinin proqnoz hesablamaları üçün dəqiq faktiki maya dəyərinin müəyyən edilməsi, əsaslandırılmış plan kalkulyasiyasının tərtib edilməsi, istehsal prosesində onların gözlənilməsi üzərində nəzarətin təşkili, xərclərin yaranma mənbələri üzrə təhlili ilə əlaqədar kalkulyasiya işlərinə yönəldilməsini tələb edir. Qeyd etmək lazımdır ki, xərclərin təsnifləşdirilməsi xərclərin uçotu metodologiyasında aparıcı rola malikdir və onun yaxşılaşdırılmasına ehtiyac duyulur. Əsas çatışmazlıq xərclər üzərində cari nəzarətə diqqətin zəiflədiyi zaman məhsulun maya dəyərinin düzgün hesablanmasına fokuslanmasıdır. Xərclərin təsnifləşdirilməsinin təyinatı informasiyanın daxili istifadəçilərinin tələblərinin ödənilməsidir.

Əksər müəlliflər [5; 7; 8] öz tədqiqatlarında xərclərin uçotu problemlərinə xüsusi diqqət vermişlər. Onlar qeyd edirlər ki,istehsala xərclərin uçotu mühasibat uçotunun inteqrasiya olunmuş və ya avtonom sistemindən istifadə olunmaqla təşkil edilə bilər.

Təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinin mühasibat uçotunun hesablar Planının tətbiqi üzrə təlimatda xərclərin maddələr, yaranma yeri və digər əlamətlərə görə qruplaşdırılması, eləcə də məhsulun maya dəyərini hesablamaq üçün 2-ci bölmədə 201-203 saylı, elementlər üzrə xərclərin uçotu üçün 701 “Satışın maya dəyəri” hesabı nəzərdə tutulmuşdur. Uçot texnologiyasının birinci variantı istehsala xərcləri əks etdirən idarəetmə və maliyyə uçotu hesablarının kalkulyasiya hesablarının idarəetmə uçotu sistemində ayrıca göstərilmədən mühasibat uçotunun vahid siste-mində əks etdirilməsini nəzərə tutur. Bu zaman idarəetmə mühasibatlığı hesablarının gəlir və xərclərin uçotunu aparan maliyyə uçotunun nəzarət hesabları ilə birbaşa müxabirləşməsi təmin edilir.

İdarəetmə uçotunun avtonom sistemi maliyyə və idarəetmə uçotunun ayrıca aparılmasını nəzərdə tutur. Əlbəttə, bu, işlərin əməktutumunun artmasına, informasiyaların təkrar olunmasına səbəb olur. Qeyd olunanlarla yanaşı, fikrimizcə, avtonom variantı idarəetmə uçotunun detallı və ayrıca aparılması zəruri olan iri və orta müəssisələrdə tətbiq oluna bilər.

Maliyyə uçotunda təşkilatın xərcləri elementlər kəsiyində qruplaşdırılır. Deyilənlərə rəğmən, əgər maliyyə uçotu sistemində material xərclərinin məbləği haqqında məlumat almaq mümkündürsə, idarəetmə uçotu həmin informasiyanın detallaşdırılmasını təmin edir: əsas istehsalda sərf olunan, ümumistehsal və ümumtəsərrüfat ehtiyacına sərf olunanla, anbarda qalıq. Beləliklə, idarəetmə uçotunda informasiyanın detallaşdırılması aparılır ki, bunun nəticəsində struktur vahidləri və digər əlamətlər üzrə kalkulyasiya kəsiyində xərclər haqqında ümumiləşdirilmiş və ətraflı informasiya təqdim olunur. Eyni zamanda idarəetmə və maliyyə uçotu hesablarının ayrılması müxtəlif idarəetmə strukturlarının informasiya təminatını yaxşılaşdırmaqla yanaşı istehsal xərcləri və ayrı-ayrı növ məhsulların gəlirliyi haqqında informasiyaların məxfiliyinin saxlanmasına şərait yaradır.

Bütövlükdə, uçotun bu və ya digər sisteminin məqsədəuyğunluğunun müəyyən edilməsi zamanı müəssisənin təşkilati strukturu, onun fəaliyyət növü, istehsalın xüsusiyyətləri, təsərrüfat əməliyyatlarının həcmi və digər amillər, eyni zamanda, rəhbərliyin bu və ya digər idarəetmə informasiyasına tələbatı, idarəetmə və maliyyə uçotu metodologiyalarının fərqlənmə dərəcəsi idarəetmə uçotu prinsiplərinin həmişə nəzərə alınmasına imkan vermir. Bu prinsiplər xərc növləri və kalkulyasiya maddələri üzrə təsnifləşdirilməsinə istiqamətlənmişdir. Burada xərclər istehsal uçotunda avtonom mahiyyət kəsb edən faktor kimi nəzərdən keçirilir. Bu vəziyyət prinsipal əhəmiyyət kəsb edir, çünki, iqtisadi elementlər üzrə xərclərin təsnifləşdirilməsi dəqiq reqlamentləşdirilmişdirsə, xərclərin kalkulyasiya maddələri üzrə bölgüsü köməkçi xarakter daşıyır. Bununla yanaşı, iqtisadi səmərəlilik, idarəetmə uçotunun bu və ya digər formada təşkili zamanı müəssisənin əldə edəcəyi fayda uçot sisteminin yaradılması haqqında qərar qəbul edilməsinin mühüm amili kimi çıxış edir. İqtisadi səmərə baxımından uçot variantı o halda məqbul hesab olunur ki, o,qəbul edilən idarəetmə qərarlarının keyfiyyətini və nəticə etibarı ilə xərcləri üstələyən gəlirlərin əldə edilməsini təmin edir.

Hər bir məhsul növünə düşən resursların dəqiq hesablanması mənfəətin (zərərin) daxili mənbələrini aşkar etməyə imkan verir. Müasir dövrdə kalkulyasiyalaşdırmanın mühüm vəzifəsi rəhbərlik tərəfindən maya dəyərinin idarə olunmasının mümkünlüyü ilə əlaqədar qərarın qəbul edilməsinə imkan verən maya dəyəri haqqında məlumatların formalaşdırılmasıdır. Bu da, müxtəlif kalkulyasiya formalarının, o cümlədən, “direct-kosting” sisteminin müxtəlif variantlarından istifadənin zəruriliyini ön plana çəkmişdir [2; 3; 6; 7]. Qeyd etmək yerinə düşər ki, hazırda bu sistem müxtəlif variantlarda tətbiq edilə bilər, onun əsasını hesablama məlumatlarında yalnız vahid blokda nəzərə alınan əməliyyat xərclərindən istifadə təşkil edir. Onun tətbiqi, bir tərəfdən, bütün istehsal, üstəlik xərclərin ixtiyari və əməktutumlu bölgüsündən azad olmağa imkan verir, digər tərəfdən, hazır məhsul qalığının dəyərini nəzərəçarpacaq dərəcədə azaldır və xərclər və buraxılışın həcmi arasında qarşılıqlı əlaqənin təhlili üçün məlumatların təqdim edilməsini təmin etmir. Belə çatışmazlıqlar onlardan geniş istifadı olunması üçün şərait yaratmır.

Bu sistemin inkişaf etmiş variantında sabit xərclər məhsul növləri üzrə deyil, əlavə xərclərin yaranma mənbələri üzrə qruplaşdırılır. Bu variant klassik direkt-kostinqin üstünlüklərini saxlayır. İstehsal güclərinin yüklənməsindən asılı olaraq xərclərin uçotu sistemi də mövcuddur. Belə bir sistemi də mövcuddur ki, bu zaman kalkulyasiyaya bütün dəyişən xərclər və sabit xərclərin istehsal güclərindən istifadə əmsallarına müvafiq müəyyən edilmiş hissəsi daxil edilir. Bütün kalkulyasiya sistemlərində mənfəətin həcminin müəyyən edilməsinə əsas yanaşmalar üst-üstə düşür, belə ki, onlar müvafiqlik prinsipinə əsaslanır: xərclər gəlirlərin əldə olunması dövrünə aid edilir (gəlir həmin xərclər hesabına mümkün olmuşdur). Sözügedən sistem amerikan müəssisələrinin təqribən yarısında, Almaniyada (müəssisələrin 54%-də), xüsusən yeyinti sənayesində (71,4%) geniş tətbiq olunur [4; 7].

*2. Qəbul edilmiş qərarların idarəetmə təhlili vasitəsi ilə xarakterizə olunan analitik təminatında çatışmazlıqlar:*

- uçotun analitik funksiyasının mühümlüyü nəzərə alınmır;
- müəssisədə mövcud uçot və təhlil sistemi məhsul buraxılışının zərərsizlik səviyyəsini müəyyən etməyə imkan vermir;

- kənarlaşmanın təhlilinə kifayət qədər diqqət yetirilmir.

Uçot və təhlil bir-birindən ayrılmazdır, belə ki, ikinci vəzifələrin həlli zamanı idarəetmənin informasiya təminatında birincinin məntiqi davamıdır. Bununla yanaşı, uçotu yalnız hesabatın hazırlanması və təqdim olunması vasitəsi kimi qəyərləndirən əksər şirkətlərdə maliyyə nəticələrinin təhlilinə lazımi əhəmiyyət verilmir. Halbuki, peşəkar analitik işlər aparmadan idarəetmənin səmərəli informasiya sistemini qurmaq mümkün deyildir. İdarəetmə uçotu istehsal fəaliyyətini qiymətləndirmək üçün zəruri olan analitik göstəricilər qrupu ilə (təhlükəsizlik zonası, zərərsizlik nöqtəsi, marjinal mənfəət və s.) təmin etməlidir.

Xüsusi qeyd olunmalıdır ki, əgər idarəetmə uçotu informasiyanı xərclərin yaranma yerlərinə və məsuliyyət mərkəzləri üzrə formalaşdırırsa analitik işlərin nəticələri daha yüksək səmərə verir. Bununla əlaqədar olaraq, təsərrüfat subyektinin idarə olunmasının müxtəlif səviyyələrində qərar qəbul edən menecerlərin işlərinin nəticələri haqqında informasiyanın detallaşdırılması və tamlığı mühüm əhəmiyyət kəsb edir. Vurğulamaq yerinə düşər ki, bəzi mütəxəssislər idarəetmə uçotunu analitik mühasibatlıq adlandırırlar, çünku, 70-80% analitik prosedurlardan ibarətdir və özündə yalnız uçot və təhlili deyil, eləcə də planlaşdırmanı, büdcələşməni, operativ idarəetməni və tənzimləməni, təsərrüfatdaxili istehsal və maliyyə nəzarətini və təsərrüfat fəaliyyətinin qiymətləndirilməsini ehtiva edir [1; 2; 9]. İdarəetmə uçotu çərçivəsində təhlilin xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar:

- daxili istifadəçilərə istiqamətlənmə;
- təşkilatın fəaliyyətinin bütün tərəflərinin kompleks öyrənilməsi;
- təşkilatda uçotun, təhlilin, planlaşdırmanın və qərarın qəbul edilməsinin inteqrasiyası;
- kənar reqlamentləşmənin olmaması;
- bütün mümkün informasiyadan istifadə;
- analitik prosedurların biznes-fəaliyyətin qiymətləndirilməsinə istiqamətləndirilməsi; aşkar edilən istifadə olunmamış imkanlar əsasında idarəetmə qərarının əsaslandırılması;
- məxfilik xarakteri;
- təhlilin nəticələrinin perspektivə istiqamətləndirilməsi;
- sahə istiqaməti.

Fikrimizcə, analitik funksiya idarəetmə uçotunun mühüm funksiyalarından, onun struktur elementlərindən biridir, çünki, uçot müəssisənin daxili resurslarının və imkanlarının müəyyən edilməsinə, biznesin cari vəziyyətinin qiymətləndirilməsinə, strateji problemlərin aşkar olunmasına istiqamətlənmişdir. Əgər idarəetmə uçotu idarəetmə obyektinin vəziyyəti haqqında informasiyanı formalaşdırırsa, təhlil onun əsasında bu və ya digər proseslərin, göstəricilərin dəyişmə meylinin öyrənilməsinə, bu və ya digər kənarlaşmaya səsəb olmuş amilləri aşkar etməyə, müxtəlif aspektlərin təsir dərəcəsinin qiymətləndirilməsinə, fəaliyyətin səmərəliliyinin yüksəldilməsinə imkan verəcək ehtiyatların aşkar edilməsinə istiqamətlənmişdir. Beləliklə, idarəetmə uçotuna tələbat dəqiq formulə edilmiş müəssisələrdə idarəetmə təhlilinin tətbiqi mümkündür.

Müasir şəraitdə xərclər haqqında informasiyaların köməkliyi ilə müəssisənin və onun struktur bölmələrinin fəaliyyət istiqamətləri haqqında müxtəlif iqtisadi qərarların qəbul olunması üçün imkanlar genişlənir və dərinləşir. Belə ki, bu, əmtəə siyasəti, qiymət siyasəti, investisiya-innovasiya siyasəti sahəsində özünü daha qabarıq göstərir.

Xərclərin dəyişən və sabit xərclərə bölünməsinə, xərclərin və mənfəətin idarə olunması sahəsində qeyri-ənənəvi məsələlərin həllində aparıcı göstərici qismində çıxış edən marjinal mənfəətin müəyyən edilməsinə əsaslanan marjinal təhlil mühüm yer tutmalıdır. Bu sahədə qərarların qəbul edilməsi zamanı aşağıdakılara aksent edilməlidir:

- daimi və dəyişən xərclərin”davranışının” öyrənilməsi;
- CVP təhlilin (cost-volume-profit analysis) aparılması;
- marjinal təhlil əsasında məhsulun rentabelliyinin qiymətləndirilməsi;
- marjinal gəlirin dəyişməsinə amillərin təsirinin kəmiyyətcə qiymətləndirilməsi;
- müəssisənin və onun struktur bölmələrinin işinin səmərəliliyinin yüksəldilməsi amillərinin

və ehtiyatlarının müəyyən edilməsi.

Kənarlaşmaların (göstəricinin büdcə və faktiki kəmiyyətinin müqayisəsi) təhlili şirkətin idarə olunması sisteminin səmərəli vasitəsi hesab olunur. Ondan operativ idarəetmə üçün istehsal-maliyyə fəaliyyətinin təhlilində, idarəetmə qərarının hazırlanması, əsaslandırılması və qəbul edilməsində istifadə olunmalıdır. Belə təhlilin səmərəliliyini yüksəltmək üçün özündə forma və məzmun üzrə müxtəlif riyazi-statistik metodları birləşdirən vahid metodikadan geniş istifadə olunur. Kompleks yanaşmanı həyata keçirmək üçün kənarlaşmalar arasında qarşılıqlı əlaqəni aşkar etmək lazımdır. Məsələn, gəlirlərin həcmində ciddi kənarlaşma aşkar olunarsa mütəxəssislər operativ qaydada satılan hər növ məhsulun qiyməti, satışın həcmi, təqdim olunan güzəştlər üzrə plan və faktiki məlumatları nəzərdən keçirməlidir. Amilli təhlilin aparılması metodikası aşağıdakıları əhatə edir:

- nəticə göstəricisi üzrə ümumi kənarlaşmalar müəyyən edilir;
- nəticə göstəricisi üzrə kənarlaşmalara təsir göstərən bütün amillər müəyyən olunur;
- təhlil üçün model formalaşdırılır;
- hər bir amilin nəticə göstəricisi üzrə kənarlaşmalara təsiri müəyyən edilir;
- əhəmiyyətlilik dərəcəsinə görə fərdi amillərin təsiri ranjirovka edilir;
- nəticə formalaşdırılır və müvafiq təkliflər hazırlanır.

*3. İdarəetmə uçotunun mühüm elementi kimi büdcələşmədə çatışmazlıqlar:*

- əksər hallarda müəssisələr planlaşdırmada əldə olunan nəticələrdən istifadə edirlər. Əgər əvvəllər bu prinsip ötən illə müqayisədə hesabat ilində məhsulun həcminin artımı kimi realizə olunurdusa, indi məhsulun satıla biləcəyi nəzərə alınmadan mövcud gücün daha çox yüklənməsində özünü göstərir. Müasir şəraitdə planlaşdırma zamanı satılmış məhsul vahidinə kalkulyasiya hesablamaları aparılmalı, eləcə də marjinal təhlilin aparıcı göstəriciləri nəzərə alınmalıdır. Qiymətqoyma siyasətində bazarın reallıqları nəzərə alınmalı, gəlir və xərclərin hədləri hesablanmalıdır;
- əksər müəssisələrdə “sürüşkən” büdcədən istifadə olunmur, halbuki, büdcələşmədə ən dəyərli hesab olunur. Sürüşkən büdcənin tətbiqi həm daxili, həmçinin də kənar amillərin uçotunun mümkünlüyünü təmin edir. Bu o deməkdir ki, büdcələr dəyişən şərait nəzərə alınmaqla korrektə edilə bilər, bununla da mülahizələrə görə deyil, real və düzəldilmiş proqnozlar hesabına canlı mənzərə formalaşdırılır;
- müəssisələrdə praktiki olaraq düzəliş etmək və büdcənin icrası üzərində nəzarət funksiyası həyata keçirilmirdi. Paradoksal situasiya yaranır: büdcələr bu və ya digər qərarın qəbul edilməsi anında lazımdır. Bu edildikdən sonra hesablamalar heç kimi maraqlandırmır. Deməli, müəssisələrdə resursların, xərc və öhdəliklərin təhlilini və qiymətləndirilməsini nəzərdə tutan büdcənin icrasına nəzarət həyata keçirilməlidir.

Müəssisələrdə büdcələşmə sisteminin düzgün təşkil olunması büdcələşmə haqqında qaydanın hazırlanmasını nəzərdə tutur və bura aşağıdakılar daxildir:

- büdcələşmənin ümumi qaydalarını əks etdirən qaydalar;
- büdcələşmənin texnologiyasını səciyyələndirən reqlamentlər; planlaşdırma dövrünün, büdcənin mümkün korrektə olunması vaxtının müəyyən olunması, büdcənin tərtib olunması üzrə sənəd dövriyyəsi sxemləri, sənəd dövriyyəsi qrafiki, sənədlərin miqdarı və təqdimetmə müddətləri, büdcələrin formaları;
- büdcələşmənin texnologoyası üzrə metodikalar.

*4. Daxili idarəetmə hesabatının formalaşdırılmasında çatışmazlıqlar:*

- məlumatların, raportların, arayışların və hesabatların mövcud sistemi fraqment xarakteri daşıyır və informasiyalara müasir tələblərə (məlumatların tamlığı, operativliyi, dəqiqliyi, məqsədəuyğunluğu) cavab vermir;
- hesabatda, bir tərəfdən, məlumatların həddən artıq olması, digər tərəfdən, relevant informasiyaların çatışmazlığı onun ümumiləşdirilməsini və fəaliyyətin konkret istiqamətləri və sahələri üzrə qərar qəbul olunmasını çətinləşdirir;
- idarəetmənin müxtəlif səviyyələri üçün hesabat formalarının ierarxiyası yoxdur.

Daxili hesabat təhlilin nəticəsi deyil, idarəetmə təhlili üçün ilkin materialdır və onun əsasında menecer tərəfindən təhlilin aparılması və geniş idarəetmə qərarlarının əsaslandırılmasına imkan yaratmalıdır. Ölkənin müəssisələrinin təcrübəsində idarəetmə hesabatının formalaşmasının üçsəviyyəli sistemi tətbiq olunur: icmal məlumatlar – konkret tarixə bölmənin fəaliyyətinin ayrı-ayrı göstəriciləri haqqında qısa məlumatlar; yekun hesabatlar – burada həmin məsuliyyət mərkəzinin nəzarət olunan göstəriciləri haqqında informasiya ümumiləşdirilir; ümumi hesabatlar – onlarda müəyyən dövrdə bütövlükdə müəəssisə və eləcə də onun bölmələrinin fəaliyyətinin nəticələri haqqında informasiya əks etdirilir.

## *Nəticə*

Fikrimizcə, idarəetmə uçotunun müasir anlayışı bir tərəfdən idarəetmə sisteminin resurslar, struktur bölmələr, daxili biznes-proseslər, təsərrüfat fəaliyyətinin bir və ya bir neçə tərəfinin kəmiyyət və keyfiyyət xarakteristikasının müxtəlif göstəricilərini səciyyələndirən idarəetmə obyektlərinin məcmusu kimi nəzərdən keçirilməlidir. Digər tərəfdən,idarəetmə sistemi qeyd olunan idarəetmə obyektlərinə münasibətdə həyata keçirilən təsir hərəkətlərinin (uçot, nəzarət, təhlil, planlaşdırma və s.) məcmusudur. Bu, hər hansı idarəetmə obyektinə münasibətdə müəyyən idarəetmə hərəkətinin həyata keçirilməsini müşahidə etməyə imkan verir.

Qeyd etmək lazımdır ki, idarəetmə funksiyalarının və idarəetmə obyektlərinin standart dəstləri yoxdur. Hər bir istifadəçi ona lazım olan idarəetmənin funksiya və obyektlərinin siyahısını yarada bilər. İdarəetmənin tərtib edilmiş funksiyaları və obyektləri siyahısı tamlığa iddialı deyil, o, idarəetmə uçotunun predmet mahiyyətini başa düşmək üçün mümkün variantlardan biri kimi nəzərdən keçirilməlidir. Aparılan tədqiqat və qiymətləndirmələr göstərir ki, idarəetmə uçotunun təkmilləşdirilməsi bir neçə istiqamətdə aparılmalıdır. Belə ki, idarəetmə uçotunun təşkilində, idarəetmə funksiyalarının həyata keçirilməsi mexanizmlərində, idarəetmə uçotu sisteminin mühüm bloku kimi xərclərin uçotunda, kalkulyasiyalaşdırmada, analitik təminatda, büdcələşdirmədə, eləcə də daxili idarəetmə hesabatının formalaşdırılmasında qeyd olunan çatışmazlıqlar aradan qaldırılmalıdır. Beləliklə, idarəetmə uçotunun təkmilləşdirilməsi istiqamətində yeni idarəetmə uçotu metodlarından istifadə olunması məqsədəuyğundur ki, fikrimizcə, belə metodlara fəaliyyət növləri üzrə xərclərin uçotunu, iqtisadi əlavə dəyər modelini, eləcə də, balanslaşdırılmış göstəricilər sistemindən istifadəni aid etmək olar.

## ƏDƏBİYYAT


1. Abbasov Q.Ə. Mühasibat uçotu, - Bakı. Apostroff. 2019. - 528 səh.
2. Səbzəliyev S.M., Quliyev V.M. İdarəetmə uçotu. Dərslik. – Bakı, Elm və təhsil. 2014. –524 s.
3. Бухгалтерский учет в зарубежных странах: учебник / Соколов Я.В., Бутынец Ф.Ф., Горецкая Л.Л., Панков Д.А./ – М.: 2005. - 672 с.
4. Друри К. Управленческий учет для бизнес-решений: учебник /пер.с англ. - М.: ЮНИТИ-ДАНА. 2003. – 655 с.
5. Ивашкевич В.Б. Бухгалтерский управленческий учет: Учебник / В.Б. Ивашкевич. - М.: Магистр, 2016. - 352 с.
6. Карпова Т.П. "Управленческий учет: учебник для вузов / Карпова Т.П.- М.: ЮНИТИ-ДАНА. 2017.- 351 с.
7. Николаева С.А. Особенности учета затрат в усдовиях рынка: система «директ-костинг»: теория и практика. - М.: Финансы и статистика. 1998. – 147 с.
8. Палий В.Ф. Управленческий учет издержек и доходов (с элементами финансового учета). – М.: ИНФРА-М. 2006.-279 с.
9. Шеремет А.Д., Николаева О.Е. Управленческий учет: Учебник/ Шеремет А.Д., Николаева О.Е. – 4-е изд., перераб. И доп.-М.:ИНФРА – М. 2009.-429 с.

*Гюнай Джахангир кызы Асадова*
*докторант Азербайджанского*
*Государственного Университета*

## Проблемы организации управленческого учета и пути их решений

**Цель исследования.** Исследование и обобщение теоретических правил управленческого учета, основных направлений его развития в соответствии с современными требованиями менеджмента.

**Методолгия исследований.** Теоретической и методологической базой исследования выступают теоретические и научно-методические положения, рассмотренные в работах отечественных и зарубежных авторов по теории управленческого учета, управленческого анализа и других смежных экономических наук, материалах научных конференций. В процессе исследования использовались как общие (диалектика, анализ, синтез, индукция, дедукция, сходство и др.), так и специальные методы систематизации научной информации (исследование, сравнение, обобщение теоретических и практических материалов, комплексный анализ и системный подход). исследуя тему.

